# AZƏRBAYCAN

**5'2021**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**



| | |
|---|---|
| **Baş redaktor:** | **İntiqam QASIMZADƏ** |
| **Baş redaktor müavini:** | **Südabə AĞABALAYEVA** |
| **Məsul katib:** | **Vüsal NURU** |

***REDAKSİYA HEYƏTİ:*** **Ağasəfa, Elçin, Musa Yaqub, Vilayət Quliyev, Firuzə Məmmədli, Məmməd Oruc, Əli Əmirli, Vaqif Bəhmənli, Vahid Əziz, Seyran Səxavət, Saday Budaqlı, Yaşar, Afaq Məsud, Paşa Əlioğlu, Asim Yadigar, Rüstəm Kamal, Ənvər Əhməd, Kamil Əfsəroğlu, Əjdər Ol, Vaqif Yusifli, Fəxri Uğurlu**



**Redaksiyanın ünvanı:**
Bakı - Az1000
Xaqani küçəsi, 25

**Telefonlar:**
*Redaksiya* –
498-78-10
493-28-32
493-2834
*Mühasibat* –
493-29-41

**Çapa imzalanıb:**
07.05.2021
**Sifariş 739**
Tiraj 500
**Kağız formatı**
70x108 1/16 - 6,5
kağız vərəqi
13 çap vərəqi
18,2 şərti çap vərəqi

**E-mail:**
intigam.gasimzade@gmail.com
sudabe334@mail.ru

**Qiyməti**
**1 manat 50 qəpik**

**Bakı şəhəri,**
**"Azərbaycan"**
**nəşriyyatının mətbəəsində**
**ofset üsulu ilə çap olunur**


**Dərc olunmuş yazılar qəbul edilmir.**
**Əlyazmalara rəy verilmir və qaytarılmır.**
**Müəllifin fikirləri redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.**

## BU SAYIMIZDA:

### SABİR RÜSTƏMXANLININ 75 YAŞI

İNTİQAM QASIMZADƏ – Bir ömürdə neçə ömür... ....................................3
SABİR RÜSTƏMXANLI – Yaddaş işartıları .................................................. 5

### POEZİYA

FİRUZƏ MƏMMƏDLİ – Şeirlər ................................................................ 46
KƏMALƏDDİN QƏDİM – Şeirlər ............................................................ 118
İSMAYIL MƏRCANLI İMANZADƏ – Şeirlər ......................................... 131
XATİRƏ FƏRƏCLİ – Şeirlər .................................................................... 156
İBRAHİM YUSİFOĞLU – Şeirlər ............................................................ 180
ZEYNALABDİN NOVRUZOĞLU – Şeirlər ............................................ 184
FATEH SƏFƏROV – Şeirlər (debüt)......................................................... 186

### NƏSR

MÜBARİZ CƏFƏRLİ – Ərəfə (roman) ....................................................... 57
XANIM AYDIN – Rəngbərəng kəpənəklər (hekayə) ................................. 125
XƏYAL RZA – Kötük baba (novella),
Meşəbəyinin canavar qonaqlığı (hekayə) ........................ 147

### NİZAMİ GƏNCƏVİ – 880

Nizami söhbətləri – (Fərid Hüseynin həmsöhbəti Səadət Şıxıyevadır) ....... 136

### ƏDƏBİ İRSİMİZDƏN

QƏZƏNFƏR PAŞAYEV – Aşıq poeziyası yazılı ədəbiyyat kontekstində ..... 163

### ƏDƏBİ TALELƏR

GÜNEL NATİQ – Sergey Yesenin və Aysedora Dunkan ........................... 189

### TÜRK DÜNYAMIZ

NİZAMİ TAĞISOY – Abay yaradıcılığında şəxsiyyət .............................. 196

### MƏNBƏLƏR, ƏNƏNƏLƏR

ETİBAR KƏRİMLİ – Antik ensiklopediya ənənəsi .................................. 200

### ƏDƏBİ FRAQMENTLƏR

VAQİF YUSİFLİ – Adi həyat qəhrəmanları ............................................... 204

### KİTAB RƏFİ ..............................207

## ♦ Sabir Rüstəmxanlının 75 yaşı



# Bir ömürdə neçə ömür...

Görkəmli Azərbaycan şairi Sabir Rüstəmxanlının bu il may ayının 20-də 75 yaşı tamam olur. Biz onunla lap çoxdan tanış, dost olsaq da, təqvimdə onun adının qarşısında 75 rəqəmini görəndə ilk anda, düzü, gözlərimə inanmadım. Çünki, tam səmimi deyirəm, Sabirin nə zahiri görkəminə, nə də ədəbi, ictimai-siyasi fəaliyyətinin miqyasına görə ona bu yaşı vermək olmaz; o, bu gün də, 15-20 il bundan əvvəlki kimi, enerjilidir, fəaldır.

Sabir Rüstəmxanlı ilə mənim tanışlığımın tarixi 45 il bundan əvvələ, tam dəqiq desəm, 1967-ci ilə gedib çıxır. Onda Sabirin 21 yaşı vardı, hələ Azərbaycan Dövlət Universitetinin dördüncü kurs tələbəsi idi. Buna baxmayaraq, onu "Ədəbiyyat qəzeti"nə müxbir kimi işə götürmüşdülər. O zaman üçün bu, çox nadir hadisə idi; tələbə və respublikanın ən nüfuzlu qəzetlərindən birinin əməkdaşı...Qəzetin tanınmış işçiləri – onların arasında adlı-sanlı yazıçılar da vardı – az bir vaxtda bu gənci kollektivin tam hüquqlu bir üzvü kimi qəbul etdilər. Şübhəsiz ki, bu onun, ilk növbədə, istedadlı və istiqanlı olmasına görə idi. Sabirin ilk qələm təcrübələri xeyli əvvəllərə, yeniyetməlik illərinə gedib çıxsa da, bir peşəkar qələm adamı kimi o, "Ədəbiyyat qəzeti"ndə yetişdi və ölkənin ədəbi-ictimai mühitində tanınmağa başladı.

İllər ötüb-keçdikcə Sabirin yaradıcılıq maraqlarının dairəsi də aydın görünməyə başlayırdı; o, bir qəzet işçisi kimi müxtəlif mövzularda məqalələr yazır, müsahibələr götürürdü, amma onun qələminin gücü, istedadı, ilk növbədə, şeirlərində özünü göstərirdi. Belə ki, çox keçmədi Azərbaycan ədəbiyyatına fərdi

dəst-xətti olan bir şairin gəldiyini hamı qəbul etdi. Onun şeirləri mücərrədlikdən, hoqqabazlıqdan uzaq idi; insanları düşündürən, narahat edən mövzularda yazırdı. Əlbəttə, məhəbbət lirikasından da yan keçmirdi. Ən əsası, Sabir Rüstəmxanlının şeirləri min illik Azərbaycan poeziyasının və xalq şeirinin ənənələri üzərində köklənmişdi. O, özünə sadiqdir; bu gün də belədir.

Mən xalqını, sənətini sevməyən bir Azərbaycan şairi, yazıçısı tanımıram; təbii ki, söhbət əsl yazıçılardan, şairlərdən gedir. Sabir Rüstəmxanlı da bu qələm adamlarının ən ön sıralarında gedənlərdəndir. 80-ci illərdə Sabir "Azərbaycan" jurnalına bir əsər gətirdi; ilk oxucusu mən oldum. Onu çoxdan tanıdığıma, vətəndaş mövqeyinə bələd olduğuma baxmayaraq, mən Sabir Rüstəmxanlını bütün varlığı ilə tam mənada onda gördüm. Əsər bizim milli varlığımızın aynasıydı. Çox cəsarətli yazı idi. Çap etdik. Söhbət "Ömür kitabı"ndan gedir. Üstündən 35 il keçəndən sonra bu gün mən tam inamla deyə bilərəm ki, bu kitabın xalqımızın özünü dərkində, milli hisslərinin oyanmasında böyük rolu oldu. Yazıçının özünə gəlincə isə – "Ömür kitabı" Sabir Rüstəmxanlının həyat proqramıdır. Sonrakı illər, 1988-ci ildən başlayan milli-azadlıq hərəkatı bu fikrimin təsdiqidir.

**Bir haşiyə çıxım:** Bizim nəslin payına xalqımızın taleyi ilə bağlı böyük sınaqlar düşdü. Kimin kim olması hamıya bəlli oldu. Kimsə düşünməsin ki, illər ötür, hər şey unudulur. Xeyr; hər şey tarixin yaddaşına yazılıb. Yazıçı-vətəndaş Sabir Rüstəmxanlı obrazı bu yaddaşın ən qabarıq, ən parlaq simalarından biridir.

Dediyim kimi, 1988-ci ildə Bakıda Meydan hərəkatı başlayanda ilk günlərdə "Ömür kitabı"nın müəllifi Sabir Rüstəmxanlını Azadlıq meydanının tribunasında görəndə mən qəti təəccüb etmədim. Çünki belə bir kitabı yazan insan əlini qoynuna qoyub evdə otura bilməzdi. O, Meydanda olmalıydı və Meydanda idi.

Sabir Rüstəmxanlı bu gün də meydandadır: artıq başqa bir səviyyədə – ölkəmizin Milli Məclisində. Vətəndaş Həmrəyliyi Partiyasının yaradıcısı və sədri kimi onun bu ali məclisdə olmasının, söz deməsinin böyük əhəmiyyəti var. Bu gün ölkəmizdə vətəndaş həmrəyliyi olmasaydı, erməni faşistləri tərəfindən işğal edilmiş torpaqlarımız azad oluna bilərdimi?! Məncə – yox! Deməli, xalqı vətəndaş həmrəyliyinə çağıran insanlara – o cümlədən, Sabir Rüstəmxanlıya bu gün də ehtiyac var.

Sabirin yaradıcılıq bioqrafiyası kifayət qədər zəngindir: şeirləri, poemaları, romanları, biri-birindən gözəl publisist əsərləri hamıya bəllidir; oxucular tərəfindən həmişə böyük maraqla qarşılanır. Onun bədii yaradıcılığı haqqında çox yazılıb (deməzdim ki, həmişə arzu olunan səviyyədə), amma yazılıb və yenə də yazılacaq. Buna əsla şübhə etmirəm.

Sabir Rüstəmxanlı isə durmur, dayanmır. Tam fəaldır; yazır, yaradır. Mən ona bir köhnə dost kimi, bir oxucusu və icazə verirsə, bir redaktoru kimi uzun ömür (nəslində bu var), can sağlığı, bir də yaradıcılıq sevincləri arzu edirəm.

75 yaşın mübarək, Sabir!

**P.S. Əslində, Sabirin yaşı 75 deyil, çoxdur: 200, 250-dir. O bir ömürdə bir neçə ömür yaşayıb. Davamını arzulayıram.**

***İntiqam QASIMZADƏ***

***Sabir RÜSTƏMXANLI***

# YADDAŞ İŞARTILARI



## *Xatirə kitabından yarpaqlar*

Xatirələrimin oxucular üçün maraqlı olub-olmayacağını bilmirəm. Bəzən başqalarının verəcəyi qiyməti düşünmədən, ürəyini boşaltmaq istəyirsən. Bu, öz-özünə nəğmə oxumağa bənzəyir.

Xatirələrimi yazmaq haqqında düşünməmiş, buna vaxt tapmamışam. Şahidi olduğun olaylar, görüşüb dinlədiyim dəyərli adamların maraqlı söhbətləri unudulur, illər qarışır, rənglər sozalır... Qaçırılan fürsətlərə acıyırsan.

Nə etmək olar? Ömrümüzün gur axarı gündəlik hadisələri yazmağa və ya keçmişi düşünməyə imkan verməyib; şəxsi həyatımız xalqın ümumi qayğılarının içində əriyib gedib.

Düzünə qalanda, indiyədək yazdıqlarımın hamısı mənim xatirələrimdir; ən qədim tariximizdən – Tanrıçılıq dövründən başlamış müstəqillik uğrunda mübarizələrədək – xalqımızın yaşadıqları mənim tərcümeyi-halımdır və mən ömrüm boyu millətin tarixinə şəxsi taleyim və öz yolum kimi baxmışam. Xalqın keçdiyi yol hər birimizin yoludur; onun neçə min illik yaşantılarını biz bir ömrə sığışdırırıq.

Şeir, hekayə, povest, roman, pyes, sayını bilmədiyim məqalə, söhbətlər, publisist yazılar... Bunların hər birində yaşadığım həyatdan nə isə var. Hətta tərcümə edəndə də dilimizə o müəlliflərin əsərlərini çevirmişəm ki, onların taleyi və tərcümeyi-halı mənə öz keçdiyim yolları xatırladıb. Yazıçı ömrü boyu özünü yazır; əsərlərində onlarla obraz varsa – hamısında özündən də nə isə var. Mənim bütün qəhrəmanlarım həm də özüməm! Təbii ki, ideallarımın daşıyıcısı olan qəhrəmanlarım!

Lakin yazılarımıza sığışdırılması mümkün olmayan zəngin bir təcrübə, acılı-şirinli olaylar var; xatirə bu təcrübəni paylaşmaq ehtiyacından doğur; daha subyektiv və daha pərdəsizdir; həm yazıçını, həm də onun yaşadığı illəri daha düzgün dərk etmək imkanı verir. Bununla belə, hər bir xatirə kitabı əhatə etdiyi dövrdə yaşamış çoxlu insanın ömrünə, taleyinə işıq tutur.

Bu kitab özümlə yanaşı, tanıdığım və ömrümdən keçən insanlar haqqındadır.

Tarixlərin, əşyaların, yerlərin, olayların, sözlərin xatirələri var. Mənim yaddaşımda qalanlar və daha uzunömürlü olanlar dağların və adamların xatirələridir. İndi, yayın axırına yaxın, İstanbulda Göysunun Boğaza baxan yamacında, qaldığım otagın açıq terrasında oturub bu sətirləri yazanda

Azərbaycanın o ucqar kasıb rayonunun dağları yamac-yamac, oba-oba, çeşmə-çeşmə, qaya-qaya gözümün önündə canlanır. Balaca dağ çaylarının və şəlalələrin səsini eşidir, üzü Savalana yaylaları bürüyən sarı, qırmızı, bənövşəyi çiçək ümmanının dalğalandığını görür, meşələrə xalı sərmiş maral yoncasının ətrini duyur, zirvələrə doğru dırmaşan, soyuğa dözümlü armud ağaclarında qar düşənə kimi qalan meyvələrin tamını hiss edir, Daşbulağın, Kasabulağın, Sarıbulağın, Qızma bulağının, Baldırğanlı bulağın, Soyuqbulağın, Göznarı bulağının, Çurçurun və neçə-neçə adsız bulağın diş göynədən sularının yanğımı söndürüb, ürəyimə rahatlıq gətirdiyini hiss edirəm.

Təkcə Azərbaycan dağları deyil, Tanrı dağlarından, Tyanşenlərdən, Altaylardan, Alataulardan Uludağlara qədər bütün türk dünyasının dağları gözümə, ürəyimə, duyğularıma beləcə həkk olunub. Bir də insanlar... Yol üstündə, ötəri bir baxışla, bir kəlmə sözlə, ya da uzun yoldaşlığı, dostluğu, bir sırada, bir yolda dayanmaları ilə yaddaşımıza köçmüş insanlar!.. Məni sevənlər də olub, sevməyənlər də; məni öyrədənlər də olub, məndən öyrənənlər də, məni ardınca aparmağa çalışanlar da olub, arxamca gələnlər də. Ölümlü, əzabkeş, ziddiyyətli, anlaşılmaz, amma gözəl insanlar...

Uzun bir ömrü günə-gün yazmaq olmaz; ehtiyac da yoxdur buna. Kim başqasının ömrünü onun təsvirində təkrar yaşamaq və oxumaq istər ki! Amma adamlarla tanışlıq həmişə maraqlıdır; sən özün də o adamlardan birisən.

Xəyalımda dünyanın ən zəngin muzeyləri ilə müqayisə oluna biləcək bir canlı qalereya var. Luvrda, Metropolda, Ermitajda qorunan sənət möcüzələrinin – intibah dövrü tablolarının çoxunda mif qəhrəmanları, xəyal övladları təsvir edilir; mənim xəyali tablolarım canlı insanlarla doludur.

**Haşiyə:** Bir gün qardaşlarımdan biri dedi: “Sən nə uzun yaşamısan, qardaş? Hansı rayona getsək, hansı məclisdə olsaq, hökmən bir neçə adam – “Böyük qardaşınızla filan yerdə tanış olmuş, filan yerdə oturmuşuq...” – deyəcək. Hesablayanda bir neçə ömür bəs eləmir.

Əslində buna təəccüblənirəm, həm də sevinirəm ki, Allah mənə bu qədər insanla ünsiyyətdə olmaq imkanı verib.

Ancaq, ilk növbədə, məndən öncə atalarıma-babalarıma məskən olmuş o balaca kəndi tanıdım sizə...

**Hamarkənd**

Dağ kəndləri böyük olmur; ortalama doxsan-yüz ev... Ancaq kəndlərimiz də bizlə birgə böyüdülər...

Yardımlı yaşayış məskənlərinin çoxu dağ yamaclarında yerləşir və bir xırman sahəsi və ya futbol meydançası qədər düz yerlərini tapmaq çətindir.

***Şimşəklər hər evə nur arxı çəkir,***
***Qayalar qoynuna qısılıb kəndlər.***
***Naxışı sirr saçan xurcunlar təki***
***Dağların çiynindən asılıb kəndlər...***

İnsanlar hansı zərurətdən və nə məqsədlə oralarda yurd salıblar, demək çətindir. Belə baxanda, yəni bunun nədənlərini düşünəndə ağlıma bir şey gəlir. Bəlkə də kəndlərlə yolların taleyi birdir. Bizim tərəflərdə El yolu deyilən və hamısının da yönü Güneyə, sərhədin o üzünə, Ərdəbilə, Təbrizə olan yollar dərin dərələrə enmir, dağ çayları ilə yanaşı meşələrin arasında qıvrılmır, daha

çox təpələrin üstü ilə, hər tərəfin açıq göründüyü aşırımlardan, insanın içini fərəhlə dolduran yüksəkliklərdən, uzaq məsafələri qısaldan gədiklərdən keçir. Ən qısa yol ucalıqlardan keçən yoldur! Bu ucalıqlar xəlvət dərələrdən və sel yataqlarından daha etibarlıdır. Tarix boyu da belə olub! Kəndlər də ucada, daha çox bulaq başında, axar-baxarlı yerlərdə salınıb.

Bizim evdə bir neçə dəfə olmuş yazıçı dostum Fərman Kərimzadə zarafatla deyirdi ki, kəndinizin adı Hamarkənddir, ancaq burda bir ayağını bükmədən dayanmaq mümkün deyil... Bir az şişirdirdi. Mil düzündən sonra bizim düzənlik dediyimiz yerlər də dərəli-təpəli görünər... Başqa dağ kəndlərinə baxanda, bizim kənd doğrudan da rahat yerdədir. Çəpərlər, bağlar, yollar indi o düzlüyü görünməz edib; kənd böyüyüb və güney-quzey yamaclara yayılıb, köhnə xırman yerləri, futbol və "hil-hil" (müasir otüstü xokkeyin başqa növü) oynadığımız düzənliklər indi evlərin altındadır və bağ-bağat relyefi dalğalandırıb, ancaq mərkəz hissəsi genişdir.

Hamarkənd rayonun tək-tək kəndlərindəndir ki, toylarda ara yollarda və kəndin ətrafında rahatlıqla at çapardılar və ya çapardıq.

Bu kənd haqqında düçüncələrim müxtəlif kitablarıma səpələnib...

...Nə vaxtsa kəndimizin yerini at yəhərinə bənzətmişəm. Bu yəhərdə nəhəng bir adam otursa, sağ ayağını Qaraçay yuyar, sol ayağını Ağçay; arxada – Qoşun yurdu... Günəşlə oyanıb günbatana yol başlar.

Dünyanın böyük çaylarını düşünəndə bu dərələrə Qaraçay, Ağçay deməyimiz gülməlidir, ancaq o vaxt hələ dağlardakı, meşələrdəki bulaqların, çeşmələrin, kəhrizlərin suları zəbt edilib, borulara götürülüb kənd evlərinə çəkilməmişdi, arxlara ayrılıb həyətlərə bağlanmamışdı və yazda, yağışlı günlərdə bu dərələrin səsindən qulaq tutulurdu. Ağçayın üstündə köhnə qışlaq yerində Alıhüseyn dəyirmanı ilboyu nəfəs dərmədən işlərdi. Qaraçay daşanda adamlara keçid verməzdi. İndi sanki onlar da uzun ömür yolundan yorğun düşüblər, yay gələndə Qaraçay quruyur və geniş, rahat yatağı at çapmaq həvəskarı olan uşaqlar üçün ideal bir düz yola dönür. Uşaqlıq xatirəmdə bu çay doğrudan da Qaradır; igid dayımı aparmış və anamın sızıltısı, göz yaşları illərlə kəsilməmişdi. "Qurban" adlı hekayəmdə həmin faciəni təsvir etməyə çalışmışam...

Kəndin günbatanındakı Qoşun yurdunda böyük bir ordu yerləşər. Bunu ürəklə deyirəm, çünki, Azadlıq meydanında yığışan milyon yarım insan gözümün qabağındadır; onlar bu təpənin bir yamacını ancaq örtərdilər.

Bu, yastısına qoyulmuş, hindi yumurtasına bənzər təpənin Quzey yamacında Quzeykənd yerləşir. İndi az qala birləşib bizim kəndə. Güney tərəfdə yolun üstündə bir bulaq, onun ətrafında Şirinbiyanlıq və bir az aşağıda qədim qəbiristanlıq var. Bura Kəndyeri də deyirlər. Kənd itib gedib, ancaq qəbirlər və qəbiristanda at, qoç heykəlləri qalır.

Hamarkənd öncə kolxoz, sonra sovxoz mərkəziydi. Kolxoz idarəsi, kitabxana, poçt, klub, xəstəxana binaları vardı. İndi bəzisi dağılıb. Kolxoz ətrafdakı səkkiz kəndi birləşdirirdi. Dar gündə bu kəndlərin camaatı bir-birinə sığınar, son qismətlərini bölüşərdilər; ayrı-ayrı kəndlərdə yaşasalar da, adamların çoxu bir-biriylə qohum-əqrəbaydı. Kəndlərin yuxarı siniflərdə oxuyan şagirdləri bizim məktəbə gələrdilər. Buna görə də kəndimiz böyük olmasa da, məktəbimiz böyük idi.

Nə qədər qəribə görünsə də, bu kəndlərin yaşam tərzi, adət-ənənələr qədim nağıllardan, dastanlardan, özəlliklə Dədə Qorqud dövründən gələn münasibətlərin eyniydi. Yeri gəldikcə, yadımda qalan bəzi adətlər haqqında yazacağam.

...Qədimdən, daha doğrusu, kökdən Hamarkənddə üç tayfa, üç tirə məskunlaşmışdı: Səfxanlılar, Bəylərlilər, Mollalılar. Ancaq bu bölgü şərtidir, sözdə qalıb, arada o qədər çalın-çarpaz qohumluq var ki, kənd bir bütöv ailəyə çevrilib.

Bəylərlilər və Mollalılar hər biri cəmi beş-altı ailə idilər. Ailələr çoxuşaqlıydı və uşaqlar böyüyüb evləndikcə özlərinə yeni ev tikirdilər. Ailə qurmaqla evlənmək sözü eyni anlam daşıyır. Çünki qədimdən bəri türklər üçün ailə qurmaq həm də ev-eşik, ocaq sahibi olmaq deməkdi. Ailə qurunca öz evini də qurmalısan. Öz ömürlük həyat yoldaşınla bir yerdə.

Səfxanlılar da saylarının çoxluğu ilə öyünə bilməzdilər, beş-altı tirəyə bölünmüşdülər, hamısı birgə onbeş-iyirmi ailəydi. Səfixanlıların ən böyük tirəsi Rüstəmxanlılar idi, ağlımız kəsəndən bu cür eşitmişdik. Babam Adışirin sağ idi; o, öz atası Abduləlini xatırlayırdı; Abduləlinin babası Rüstəmxan, onun atası Səfixan, onun atası Cəfər, onun atası Bağı, onun atası yenə Səfixan... Qocalar onun da babasını xatırlayırdılar. Bu kişilərin hər birinin aşağı-yuxarı 80-90 il yaşadıqlarını gözə alsaq, onda üç nəslin ömrü bir əsri doldurur və yaddaşlarda qalan izlər bizi ən azı XV-XVI yüzillərə aparıb çıxarır.

Bizim nəsil uzunömürlü idi. Adışirin babam düz yüz il yaşamışdı. Ana babam Kamil də təxminən bir əsr ömür sürmüşdü. Böyük əmim Balaş – 106 il yaşamışdı.

* * *

**Kəndin əfsanələrindən.** Şah babamız başındakı qoşunla Şirvan tərəflərdən gəlib Ərdəbilə aşan yolun üstündə bu təhlükəsiz yeri görəndə qoşuna nəfəs dərmək əmri vermişdi. Dağların arasıdır, hansı yandan bir quş da uçsa, burdan görünəcək. Ərdəbillə aranı kəsən sonuncu silsilənin sıx meşələri könlünü yerindən oynatmışdı. Ərdəbil tərəfdən dəfələrlə o zirvələrə kimi gəlmişdi, Alar yaylaqlarında çox ov ovlamışdı. Elə buna görə də dağların o üzünə, sərt qayaların ətəkləri boyu uzanan yaylalara “Şah oturan yer” adını vermişdilər. Özünün də xoşu gəlirdi bu addan, orda hətta aslan, bəbir vurması yadından çıxmırdı və səfərlərdən başı açılanda yenidən allı-güllü çəmənlərində, çox bəyəndiyi bulağın başında çadırını qurdurardı; ancaq bu geniş yaylalarda at səyritməkdən, qayalar arasında yamacları bürümüş, belinə kəmənd dolanmayan palıdlıqların arasında ov ovlamaqdan oturmağa vaxtı qalmazdı. İndi də doğma dağlar onu çağırırdı, bu tənglərlə, balaca dağ çayları ilə şırımlanmış və sanki talalarından başqa heç yerinə gün düşməyən sıx meşələrin yuxusunu dağıtmadan burdan ayrılmaq istəmədi. Amma kənardan baxmaq bir ayrı, meşələrin dərinliyinə dalmaq bir ayrı. Buralara ovçu ayağı dəyməmişdi. Dalınca gələn dəstənin hay-küyü, itlərin hürüşməsi cavabsız qalmadı. Üz-üzə və sanki bir-birinə toxunacaq qədər yaxın qayaların üstündən sanki qayalardan qopan bir səs ucaldı: “Ehehehey! Kimdir bu meşəyə burnunu soxan!” Qarşıdan cavab gəlmədiyini görən səs bir neçə dəfə təkrarlandı, sonra susdu.

Şahın ov həvəsinin üstünə başqa bir həvəs də gəlmişdi. Atını qayalarla yanaşı qalxan qobuya saldı, qobunun başından səsin gəldiyi səmtə döndü və təngin başında bir talaya, daha doğrusu, bir bağa-bostana çıxdı. Qayanın qaşında bir kümə vardı və yolun üstündə səsinə səs gəlməyəndən sonra meşədəki hərəkəti dinşəyən uca boylu, azman bir kişi dayanmışdı. Kişi öncə səsinin arxasınca özü də getmək istəmişdi, ancaq sonra at addımlarının və hay-küyün yaxınlaşdığının marağıyla kümədən ayrılmamışdı. Şah gənc olsa da, bu yer-

lərin adət-ənənəsini bilirdi. Yəhərdən yerə sıçradı. Kişi qonaqları gördüyü ilk anda çaşsa da, sonra bunların elə-belə ovçu olmadıqlarını anladı. İri addımlarla şaha doğru yaxınlaşdı, Şahın üzünün nuru onu çəkib aparırdı, "yox, bu, başqa adam ola bilməzdi, bu, Şahın özüdür ki var, tərifini çox eşitmişdi. Burdan əl uzatsan çatan yerlərə, görünən gədiklərin o üzünə ova gəldiyi haqqında da çox eşitmişdi və ən əsası, çayın o üzündəki izdihamı, ordunu burdan görürdü, kimin ordusu olduğunu da indi bildi. Özünü tez yetirib Şahın atının başını tutmaq istədi, ancaq ondan irəli düşənlər, yəni bu işin sahibləri vardı. Heç bilmirdi nə desin. Şahın qabağında əyilib diz çökmək istədi. Şah qolundan yapışdı: "Heç belə kişi də əyilər!"

Kişi özünü itirmədi: "Şah, başuva dönüm, sənin qabağında dünya diz çökür. Mən kiməm ki! Üzürlü say, bayaq meşədə hənir eşidəndə burdan elə urvatsız-urvatsız qışqırdım..."

Şahın üzündən bir təbəssüm keçdi və üzü daha da nurlandı: "Mən ovçuyam, Şah niyə deyirsən?" "Sənə qurban olum, Şah! Ovçu olsan da, Şah ovçusan!"

Şah sanki qayalara baxırmış kimi, üzünü çevirdi, sonra soruşdu: "Yaxşı, bəs sən kimsən!" Kişi tərəddüd eləmədən, yəqin ki, vərdişi üzrə: "Mən də bu meşənin şahıyam!" – deyib astaca güldü. Şah elə ürəkdən şaqqanaq çəkdi ki, səsi qayalara düşdü. Bu cavabı gözləmirdi. Kişi səhv elədiyini anladı. Tez sözü çevirmək istədi: "Mən də köçdən qalmış bir kimsənəyəm. Bu meşələri qoruyəm. Şahımız bu dağın üstünəcən gəlirsə, yəqin bir gün də bu tərəflərə aşacağına inaneydim."

Səsə kümənin qabağına bir qadın çıxmışdı. Şah soruşdu: "Kimnən qalırsan burda?"

Kişi səsini qısıb küməyə tərəf işarə elədi: "İkimizik, qarımnan!"

Sonra nəfəs dərib əlavə elədi: "Şah, başuva dönüm, sənə deməyə də utaniyəm, mənim də sarayım bu kümədir. Buyur, bir tikə çörəyimizi kəs, bir kasa ayranımızı iç." Şah küməyə doğru addımladı: "Bəs yağ niyə demirsən? Ayranı olanın yağı da olar!"

Kişi şahın istiqanlılığını görüb açılışmışdı: "Ağartımız boldur, qurbanın olum!"

Qadın, hətta ov geyimindən də zənginlik yağan qonağı tanımasa da, ərinin sözlərini eşitmişdi. Sanki onu qucaqlayacaqmış kimi, əllərini yana açıb: "Allah, sənə qurban olum! Gör nə əziz qonağımız gəlib! Sənin qədəmlərinə fəda olsun nənən!" Şah qolunu onun çiynindən aşırıb, əyilib yaylığın altından çıxmış ağ saçlarından öpdü. Qadın onun əlindən öpmək istəyəndə şah yavaşca əlini çəkdi: "Siz yox, biz sizin əlinizi öpməliyik!" – dedi. Qadın şahın istəyini eşitmişdi, tez küməyə keçdi, bir azdan əlindəki dolu məcməyini gətirib kümənin qabağında təbiətin əliylə yonulmuş yarımadam hündürlükdə qaya çıxıntısının üstünə qoydu. Məcməyidə bir kasa qatıq, iri kömbə, çığın altından çıxmış pendir, cam dolusu nehrə yağı və kömbədən də böyük, dopdolu, bıçaq vurulmamış arı şanı... Şah tərəddüd etmədən kasanı başına çəkdi, əlinin arxasıyla dodaqlarını silib: "Bunun üstündən bir tikə yağ-çörək ovu başa vurmağa bəs edər!" – deyib kömbənin qırağından qopardı. Sonra məcməyidəki bıçaqla ona qalın-qalın yağ şəkib yeməyə başladı. Kişi bu boyda qonağın onun çörəyini kəsməsinin xoşbəxtliyi içində sevinə-sevinə: "Canım sənə qurban olsun, şahım! Bu şanıdan da kəs, dadına bax. Şah süfrəsinə yaraşan baldır. Qayalardakı koğuşlar arıların məskənidir, bizə də bir qismət çatey." Şah şan baldan kəsdiyi parçanı elə bıçağın ucundaca ağzına apardı, kişinin sözünü yoxlamaq üçün tələsmədən

yedi və: "Çox dadlıdır! Süfrəniz bol olsun!" – deyərək, ətrafa göz gəzdirmək üçün qayanın qırağına doğru irəlilədi. Kişi əndişəylə onun qabağını kəsdi: "Başuva dönüm, bundan irəli getmə, uçurum adamı çəkey! Bizə baxma, öyrəşmişik. Bura bizim qalaçamızdır, özün göreysən, bir qapısı var, onu da sizə açmışdım, ürəyimə dammışdı ki, qonağım gələcək." Sonra Şahı küməyə dəvət etdi. "Birdən yorğun olarsan..." Şah razılığını bildirib: "Gedək qismətimizin dalınca!" – dedi. Kişi onu arxayınlaşdırmaq istədi: "Bu meşədə vəhşi heyvan qaynaşır, başuva dönüm, axşama bir ordunun payını vurarsınız. Maral, cüyür."

Şah gülümsədi: "Bəs aslan?"

Kişi tərəddüd etmədən: "Vallah, o üzdən qaçan bütün şirlər, bəbirlər bu meşələrə dolub!.."

Şah kişinin cavablarından xoşlanmışdı:

"Yaxşı, bəs onların arasında sizi kim qoruyur?"

"Allahımız, sənin cəddin! Bir də bu meşələr!" – dedi.

Şah xəyalında bu kişini də meşələrin bir aslanına bənzətdi, ayrılmazdan əvvəl, önündə əyilmiş bu iri cüssəli kişiyə bir daha diqqətlə baxdı. "Deyəsən, heç mənim ordumda bu bazburutda bir pəhlivan, bir əsgər yoxdur!" – deyə düşündü və atının belinə sıçradı. Yəhərdə nəyisə xatırlamış kimi, geri qanrıldı: "Sormağı unutdum, yaşın neçədir?" Bu dəfə kişi gülümsədi: "Onu bilmirəm, ancaq qarıyla evliliyimiz altmışın üstündədir!" Şah heyrətlə: "Maşallah!" – dedi. – "Övlad-uşaq yoxdurmu?" Kişi qürurla: "Var, niyə yoxdur! Nəvələrimiz də var. Əlixan oğlum çoxdandır şahımızın qulluğundadır. İki qızımız da var, qismətləri Muğanaymış. Orda da iydəyənlərimiz var..." Şah bir söz demədən, atının cilovunu boşaldıb meşəyə qarışdı və tezliklə dəstədən ayrılıb zirvələrə doğru dikəldi. Meşələrin seyrələn yerində qarşısına ilk maral sürüsü çıxana kimi kişini unuda bilmədi: "Kim bilir, hansı daha yaxşıdır. Ömrünü savaşlarda keçirmək, yoxsa belə bir sakit guşədə dünyanın dərdlərindən xəbərsiz yaşamaq; hansı daha etibarlıdır, saray, yoxsa bu balaca, kasıb kümə?" Sonra uğurlu ov sevinci onu alıb apardı. Axşam ordu düşərgəsinin çeşidli yerlərində tonqallar qalanmış, ətrafı kabab iyi bürümüşdü...

...Ertəsi gün kişi çiynində dolu heybəsi aşağıya, ordunun düşərgə saldığı yerə tələsdi. Qarısının dediyi bir-iki söz onu ayıltmışdı: "Gördün necə iştahla yedi? Padşah olanda nə olar. O da ağzının dadın biley. İnanmiyəm sarayda da bizim bu balın, yağın bərabəri ola. Həm də nə bileysən buralarda nə qədər qalacağ. Xurcunu doldurmuşam... Bəlkə bizim Əlixanı da tapdun orda."

Kişi meşədən çıxıb təpəyə dikələndə ürəyi sıxıldı. Vay, vay! Bu nədir belə? "Baba köçüb, yurdu qalıb". Alaçıqların və qaralan ocaqların yerləri bilinməsə, burdan bir ordunun keçdiyinə inanmazsan. Meh əsir və xırdaca burulğanlar ocaqların külünü lülələyib oynadır. İstər-istəməz, Ərdəbil yoluna – Haçayurda doğru cevrildi. Seyrək meşələrlə aşırıma doğru qalxan ordunun silah-sursatı yüksələn günəşin işığında minlərlə güzgü qırığı kimi şəfəqlənirdi. Atı olsa, arxadan çapıb çatardı, ancaq indi piyadaydı. Tələsdiyindən meşəyə buraxdığı atını axtarmamışdı. Kor-peşman ordunun keçib-getdiyi yolla hamardakı nil ağaclarının altındakı bulağa doğru irəlilədi. Burda iki əsgərin onun kimi ordunun dalınca boylandığını görəndə özündən asılı olmadan ürəyi əsdi.

Dünən axşam ovdan kefikök dönən şah orduya bu yerdən qatılmış Əlixan adlı əsgəri tapmaları əmrini vermişdi. Şamın axırına yüzbaşı Əlixanı tapıb gətirdilər. Atasının bir az yığcam təkrarıydı. İlk dəfə şahın hüzurunda olan yüzbaşı, sıxıla-sıxıla, nə əmr alacağını gözləyirdi. Şah öz əmrinin gətirəcəyi sevinci bilirdi. Buna görə də xoş ovqatla: "Yüzbaşı Əlixan, sabah bizimlə

Ərdəbilə getmə! Qal burda, sabah get böyüklərinə baş çək! Bizim yaxınlarımızdan da bir ailə qalacaq sənnən. Ərdəbil uzaq deyil. Sonra gedib arvad-uşağınızı gətirərsiniz!" Əlixan eşitdiyinə inanmadı."Doğrudanmı sağdılar? Allah, sənin qüdrətinə şükür."

Şah yaxın saydığı ailələrdən savaşlarda yaşa dolmuş bir əsgərə də yüzbaşı Əlixanla burda yurd salıb qalmaq buyruğu verdi. Bəlkə də bir mükafat kimi bağışlamışdı bu yerləri yorğun sərkərdəsinə. Qoşun gözdən itməmiş, bulaqlar arasında alaçıqlar hazır idi. Döyüşlərdən, yürüşlərdən yorulmuş adamların yeni həyatı başlanmışdı. Onlara yaxınlaşan çiyni heybəli kişini görəndə əsgərlər təəccübləndilər, burda kənar adam olacağını gözləmirdilər. Ancaq bir an sonra yüzbaşı Əlixan söykəndiyi ağacdan qopub, "Dədə!" – deyə qışqıraraq kişinin üstünə yüyürdü. Ata-bala qucaqlaşdılar. Kişi oğlunun yoldaşını da qucaqladı və dünən başına gələnləri onlara nağıl elədi. Oğlunu tapdığına və şahın onu ordudan ayırıb burda qalmasına sevinsə də, pay-püş dolu heybəni şaha çatdıra bilmədiyindən, halı pozuldu.

...Əlixan yoldaşı ilə Ərdəbilə getdi, qayıtdı. Payızın ortasında dədəsi də yaylaqdan enib gəldi. Növbəti yayda artıq alaçıqların yanında iki taxta ev qurulmuşdu. Zaman keçdikcə onlar yeni yurdlarına alışdılar. Yayda Güney üzdə ömürlərinin unudulmaz xatirələrini qoruyan şəhərin göründüyü, Şahın ova gələrkən çadır qurdurub oturduğu yaylalara qalxar, Savalandan əsən yellərdə ürəkləri sərinlər, sonra yenidən Şahın bu yaşıl yamaclara vurduğu damğaya bənzər yurdlarına qayıdardılar. Yəqin bu damğa və ya nişanə Şaha həm də ona görə gərəkirmiş ki, savaşlardan başı açılanda, Ərdəbil tərəfdəki çılpaq yaylalardan keçib aslan, bəbir ovuna gəlmək istədiyi bu meşələri qoruyan olsun, xırda çaylar arasındakı bu zümrüd yamaclar sahibsiz qalmasın.

Rüstəmxanlılar tayfasının Aran Muğanla – Haçayurd və Savalan civarı arasında qalan izləri, adlar, gələnəklər, vərdişlər, ocaq-pir sevgisi, əsl bəy, xan könültoxluğu, dünya nemətlərinə məhəl qoymadan arxayın yaşamaları, sanki gizli bir gücə söykənirmişcəsinə, ehtiyac içində olanda da daim ötkəm danışmaları – yaşlıların canlı tarix yaddaşlarında yaşayan əfsanəyə bənzər söhbəti təsdiqləyən əlamətlərdəndi.

Bu, keçmişə işıq salmaq istəyidir. Bugünün işığında nəsillərin dörd yüz-beş yüz ildən o üzdəki taleyini görmək çətindir. Bəlkə Şahın buyruğunun başqa bir səbəbi də varmış, olsun ki, burda saxladığı insanlar onun ilk çağırışındaca bu yerlərdən qalxıb getmiş və Qızılbaşlara qoşulmuşdular; böyük orduyla qələbə yürüşündən dönərkən daha onlara ehtiyac qalmadığını görüb, öz yuvalarında qalmalarına izn vermişdi. Bu, bir əfsanədir. Kəndin əsl tarixi isə ağlasığmaz uzaqlıqdan, minillərin o üzündən başlanır. Kənddə, qonşu kəndlərdə ev tikənlər, quyu qazanlar, arx açanlar, şum edənlər tez-tez küp qəbirlərə rast gəlirlər. Bu, illərlə davam edir.

Böyük əmim Balaş Biləsuvardan qayıdıb bizim evdən səksən-doxsan metr aralıda özünə ev yeri açarkən torpağın altından daha qədim qəbirlər, katakombalar çıxmışdı; bu küplər, qədim qəbirlər heç kimə qeyri-adi bir şey kimi görünmür. Meşədəki kənd yeri, yaylaqlarımızdakı iri qəbiristanlar da buraların qədimdən məskunlaşdığını göstərir.

Qəbiristanlardakı at və qoç heykəlləri də bəlli bir tarixin nişanələridir.

Nə etməli? İndiyədək hələ buralara arxeoloq ayağı dəyməyib. Onlar da tarix kitablarında adı keçən qədim şəhərlərə, qalalara can atırlar. Kəndlərə hələ sıra çatmayıb. Başqa sahələrdə olduğu kimi.

Tarixi yazan olmayıb; keçmiş yalnız xatirələrdə yaşayır, o da yaşlılarla bir ölüb gedir.

Bu baxımdan xaçpərəst dünyasının bəxti gətirib. Kilsə – milli olub və məxsus olduğu xalqın tarix yaddaşını müəyyən qədər qoruyub.

Onsuz da keçmişi qaytarmaq olmaz. Görünür, zəifliyimizi keçmişlə pərdələmək, keçmişin şöhrətinə güvənmək xasiyyətimizdən əl çəkib gələcəyi düşünməliyik.

Böyük keçmişi yalnız böyük gələcək qoruya bilər. Keçmişi olmayanların böyük keçmiş uydurmaları həmişə komikdir və mənə erməniləri xatırladır.

Bugünün zəifdirsə, keçmişinə də başqaları sahiblənəcək, keçmişini də itirəcəksən. Dünyada bunun örnəkləri çoxdur. Arxeoloq axtarışları da, keçmişi öyrənmək, təsəvvür etmək və qədim mədəniyyətlərin əsl sahiblərini üzə çıxarmaq, onları dəyərləndirmək işi bu gün elmin, ədalətin əlindən alınıb, siyasətə çevrilib. Dünyada oğurluqların ən yayğın növlərindən biri arxeoloji tapıntıların çalınıb aparılmasıdır. Dünya muzeyləri Şumer, Misir, İran (Güney Azərbaycan), Türküstan, Skif abidələri ilə doludur. Tarixin yadigarları açıq və ya gizli şəkildə talan edilir.

Bizlər müsəlmanıq, ancaq nə bizdə, nə də ətraf kəndlərdə məscid vardı; olsa belə, məscidlər türk kimliyindən çox, ərəb və fars keçmişini və mifologiyasını təbliğ edirdilər. (Təəssüf ki, bu gün də belədir...) Kəndin türk kimliyi onun dilində, folklorunda və adət-ənənələrində yaşayırdı.

Qohumluq xəritəsi çox genişdir. İndi Rüstəmxanlıların qol-budağı respublikaya yayılıb; Tovuza, Balakənə, Zaqatalaya, Naxçıvana, Qarabağa, Lənkərana, Masallıya, Lerikə, Cəlilabada, Biləsuvara, Şirvana, Moskvaya, Orenburqa, Türkiyəyə, İrana, Almaniyaya, Fransaya, ABŞ-a uzanır.

Qopub kənarda yaşayan ailələr də var: Cəlilabad və Biləsuvarda, İranda...

Rüstəmxanlılar əsasən uca boylu, caydağ, daxilən azad, qorxu-ürkü bilməyən, bərkdən danışan, işdən yorulmayan, nisbətən uzunsifət, almacıq sümükləri seçilən adamlardı. Aralarında sarışınları, alagözlüləri də var; əlləri, ayaqları iridir; ürəyəyatan səslə oxuyanları çox idi və bu gün də belədir.

Uca boylu, arıq bədənli bibilərim mənə Maral Rəhmanzadənin “Xınalıq qadınları” rəsmlərini, bir də qızıldərili xanımları xatırladırdı.

* * *

Moskvalı şair, şeirlərimin ruscaya tərcüməçisi, mərhum Vladimir Trafimenko “Gəl rusca növbəti şeir kitabının adını “Ev” qoyaq” – deyə təklif elədi. “Nədən “Ev?” – deyə soruşanda, – “Çünki şeirlərində evə, ocağa bağlılıq çox güclüdür” – demişdi.

Başqa bir tanışım, filosof-sosioloq, bolqar əsilli professor Georgi Qaçev də Qafqaz xalqlarının mənəvi-psixoloji aləminə həsr olunmuş kitabının Azərbaycan bölməsində azərbaycanlıların yurda bağlılığından danışarkən mənim şeirlərimdən də nümunələr gətirir. Apardığı təhlilin sonucu olaraq belə bir qənaətə gəlir: “Rus şairlərindən fərqli olaraq, S.Rüstəmxanlının şeirlərində bütün yollar geriyə, başlanğıca, ocağa, evə, yurda qayıdır”.

**Haşiyə:** G.Qaçevlə bir neçə dəfə Moskvada görüşmüşdüm. Hər dəfə ətrafımızda müxtəlif adamlar olurdu; onun xalqların etno-mədəni mühitləri və xarakterləri haqqında söhbətlərindən hiss elədim ki, Azərbaycanı yaxşı tanımır, bizim haqqımızda az şey bilir. Gürcüstan və Ermənistan haqqında kitabını bitirdiyindən və nəşrə hazırladığından danışırdı. Bu kitabının Azərbaycansız ya-

rımçıq olacağını dedim və onu Bakıya dəvət etdim, gəzdirdim, adamlarla görüşdürdüm. Moskvada çıxan şeir kitablarımı oxumuşdu. Yeni kitabına Azərbaycanı da əlavə etmək istəyirdi. Mən də Moskvada verdiyim sözü təkrar etdim, əlyazmasını bəyənsəm, ən qısa zamanda nəşr edəcəyəm. Bir müddət sonra kitabının əlyazmasını göndərdi. Ancaq əlyazması məni dilxor etdi, Gürcüstanla Ermənistana daha çox yer verilmişdi. Görünür, oralarla daha sıx əlaqəsi vardı. Azərbaycana isə cəmi bircə dəfə gəlmişdi, bizi Anarın və mənim kitablarım, bir neçə alimin və rəssamın, o cümlədən rəssam Mircavadın və filosof Rəhman Bədəlovun simasında dərk etməyə, milli mentaliteti bu müstəvidə açmağa çalışmışdı. İlk baxışda hər şey normal görünürdü, mənim narazılığıma heç bir əsas yox idi. Buna baxmayaraq: “Azərbaycan bölməsi genişləndirilməlidir!” – deyə əlyazmasını geri qaytardım. Məndən narazı qaldı. Lakin maraqlıdır ki, kitabını Moskvada nəşr etdirərkən mənimlə bağlı yerləri kəsməmişdi...

Qaçevin fikri də mənim yazılarımdan doğulub və güman edirəm, onun fikrinin V.Trafimenkonun fikrinə bənzəməsi anlaşılandır.

Ev, ocaq mənim üçün vazkeçilməz, daim bağlı olduğum dəyərdir və qutsaldır.

Ev – dünyaya göz açdığım, ata-anamın əliylə qurulan, nəfəsiylə isinən məkan.

Ev – xeyir-bərəkət, halal süfrə, işıq.

Ev – yurdum, vətənim.

Ev – Yer kürəsi...

Baxır hardan baxırsan. Bunu şair dostum Fikrət Sadıq yaxşı deyib.



...Bütün yolları özünə bağlayan və qaytaran, burdan pərvazlanıb uçanlar üçün daim cazibə mərkəzi olaraq qalan özüllü-təməlli bir baba yurdumuz vardı; kəndin ortasında, uzun, açıq eyvanlı, çoxlu otaqları olan Rüstəmxanlı ocağı nə vaxtın yadigarıydı, onu kim, nə vaxt tikmişdi, ordan neçə nəsil gəlib keçmişdi – bilmirəm. Ancaq onu bilirəm ki, ata-anam birinci övladları, yəni mən dünyaya gələndən sonra o evdən çıxmışdılar, təxminən yüz arşın aralıda, kəndin salındığı düzənliyin dərəyə doğru meyilləndiyi yerdə ayrıca ev tikmişdilər. O, kənddə atamın əliylə tikilmiş birinci ev idi. Sonra başqa, daha böyük ev tikəcəkdi.

Birinci evimizin tikilməsi yaddaşıma ilişib qalan ilk uşaqlıq xatirələrindəndir. O evdə cəmi on beş il yaşamışdıq; mən bir az da tez ayrılmışdım; lakin indi də kəndlə, uşaqlıqla bağlı yuxularımda daha çox o evi, onun həyət-bacasını, bağçasını görürəm.

Ömrün başlanğıcındakı bütün yaşantıları heç kim yaza bilməz; bu, mümkün deyil, buna heç bir qələmin gücü çatmaz... O səhərlərin sevincini, o axşamların qəmini, böyüklərin diliylə dinlədiyimiz nağıla bənzər olmuşları, el yollarının həvəsini, uzaq dastanlar və qəhrəmanlıqlar aləminin qanadlı arzularını, səhərdən-axşama bizimlə danışmaqdan yorulmayan quşların, suların, çiçəklərin, yarpaqların, buludların, ildırımların, qarların-yağışların, çayların, bulaqların, atların, itlərin, qayaların, arıların, qarışqaların, quş yuvalarının dili ilə bir də kim danışa bilər? O toyların, əkin-biçin nəğmələrinin, sonu görünməyən ehtiyacın və kədərin, saflığın və sevginin yaşantıları hansı təsvirə sığar? Burda, Qoqol demiş, başqa qələm lazımdır, görün, başqa bir sirli qələm tapa bilirsinizmi?

Onda mən lap balaca idim. Atam haradansa bir boğaz keçi alıb gətirmişdi. Anama "bir inəyin südünü verəcək bu" – demişdi. Mən evimizə bərəkət və biz uşaqlara şənlik gətirmiş bu keçinin dastançasını "Ömür kitabı"nda yazmışam, qoy burda da xatırladım. Bəli, atamın gətirdiyi keçi payıza dönəndə ikiz doğdu, bir keçimiz oldu üç, yaz gələndə yenə ikiz doğdu, oldular beş, növbəti payıza ilk balaları da, eynilə anaları kimi ikiz doğdular, oldular doqquz... Bundan sonra say itir... Keçilərimiz həndəsi silsiləylə artırdılar. Süd, yağ, qatıq, qaymaq, şor... ağartı aşıb-daşır, qonşulara pay verilirdi. Birdən-birə keçinin balalarının müştəriləri peyda oldu. Az sonra qağam gözəl bir kəhər at aldı. Atın əfsanəsini də "At haqqında iki əfsanə" adlı şeirlərdə yazmışam. Ardınca həyətimizə inək, camış gəldi. Kəndin imkanlı kişilərindən olan babam kolxoz qurulandan sonra və müharibədə müflisləşmişdi. Dörd oğlunun üçü müharibəyə, biri Bakıya fabrik-zavod məktəbinə aparılmışdı. Atam müharibədə ağır yaralanıb qayıdanda ata-ananın və bacıların, böyük qardaşın ailəsinin qayğısı onun çiyninə yüklənmişdi. Şükür, o biri qardaşlar da salamat qayıtmışdılar: biri Leninqraddan, biri Yapon cəbhəsindən. Qağam yalnız bundan sonra evlənmiş və babamgildən ayrılıb öz evini tikmişdi. Sonralar o biri əmilərin, bibilərin də öz evləri oldu, bir ocaq neçə evə paylandı, bənzər bir həyat yolu keçdilər, hərəsinin bir çətən külfəti oldu. İndi Rüstəmxanlı ailəsinin nəvə-nəticələrinin sayı beş yüzdən artıqdır...

Sonralar mən o kənddə, Yardımlı qəsəbəsindəki evimin ətrafında, Bakıda neçə-neçə bağ da saldım. Ağac əkmək, bağ becərmək mənim həyatımın sevinc və maraqlarından biri olaraq qaldı. İndi də hər yeni bahar ürəyimdə ağac əkmək ehtirası baş qaldırır.

* * *

Kənd yeri olsa da, əlifbanı tez öyrənmişdim. Beş yaşım olanda sərbəst oxuyurdum. Və məktəbə də elə bu yaşda getmişdim, lakin qəbul eləməmişdilər, pərt halda, ağlaya-ağlaya geri qayıtmışdım. Bir ili intizarla gözləmiş, bir il sonra sentyabrın 1-də alaqaranlıqdan gedib məktəbin qapısının açılmasını gözləmişdim.

Kəndin ən gözəl, görkəmli binası məktəb idi. 30-cu illər çay daşından və birtipli layihələrə uyğun tikilmiş ağ binaya bütün ətraf kəndlərin uşaqları bir məbəd kimi baxırdılar.

Ailə məclislərindən, toylardan, bayramlardan, qoyun-quzu otaran yaşıdlarımıza qoşulub çöldə-bayırda vaxt keçirməkdən başqa ürəyimizi sevindirən bir iş yox idi. Kənd uşaqlarının ən maraqlı əyləncəsi böyüklərinə yardımçı olmaq, onlarla bərabər çalışmaqdı... Buna görə də məktəb həyatı tamamilə yeni, fərqli, ümidlə dolu bir başlanğıc idi. Bu başlanğıc işığa, sevincə,

azadlığa aparırdı. Yerdə qalan hər şey qalın bir dumana, qaranlığa, kədərə bürünmüşdü.

Nə uşaqlıq əyləncələri, nə gözəl təbiət, nə cavan ata-anamızın hər cür əziyyətə, mərdliklə və gülə-gülə qatlaşmaları dağıdırdı bu kədəri. İndi müharibədən sonra o dağ kəndlərinin üstünə çökmüş dərdi, o doğma insanların çəkdiyi acıları daha yaxşı görür, dərk edir və ata-analarımıza o müsibətləri yaşadan, ömürlük ehtiyaca, əziyyətə, zülmə məhkum edən o sistemə, o şəraitə, oxuduğumuz kitablarda cənnət kimi təsvir edilən o cəhənnəmə nifrət edirəm. Yol yoxdur, rayon mərkəzinə ancaq atla gedib-gəlmək olar, kənd hələ maşın, traktor tanımır, taxılı ibtidai üsulla, xışla, kotanla əkir, çinlə biçir, xizəklə xırmanlara daşıyır, vəllə döyür, kürəklə sovururlar... İşıq yoxdur, televizor gəlib çıxmayıb, ali təhsilli həkim yox, kitabxanaya yeni kitablar nadir hallarda gəlir, klub aylarla bağlı, yaydan-yaya bir, ya iki dəfə kitabxananın arxa divarına ağ ekran vurub ağlamalı hind kinoları göstərəndə, eləcə torpağın üstündə oturub baxan uşaqların, kənd camaatının bayramı olur; odun meşədən at, eşşəklə, su bulaqdan çiyinlərdə, səhənglə daşınır... Bir günlük dinclik, nəfəs dərməli yer yoxdur. Səhərdən-axşama işlə, çalış... Uşaqlarını şəhərə, oxumağa göndərmək kimsənin yadına düşmür. Əli iş tutur, ata-anasına kömək edirsə, əsgərlikdən qayıtdısa, yetərlidir, gözü tutan bir qohum-qonşu qızı al, qoy artıb-törəsinlər... Dağların çevrələdiyi bu nəhəng qazan dərdlə dolmuşdu, camaat bu dərd qazanında boğulur, əli də heç yerə çatmır...

Aradan təxminən on beş il keçəndən sonra, böyüyən ailə balaca evə sığmayanda atam kəndin qırağında, qaraağac və göyəm kollarının arasındakı yaşıl yamacda ikinci evimizi tikməyi qərarlaşdırdı. Böyümüşdüm və ona kömək etmək imkanım vardı. Lakin artıq kənd yeddiillik məktəbini bitirmişdim, Yardımlı qəsəbə onbirillik internat məktəbdə oxuyur və məktəbin yataqxanasında qalırdım. Kəndə şənbə günləri gəlir, bazar günləri yenidən qəsəbəyə qayıdırdım. Tikinti işini müşahidə etməkdən başqa yolum qalmamışdı. İş yalnız mən Universitetdə oxuyanda başa çatdı.

Bu evin də açıq eyvanı vardı. Bəlkə də açıq sözü o qədər də yerinə düşmür, çünkı eyvanın sağı, solu kəllə otaqlarla tutulmuşdu, yalnız qabaq tərəfi açıq idi, onun da qıraqlarına taxtadan məhəccər vurulmuşdu... O vaxtlar qarın, yağışın, xüsusən də payız, qış küləklərinin ara vermədiyi bu dağ kəndlərində evlərin bu yolla qapanıb, qorunması az qala bir memarlıq üslubuna çevrilmişdi. Bəzən çayımızı da məhəccərin üstünə qoyub içərdik. Eyvanın günçıxan tərəfində balaca bir masa qoyulmuşdu. Üstündə telefon, telefon kitabçası...

Atam səhər tezdən, biz hələ yuxudaykən, namazını qılıb masanın yanındakı köhnə kresloda oturub, tələsmədən nömrələri yığar, hündür, qalın səsiylə köçürdüyü qızlarıyla əhvallaşar, iş yoldaşlarıyla hara gedəcəklərini, nə iş görəcəklərini, nə vaxt gedəcəklərini müzakirə edər, elə ordan səslənib uşaqları oyadar, hərəni bir iş dalınca göndərərdi. Telefon köhnəydi və diski səs çıxara-çıxara dönürdü. Çak-çak-çak-çak-çak, sonra çak-çak-çak, sonra çak-çak-çak-çak. Yəni 5-12-31. Yuxulu-yuxulu diskin çıxardığı səslərdən rəqəmləri seçə və atamın kimə zəng vurduğunu ayırd edə bilirdim.

Səhər yeməyimi də o balaca masanın üstünə qoyurdular, ancaq məndən balaca uşaqlar döşəmədə, anamın əliylə toxunmuş qalın xalçanın üstünə sərilmiş süfrənin başına, ya da köhnə divanın qarşısındakı jurnal stolunun ətrafına yığışardılar.

Axşamlar pəncərələri bağçaya və gündoğana açılan kəllə otaqdakı hündür, iri, qızılgöz taxtasından səliqəylə düzəldilmiş ağır masanın ətrafına yığışırdıq.

Mətbəx bu otağın altındaydı və pilləkəni də otağın küncünə çıxırdı; yazıq anam o pillələri gündə yüz dəfə enib-qalxaraq, bizim qarnımızı doyuzdururdu.

Mətbəx sobasının borusu bu otağın içindən dama qalxırdı və otağı rahatca qızdırırdı. Anamız gününün çoxunu alt qatda, mətbəxdə keçirərdi, yemək vaxtı çox vaxt qazanı qaldırıb pilləkənin başına qoyar, hər kəsin payını burdan verər, sonra özü də sonuncu gəlib masanın ətrafında özünə yer edərdi.

Anamın qazanı möcüzəydi. Qonaq gələndə onun qədim, qara qazanı sanki böyüyür, beş nəfər üçün bişirdiyi xörəyi on beş nəfərə də çatardı.

Ev hazır olar-olmaz, o açıq eyvanda bizim başqa qonaqlarımız da peyda oldu, bir də baxdıq ki, başımızın üstündə qaranquşlar yuva qurublar.

Yaz açılandan, köçəri quşlar uçub gələndən yayın ortasına, qaranquş balaları pərvazlanıb yuvanı tərk edənə qədər gözümüz tavandaydı. O yuva bir cazibə mərkəzi və ailəmizin bir parçasıydı. Qaranquşların balalarını yedizdirməsi möhtəşəm bir tamaşa olduğu kimi, yəqin bizim süfrələrimizin, ata-anamızın başına toplaşıb, Allahın verdiyindən yeməyimiz də onlar üçün maraqlı bir səhnəydi. Bir-birimizə alışmışdıq, bir-birimizi sevir və bir-birimizə dözürdük.

Amma qaranquşlar çox da təmizkar deyildilər və bu, anamı əsəbiləşdirirdi. Buna görə də hətta bir dəfə quşları qovdurmuş və yuvalarını uçurtdurmuşdu. Atam etiraz edirdi: “Toxunmayın! Allaha xoş getməz!”

Qaranquşlar, daha doğrusu, bizim qaranquşlar incimir, kin saxlamır, bizdən ayrılmırdılar. Böyüklərin dediyinə görə, onlar küsəyən olur, yuvası uçurulan yerə bir də qayıtmırdılar.

Ancaq bizim qaranquşlar etibarlı və inadkardılar.

Sonrakı bahar yenidən uçub gəldilər, qeyri-adi səbr, mətanət və misilsiz memarlıq məharətiylə əvvəlki yerində, əvvəlkindən daha gözəl yuvalarını tikdilər.

Anamın barışmaqdan başqa yolu qalmamışdı, ancaq eyvanın çirklənməsini də qəbul edə bilməzdi. Yolunu tapdı. Yuvanın altına nazik taxta parçası vurdurdu. Qaranquşlar üçün də bir istirahət meydançası yarandı.

Amma sonra, Bakıda oxuyanda yay tətili zamanı kəndə qayıdanda vəziyyətin dəyişildiyini gördüm.

Anam gülə-gülə: “Görürsən?” – dedi. Hələ nəyi görməli olduğumu bilmirdim. Sadəcə, evimizin vərdiş etdiyim görkəmi itmişdi. Qışda külək qarı otaqlara vurmasın deyə, eyvanı şüşəbənd etmişdilər. Gözüm öyrənməmişdi, nizam pozulmuşdu. Anam aynəbənddən xoşlanmadığımı görüb sözünü təkrar etdi: “Onu demirəm e, evdəki bu yuvanı deyirəm! Görürsən bu qaranquşları?”

Üzündə qəribə bir ifadə vardı. Evinin təmizliyini düşünürdü yəqin, ancaq ikinci duyğu bundan daha güclüydü, bu da quşların etibarıydı.

Eyvanın bağlandığını görən qaranquşlar yazda bağa açılan pəncərələrdən girib kəllə gözdə, yəni qonaq otağı saydığımız, atamla mənim çarpayılarımızdan və yemək masasından başqa mebeli olmayan, anamın və bacılarımın toxuduqları xalçalarla döşəli otaqda, bu dəfə tavanın çatısında yox, ucuzlu çilçırağımızın üstündə yuva qurmuşdular. Bu, anamı heyrətə gətirmişdi və bu yuvanı uçurmaq fikrindən birdəfəlik daşındırmışdı.

O qaranquşlar bizim evə bizdən çox bağlıydılar.

Sonra atam getdi, anam da getdi və evin çiy kərpicdən olan divarlarında zəlzələ çatlar əmələ gətirdi və kənddə qalan qardaşlarım mənə əziz olan o doğma “saray”ımızı sökdülər və yanında ikimərtəbəli, mansardlı, kəndin ən böyük evini tikdilər.

* * *

**Müəllimlərim.** Sevdiyim insanların arasında ailə üzvlərimin, baba-nənə, ata-ana, əmi-dayı sıralamasının ardınca müəllimlərim gəlir... Onlardan həyatımın düzənə girməsi, yolumun bəlirlənməsində ciddi rol oynamış bir neçəsini xatırlamadan keçmək olmaz.

İlk müəllimim Lənkəranın Sara adasından gəlmişdi: Məmməd Dadaşov. Yoldaşı Nina xanım da müəllim idi. Rus olsa da, azərbaycanca gözəl danışırdı. İkiz uşaqları Yusif və Züleyxa ilə bir sinifdə oxuyurduq. Məmməd müəllim kənd toylarından birində, at yarışında yıxılıb ayağını sındırandan sonra köçüb Lənkərana qayıtdılar. Əlaqə üzüldü. Uzun illərdən sonra Yusif, şair dostum Vahid Əzizin vasitəsiylə məni axtarıb tapmışdı. Mərkəzi Komitədə Maşınqayırma şöbəsində işləyirdi; mən “Yazıçı” nəşriyyatının baş redaktoru idim...

**Cavad müəllim.** Uşaqlıq həyatımda ən dərin iz buraxmış və bütün ömrümün ədəbiyyata bağlanmasına səbəb olmuş bu insan məktəbimizə 1956-cı ilin sentyabrında gəlmişdi. Kənddə orta məktəb yenicə ləğv olunmuş, yerində yeddiillik məktəb qalmışdı. Lakın yenə müəllim çatmırdı, cəmi üç yerli müəllim vardı: Əliağa müəllim ibtidai sinif, Qulam müəllim riyaziyyat, Əlibala müəllim coğrafiya dərslərini deyirdilər. Onların da heç birinin ali təhsili yox idi. Sonralar qiyabi oxudular. Buna görə də beşinci sinifdə bizə dərs deyəcək müəllimlərin gəlişini bütün kənd maraqla gözləyirdi. Cavad Məmmədov isə birbaşa mənim taleyimə gəlmişdi... O illəri xatırlayanlar azalıb, qardaşlar iddia edirlər ki, guya o, kəndə təzə gələndə, kirayə ev tapana kimi bir neçə gün bizdə qonaq olub; düzü, bu hissəsi yadımda deyil. Bəlkə məktəbdə mənə ayrıca diqqət yetirməsinin bir səbəbi elə bu idi. Ancaq, görünür, bizdə qalıbsa da, bu çox çəkməyib, çünki mən onun təxminən 60-70 metr irəlidəki evdə gecə yarısınadək işığı gələn pəncərəsini xatırlayıram. O vaxt bizə yaşlı və çox ciddi bir adam təsiri bağışlayırdı. Lakin indi hesablayanda görürəm ki, cəmi 23, ya 24 yaşı varmış. Gəncə Pedaqoji İnstitutunu bitirdikdən sonra bir il Masallının Xıl kəndində işləmiş, sonra bizim məktəbə göndərilmişdi. Əslən Qazaxın Yuxarı Salahlı kəndindəndi. Cəmi dörd ay öncə, səhər vaxtı, evimiz süpürülərkən divardan asılmış balaca qutudan ölüm xəbərini eşitdiyim böyük xalq şairi Səməd Vurğunun kəndindən. Hələ onda Səməd Vurğunun şəklini görməmişdim. Cavad müəllimin öz yerlisinə çox bənzədiyi və onun qohumu olduğunu sonralar biləcəkdim.

İlk baxışda qaraqabaq adam təsiri bağışlasa da ara-sıra gülməli bir hadisə olanda, şagirdlərin dilindən yerinə düşməyən bir söz eşidəndə ürəkdən gələn gülüş səsi yüksələrdi. Ancaq Səməd Vurğun adı gələndə həmişə səsi qırılırdı və hiss edirdim ki, onun üçün böyük şairimizin yası hələ bitməyib.

Məktəbə ilk gəlişində əynində səliqəylə ütülənmiş yaşıla çalan kostyum vardı. Növbəti yay tətilinə qədər bu kostyumu dəyişmədi.

Çəmənliyin bu başında bizim evimiz, o başında Cavad müəllimin kirayə qaldığı yaşlı qadının eviydi. Onun bir qızı Alış əminin həyat yoldaşıydı. Oğlu Özxanın evi də anasının eviylə yanaşıydı. Özxan kəndin seçilən adamlarındandı, atamla xoş münasibətləri vardı. Ortancıl oğlu Çapar Ağaxan əmiylə Bakıda fabrik-zavod məktəbində oxumuş, bir müddət Bakıda işləmiş, sonra ikisi də eyni vaxtda kəndə qayıdıb evlənmiş və Bakıya dönməmişdilər. Ağaxan əmim kefikök olanda toylarda, məclislərdə oxuyardı. “Saqi, bu məclisdə

dolandır badə”... Çaparın isə yaxşı şux oynamağı vardı. Bəzən iki dost toy məclislərini şənləndirmək üçün qurşaq tutardılar...

Müəllim-şagird münasibətlərinin incəlikləri çoxdur və diqqətlə öyrənilməyib. Mən ibtidai məktəbdə də əlaçıydım, lakin o illərdən Məmməd müəllimin öyrətdiyi “Durnalar” mahnısından, mənə sehrli görünən rəqəmlərdən və hesablamalardan, bir də sentyabrın birini həsrətlə gözləməyimizdən başqa yaddaşımızda heç nə qalmayıb. Amma beşinci sinifdən sonra sankı, zehnim aydınlaşdı, dünyanın bizim kənddən kənarda olan mənzərələrini görməyə başladım və sərbəst düşünməyə, sərbəst qərar verməyə çalışdım. Bütün bunlar Cavad müəllimin sayəsində olmuşdu. Ancaq ona sayqı, inam ürəyimdə hansı andan, hansı hadisədən sonra başlanmışdı, bunu deyə bilmərəm. Məncə, ona özəl hörmətim mənimlə böyük adam kimi, az qala, öz yaşıdı kimi rəftarından, dərsdən-dərsə çiynimə daha ağır yük qoymasından və mənə inamından başlanmışdı.

Tətildən qayıdanda mənə Səməd Vurğunun “Lirika” kitabını gətirmişdi və kitabdakı şeirlər bütövlükdə yaddaşıma köçmüşdü.

Cavad müəllim Səməd Vurğun haqqında danışanda rəngi dəyişilirdi, sanki ilham gəlirdi ona.

Şairin Çində xəstələnib, müalicə olunması, xəstəxanada yatarkən “Vaxtsız əcəl, məndən uzaq dolan, dur!” – deyə çəkdiyi vətən həsrəti barədə danışdıqlarını dinləyəndən sonra “Dağlar”, “Ceyran”, “Şair, nə tez qocaldın sən”, “Mən tələsmirəm” şeirləri – normal ədəbiyyat nümunəsi olmaqdan çıxıb Azərbaycanın şöhrəti olan və həyatdan tez getmiş bir şairin bizə, bütün insanlara ünvanlanmış həyatı, təbiəti, dağları sevməyə çağıran məktublarına çevrildi... Xəyalımda şair də, şeir də qutsallaşdı.

İçimdə şairlik duyğusunun hansı andan, hansı təsirdən yarandığı barədə əvvəllər də yazmışam. “Mənim bütün yazılarım ya ağıdır, ya dua.” Yaşlı vaxtımda bu qərara gəlmişdim.

Ağı, oxşama, bayatı öz yerində, lakin şüurlu şəkildə şeir yazmaq həvəsi məhz Cavad müəllimin ədəbiyyat dərslərindən başlamışdı. Sonra daha bir güclü söz yağmuruna, Aşıq Ələsgərin duyğu tufanına düşdüm.

Altıncı sinfin dərsləri başlanandan bir neçə gün sonra ilk “şeirlərimi” Cavad müəllimə verdim. Gözdən keçirtdi, başımı sığallayıb, öz qaynar gülüşüylə güldü: “Təbrik edirəm, şair” – dedi. Uşaqkən bu sözdən xoşum gəlirdi. Sonra əsl şairliyin məsuliyyətini və ağırlığını duyandan sonra bu sözdən qaçmağa başladım. Hələ də şairliyin harda başlanıb, harda bitdiyini bilmirəm.

O vaxt hələ Cavad müəllimin özünün də şeir yazdığından xəbərsizdim.

Yəqin ki, ona verdiyim ilk cızmaqaralarımın yazılmasında Səməd Vurğuna, Aşıq Ələsgərə oxşamaq istəyiylə, “bizim dağlara, bizim meşələrə də şeir yazmaq olarmı?” kimi bəsit kəndçi təəssübkeşliyi ilə Cavad müəllimi təəccübləndirmək, sevindirmək duyğusu da rol oynamışdı.

Söz yox, o ilk yazılarım şeir deyildi, lakin Cavad müəllim məsələyə fərqli yanaşmış və ona verdiyim yazılardan birini rayonun “Yeni kənd” qəzetində görəndə heyrətləndim, həm də çox pərt oldum. Çünki şeirin cəmi 3-4 misrası mənim idi, qalanını Cavad müəllim düzəltmişdi, daha doğrusu, özü yazmışdı. Beləliklə, 11 yaşımda “ilk şeirim” çap olundu. Bilmirəm, ilham baş qaldırdı, yoxsa boynuma düşdü, hər halda şeir mənim əyləncəmə, xobbimə çevrildi.

1956-nın qışında ailəmizə ağır bəla üz verdi, kənddə qalmaq mümkün olmadı və Biləsuvarda yaşayan Balaş əmi gəlib məni özüylə apardı, dərs ilinin qalanını Biləsuvarda, ovaxtkı Arxangilovka kəndində oxudum (bu hadisələri “Uşaqlığa dəyən güllə” adlı kiçik romanımda yazmışam).

Onda Cavad müəllimi başqa bir yöndən tanıdım. Mən məktəbə gedə bilməyəndə o, özü bizə gəldi, təsəlli verdi: “Sənin heç bir günahın yoxdur, evdə boş oturma, kitab oxu” – deyib mənə yol göstərdi. Ən çox danlağını gözlədiyim adamın bu münasibəti mənə dayaq oldu.

Sonralar Biləsuvardan kəndə qayıtmağım da yenə Cavad müəllimin təkidi ilə oldu.

“Şairlik” məsələsi həll olunandan” sonra sevimli müəllimim sərbəst düşüncə qabiliyyətimi yoxlamaq, indiki sözlə desək, mənim publisist yetənəyimi öyrənməyə çalışdı.

Altıncı sinifdə oxuyarkən birdən-birə üzümü ayrı səmtə çevirməyə çalışdı.

Mənə mövzular verib, “bu məsələlər barədə düşündüklərini yaz, qəzetlərdən, kitablardan da istifadə edə bilərsən.” Mürəkkəb mövzulardı: “dostluq”, “qardaşlıq”, “yoldaşlıq”, “vətən borcu” və s.

Bunların hər biri o qədər ümumi mövzudur ki, heç indinin özündə də həmin adlar altında düz əməlli bir şey yaza bilmərəm. Amma o vaxt düşündüm, axtardım və cəsarətlə yazdım.

**Haşiyə:** 1995-ci ildə qəfildən Cavad müəllim mənə bir qovluq gətirdi. “Ara-sıra xəstələnirəm, birdən ölüb gedərəm, qoy bu qovluq səndə qalsın, itməsin” – dedi. Baxdım ki, qovluqda o vaxt şagird dəftərində yazdığım həmin ilk “publisist əsərlərimdən”, ilk “şeirlərim”dən başlamış Cavad müəllimə yazdığım məktublara qədər, qəzetlərdən kəsib götürdüyü yazılarıma qədər mənim qoruyub saxlamadığım xeyli material toplanıb. 40 il qoruyub saxlamışdı bu yazıları.

Dəftərləri vərəqlədim, mənə əsla bəsit görünmədi, üstəlik, o qədər əl yazısında bir dənə orfoqrafiya səhvi tapa bilmədim. İndi yazanda orfoqrafiya, ümumiyyətlə “yadıma düşmür”.

Cavad müəllim mənə tək ədəbiyyatı yox – Azərbaycanı, tariximizi, sözü, doğulduğum yerləri sevdirmişdi. On bir-on iki yaşlı uşağa – öz elədiyi təsadüfi səhvdən ibrət almağı, qaranlığa, qorxuya boyun əyməməyi, ruhunu əzdirmədən, başıuca yaşamağı, öz əməyinə, ağlına güvənməyi öyrətmişdi.

O vaxt indiki kimi deyildi, kitabxana işində bir sistem var idi. Yeni kitabların bir qismi ən ucqar kəndlərə də gəlib çatırdı.

Kitabxanada dünya və rus ədəbiyyatından nə vardısa, qısa müddətdə oxuyub qurtardım. Öz ədəbiyyatımızdan Mirzə İbrahimovun “Gələcək gün” Məmməd Səid Ordubadinin “Qılınc və qələm”, İsmayıl Şıxlının “Ayrılan yollar”, İsa Hüseynovun “Astara qızları” romanları da yenicə nəşr olunmuşdu və bu əsərlərin müəlliflərinə o vaxt ürəyimdəki yaranmış sevgi və sayqı – bütün ömrüm boyu məni tərk etmədi, sonralar onlarla (Məmməd Səid Ordubadi istisna olmaqla) uzun sürən bir dostluğumuzun təməl daşları mənim uşaqlıq illərimdə qoyulmuşdu... O günlərdə anamın tez-tez dediyi “Allah, mənə ölüm ver!” sözü doğrudan-doğruya hər gün mənim də ürəyimdən keçirdi. Yaşadığım o müsibətli günlərdə mən ölümə doğrudan da çox yaxın idim və özümü öldürməyin çeşidli variantları gecə-gündüz beynimdən çıxmırdı. Kimsənin görmədiyi, bilmədiyi bu gizli savaşda uçurumun başından həmişə bir neçə gizli əl məni geri çəkdi. Birinci atamın əli, onun səbri, tükənməz dözümü; ikincisi Balaş əmi, savaşda o qədər ölüm görmüşdü ki, ən yaxın adamların ölümü belə ona toxunmurdu, güclü, dərdə qapı tanıtmayan, hər şeyə çox-çox ucalıqdan baxan, qardaşlarının dedikləri kimi “əhlikef” bir adamdı. Aclıq-toxluq, ölüm-itim halını pozmadı. Bu xasiyyəti ilə o, onun yanında, Biləsuvarda olduğum günlərdə yaramın sağalmasına çox kömək etmişdi.

Ağır psixoloji stresdən çıxmağıma kömək edən üçüncü adam, heç şübhəsiz, Cavad müəllim idi. Bu işi görərkən o, çox üsullardan istifadə edirdi. O üsulların ən mühümlərindən biri, heç şübhəsiz, bizə insanları, doğulduğumuz yeri və təbiəti sevdirmək idi. Onun söhbətlərindən sonra – dağlara, meşələrə, qayalara ayrı gözlə baxırdım.

Altıncı sinifdə yenə Cavad müəllimin təşəbbüsüylə mən rayon mərkəzində məktəblilərin bədii olimpiadasına qatıldım, öz şeirimi və Səməd Vurğunun “Mən tələsmirəm” şeirini oxudum. Bundan sonra münsiflərin qərarıyla – Bakıya gedəcək heyətə mənim də adımı yazdılar. İndi payız, ya yaz olduğunu xatırlamıram. Beş, ya altı uşaq rayon komsomol komitəsinin birinci katibinin başçılığı ilə Bakıya, respublika uşaq bədii olimpiadasına gəldik.

Bu mənim Bakıya ilk gəlişim idi. Bakıya ilk gəliş, həm də qatara ilk minməkdi. Poçt maşınının üstündə Yardımlıdan Masallı stansiyasına gəlmiş, orda bir neçə saat gözlədikdən sonra, nəhayət, qaranlıqdan səs-küylə çıxan, tək gözüylə stansiyanı və perronu bu başdan o başa işıqlandıran qatara minib Bakıya doğru yol almışdıq.

Olimpiada günlərindən ən çox yadımda qalan Bakının neft qoxuyan havası, xlor iyi verən suyu və söz yox, dənizin möhtəşəm mənzərəsi oldu. Bir də Hökumət evinin görkəmi, mərmər foyeləri, ətrafında bir boyda “qırxılıb” daranmış yaşıllıqlar unudulmaz təsir bağışlamışdı.

Şair Qabilin adını ilk dəfə qaynı, sinif yoldaşım Tofiqdən eşitmişdim. O şairin “Tut ləkəsi” şeirini deyəndə ilk dəfə içimdə bir sual yaranmışdı. Şeirin yolu hansıdır, mənim yazdığım və ya Səməd Vurğundan oxuduğum pafoslu misraları, yoxsa Qabilin həyatda hər gün gördüyümüz bir olaya həsr etdiyi sadə ifadə tərzi?

Qabil mənim gördüyüm ilk canlı şair idi. Tofiqin bacısı (Qabil müəllimin hörmətli ömür-gün yoldaşı) – Bəyim xanım yemək bişirib bizi evlərinə qonaq çağırmışdı. Məktəb yeməkxanasında yediyimiz yeməklərdən sonra ağzımız dada gəldi. Bir yandan da Qabilin anası başımıza fırlanaraq boşqablarımıza əlavə xörək qoyub utanıb-çəkinmədən yeməyi təklif edirdi. Qabil biz getməyə hazırlaşarkən gəldi, görüşüb ayrıldıq. Nədənsə görkəmi mənim şair təsəvvürümlə düz gəlməmişdi. Amma sonralar tale bizi yenə görüşdürdü, uzun müddət bir yerdə işlədik, dostlaşdıq.

O səfərin unudulmaz olaylarından biri də Cavad müəllimin Bakıya gəlib bizi tapması olmuşdu. Həmin axşam o, məni Akademik Milli Teatra apardı və biz bir yerdə Cəfər Cabbarlının “Dönüş” əsərinin tamaşasına baxdıq. Cabbarlinin zəif əsərlərindən olsa da, tamaşa mənə unudulmaz təsir bağışlamışdı.

Qabilgilin cəmi iki otaqları vardı. Sıxlıq idi – ayaqqabılarımızı çıxartdığımız girişdə də, yemək masasının arxasında da... Bir şairin bu sıxıntıda necə yaşadığı mənə qəribə gəlmişdi. Amma Bəyim xanımın danışığı bu sıxıntını unutdururdu. Bizimlə elə danışırdı ki, sanki Yardımlıdan dünən gəlib.

Bir də şəhərlilərin balkon dedikləri açıq eyvan xoşuma gəlmişdi. Burada darıxmadan saatlarla otura bilərdim, rahat nəfəs alardım. Qabil müəllimin anasının bu balkonda döşəkcə atıb üstündə oturduğu sandıq da düpbədüz bizim evimizdəki sandıqlara bənzəyirdi.

* * *

Cavad müəllim bizim kənd məktəbində iki il işlədi. Mən yeddiillik məktəbi bitirib Yardımlı qəsəbəsindəki M.F.Axundzadə adına orta məktəbə (sonra onbirillik oldu) gələndən bir il öncə kənddən ayrılmışdı.

Sonra eşitdim ki, Cəlilabadın Göytəpə qəsəbəsindən (indi şəhər) Məhbubə adlı bir qızla (o da müəllim idi) evlənib və köçüb Hacıqabulda işləyir. Sonra ordan indiki Şirvana köçdü. Əlaqəmiz üzülmədi, məktublaşırdıq, lakin ən maraqlısı onun yeni şagirdlərindən mənə gələn məktublardı. Orda da yeni ədəbiyyatçılar yetişdirirdi. (Yazıçı Mənzər Eynullayeva – tənqidçi-alim Akif Hüseynovun yoldaşı və Nizaməddin Mustafa və s.)

Yardımlı orta məktəbində Cavad müəllimin yerini başqa bir qazaxlı müəllim tutdu – Şahvələd Mustafayev. O da dörd il məni riyaziyyatçı kimi yetişdirdi...

Cavad müəllimlə məktublaşmalarımız seyrəlsə də, davam etdi. Ədəbiyyat, yoxsa riyaziyyat? Sonda ədəbiyyat üstələdi, daha doğrusu, riyaziyyat müəllimimdən incidim və ədəbiyyatı seçdim...

Cavad müəllimin ədəbiyyat, düşüncə, nitq dərsləri bütün ömrüm boyu yardımçım oldu. O, mənə açıq və cəsarətli danışmağı öyrətmişdi.

Əslində, bu cəhətdən ilk müəllimim atam olmuşdu, dərsimi onun əyilməz və mərdanə ruhundan, məclislərdəki söhbətlərindən, sözübütövlüyündən və qorxmazlığından almışdım. Atamın bu dərsini Cavad müəllim davam etdirmişdi. O da atamı çox məclislərdə, valideyn yığıncaqlarında sözü şax deyən və dediyinin ağası olan bir adam kimi tanımışdı və buna görə də aralarında hörmət-izzət vardı.

* * *

Universitet illərində yenə əlaqələrimiz üzülmədi; Bakıya gələndə axtarıb məni tapırdı, söhbətləşirdik, sanki bu illərdə nəyin dəyişildiyini öyrənməyə çalışır, məsləhətlər verirdi. Kənddəkilərin vəziyyətinin ağırlığını, geri çağırdıqlarını, qiyabiyə keçib qayıtmaq istəyimi deyəndə qətiyyətlə etiraz edir və özünəməxsus şux zarafata keçirdi. “Sən heç, ədəbiyyatımız çox şey itirər!” Sonra qarabuğdayı sifətinə bir ciddiyyət gəlir, qaşları düyünlənir və gözünü gözümə zilləyib “Bir gün gələcək, sən öz qədrini biləcəksən! Sənin kimi gənclər gündə yetişmir. İstəyirsən özüm gedim kəndə, Xudu kişiylə danışım” deyirdi. Söz yox, mən buna razılaşmırdım: “Getsən, sevinərlər; təkcə bizim ailədə yox, bütün kənddə sizi çox istəyirlər, bayram edərlər getməyinizi!” deyirdim. Təəssüf ki, onda getmirdi və sonralar da gəncliyində tərk etdiyi kəndə onu qonaq aparmaq mənə qismət olmadı.

Universitetdə oxuduğum illərdə Cavad müəllim Məhbubə xanımla hələ Hacıqabulda işləyirdilər və aprelin əvvəlində Qobustan çöllərinin yamyaşıl olduğu və Hacıqabulda qovaq ağaclarının tüstü kimi yüngül yaşıllığa boyandığı aprel günlərin birində ilk dəfə onlara qonaq gəlmişdim. Bütün gecəni söhbət etmişdik. Sonra onlar indiki Şirvan şəhərinə köçdülər, orda beşmərtəbəli binada ev aldılar. Üç övladları (iki oğlan, bir qız) dünyaya gəldi, yenə ayağım onlardan üzülmədi.

Bir ilk dəfə respublika mətbuatında şeirimin çıxmasına, bir də IV kursda oxuyarkən qəfildən “Ədəbiyyat və incəsənət” qəzetində işə düzəlməyimə çox sevinmişdi.

1972-ci və ya 1973-cü illərin hansındasa Cavad müəllim ağır bir faciə yaşadı. Oğlu İlqar dostuyla bərabər bir qızı Mişov dağına aparıb öldürmüşdülər.

Bu, gözəl, şərəfli, romantik bir həyat yaşayan sevimli müəllimimin çöküşünün başlanğıcı oldu.

Məhkəmə İlqara ölüm hökmü oxudu. Cavad müəllim özünü çox oda-közə vurdu, xeyri olmadı. Müəllimlik unudulmuşdu, daha doğrusu, bu xəbər çıxan

günün sabahısı ərizə verib müəllimlikdən çıxmışdı: “Bu hadisədən sonra mən sinfə girib, uşaqların gözünə baxa bilmərəm” – demişdi. Yollarda, məhkəmələrdə soyulmuşdu.

Vaxt tapanda mənə də baş çəkir, dərdini bölüşürdü. İlqarın güllələnəcəyi günü gözləyirdi. Bir gün başqa bir ovqatla, sanki dərdinə bir çarə tapmış kimi gəldi:

– Sabir, sən mənə kömək etməlisən, biz İlqarı ölümdən qurtarmalıyıq. Çox böyük səhv edib, mənim belimi qırıb, dilimi kəsib, bilirsən, ancaq övladdır, anası ayaq üstə ölüb qurtarıb, biz yaşaya-yaşaya oğlumuzun edam edilməsinə dözə bilmərik. O ölən qızı da Şirvanda yaxşı tanıyırlar. Günah onun özündə olub.

Bu işin təfərrüatı ilə onda maraqlanmamışdım, sonra da maraqlanmadım.

– Mən nə edə bilərəm, Cavad müəllim? Mənim əlimdə nə imkan var? – dedim.

– Yox, sənin əlində imkan var, böyük imkan var sənin əlində, bunu mənə məhkəmədə deyiblər. İlqarın ölüm hökmünü on beş ilə endirsək, daha ardınca getmərəm, qoy cəzasını çəksin! – dedi.

Mən sözümü təkrar etdim:

– Axı mən nə edə bilərəm?

– Ölüm hökmü hələ Ali Sovetdə təsdiq olunmayıb. Süleyman Rüstəmlə danışa bilərsən, onun ixtiyarındadır, Ali Sovetin sədridir, ağsaqqaldır, sözü keçər, dəyişdirə bilər bu hökmü...

Söz ağlıma batdı. Tərəddüd eləmədən telefonu götürüb Süleyman Rüstəmə zəng vurdum. Qəzetə gəlib-gedirdi, məni tanıyırdı.

– Süleyman müəllim, salam, necəsiniz? Sabir Rüstəmxanlıdır, “Ədəbiyyat və incəsənət” qəzetindən.

– Salam, salam! Buyur, eşidirəm.

– Sizinlə görüşmək istəyirəm.

– Elə indi? Sabah Yazıçılar İttifaqına gələcəyəm.

– Yox, elə indi!

– Onda, dur gəl! Evdəyəm!

Cavad müəllim sevindiyindən bilmirdi neyləsin. Elə bil İlqarın ölüm hökmünün ləğvi haqqında qərar Süleyman Rüstəmin əlindədir, gedib alıb qayıdacağam.

Getdim, Süleyman müəllim Sahil bağına baxan yarımdairəvi otağında məni mehribanlıqla qarşıladı. Bir az Yazıçılar İttifaqından gileyləndi. Son vaxtlar bizim qəzetdə çıxan qəzəllərinə münasibətimi soruşdu. Yaxşı qəzəllərdi və mən, söz yox, xeyli təriflədim qəzəlləri. Xahişimin bu tərifə heç bir aidiyyəti yox idi. “Siz Cənub mövzusunu unutdurulmağa qoymursunuz!” – dedim.

Sonra birdən-birə mövzunu dəyişdi. – Bilirsən, bəzən cavanları çaşdırırlar. – Mən zarafatla “ya da özləri çaşırlar” dedim. Üzünə təbəssüm gəldi, canlandı. Səttar Bəhlulzadənin barmaqlarına bənzər barmaqlarının arasındakı siqaretə bir qullab vurdu. Ancaq hiss olunurdu ki, heç vaxt tüstünü dərindən içinə çəkməyib.

– Sən çaşmazsan, ağıllı oğlansan, qəzetdəki yazılarına baxıram, şeirlərini oxumuşam. Sənə deyə bilərəm. Cavanlar mənə bayram şairi deyirlər. Amma heç kim bilmir ki, mənim qırmızı bayraqlarımın arxasında nə dayanır.

– Bilirəm, Süleyman müəllim, o bayram şeirlərini yazmasanız, Cənub şeirlərini də ortaya çıxara bilməzdiniz.

– Bizim dövrümüz çətin idi. Başqasını bilmirəm, mən inqilaba, yeni ideologiyaya inanmışam.

Sonra mövzunu dəyişdi:
– Hə, buyur görüm, mənə tapşırığın var. Buyur.
Yumoruna nə cavab verə bilərdim ki?
– Xahişə gəlmişəm, Süleyman müəllim. Orta məktəbdə mənə ədəbiyyat dərsi demiş, Səməd Vurğunu, sizi, Rəsul Rzanı, Müşfiqi mənə sevdirmiş ədəbiyyat müəllimimin xahişini sizə çatdırmaq istəyirəm.
Sonra Cavad müəllimin başına gələnləri və xahişimizi çatdırdım.
Belə böyük məsələ üçün ona müraciət etməyimə təəccüblənmədi. Sakitcə:
– Çox ağır işdir! Ancaq sənsən də. Yəqin o müəllimin olmasa, sən də şair olmazdın. Gərək Qurban Xəlilovla, Rəyasət Heyətinin üzvləriylə danışım. Tək-tək. Baxaq görək məni eşidəcəklər?
Yavaşca:
– Eşidərlər! – dedim. – Siz desəniz, eşidərlər...
– Baxaq da!
Söhbətimiz qurtardı.
Aşağı endim, bağda məni gözləyən Cavad müəllimə söhbətimizi bütün təfərrüatı ilə danışdım. O, rayona getdi, mən də başımdan aşan gündəlik işlərimin dalınca.
İki həftə sonra səhər-səhər telefon zəng çaldı.
– Necəsən, qəhrəman?
– Salam, Süleyman müəllim! Yaxşıyam, siz necəsiz?
– Necə olacağam! Sənin tapşırığını yerinə yetirməklə məşğuldum. Gözün aydın, o məsələ düzəldi.
Çaşıb qaldım. Fikrim ədəbiyyat aləmindəydi. Cavad müəllimin xahişi tamam yadımdan çıxmışdı.
– Süleyman müəllim, hansı məsələ?
Telefonda Süleyman müəllimin enerjiylə dolu səsi gurladı:
– Ə, nə qəribə adamsan! Sən mənə o boyda iş demisən. Müəlliminin oğlunu ölümdən qurtarmışıq, sən də deyirsən nə məsələ...
Üzürxahlıq... Təşəkkür... Minnətdarlıq...
Daha bu xəbərə görə nə deyəcəyimi bilmirdim.
Təcili Cavad müəllimə xəbər çatdırdım.
Artıq köçüb Qazaxda Yuxarı Salahlıda yaşayırdı.
Ertəsi gün özünü yetirdi. Sevincindən gözü yaşla dolub-boşalırdı.
– Sən Allah, zəng vur, xahiş elə, qoy məni qəbul eləsin, üzbəüz ona öz təşəkkürümü bildirim.
Zəng vurdum:
– Süleyman müəllim, Cavad müəllim gəlib, sevincindən ağlayır.
– Denən qoy ağlamasın, təbrik edirəm.
– Gəlib sizinlə görüşmək, sizə razılığını bildirmək istəyir.
– Sağ olsun, sən çatdırırsan təşəkkürünü, bəsdir! Əziyyət çəkməsin.
Sonra bir az ara verib gülə-gülə:
– Mənə nə pay-püş gətiribsə, onu da versin sənə.
Mən də güldüm. Ancaq sonra duruxdum. Bəlkə böyük şair doğrudan elə bilir ki, mən müəllimimə təmənna ilə kömək edirəm. Səsim dəyişildi:
– Süleyman müəllim, o, müəllimlikdən də ayrılıb. Bəzən gəlib-getməyə pulu olmur, biletini də mən alıram. Sadəcə, təşəkkür eləmək, əlinizi sıxmaq istəyirdi.
Şair həssaslığı ilə, pozulduğunu dərhal hiss elədi:
– Sən də sözbaz olma! Zarafat edirdim. Gərək ömrünün axırına kimi sənə minnətdar olsun.

**Aradan 13 il keçdi.**

SSRİ-nin sonu yaxınlaşırdı. Azərbaycanın ələbaxan, kölə ruhlu rəhbərliyi yalançı referendum keçirsələr də, imperiyanın dağılması qaçılmazdı. Belə bir vaxtda mən rəsmi mövqeyə qarşı sərt yazılar yazır, "Azərbaycan" qəzetini buraxırdım. Bu arada Moskvanın Qarabağda Azərbaycanı diz çökdürmək, Rusiyadan ayrılmaq planına mane olmaq planı davam edirdi. Təzyiq güclənir, Qarabağ addım-addım işğal olunurdu. Çox ağır günlərdi. Mən ürəyimi qəzetlə, mitinqlərdəki çıxışlarımla soyudurdum.

1990-cı ilin payızında seçkilər keçirilmiş, Bakının Xətai rayonundan Ali Sovetə deputat seçilmişdim. Ali Sovetdə sanki qəsdən, ən çətin iş mənə tapşırılmışdı; Qaçqınlarla İş Komissiyasının sədri və Rəyasət Heyətinin üzvü idim.

Günlərin birində Cavad müəllim "Azərbaycan" qəzetinin Neft və Kimya İnstitutunun yanında, Respublika Uşaq Fondunun yerləşdiyi binada, III qatdakı redaksiyasına gəldi. Deputat seçildiyimə görə təbrik etdi, qəzeti izlədiyini bildirdi.

– Fəallığına çox sevinirəm. Camaat səni çox istəyir. Düz yoldasan, davam elə! – dedi.

– Çalışırıq, amma əlimizdən bir iş gəlmir! Rəhbərliyimizin vecsizliyi hər şeyi alt-üst edir! – dedim.

– Ağılları olsa, səni Ali Sovetin sədri seçərdilər! – dedi.

– Mənim elə bir iddiam və həvəsim yoxdur, – dedim. – 360 deputatın çoxu köhnə fikirli, SSRİ-nin yetişdirdiyi və müstəqilliyin əleyhinə olan adamlardır. Onlarla nə etmək olar? – dedim. – Həm də Elmira xanım mərd və ağıllı xanımdır.

Sonra ona vaxtilə Ukraynada, Xerson vilayətində keçirilən Azərbaycan günlərində mənim oxuduğum şeirə görə Kamran Bağırovun necə özündən çıxdığını və Elmira xanımın onu necə üsulluca sakitləşdirdiyini, ziyafətdən sonra yerli adətə baxmayaraq sıraya düzülüb bizi öpərək yola salan yerli bürokratiya ilə zarafat edə-edə bircə kişinin də ona toxunmağına şərait yaratmamasını danışdım. Bu əhvalat ürəyimdə Elmira xanıma xüsusi rəğbət yaratmışdı. O da mənə hörmətlə yanaşırdı və bir dəfə 6-ci kalonda dustaqlar üsyan qaldıranda məni dəvət edib "onları ancaq sən sakitləşdirə bilərsən!" – deyə məndən türməyə getməyi xahiş etmişdi.

Cavad müəllim bu söhbətləri sakitcə dinləyirdi. Lakin hiss edirdim ki, fikri ayrı yerdədir. Arxaya daradığı sıx saçları çallaşmış, bığlarına dən düşmüşdü.

– Nə olub, bir narahatçılıq var? – deyə soruşdum... – İlqar necədir?

– Elə ona görə gəlmişəm. İlqarın vəziyyəti yaxşı deyil. Türmə rəisi onu incidir. Bilirsən də, cəmi iki ili qalır çıxmağına.

Heyrətləndim:

– İllər necə tez keçir!..

– Hə! Sənin sayəndə yaşayır! Qorxuram onu şantaj edələr; yenə bir lazımsız hərəkət edə, vaxtında çıxa bilməyə!

– Səbəbsiz incitməzlər axı!

– Bilmirəm mənə belə yazıb.

Əlimdəki yazımı yarımçıq qoyub:

– Dur gedək! Türmə rəisini tanımıram, ancaq gedək!

O sevincək:

– Sən onu tanımasan da, o səni tanıyar! – dedi.

Maşına oturub 7-ci İslah-əmək düşərgəsinə, Köhnə Əhmədliyə gəldik.

Cavad müəllim maşında qaldı, mən qapıya yaxınlaşdım. Doğrudan da, adımı eşidən kimi, rəis özü qapıya yaxınlaşdı və məni iş otağına apardı.

Gəlişimin səbəbini söylədim. Susdu. Çətin vəziyyətdə qaldığı bilinirdi.

– Sabir bəy, təəssüflənirəm ki, İlqarın məsələsi mənim gücüm daxilində olan iş deyil. Zəhmət çəkib gəlmisiniz, sözünüzün yerə düşməsini istəməzdim. Lakim İlqarı burda incidən yoxdur, mən tanıyıram onu, pis oğlan deyil, ancaq böyük səhv edib. Mən də xəbər tutmuşam. Qumar oynayıb “Tavan altına düşüb” (mən bu ifadəni ilk dəfə eşidirdim). O biriləri də normal adamlar deyil. Sabah axırıncı günüdür. Sabaha çatdırmasa borcunu, onu mən də müdafiə edə bilmərəm və ondan sonra burdan heç çıxmasa yaxşıdır. Borcunun nə qədər olduğunu soruşdum və 150 min sözünü eşidəndə çaşıb qaldım. Bu, mənim gözümdə fantastik bir rəqəm idi.

Deməyə sözüm qalmamışdı. Vidalaşmaq istəyəndə “Mənim də sizdən bir xahişim var” – dedi. “Buyurun!” “Gəlmişkən burdakı dustaqlarla görüşün”. “Mənim etirazım yoxdur!” – dedim və sonra ona 6-cı kalonda üsyanı necə yatırdığımızı danışdım.

Tapşırığını verdi. 5-6 dəqiqə sonra biz içəridən çıxanda həyət adamla dolu idi, dustaqlar sıraya düzülüb gözləyirdilər; aralarında tanış sifətlər də vardı, məni köhnədən görüb-bilən və səmimi salamlaşan da.

Rəis məni təqdim elədi. Əslində, buna heç ehtiyac da yox idi. Xorla “Tanıyırıq” dedilər. Şübhəsiz, Meydan hadisələri onların da yadındaydı.

Çıxışımda SSRİ-nin dağılması ərəfəsində olduğumuzu, Moskvanın 100 ildən bəri davam edən ermənipərəst siyasətini, Qarabağdakı ağır vəziyyəti xatırlatdım, qısaca son seçkilərdən necə çətinliklə keçdiyimizi izah etdim. Sonra şikayətləri varsa Ali Sovetə – mənə göndərə biləcəklərini və ya rəisə verib onun vasitəsilə çatdıra biləcəklərini söylədim və imkan, qanun daxilində kömək edəcəyimə boyun olub sözümü yekunlaşdırdım: “Dünya yaranandan insanlar səhv edə-edə gəlirlər. İnsan olan yerdə cinayət də var, cəza da! Kişinin əlindən xata çıxar. Mənim də əlimdən çıxıb. Lakin cinayəti törədən kişi onun cəzasını da kişi kimi, mərdi-mərdanə çəkməyi bacarmalıdır. Burda olsanız da, gərək cəmiyyətdən tam təcrid olunmayasınız. Azərbaycanın vəziyyətini siz də nəzərə alasınız, azadlığa çıxanda hansı yolla vətənimizə xeyir verə biləcəyinizi düşünəsiniz”.

Mənə elə gəldi ki, çıxışımdan razı qalıblar, bunu üzlərinin ifadəsindən, alqışlarından gördüm. Ayrılarkən rəis də çox razılıq elədi. “Sizin kimi adamlar tez-tez gəlib bunlarla görüşüb belə söhbətlər eləsələr, burda qayda-qanunu pozan olmaz”.

Sonda İlqarla bağlı narahatçılığımı bir də dilə gətirdim. Rəis çarəsizliklə çiynini çəkdi. “Vallah, əlimgirən iş deyil, Sabir bəy!” – dedi. “Atası burdadır, çöldə gözləyir, qoy vəziyyəti deyim ona, ancaq bilirəm ki, heç nə eləyə bilməz.Tam imkansızdır.” Mehribanlıqla görüşüb ayrıldıq.

Çıxdım, maşını işə salıb yol boyu vəziyyəti Cavad müəllimə danışdım. Rəngi bir az da qaraldı. Çiyinləri sallandı. Eyni 13 il əvvəl olduğu çarəsiz durumdaydı.

“Sən mənim vəziyyətimi bilirsən, – dedi, – bəzən borc alıb gəlirəm Bakıya, Şirvandakı bütün yoldaşlara, Qazaxdakı qohumlara da desəm, bu pulun heç beşdə birini toplaya bilmərəm. Hamımız müflisik! – dedi.

“Burda vaxt məsələsi də var! Sabaha çatmasa, sonra mənasızdır!”

Ömründə kövrəldiyini görmədiyim müəllimim, dostum ağlayırdı.

Ondan ümid kəsilmişdi. İndi sabaha kimi bu pulu hardan tapa biləcəyimi mən düşünürdüm. Ömrümdə bu boyda pul görməmişdim.

**Haşiyə:** Bu əhvalat 1991-ci ildə köhnə əskinasların yeniləriylə dəyişildiyi günlərdən az sonra baş vermişdir.

Hər adam müəyyən limit daxilində pul dəyişə bilərdi. Mənə limit yox idi. Həm rəsmən, deputat kimi, həm də banklarda şəxsi hörmətimə görə. Amma nə olsun, nəyi dəyişəcəkdim? Bu arada "Azərbaycan" qəzetində işləyən bir-iki nəfər yaxınlaşıb onların, ya qohumlarının pullarını dəyişməyi xahiş etmişdilər. Dəyişmişdim, söz yox, təmənnasız! Sonra bir gün gənc şair dostum Rüstəm Behrudi içəri girib: "Bəy, vaxt azaldıqca pullu adamlar təşvişə düşürlər. Mənim tanışlarım var, institut müəllimləri, bilirsən də əlləri pulla oynayır, yayda yığıblar, indi nələri varsa batır, kim dəyişsə, yüzdə qırxını verməyə hazırdılar." "Rüstəm, mən bu yolla pul qazanmaq isrəmirəm. Qırx faiz bilirsən nə deməkdir!" "Bəy, onsuz da nələri varsa, çıxır əllərindən. Adlarını da deyə bilərəm onların. Pullarını balta kəsmir. Dünənə kimi danışanda ağlayırdılar. İndi çabalaya-çabalaya qalıblar." Sonra birdən: "Heç sənin dəyişdiyini bilməyəcəklər". Bircə, banka bir yerdə gedək, vəssalam!

Rüstəmin xətrini çox istəyirdim, etiraz edə bilməmişdim. Bir neçə dəfə bərabər banka getmişdik, sonra da Rüstəm kağızın arasında o faizləri gətirib masamın üstünə qoymuşdu. Əslində, adamları xilas edirdik, lakin nədənsə, mənə utandırıcı bir iş kimi görünürdü.

Bükülüləri açıb baxmadan otaqda məndən əvvəl işləyənlərin yadigarı olan, pilləlari endirə bilmədiklərindən qəzetə bağışladıqları seyfə qoymuşdum. Nə isə, mən onları heç öz pulum da saymırdım. Ancaq söz yox, seyfdən də qaçıb getməyəcəkdilər.

Redaksiyaya çatmağa az qalmış birdən bu əhvalat yadıma düşdü. Cavad müəllim ayrılıb getmək istəyəndə "beş dəqiqəliyə yuxarı çıxaq!" – dedim. Qalxdıq, onun üçün çay gətirtdim, sonra seyfi açıb bükülüləri tökdüm masanın üstünə və müəllimimin təəccüblü nəzərləri altında saymağa başladım.

Ay zalım İlqar! Elə bil əliylə sayıb qoymuşdu. Seyfdə 150 mindən bir az artıq pul yığılıbmış. O vaxtın ölçüləriylə (elə indinin də) mənim bütün sorunlarımı həll edə, ehtiyaclarımı ödəyə biləcək bir sərvətdi...

Elə bil üstümdən dağ götürüldü. Həm İlqar xilas olacaq, həm də ürəyimdəki sıxıntı bitəcəkdi. Qəlbimin dərinliklərində Rüstəmə də, rüşvətxor institut müəllimlərinə də dua edirdim.

150 mini səliqəylə qəzetə büküb bağladım və Cavad müəllimə uzatdım: "Mümkünsə, elə indi apar ver, qoy İlqar tavan altından çıxsın! Mən indi rəisə zəng vuracam, sizi görüşdürəcəklər!"

Üzümə baxa-baxa qalmışdı. Bağlamanı götürə bilmirdi.

"Narahat olma, – dedim! – Bu elə İlqarın qismətiymiş. Rüşvət pulu qumara gedər!"

Qalxdı, qəddi düzəlmişdi. Üzü gülürdü. Məni qucaqlayıb getdi.

Elə bildim Cavad müəllimə olan borcumun bir hissəsini verdim.

...2 il sonra, mən artıq nazir işləyəndə katib – "qəbulunuza İlqar adlı bir adam gəlib" – deyəndə bunun Cavad müəllimin oğlu olduğunu bildim. Gəldi. Məni qucaqladı. "Mənə bu həyatımı sən vermisən, əsgərinəm, qalıb burda sənə xidmət etmək istəyirəm, sürücü, mühafizəçi..."

–Sağ ol, dedim! Sən get, atana xidmət elə! Onu çox incitmisən!

Bir dəftər verdi.

"Bu mənim iqtisadiyyatla bağlı lahiyələrim, təkliflərimdir. On beş il bu işlə məşğul olmuşam. Bəlkə ölkəyə köməyim dəydi."

Vərəqlədim. Ağlım bir şey kəsmədi.

– İlqar, bu sahənin mütəxəssisləri ayrıdır. Gərək onlara göstərəsən, – deyib, dəftəri ona qaytardım.

Ayrılarkən gülümsədi: “Bilirsiniz, türmələrdə sizin hörmətiniz böyükdür. Sabir Rüstəmxanlı gəlib bir dustağı tavan altından çıxarıb deyirdilər. Xüsusən Lotu Bəxtiyar səni çox tərifləyirdi...”

“Bəxtiyar şagirdim olub, dedim. Universitetdən təcrübəyə bizi onun oxuduğu məktəbə göndərmişdilər...

Sonra eşitdim ki, İlqar Rusiyaya gedib, orda istəyir.

Cavad müəllimlə görüşlərimiz bununla bitmədi. Qazaxda keçirilən şeir günlərində, seçkilərdə dəfələrlə görüşdük, 2000-ci il seçkilərində mənim rayonda təbliğatçım oldu.

Bir dəfə də Gürcüstandan gələndə xəbərsiz-ətərsiz evinə döndüm. İkinci ailəsiylə, oğluyla tanış oldum.

Ən sonda, deyəsən, 2014-cü il idi. Yenə Gürcüstandan geri dönəndə görmək istədim. Ancaq vaxtım da yox idi. Gecəyə düşməyim deyə, dayanmadan maşını qovmaq istəyirdik.

Həm də dönüb əziyyət vermək istəmirdim. Maşın kəndi keçib, xeyli aralanmışdı. Birdən anladım ki, elə beləcə keçib getsəm, yol boyu rahatsız olacaq, özümü qınayacağam. Hər günün öz hökmü var. Sürücüyə “maşını geri döndər!” – dedim.

Cavad müəllimin Kür meşələrinə baxan evinin qarşısındakı oturacaqda üç qadın oturmuşdu. Biri Cavad müəllimin yoldaşıydı. Boynumu qucaqladı, “Niyə gec gəldin? Səni çox gözlədi!” – dedi.

Cavad müəllim altı ay öncə ölübmüş...

* * *

Yuxarıda yazdığım kimi, Cavad müəllim ilk şeirlərimlə, sərbəst yazılarımla bərabər, ona göndərdiyim məktubları da saxlayırmış və “yaşa dolmuşam, başıma bir iş gələr, bunlar itib-batar, sənin uşaqlığının yadigarlarıdır...” deyə, 1995-ci ildə mənə vermişdi. Bu diqqət məni heyrətə gətirmişdi. O gedəndən sonra qovluqdakı zəif uşaqlıq şeirlərini cırıb atdım, məktubları saxladım. Bu xatirələri çapa hazırlarkən köhnə kağızların arasından o məktublar əlimə keçdi... Məktublaşmağımız 14 yaşımdan başlanıb və uzun illər davam edib. İlk gənclik illərimin düşüncə, tərəddüd və arzularına aydınlıq gətirdiyinə, müəllim-şagird münasibətlərinin əhəmiyyətini göstərdiyinə görə, bu ürək çırpıntılarının bir neçəsini sözünə, nöqtə-vergülünə toxunmadan yazıma əlavə edirəm...

* * *

**Əziz və hörmətli müəllimim!**

Salam!

Sizin məktubunuzu aldım və hədsiz dərəcədə sevindim. Çünki çoxdan idi sizdən məktub almırdım. Bir dəfə məktub yazdım, ancaq cavab almadım. Elə hiss edirdim ki, siz məktubu almısınız, ancaq özünüz cavab yazmırsınız. Sonra bu məktub gəldi.

Mənim vəziyyətim çox yaxşıdır. Dərslərim yaxşı gedir. Kəndimiz siz gördüyünüzdən çox da fərqlənmir. Ailəmizdə salamatlıqdır. Sizi həmişə

hörmətlə yad edirlər. Hələlik həyat yolumu müəyyən edə bilməmişəm. O, gələcəkdən asılıdr. Ancaq hərdən kiçik-kiçik şerlər yazıram. Ancaq pis çıxır. Əgər vaxtınız olsa, özünüz haqqında mənə yazın. Yazırsınızmı? Bəs nə üçün mətbuatda yoxdur? Bir də şəkil. Mümkünsə, şəklinizi mənə göndərin.

Sizə çoxdan məktub yazmadığıma görə məni bağışlayın.

Şagirdlərinizə məndən salam söyləyin.

Aşağıda bir şer yazmışam. Onun haqqında rəyinizi yazsanız, sizə minnətdar olaram.

***Sizin Sabir.***
***04.IV.1960***

* * *

**Əziz və sevimli müəllimim!**

Salam!

Mən sizin yazdığınız məktubu aldım. Lakin sizə qəti cavab vermək üçün fikirləşmək lazım idi. Odur ki, mən bir az gecikmişəm. Müəllim, təəssüf olsun ki, **mən ədəbiyyatçı olmayacağam.** Çünki, elmi-texnika ucsuz fəzaları fəth edəndə onu yalnız bəzəməkdən nə çıxar? Riyaziyyat, fizika isə texnika deməkdir. Bu sözü sizə demək mənim üçün çox çətindir. Lakin yalançılıq nə üçündür. Aydın danışmaq yaxşıdır. Müəllim, bu fikirlər məni girdaba salmışdı. Bu girdabdan çıxmaq çox çətin idi. O, məni çox düşündürürdü. Bəzən saatlarca bu haqda fikirləşirdim. Nəhayət, qərara gəldim. Lakin nə olursa olsun, mən yenə də sizi özümün ən əziz müəllimim hesab edirəm. Çünki, əsl insana xas olan bir sıra xüsusiyyətləri mənə siz öyrətmisiniz. Müəllim, məndə riyaziyyata həvəs oyanmasına Şahvələd müəllim səbəb olmuşdur. Mən ondan çox razıyam.

Xahiş edirəm şəklinizi mənə göndərin.

Müəllim, deməyə söz çoxdur. Ancaq sizin yanınızda üzüqara olduğum üçün danışmağa əziyyət çəkirəm. Xahiş edirəm məndən inciməyin. Səbrsizliklə cavab gözləyirəm. Əziz müəllim, bəlkə də məktub bir az pis olub, amma məni bağışlayın. Həyəcanlıydım.

***Dolansa neçə il, keçsə neçə il,***
***Yenə də ən əziz müəllimimsiz.***
***Keçdikcə həyatın sınaqlarından***
***Ürək dostu kimi qalacağıq biz.***

***Sizə dərin hörmət bəsləyən Sabir.***
***15.II.1961***

* * *

**Əziz və hörmətli müəllim.**

Salam!

Əziz müəllim, çoxdandır ki, sizə məktub yazmıram. Ona görə məni bağışlayınız. Mən məktub yazmağa çox tənbələm. Sizin vəziyyətinizi yaxşı bilmirəm. Yazın görüm vəziyyətiniz necədir? Bizim kənddə deyirdilər ki, guya siz qış tətilində kəndə gələcəksiniz. Bəs niyə gəlmədiniz?

Mən həmişə sizi xatırlayıram. Lakin bir şeydə mən sizin yanınızda üzüqarayam. Həyatda təsadüf çox şeyi həll edir. Təsadüfdən çox şey asılıdır. Ancaq **mənim fikrim universitetin "mexanika-riyaziyyat" fakültəsinə daxil olmaqdır.** Əgər buna bir təsadüf mane olmasa, mən bu arzumu həqiqətə

çevirməyə çalışacağam. Həm də, oraya müəllim olmaq üçün yox, başqa fikirlə gedəcəyəm. Məncə, buna görə siz məndən inciməzsiniz. Çünki hansı sahəyə getsəm, siz yenə mənim müəllimimsiniz.

Məncə, mənim elə bir adam olmağımı arzulayırdınız ki, gələcəkdə Vətənə bir xeyir verə bilim. Mən həmişə sizin bu arzunuza əməl etməyə çalışacağam. Mən Vətən üçün xeyirli adam olacağam. Vətən yolunda hər şeyə dözməyə hazıram. Mən bütün həyatımı yalnız bir şeyə həsr edəcəyəm. Artıq mən öz yolumu müəyyənləşdirmişəm. Bu yolun axırı hara gedir, kim bilir. **Ancaq məni öz Vətənimin taleyi, öz millətimin taleyi düşündürür.** Mənim yolum belədir. Burada isə sənət məsələsi o qədər də böyük rol oynamır. Ola bilər ki, mən ədəbiyyatı unutmayım. Bu mənim arzumdur. Mən həmişə yazacağam.



Sənətim isə riyaziyyat üzrə olacaqdır.

Eh, müəllim, o qədər deyiləsi, məsləhətləşəsi sözlər var ki, məktubda nə yazmaq olar. Vaxt olar, qismət olsa görüşərik, öz duyub-düşündüklərimi, arzularımı onda sizə danışaram.

Mart ayının 20-i, yaxud 21-də Bakıya gələcəyəm. Yazın görüm yaz tətilində siz harda olacaqsınız. Bəlkə mümkün olsa sizi görərdim. Bunu çox arzulayıram.

Xahiş edirəm ki, universitetin “mexanika-riyaziyyat” fakültəsi haqqında məlumat verəsiniz. O barədə məlumatım azdır.

Müəllim, sizdən bir şeyi də xahiş edim. Əgər mümkünsə ona əməl ediniz. Öz şəklinizi mənə göndərin. Öz şəklimi də yalnız bu məqsədlə göndərirəm. Yoxsa sizin üçün yaxşı şəkil göndərərdim. Burda isə pis oturmuşam. Yaxşısı isə hələlik yoxdur.

Sözüm çoxdur, ancaq hamısını yazmaq olmur. Hələlik bu qədər. Ailə üzvlərinizə məndən salam söyləyin.

Hələlik.

***DÜŞÜNCƏLƏR***

***Ömür dediyimiz bircə damcı su,***
***Ölümsə tez gələn bir həqiqətdir.***
***Çoxdur insanların böyük arzusu,***
***Onları yaşadan yalnız sənətdir.***

***Fəqət, həyat boyu yaşamaq üçün***
***Mənim bir sənətim, qüdrətim varmı?***
***Bu qədər də aciz yarandım neçün,***
***Qüdrətsiz olanlar heç yaşayarmı?***

***Ey könül! Əbədi yaşamaq üçün***
***Sənət meydanına gəl, külüng çalaq.***
***Xalqın ürəyində ucalmaq üçün***
***Xalqın qüdrətindən ilhamlar alaq!***

Müəllim, öz şerimdən ikisini sizə göndərirəm. Xahiş edirəm onlar haqqında fikrinizi mənə yazasınız. Onların nöqsanlarını göstərəsiniz. Onlar şerlərim içərisində orta səviyyəlidir.

***Sizin Sabir.***
***Yardımlı – 27.II.1963***

* * *

**Əziz və hörmətli müəllimim!**

Qəlbimin əbədi və atəşin salamlarını qəbul edin.

Müəllim, birinci növbədə, xahiş edirəm məni bağışlayasınız. Çünki, mən sözümə əməl edə bilmədim. Sizin yanınıza gələ bilmədim. Özüm hiss edirəm ki, nə isə böyük bir şey itirmişəm. Bu, sizin məsləhətlərinizdir. Çünki, əgər sizə gəlsəydim, bəlkə də bir çox şeylər mənim üçün aydın olacaqdı. Ancaq təəssüflər olsun ki, başqa cür edə bilmədim. Çünki, bizi buradan axşam buraxdılar. Qatarla sizə gələ bilməzdim. Səhərə qədər qalmağa da ki, yerim olmadı.

Müəllim, mən öz həyat yolumu seçməkdə çox çətinlik çəkirəm. Bunu siz də bilirsiniz. Mən uşaqlıqdan ədəbiyyatı sevirəm. İndi də onu sevirəm. Həmişə də ədəbiyyatı üstün tuturam. Lakin bəzi səbəblər üzündən **riyaziyyatçı olmaq istəyirdim.** Bunun da səbəbləri aşağıdakılardır:

1. Siz bunu bəlkə şöhrətpərəstlik sanacaqsınız. Ancaq hər halda bu belədir. Bəziləri deyirlər ki, ədəbiyyatçı ancaq respublika daxilində tanınır. Riyaziyyatçı isə bütün dünyada tanınır.

2. Siz mənim ailə vəziyyətimi bilirsiniz. Mən mümkün qədər tez onlara (atamgilə) kömək etməliyəm. Ədəbiyyat sahəsində bir şey çətindir. Mən filoloji fakültəni qurtardıqdan sonra müəllim işləməliyəm. Bizim rayonda müəllim işləməyim məni çox geri atar. İrəliləyə bilmərəm. Siz bir şeyə cavab verin. Mən filoloji fakültəni qurtardıqdan sonra Bakıda qala bilərəmmi? Riyaziyyat sahəsində isə bu nisbətən asandır. Hər şey yaxşı oxumaqdan asılıdır. Ədəbiyyat sahəsində də yaxşı oxusam, Bakıda qala bilərəmmi?

3. Siz mənim müəllimimsiniz. Hər şeyi məndən yaxşı bilirsiniz. Lakin siz hələ də ədəbiyyat sahəsində özünüzə bir mövqe tapmamısınız. Bəs onda mən necə belə bir mövqe qazana bilərəm?

4. Mən heç yerdə orta mövqe tutmaq istəmirəm. Hansı sahə olursa olsun, orada tam müvəffəqiyyət qazanmaq istəyirəm. İndiki vəziyyətdə ədəbiyyat

sahəsində bunu bacarmaq olarmı? (Əlbəttə ki, mən bütün qüvvəmi, həyatımı bu işə sərf edəcəyəm).

5. Bəziləri deyirlər ki, riyaziyyatçı ol. Əgər bacarırsansa, həmişə yaza bilərsən. Məncə bu, sənətə (şerə, poeziyaya), ümumiyyətlə ədəbiyyata pis, yüngül baxışdır. Siz də beləmi düşünürsünüz, yoxsa riyaziyyatçı olub şer də yazmaq olar?

6. Nəhayət, riyaziyyatı, yoxsa ədəbiyyatı yaxşı bilməyimə gəldikdə isə, məncə imtahana qədər tarix və ədəbiyyatdan geriliyi aradan qaldıra bilərəm. Müəllim, sizə zəhmət də olsa, xahiş edirəm bu məsələləri mənim üçün izah edəsiniz. Çünki mənim gələcək həyatım bir növ sizin cavabınızdan asılıdır. Ancaq hər halda mən artıq ruhumla bağlı olan bir yolla – şer, sənət yolu ilə irəliləməyi özüm üçün məqsəd qoymuşam. İndiyə qədər itirdiklərimi isə təmin etməyə çalışacağam. Çünki mənə elə gəlir ki, mən çox şey itirmişəm. Əgər əvvəldən fikrim qəti olsaydı, indi çox irəli getmişdim.

Səbrsizliklə cavabınızı gözləyirəm. Bir də ki, bir şeyi yazın, ədəbiyyat və tarixdən filoloji fakültəyə girmək üçün necə hazırlaşım. Əsas hansı hissələrdən.

Beləliklə bu qədər. Ailə üzvlərinizə məndən salam deyin.

Sağ olun.

***Hörmətlə sizin Sabir.***
***3.IV.1963***

* * *

**Hörmətli müəllim!**

Qəlbimin ən atəşin salamlarını qəbul edin.

Hörmətli müəllim, sizin əvvəlki məktubunuzu aldım. Mənə verdiyiniz məsləhətlər üçün çox sağ olun. O məktub mənim yolumu tam müəyyənləşdirdi. Artıq heç bir qüvvə məni bu yoldan ayıra bilməz. İndiyə qədər elə bil ki, çiynimə qoyulmuş bir yük məni öz ağırlığı altında əzirdi. Çünki mən riyaziyyatçı olanda belə, ədəbiyyatdan ayrıla bilmirdim. Artıq o yükün ağırlığı altından çıxmışam. Əgər daha açıq desəm, **mən ədəbiyyatçı olacağam.** Vəssəlam. İndiyə qədər bu sahədə çox şey itirmişəm. Əgər mən əvvəldən bu yolu tutsaydım, indi çox irəli getmişdim. Lakin eybi yoxdur. Mən çalışacağam ki, mümkün qədər yaxşı hazırlaşım. Mənə elə gəlir ki, mən ədəbiyyat imtahanlarının heç birindən (yazılı, şifahi) kəsilmərəm. Məni qorxudan yalnız tarix imtahanıdır. Tarix həm geniş, həm də çətindir. İndi mən SSRİ tarixinə hazılaşıram. Əvvəlcə I kurs, sonra da II və III kurslar. Ümumiyyətlə, nə olur olsun, qəbul olunsam da, olunmasam da bu yoldan dönən deyiləm. Həm də ki, mənə elə gəlir ki, qəbul olunaram (əgər həqiqət varsa). Lakin, necə deyərlər, təsadüf zərurətin başlıca şərtidir. Ona görə də hər şeyi indidən demək olmaz.

Mən rayona qayıtdıqdan sonra müəllimlərə və yoldaşlarıma dedim ki, ədəbiyyatçı olacağam, yoldaşlarımın çoxu buna sevindilər. Çünki onlar da mənim ədəbiyyatçı olmağımı istəyirdilər. Müəllimlərimin bəziləri isə əvvəlcə məni bu işdən çəkindirmək istədilər. Lakin fikrimin qəti olduğunu duyduqdan sonra heç bir şey demədilər. Ədəbiyyat müəllimimiz deyir ki, indi ki filoloji fakültəyə gedirsən, onda onun jurnalist söbəsinə get. Çünki jurnalist qəzetlərlə daha yaxından əlaqədar olur. Orada nisbətən asan olar. Siz buna necə baxrısınız? O şöbə yaxşıdır, yoxsa dil-ədəbiyyat? Mən həyatda çox təcrübəsizəm. Ona görə də hər şeyi sizlə məsləhətləşməliyəm. Daha doğrusu, bəzi şeyləri mənim əvəzimə də düşünməlisiniz.

Məktubunuzda yazırsınız ki, "sən şəxsi həyatına aid olan ən kiçik işlərdə belə mənim məsləhətimə qulaq asmalısan." Bunu mən yaxşı başa düşmədim. Şəxsi həyatın hansı sahəsində və hansı işlərdə mən sizin məsləhətinizə qulaq asmalıyam. Həm də ki, yuxarıda dediyim kimi, mən bundan sonra yalnız sizin məsləhətinizlə hərəkət edəcəyəm. Gələcəkdə isə nə olacaq, o məlum deyil.

Bakıya gəlməmişdən qabaq Lənkəranda çıxan "Leninçi" qəzetinə şer göndərmişdim. Qəzetin ədəbiyyat bölməsində bir çoxları ilə birlikdə mənim də şerlərimin nöqsanlarından bəhs edilmişdi. Onlara görə mənim şerlərimin əsas nöqsanı yığcamlığın olmamasıdır. Qəzetdə tənqid edilməyim məni ruhdan salmadı, əksinə, sevindirdi. Hələ o qədər tənqid etsinlər ki!.. Mən bundan sonra o qəzetə daha tez-tez şer göndərəcəyəm. Elə tənqidlər məni daha çox ruhlandırır.

Birinci məktubunuzdan bir neçə gün sonra ikinci məktubunuz gəldi. Yazdıqlarınıza əməl etdim. Həmən şeri həm "Leninçi" qəzetinə, həm də radioya göndərdim. Lakin radioaya göndərdikdə o şerə bu məktubda sizə yolladığım "Deyir" şerini də əlavə etdim. Bu məktubda sizə poemadan bir parça göndərirəm. Əvvəlcə sizə göndərdiyim "Ey ana təbiət!.." şeri haqqında yazdığınız nöqsanlar burda da vardır. Lakin, mən yenə onu sizə göndərdim ki, siz mənim nöqsanlarımı yaxşı başa düşəsiniz. Yoxsa həmişə seçib yaxşılarını göndərsəm, haqqımda layiq olmadığım bir rəyniz olar ki, o da mənim üçün yaxşı deyil.

Bəzi vaxt mənə elə gəlir ki, nə isə mənim ürəyimi ağrıdır, qəlbimi sıxır. Qələmi götürüb yazıram. Qurtardıqdan sonra elə yüngülləşirəm ki!.. Belə vaxtlarda mənə elə gəlir ki, nə qədər yazsam, yorulmaram. Ancaq bu həmişə olmur. Həm də ki, dərslər imkan vermir. Elə vaxtlarımın hamısından istifadə etmək olmur.

Müəllim, sizin məktubların cavabını gecikdirdiyim üçün məni bağışlayın.

Hələlik, bu qədər. Oğlanlarınıza (bağışlayın) məndən salam deyin. (Heyif ki, adlarını bilmirəm. Hər halda yaxın vaxtda öyrənərəm. Düzdürmü?)

Sağ olun!

***Sizin Sabir.***
***23.IV.1963***

* * *

**Hörmətli müəllim!**

Salam!

Bu gün "Azərbaycan gəncləri" qəzetindən cavab aldım. Yazırlar ki, görünür, sən şerin texnikasına az-çox bələdsən. Lakin sənin şerində may səhərinin konkret lövhələri verilməmişdir.

Sizin yazdığınız kimi, onlar da əsas onu tutublar ki, "çiçəkləri niyə əzirsən, şer badəsini hansı əsərinizə görə içirsiniz, torağayın səsinə vurulmağınızla oxucuya nə demək istəyirsiniz".

Mən də istəyirdim ki, bu məktubda sizə göndərdiyim şerləri onlara göndərim. Ancaq düşündüm ki, hər halda siz baxsanız yaxşı olar, lazım olsa, yollayarsınız. Bəlkə əvvəlki sözləri yazmaq heç lazım deyil.

Dərslərim yaxşı gedir. Hazırlaşıram. Bilirəm ki, mənim məktublarım sizin vaxtınızı alır. Ancaq hər halda gərək bağışlayasınız. Çünki mən başqa cür də edə bilmərəm. Sağ olun!

***Sizin Sabir.***
***25.IV.1963***

* * *

**Əziz və hörmətli müəllim!**

Salam!

Müəllim, məktubunuzu aldım, çox sevindim. Sağ olun. Şerin çap edilməməsinə gəldikdə isə, onun o qədər də əhəmiyyəti yoxdur. Eybi yoxdur. Sizin yazdığınız "Xoş gəlibdir" şeri 29 aprel "Azərbaycan müəllimi" qəzetində çıxmışdı. Yoldaşlarım gəlib mənə dedilər. Tapıb oxudum. Bilirsinizmi nə qədər sevindim. Şer çox xoşuma gəldi. Sinfimizin bütün şagirdləri üçün oxudum.

Bu yaxında Lənkəranda çıxan "Leninçi" qəzetindən də cavab gəldi. Yazırlar ki, zəifdir.

Lakin, bu gün 10 mayda nə qədər sevinmişəm?! Bu gün axşam saat 7:30-da (doğrusu, heç özüm eşitmədim, müəllimlərim, bir də yoldaşlarım eşitmişdilər) radioda mənim haqqımda yaxşı fikir söyləyiblər. Hər halda, kiçikcə bir şer olsa da, o sözlər məni çox ruhlandırdı. Özümə inamımı artırdı.

Müəllim, bu yaxında şer yazmıram, çünki imtahanlara hazılaşmaq lazımdır. Nə qədər oxuyuramsa, yenə də çox şey bilmədiyim məlum olur. Eh, bircə qəbul ola bilsəydim. Heç olmasa bəziləri istehzayla deməsinlər ki, fizika-riyaziyyat sahəsinə getsəydin, qəbul olardın.

Yazırsınız ki, Rəsul Rzanın "Rənglər" başlığı altındakı şerləri oxu. Mən onları çoxdan oxumuşam.

Nə isə. Vaxt olar hər şeyi yaxşıca danışarıq. İndisə bir məqsədim var – qəbul olunmaq! Sonrası isə çox asandır (Sənətin daşlı-kəsəkli yollarını qartal kimi fəzalardan süzüb keçəcəyəm, sənətin zirvələrinə qartaltək ucalacağam). Bu sözləri mənə tükənməz gənclik həvəsim deyir. Bu o deməkdir ki, yolun çətinliyi məni qorxutmur. Daş-kəsəksiz yol olmaz!

Hələlik. Sağ olun!

***Sizin Sabir.***
***10.V.1963***

* * *

**Əziz və hörmətli müəllim!**

Salam!

Doğrusu, sizin məktubu aldıqdan sonra çox sevindim. Əvvəla ona görə ki, elə bilirdim siz indiyə qədər Qazaxa gedibsiniz. Bir daha sizdən məktub ala bilməyəcəyəm. İkinci özüm də bəzi şeyləri sizə yazmaq istəyirdim.

Sizə yazdığım kimi, imtahandan kəsilsəm belə, sənədlərimi universitetin filoloji fakültəsinə verəcəyəm. Artıq, attestatdan başqa bütün sənədlərim hazırdır. Attestat dəyişildiyinə görə bir az gec gətirildi. Səhərə söz veriblər, bəlkə səhər ala bildik. Neçəsində alsam, ondan iki gün sonra Bakıya yola düşəcəyəm. Sənədlərimi verdikdən sonra yenidən qayıdıb, imtahanlara hazırlaşacağam.

Yazırsınız ki, heç bir vasitə lazım deyil, ancaq öz biliyinə arxalan. Əvvəla, ona görə ki, nə yaxşı qüvvəli tanış adamım var, nə də pulum. İkinci, bunlardan biri və yaxud hər ikisi olsaydı belə, mən onların heç birindən istifadə etməzdim. Bu, mənim ömrümün axırına qədər belə olacaq. Bakıya imtahan verməyə də tək gələcəyəm. Ümid yalnız özümə qalıbdır.

Bir şeyi yəqin bilirəm. Mən riyaziyyat sahəsinə getsəydim, hökmən qəbul olunardım. Ora mənə çox asan görünür. Ədəbiyyat sahəsində isə bir az

tərəddüd keçirirəm (hər halda imtahan hər şeyi göstərəcək). Əvvəla, ona görə ki, oraya uşaq çox gəlir. İkincisi, ədəbiyyat və tarix riyaziyyata nisbətən çox genişdir. Yalnız sizdən və bəzi yoldaşlarımdan başqa hamısı deyir ki, əbəs yerə riyaziyyat sahəsinə getmirsən. Riyaziyyatı bilirsən, ora get. Özünə sənət qazan. Mən onlara cavab verə bilirəm. Ancaq bir şeydən qorxuram ki (daha doğrusu, bu söz hər dəqiqə məni düşündürür), mən kəsilsəm, onlar mənə istehza etməzlərmi? Hər halda bu fikirlərin mənim hara gedib getməməyimə təsiri yoxdur. Bəzi vaxt düşünürəm ki, hökmən qəbul olunaram. Axı niyə də qəbul olmayım. Qəbul olunanların nəyi məndən artıqdır. Lakin bu vaxt həyatın əsl varlığı gözümdə canlanır və qorxuram. Hər şey təkcə məndən asılı olsaydı, qorxmazdım. Nə olsun ki, bu il olmaz, gələn il olar. Ancaq hamı belə düşünmür. Hərə bir söz deyir. Həm də qəbul olmasam, atamın üzünə necə baxaram. Kənddə hərə bir söz çıxaracaq. Məni tərif edənlərə nifrətim var. Çünki indi hamı məni tam hər şeyi bilən hesab edir. Əgər qəbul olmasam, çox pis olacaq. Gərək indiyə qədər mən zəif bilən bir şagird sayıla idim. Onda qəbul olmasaydım da eybi olmazdı.

Bir də, qəbul olmasam, həm bu bir il mənim üçün əzab olacaq, həm də bəzi şəxsi arzularım baş tutmayacaq. Çünki bizim rayonun şəraiti belədir. Yay günü çətin də olsa, hər halda hazırlaşıram. Nədənsə, hamı, bütün müəllimlərim deyirlər ki, qəbul olarsan. Kaş elə olaydı. Hazırlaşmağa ali məktəb proqramı lazım idi. Mən başqasından alıb ədəbiyyatı köçürdüm. Tarixi köçürməyə imkan olmadı. Bəlkə siz ondan tapa biləsiniz? Deyirlər, Bakıda yoxdur. Olsaydı, gedəndə alardım. Əgər ondan tapıb mənim üşün yollasanız, çox yaxşı olar. Hər halda mümkün olsa.

İmtahanları verdim. Ədəbiyyatın yazısından üç mövzu – N.N. “Bahadır və Sona” romanı, R.R. “Lenin” poeması və “Bizim ölkədə insan insanın dostu, yoldaşı və qardaşıdır” (sərbəst mövzu) – mövzuları gəlmişdi. Mən üçüncünü yazdım. Gözlənilməz mövzular gəlmişdi. Heç vaxt düşünməzdim ki, belə sərbəst mövzu gələcək. Amma yenə onu yazdım. Universitetdə də sərbəst mövzu yazacağam. O daha yaxşıdır. Əvvəlcə bizə təlimatı oxudular. Əgər yazı normal həcmdədirsə (yəni 6-8 səh.), 2 durğu işarəsi və 2 orfoqrafik səhvi çıxıbsa belə, yazıya 5 verilir. Mən öz fikrimi tam əhatə etmək üçün 12 səhifə yazdım. Qaralamanı yazdıqdan sonra təmiz vərəqə köçürməyə az vaxt qalmışdı. Çox tələsik yazdım. Düz saat 3-də qurtardım. Maarif şöbə müdiri orada idi. İki dəqiqə vaxt istədim ki, yazıma elə-belə nəzər salım, icazə vermədilər. Bu iş mənə çox pis təsir etmişdi. Yazıya 4/5 qiymət vermişdilər. Azərbaycan dili – 4, ədəbiyyat 5. 2 durğu işarəsi (vergül), 3 orfoqrafik (tələsdiyimdən hərf buraxmışdım) səhvim çıxmışdı. Bəlkə də oxumusunuz. Yazılar haqqındakı təlimat “Azərbaycan müəllimi” qəzetində idi. Orada belə bir qeyd də var idi. “Əgər şagirdin yazısı əhəmiyyətli dərəcədə çoxdursa, onda onun 1-2 orfoqrafik səhvi çıxsa da yenə 5 vermək olar.” Mənim yazımın məzmununa “5” vermişdilər. Deməli, o, əhəmiyyətli dərəcədə çox idi. Amma o qeydi nəzərə almadan mənə düzgün olmadan 4/5 vermişdilər. Mən ədəbiyyat müəlliməmizdən soruşdum ki, nə üçün 4 veribsiniz, dedi ki, direktor belə məsləhət gördü. Getdim direktora dedim mənim qiymətimi niyə aşağı veribsiniz. Dedi ki, necə istəmişik, elə də etmişik. Məktəbimizdəki o biri ədəbiyyat müəllimləri hamısı yazını oxuyub demişdilər ki, “5” vermək lazımdır. Direktor razı olmamışdı. Mən məsələnin niyə belə olduğunu başa düşdüm. Fizikada şifahi imntahanda sualların hamısına cavab verdim. Elə düşünürdüm ki, “5” alacağam, amma “4” vermişdilər. Yenə direktordan tələb etdim ki, gətir bütün biletləri fikirləşmədən

danışım. Dedi olmaz. İstədim maarifə müraciət edim. Düşündüm ki, maarif müdiri heç vaxt məktəb direktorunu yoxsul bir şagirdin ayağına verməz. Odur ki, bu fikrimdən daşındım. Qalan imtahanlardan 5 aldım. Bir də Şahvələd müəllim triqonometriyadan illikdə "4" vermişdi. Mən əvvəlcə Şahvələdi yaxşı bir adam kimi tanıyırdım. Əslində isə o, dövrümüzün tipik adamı imiş. Hər bir şey mənə sonra məlum oldu. Fizika müəllimimizin özü belə (Şahvələd deyil) mənə "5" verirmiş, amma direktor deyib ki, özümüzü əziyyətə salmayaq, "5" yazsaq, gərək medal düzəldək. Nəyimizə lazım. Ümumiyyətlə, məlum oldu ki, həmin "dörd"lər ümumi bir plan əsasında verilirmiş. Sonra atam direktorun yanına gedib demişdi ki, mənim oğluma niyə "dörd" veribsən. Həqiqətən "dörd"əmi bilir, yoxsa medala görə "dörd" veribsən? Direktor demişdi: oğlun "beş"ə bilirdi, yazısı da 5 idi, ancaq ona mən medal verməməkdən ötəri "dörd" verdim. Çünki Bakıda hərcmərclikdir, qorxuram medalı oradan ala bilmərəm. Atam heç bir şey demədən çıxıb getmişdi. Sonradan bəzi yaxın müəllimlərin dediyindən məlum oldu ki, əsl həqiqətdə mənim medal almamağımın səbəbi cibimin boşluğudur. Əgər atam əvvəlcə direktoru görüb onun medal almaq üçün Bakıya gəlmək xərcini versəymiş, onda hər şey düzələrdi.

Nə isə. Hər şey ötüb keçdi. Gah özümə nifrət edirəm, gah da həyata. Özümə nifrət edirəm ona görə ki, niyə həyatla "ayaqlaşa" bilmirəm. Həyata nifrət edirəm ona görə ki, belə yaranıb. Həyatın girdabları məni yelkən kimi çulğalayır. Ancaq bu yelkən Puşkinin yelkənindən deyil. Onun sükanı möhkəm əldədir. Həyat girdabında çarpışmaq adama ləzzət verir. Görək, zaman nə göstərəcək! Əziz müəllim, uzunçuluq etdiyimə görə məni bağışlayın. Ürəyimi boşaltmaq istədim. İmtahana qədər vaxt var. Xahiş edirəm, əgər mümkünsə, cavab yazın. Ailənizə bizdən salam deyin. Sağ olun. Hələlik.

***Sizin Sabir.***
***Hamarkənd – 04.VII.1963***

* * *

**Hörmətli müəllim!**

Salam.

Mən dediyim kimi də etdim. Sənədlərimi universitetin filoloji fakültəsinin dil-ədəbiyyat şöbəsinə verdim. 14 avqustda imtahanları verib qurtardım. Azərbaycan dili və ədəbyyat (yazılı və şifahi), bir də tarixdən 5, ingilis dilindən 4 aldım. Dörd imtahandan cəmi 19 bal topladım. Burada attestat qiymətləri də nəzərə alınır. Attestatla birlikdə cəmi 33,8 balım var idi. Bircə nəfər məndən yüksək qiymət almışdı. (Rayonda mənə ingilis dili keçilməmişdi. Ona görə "dörd" aldım, o isə şəhərlidir, xarici dil keçmişdi, ondan da "beş" almışdı). Mən ingilis dilini burda öyrəndim. Ondan 4 almağım da hələ zirəklik oldu. Qorxurdum, ondan kəsiləm. Nə isə, 15-də evə getmişdim, dünən gəlmişəm, əmrə baxıb gördüm ki, mənim adım şərqşünaslıq fakültəsinin ərəb dili (tərcüməçilik) şöbəsindədir. Katibə ilə danışdım, dedi ki, ora çoxları xahiş edir, keçirmirik. Biz ancaq səni nəzərə alıb ora keçirmişik. Ordan əsgər aparmırlar. Dedim lazım deyil. Ədəbiyyat yaxşıdır. Dedi ki, yaxşı, 1-də gələrsən, dəyişərik. Amma Kamil müəllim və onun Dil-ədəbiyyat institutundakı yoldaşları deyirlər ki, dəyişmə, şərqşünaslıq yaxşıdır. Mən isə yalnız sizin fikrinizi bilmək istəyirəm. Hələlik yataqxanada yer almamışam. Evdə qalıram. Adresim müvəqqətidir. Ancaq bu adresə də məktub yazsanız, olar. Tələsik və savadsız yazdığıma görə bağışlayın. Tez xəbər bilim deyə telefonda danışdım, məktəbdə

olmadınız. Pis də çıxsa, növbətçiyə dedim ki, bu sözləri sizə desin. Çünki vaxta az qalıb. Sonra məktub yazdım. Vəziyyətim yaxşıdır. Siz necə yaşayırsınız?

Bir şeyi də qeyd edim ki, şərqşünaslıqdan bu il yaşı çatanları əsgər aparmırlar. Filolojidən isə aparırlar. Həm də şərqşünaslığın qiyabisi yoxdur. (Hər ehtimala qarşı) mənim də bu il əsgər yaşım çatmır. Nə fərqi varmış? Lakin Kamil müəllim deyir ki, yox, ədəbiyyatı qurtarsan da, adi bir müəllimsən. Şərqşünaslığı qurtarsan, amma ən aşağısı, təcüməçisən. Ona ehtuyac çoxdur.

Salamat qalın. Hələlik.

***Sizin Sabir.***
***Bakı - 27.VIII.1963***

* * *

**Əziz və hörmətli müəllim!**

Salam!

Müəllim, mən sizə məktub yazmışdım. Ancaq nədənsə hələ cavab almamışam. Bilmirəm səbəb nədir. Məktub yazmaq istəmirsiniz, yoxsa məktub çatmayıb. Həm də mən telefonla sizin məktəblə danışmışdım. Nədənsə ona da cavab gəlmədi. Müəllim, böyük bir həvəslə imtahanları verdim. Lakin gözlənilmədən çox pis vəziyyətdə qalmışam. Özüm həyat təcrübəm az olduğu üçün nə etmək lazım olduğunu bilmirəm. Tam bir məsləhət verən adam da yoxdur. Mən **şərqşünaslıq fakültəsinin ərəb tərcüməçiliyi** şöbəsinə qəbul olmuşam. Balım yüksək olduğuna görə məni filoloji fakültədən buraya keçirtmişdilər. Burda dərslər çox çətindir. Bundan qorxmuram. Hər halda ərəb dili, rus dili, ingilis dili çətin dərslər olsa da, ərəb ölkələri coğrafiyasının dərsliyi, ərəb ölkələri tarixinin dərsliyi rus dilində olsa da, hərbi dərslər rus dilində keçilsə də (mən rus dilini yaxşı bilmirəm), bu məni qorxutmur. Məni qorxudan odur ki, tərcüməçi olacam, həm də zabit (bu məni dövlətin tam asılı adamı edir). Ola bilsin ki, buranı qurtardıqdan sonra bir hərbi hissəyə tərcüməçi göndərdilər, ola bilsin ərəb ölkələrinə göndərdilər. Hər halda məni arzularımdan, ailəmdən uzaqlaşdırır. Düzünü deyim ki, "artıq xəyallarım göydən yerə" enib. Həyata baxıram, artıq kiçik vəzifə də olsa, kənddə sakit bir həyat qurmaq istəyirəm. Atama kömək etmək istəyirəm. Ərəb dili buna uyğun deyil, həm də məni ədəbiyyatdan uzaqlaşdırır. Lakin, ədəbiyyatın da bir lakini var; mən ədəbiyyata keçsəm, iki ildən sonra mənim əsgərlik vaxtımdır. Onda da olmasa, qurtardıqdan sonra da aparacaqlar. Bu yenə məni qorxudur. Mənim ədəbiyyata keçməyimə yalnız bu mane olur. Həm də əsas şərt həvəsdir. Bilirəm ki, ədəbiyyatda əla oxuya bilərəm. Burada isə həvəsim yoxdur. Dərslərə elə-belə baxıram. Bilmirən nə olacaq. Bu tərcüməçilik cəmi 2-ci ildir açılıb. Bilmirəm axırı nə olacaq – qaranlıqdır. Ədəbiyyat isə, adi müəllim işləyərəm. Heç bir bədii ədəbiyyat oxuya bilmirəm. Bu məlumdur ki, ərəb dilini qurtaranın əməkhaqqı yaxşı olacaq. Ancaq bəs arzularım, həvəs. Doğrusu, özümü itirmişəm. Kamil müəllim də ərəb dilini məsləhət görür. Bilmirəm nə edim. İndiyə qədər sizin cavabı gözləmişəm.

Bir şeyi də qeyd edim ki, ədəbiyyatda iş stajı olanları axşam şöbəsinə keçirib kitabxanalarda işlə təmin edəcəklər (təqaüd müqabilində). Gələn ildən yenə gündüzə keçirəcəklər.

O qədər bədbinəm ki... Bilmirəm məni ədəbiyyata keçirməsələr, nə olacaq.

Öz işləriniz barədə yazın. Necə yaşayırsınız?

Yenə uduzdum! Mən elə bilirdim bu, ədəbiyyatla əlaqədar şeydir.

Sağ olun. Hələlik.

***Sizin Sabir.***
***Bakı – 06.IX.1963***

* * *

**Əziz və hörmətli müəllim!**

Salam!

Müəllim, məni unutmadığınıza görə çox sağ olun. 11 sentyabrda yazdığınız məktubu aldım. Yazırsınız ki, yəqin əvvəlki məktubumu almısınız. Təəssüf ki, yox. Sizin birinci məktubunuzu almamışam. Çünki, o vaxt mən Bakının kənarında qohumumuzgildə qalırdım. Siz də məktubu oraya yazıbsınız. Mən də ordan tez çıxıb yataqxanaya gəlmişəm. Məktubunuzu alan kimi dünən ora getdim. Dedilər ki, məktub gəlməyib. Nə isə. O məktub mənə çatmayıbdır.

Ədəbiyyata keçmək üçün də (ədəbiyyat və dil) filoloji fakültənin dekanına ərizə vermişəm. Ərizə dekanın yox, rektorun adına yazılıb. Dekan etiraz etmir. Çünki, mən hər şeyi ona dedim. Ancaq rektor Moskvadadır. Hələlik onu gözləyir. O gələn kimi düzələcək. Necə olsa dəyişəcəyəm. Çünki buraya heç həvəsim yoxdur. Bilmirəm 1 sentyabra qədər mənim ağlım harda olub ki, burda oxumağa razılıq vermişəm. Halbuki, o vaxt filoloji fakültəyə dəyişilmək bir saatlıq iş idi. Mənə elə gəlir ki, yenə də dəyişdirmək olar. Əvvəla, ona görə ki, mən ərizəmi filoloji fakültəyə vermişəm. İkinci də həm filoloji fakültədə, həm də şərqşünaslıq fakültəsinin ərəb dili tərcüməçiliyi şöbəsində yalnız bircə nəfər, bakılı qızdan başqa heç kim məndən yaxşı qiymət almayıb. Qızın bakılı olmasını ona görə xüsusi qeyd etdim ki, çünki o da bütün imtahanlarda nəyin hesabına beş alıb, o məlum deyil. Amma danışığından görünür ki, elə də yaxşı bilmir.

Məktubu yazmağa dərsdə başlamışdım. Qurtara bilmədim. Ardını gəlib yataqxanada yazdım. Bu vaxt sizin birinci məktubunuz gəldi. Oxudum. Ancaq təzədən yazmadım. Dedim elə qoy bu qalsın.

Dekan deyir ki, rektor birinci gün (16 sentyabr) gələcək. Görüm, nə deyəcək. Nə olsa, sizə yazaram. Dəyişiləndən sonra birinci növbədə dərsləri əla oxumağa çalışacağam. Sonra da burdakı ədəbiyyat dərnəklərinə, mümkün olsa, Yazıçılar İttifaqının dərnəyinə də üzv olacağam. Bu barədə öz məsləhətlərinizi yazın.

Şərqşünaslıq fakültəsində təqaüdə kimin salındığı hələlik məlum deyil. Təqaüd neçə manatdır, onu da bilmirəm. Daha doğrusu, heç maraqlanmamışam. Çünki mən hökmən dil-ədəbiyyata keçəcəyəm. Orda yenə bir çətinlik qarşıya çıxır. Stajı olmayanlar bu il gecə oxuyacaq, gündüz işləyəcək. Kitabxana və başqa yerlərdə. Onlara təqaüd verilməyəcək. Ancaq iş yerlərindən aldıqları əməkhaqqı təqaüddən az olmayacaq. Belə ediblər. Ancaq hələlik iş düzəltməyiblər. Nə vaxt iş düzəldəcəklər, o da bilinmir. Mən ədəbiyyata keçib onlarla oxumalıyam. Gələn sentyabrdan yenə gündüzə keçəcəyik. Nə isə. Gündə bir iş çıxarırlar.

Siz öz vəziyyətinizdən yazın. Nə üstündə işləyirsiniz? Gələcək planlarınız necədir? Bakıya gəlməyə çalışırsınız, yoxsa yenə orda işləyəcəksiniz?

Aşağıda bir neçə kiçik şer yazıram. Yadımda qalanlardı. Onlar haqqında fikirlərinizi söyləyin. Sonralar isə başqalarını da göndərəcəyəm. Çünki hələlik vaxt azdır.

Salamat qalın. Hələlik.

**LƏÇƏKLƏR**

***I***

***Məhəbbət – duyğudur günəşdən təmiz,***
***Nə ləkə götürər, nə də ki sönər!***
***Məhəbbət yaşatsa daim qəlbimiz***
***Vətən torpağımız cənnətə dönər!***

***II***

***– Könül, nədir bu dünyada istəyin?***
***– Azad Vətən, azad millət, azad el!***
***– Söylə, tükənməzmi şirin diləyin?***
***– Xeyr! Mənim xalqım əyilən deyil!***

***III***

***... Ey insan! Günəşə qıyma gözünü***
***O ki, açıq baxır bu kainata.***
***... Ey könül! Gizlətmə ürək sözünü,***
***Söz ki, yaşamağa gəlmiş həyata.***

**HƏSƏD – ARZU**

***Vaxt var idi, uçan quşa həsrət çəkib mən,***
***Deyərdim, nə sərbəst süzür səmada.***
***Arzu eləyərdim – həm də ürəkdən***
***Kaş ki quş olaydım mən də dünyada!***

***İndisə həsədlər uzaqdır məndən,***
***Arzular könlümə qol-qanad verir.***
***Vətən eşqi ilə yaşayıram mən,***
***Bu eşq həsədimə təzə ad verir.***

***Sizin Sabir.***
***Bakı - 14.IX.1963***

* * *

**Əziz və hörmətli müəllim!**

Salamlar daimidir!

Sizə yazmışdım ki, ədəbiyyata dəyişilən kimi yazıb sizə xəbər verərəm. İndi budur, artıq dünəndən "Azərbaycan dili və ədəbiyyat" şöbəsində oxuyuram.

Keçən həftənin beşinci günü rektorun qəbuluna getmişdim. Dedim ki, həvəsim olmadığı bir yerdə oxuya bilmərəm. O da razılıq verdi. Nə isə, ağır bir yükün altında əzilən çiyinlərim yenidən azaddır. Bu ildə ilk dəfə olaraq dünən dərsə tam alnıaçıq, sevincək girmişəm. Birinci gün olmasına baxmayaraq "Müasir Azərbaycan dili"ni keçən Səlim Cəfərov suallarına düzgün cavab verdiyimə görə bir az təriflədi də. Mən bunu özümü tərifləmək üçün yazmıram. Çünki siz mənə bu barədə bir ömürlük dərs vermisiniz. Yadınızda varmı altıncı sinifdə oxuduğum vaxt Səmədin "Muğan" poemasından "Yeridir bir məsəl desəm yadigar" misrası ilə başlayan bəndi əzbərləməyi mənə məsləhət görmüşdünüz. O vaxt əzbərlədiyim o dörd misra bir daha heç vaxt yadımdan çıxmamışdır. Ancaq Hüseyn Hüseynzadə yazdığı kimi, o hansı insandır ki, özü haqqında yaxşı söz eşidəndə qulaqlarını qapadır? Elə insan yoxdur.

Hələ ki beş-altı gün çalışmalı olacağam. Mühazirələri oxumaq və köçürmək. Kitabları tapmaq və s. Sonra isə hər şey yoluna düşəcək. O vaxt hər şey üçün vaxtım çox olacaq. Mən hələlik gündüz oxuyuram. Ancaq stajım olmadığına

görə bəlkə məni də may ayına qədər axşam şöbəsinə keçirtdilər. Onda gündüz işləməli olacağıq. 5, 6 və bazar günləri dərsimiz olmayacaq. O bir az pis də olsa, bu illik nə eybi var? Ərəb dilində təqaüdə düşmüşdüm. Əgər ədəbiyyatın gündüzündə qalsam, təqaüd ədəbiyyata keçirilib veriləcək. Yaxud axşama da keçirsələr, onda işləyib təqaüd müqabilində əməkhaqqı alacağıq. Ancaq hər halda gələn aydan. Çünki bu ay hələ iş düzəlməyib. Ərəb dilindən də verməzlər, çünki ordan çıxmışam. Nə isə. Bu o qədər də qorxulu deyil. Bu ay olmaz, gələn aydan olar.

O gün, daha doğrusu, 19-da Bəxtiyar Vahabzadəni gördüm. Mir Cəlal, o və başqa ədəbiyyatçılar ədəbiyyat kafedrasında oturmuşdular. Bəxtiyar Səmədin "Komsomol poeması" haqqında yazdığı resensiyasını oxuyurdu. Sonra da onu müzakirə etdilər. Mən də oturub axıra qədər qulaq asdım.

Göründüyü kimi, vəziyyətim yaxşıdır. Siz necə yaşayırsınız? Bu barədə yazın.

Məsləhətlərinizi gözləyirəm. Sağ olun. Hələlik.

***Sizin Sabir.***
***Bakı – 24.IX.1963***

* * *

**Hörmətli müəllim!**

Salamlar daimidir!

Məktubunuzu çoxdan almışam. Ancaq elə bir mühüm iş olmadığına görə cavab gec yazdım.

Dərslərim yaxşı gedir. Hər halda orta məktəb kimi ola bilməz. Çünki, bura çox qarışıqlıqdır. Daha doğrusu, dərslər məni təmin etmir. Adam gündəlik dərsi danışmadıqda pis olur. Ancaq, ümumiyyətlə yaxşı oxumağa çalışacağam. O mənada ki, lazım olan dərəcədə çox oxumağa çalışacağam.

Bir neçə gün bundan əvvəl Yazıçılar İttifaqına getmişdim. Orada "Gənc qələmlər"in birinci məşğələsi oldu. Çox adam var idi. Hamısı da məndən yaşlı. Xəlil Rza da orada idi. Mən onun bəzi şerlərini çox xoşlayıram. Onda çox qüvvətli bir vətənpərvərlik var. İkinci dəfə gedəndə şer deyəcəyəm. Qoy görüm nə söyləyəcəklər.

Bilmirəm oxuyubsunuz, yoxsa yox. Xəlil Rzanın keçən ilki "Azərbaycan" jurnalının hansı nömrəsindəsə bir neçə şeri çıxmışdı. O cümlədən olan "Ana dili" və "Palıd" şerləri çox xoşuma gəlir. Bu şerləri onu məni gözümdə yüksəldib. Məsələn, "Ana dili" şeri belə qurtarır:

***Öz dilini bəyənməyən***
***İtsin mənim gözlərimdən***
***İlim-ilim!***
***Bu Azəri torpağının***
***Günəşidir mənim dilim...***

Mənim qəlbimə nə qədər də yaxın olan sözlərdir.

Yaxud da, "Palıd" şeri. Deyir: "Göy Gölün sahilində bir palıd var. Bəlkə də min il yaşı var. Bəkə elə Göy Göl yaranandan bəri o da buradadır". Deyir: "Mən onun ətrafına fırlanıram. Mən onun başına dönürəm. Birdən ilan vurmuş kimi yerimdə dururam. Ağacın şümşad sinəsində cızmaqara, əyri-üyrü bir xətlə Gülya-Alik yazılmış, Olya-Tolik yazılmış.

*Yazılar eybəcərdi,*
*Zireh bir geyim üstən*
*Vurulmuş yamaq kimi.*
*Cırtdanların əliylə*
*Pəhləvan sinəsinə*
*Çəkilmiş bir dağ kimi!"*

Baxın, bu adlar niyə məhz rus adıdır? Palıd nəyə bənzəyir? Cırtdanlar kimdir? Pəhləvan kimdir? Məncə, palıd Azərbaycan, o cırtdanlar isə Bakıda Azərbaycan dilini ikinci sıraya keçirmiş ruslardır. O sözlərə bir az diqqətlə baxın. Nə bilim bəlkə də düz demirəm. Ancaq bu, mənim öz fikrimdir. Mən belə başa düşürəm.

Universitetdə də ədəbiyyat dərnəyi təşkil edilib. Rəhbəri Nəriman Həsənzadədir. 20-də növbəti məşğələ olacaq. Gedəcəyəm.

Təqaüd alıram. Vəziyyətim yaxşıdır. Siz öz vəziyyətinizdən yazın. Mümkünsə, bir şerinizi göndərin.

Salam deyin. Çox sağ olun. Hələlik.

***Sizin Sabir.***
***Bakı – 15.X.1963***

* * *

**Əziz və hörmətli müəllim!**

Salamlar daimidir!

Sizin məktubunuzu çoxdan almışam. Ancaq elə mühüm bir şey olmadığına görə cavab yazmamışam.

Mənim dərslərim yaxşı gedir. Ancaq iki gün bundan əvvəl rus dilindən "qeyri-kafi" qiymət aldım. Mətni danışmalı idim. O da hətta vurğusunu da düz deməyi tələb edirdi. Mən də rus dilindən zəifəm (çox da rayonda "beş" almışam). Nə isə, "iki" yazdı. Deyir: "Hardansan?" Deyirəm: "Yardımlıdan". Deyir: "Dünyadan xəbərsizsən". Nə isə, mənə pis təsir etdi. Dedim ki, təkcə rus dilini bilməmək dünyadan xəbərsizlik deyil. Çox qoca müəllimdir. Çox tələbkardır. Həm də çox əsəbidir. Şəhərli qızlardan çox razı qalır. Ancaq düşünmür ki, o qızlar quru bir ədabazlıq, fason xatirinə rus dilində danışanda, anaya "mamuçka", ataya "papuçka" deyəndə mən heç dünyada rus xalqının olub-olmamasını bilmirdim. Nə isə. Öyrənmək lazımdır.

Universitetdə "Sayat-Nova" gecəsi keçirildi. Mən də ilk dəfə olaraq bir şer dedim. Bəyəndilər. Universitetin qəzetində də yaxşı fikir yazmışdllar. Şairlərdən H.Hüseynzadə, Ə.Cəmil, N.Həsənzadə və b. çıxış etdilər.

Universitetin ədəbiyyat dərnəyində "Azərbaycan nəğmələri" adlı şer oxudum. Bir-iki nəfərdən başqa əksəriyyət uşaqlar tənqid etdi. Nə bilim, deyirlər ümumi yazıbsan, gərək bir şerin üzərində dayanasan. Ancaq o tənqidlər mənə ləzzət verir. Çünki həqiqətən də şerim nöqsanlı idi.

Sonra da bir dəfə "dilçilik" dərsi idi. Nəsir Məmmədov dərs deyirdi. Hansı ki, "Dilçiliyin əsasları"nı yazıb. Aramız yaxşıdır. Çünki "millət", "dil" məsələsində fikrimiz uyğun gəlir. Uşaqlara yaxşı dərs deyir. Həm də mənimlə bir az maraqlanırdı. Çünki əvvəlcə o danışırdı ki, heç bir qüvvə xalqın dilini öldürə bilməz, vay onda ki, kənar bir dil xalqın məişətinə daxil olsun. Sonra tənəffüsdə

də mən ona sual verdim ki, bəs məişətə daxil olmuş kənar dili necə kənar etmək olar. O, bir az düşündü, papiros çəkdi, sonra dedi: "Oğlum, ata-anan var?" Dedim: "Bəli". Deyir: "Zərfin üstünü necə yazırsan?" Dedim ki, "mən nəinki respublika daxilinə, hətta əsgər məktublarının üstünü də Azərbaycan dilində yazıram". Dedi ki, "lap yaxşı". Sonra başladı danışmağa ki, özümüz edirik. Onda mən sual verdim ki, müəllim, uşaqların rus məktəbində, rus dilində oxuyur, yoxsa Azərbaycan? Dedi ki, 3-ü rus dilində, 5-i Azərbaycan dilində. Dedim ki, "müəllim, hər şeyi sizin kimilər edir. Niyə gərək rus dilində oxuyub öz dilini unutsun". Dedi: "Xeyr, oğlum, əsas məsələ bu deyil. Əsas şey valideynlərdən asılıdır. Mənim oğlumun, qızımın ixtiyarı nədir anasına "mama" desin. Çox da rus dilində oxuyur. Sonra fikirləşdim ki, o, düz deyir. Dil öyrənmək yaxşıdır. Ancaq bu şərtlə ki, bu dil öyrənmə öz dilinin hesabına olmasın. Nə isə. N. müəllim belə şeylərdən çox danışır. O gün də onun dərsində tənəffüs zamanı dekanatlığa gedib ədəbiyyat dərnəyində oturdum. Zəngdən sonra sinfə girəndə soruşdu ki, "oğul, şer yazırsan?" Dedim "elə böyük bir şey yox." Amma o, çox ciddi yanaşdı. Mən də dedim kiçik şerlər yazıram. Dedi: "birini oxu!" Mən oxumaq istəmədim. Sonra uşaqlar da təkid etdilər. Nə isə, bir şer oxudum. O, qulaq asdı. Sonra bir az baxandan sonra "olar, oğul, olar, bir az məşğul ol" dedi.

Başqa elə bir şey yoxdur. Belə şeyləri yazıb vaxtınızı aldığıma görə bağışlayın. Ancaq, axı mən Bakını belə görmək istəmirəm. Başqa respublikalarda dil necə inkişaf edir. Bizdəsə təzə sözlərin hamısı rus sözləri olur. Əksər adamlar öz ailələrində uşaqlarıyla belə rus dilində danışır. Bunun axırı nə olacaq? Bu, dilimizi hara aparır? Bu hadisə əbədi dilimizə də keçir, indiki əsərlərdə artıq bir adət halını alıb, "əsgər" əvəzinə "soldat", "masa" əvəzinə "stol", "kətil" əvəzinə "stul", "dolab" əvəzinə "tumboçka", "mürəkkəb" əvəzinə "çernil" yazırlar. Əsas səbəbi də xalq dilindən ikinci sözlərin birincisini sıxışdırıb çıxarmasıdır. Avtobusda bütün konduktorlar rus, erməni və s.-dir. Olan azərbaycanlılar da (tək-tük) mənə yanaşıb (vozmite bilet) deyir... Halbuki, mən də azərbaycanlıyam, o da. Təsəvvür edin, bircə avtobus daxilində nə qədər Azərbaycan sözü yarana bilərdi. Bakının hər yeri belədir. Görün bu, dilimizə nə qədər zərər vurur.

... Elə bu sözləri yazanda radioda gözəl bir Azərbaycan musiqisi çalınırdı. Nə qədər də gözəldir! O musiqiylə qəlbimə axan, məni titrədən duyğuları, xəyalımı qanadlandıran bir qüdrəti başqa nə verə bilər, nə? Ancaq onun qədrini bilənlər, onu qiymətləndirənlər çoxdurmu?

Küçə ilə gedirəm, "ayaqqabı təmiri" əvəzinə "remont obuvi" yazılıb. Axı niyə də belə olsun, hansı rus belə edir, öz dili əvəzinə mənim dilimi işlədir? Məgər mən borcluyammı? Mən rus dilini bilmirəm, bir azərbaycanlı mənə "dünyadan xəbərsiz" deyir. Niyə? Niyə yığıncaqları rus diliylə başlayıb rus diliylə də qurtarsınlar. "Bəs mənim ölkəmin varlığı hanı?" Ax, Səməd! Mənim üç vərəqdə yaza bilmədiyim bir şeyi o bir sətirdə deyir. Müəllim, qoy mənə millətçi desinlər, hətta bunu siz də belə desəniz, mən öz fikrimdən dönməyəcəyəm. Başqa xalqlara pis baxmıram. Ancaq "üzümüzə gülüb, evimizi yıxanlara" nifrət edirəm. Hər şeyi yazmaq olmur. Kağızda fikri ifadə etmək çətindir. Vaxt olar, görüşərik. Hələlik isə bu qədər. Sağ olun.

***Sizin Sabir.***
***Bakı – 06. XI.1963***

* * *

**Əziz və hörmətli müəllimim!**

Salamlar daimidir.

Sizin məktubunuzu aldım. Ancaq mənim də cavabım xeyli gecikdi. Buna görə məni bağışlayın.

Dərslərim hələlik yaxşı gedir. Ümumiyyətlə, dərslər mənə elə də çətin gəlmir. Deyilənə görə, biz yanvar ayının 3-də dərsləri qurtaracağıq. Bu yarım ildə biz imtahan verməyəcəyik. Çünki elə də çox şey keçməmişik. Cəmi üç yoxlamamız var ki, onları da yanvarın üçüylə onu arasında verib qurtaracağıq. Onundan sonra isə evə gedəcəyəm. Təxminən fevralın 7-nə qədər.

Qalan işlər də əvvəlki kimi gedir. Heç bir yerə nə gedirəm (daha doğrusu, şer aparıram), nə də şer göndərirəm. Əslinə qalsa, düşünüb görürəm ki, mətbuat üçün çox qüvvətli yazmaq lazımdır. Məndə isə elə bir şey yoxdur. Həqiqətən də, axı mənim düzdüyüm sətirlərdə hələ heç bir yenilik yoxdur. Onlar kimə nə verə bilər? İndi qüvvəli, çox qüvvəli yazmaq lazımdır. Ürəklərə zövq verən, insanların ruhunu oxşayan şer yazmaq lazımdır. Mənim yazdıqlarım isə o səviyyədən hələ çox-çox aşağıda durur.

Dərnəklərdə iştirak edirəm. Yazanlar çoxdur. Həm də mənə elə gəlir ki, indi yazanların hamısı yaxşı yazmağı bacarır. Necə deyərlər, elə ən pis yazanı mənəm. Bütün bunlar, elə də əsas deyil. Əsil həqiqətə qalanda mən hələ indi-indi həyatı anlamağa, başa düşməyə can atıram. İndiyə qədər isə, mən həyatdan heç nə bilmirdim, indi də heç nə bilmirəm. Göylərə pərvazlanmış uşaq xəyalım isə indi-indi yerə düşür və əvvəlki arzularım xəyal qədər uzaq görünür. İndi yalnız mümkün olan bir şeyi, həm də ən yaxşı bir peşəni – müəllimliyi arzulayıram. Gələcəyi – o zamanları xəyalıma gətirəndə ləzzət alıram.

Bilmirəm sizə yazmışdım, yoxsa yox. Füzuli rayonundan bir yoldaşım var idi. O mənə öz rayonlarının redaksiyasının ünvanını verdi, mən də ora şer göndərdim. Çıxmışdı. Heç bir dəyişiklik edilmədən – 6 bənd 2 sətir. Mənə göndərmişdilər.

Bu yaxında universitetdə Mehdi Hüseynlə görüş oldu. Türkiyə səfərindən danışırdı.

Dünən yataqxanada Əliağa Kürçaylının “Şerlər” kitabçasının müzakirəsi oldu. S.Rüstəm, X.Rza, A.Talışoğlu, Vladimir Qafarov və başqaları da orada idilər. Maraqlı oldu. Hamısı danışdı. Ümmumiyyətlə, görüşlər çox olur. Əksəriyyətinə gedirəm.

Keçən dəfə yazdılqarıma gəldikdə isə, onlar mənim ürək sözlərim idi və ümumiyyətlə məndə olan bütün müsbət xüsusiyyətlərə görə sizə borcluyam. Siz ki, bunları hamısını yaxşı bilirsiniz.

Mənim yazdıqlarım isə, indi gərək bütün xalqı düşündürəydi. Bunları düşünən adam çoxdur. Ancaq bu adamlar xalqsız nə edə bilər? **Xalq öz varlığını özü, şöhrətini özü qorumalıdır.** Ümumiyyətlə, gələcəyimiz çox qaranlıq görünür. Düzdür, indi çox deyirlər ki, Azərbaycan 48 il əvvəl belə idi, indi isə inkişaf edir və s. Bunlar öz yerində, bu labüd idi. Axı indi 1963-cü ildir. Biz hələ çox geriyik. M.Hüseyndən soruşuruq Türkiyədə dilənçiyə, çarşaflı qadına rast gəldinizmi? Deyir: “Mən sizə yalnız öz gördüyümü danışıram, həqiqətən də bir ay müddətində mən Türkiyədə nə bir dilənçiyə, nə də bir çarşaflı qadına rast gəlmədim”.

Bakıda isə, müəlllim, nə qədər istəsəniz, çarşaflı qadına, onlarla dilənçiyə rast gələrsiniz. (Mərkəzi küçə olan "Kommunist" küçəsində, iniversitetin yanında hər gün iki dilənçi hərlənir).

İndi bizdə ən yüksək mədəniyyət vəhşiliyə çevrilib, qalanı isə dövrün tələbindən çox aşağıdadır. Öz milli mədəniyyətimiz isə acınacaqlı bir haldadır.

Hələlik, bu qədər. Salam deyin.

Vaxtınızı aldığıma görə bağışlayın.

***Sizə dərin və hörmət bəsləyən Sabir.***
***Bakı – 15.XII.1963***

* * *

**Hörmətli müəllim!**

Salamlar daimidir!

Sizə məlktubu gec yazdığıma görə məni bağışlayın. Bu işdə günahkaram. Səbəbi də bir az imtahanlara hazırlamağım, bir tərəfdən də tənbəlliyim oldu. Eyni zamanda, sizdən gələndə sizin haqqınızda fikirlərim çox qarışıq idi. Onları cəmləşdirib məktub yazmağı bacarmadım. Nə isə... Sizin barənizdə çox düşünürəm. Mən sizin qüvvənizə hələ çox əvvəldən inanıram. Ancaq bu yaxınlara qədər bilmirdim ki, siz bəzi şeylərdə tərəddüd edirsiniz. Mən də bir vaxtlar çox tərəddüd etdim. Lakin sizin məsəhətləriniz mənə hər şeyi qəti müəyyənləşdirməkdə, öz yolumu seçməkdə çox kömək etdi. Çox xoşbəxtəm ki, bir vaxtlar həyat sizinlə məni rastlaşdırdı. Mənim həyat haqqında, insanlar haqqında, Vətən, xalq haqqında, hətta özüm haqqında düşüncələrim, hər şeyə münasibətim tam mənası ilə sizin təsirinizlə olub. Deməli, mənim tərəddüdlərim uzun çəkmədi. Sizin vəziyyətiniz isə bu barədə çətindir.

Mən sizə necə məsləhət verə bilərəm. Axı, mənim sizə demək istədiyim şeyləri bir vaxt siz mənə daha aydın demisiniz. Siz bunu daha yaxşı bilirsiniz. Bunları özünüz üçün göstərici götürsəydiniz, daha yaxşı olardı. Mən yalnız bunu deyə bilərəm ki, siz müasir poeziyanı daha dərindən öyrənməli və o yolla getməlisniz. Siz daha çox, indikindən qat-qat çox bədii ədəbiyyat oxmalısınız. Siz özünüzə çox möhkəm inanmalısınız, məqsədinizə doğru irəliləyişdə yenilməz olmalısınız. Siz mətbuatla daha yaxından əlaqə saxlamalısınız. Və tərəddüd etmədən bütün enerjinizi bu işə sərf etməlisiniz.

Ola bilsin ki, siz ikinci yolu seçdiniz. Nə eybi... Öz istək və qüvvənizə baxın. Ancaq o yolda da özünüzə inam və yorulmadan çalışmaq əsas şərtdir.

"Ömür qatarı" gedir. Ya əziyyətlə, iztirabla, mübarizəylə yaşa, bir şeyə nail ol, ya da adi rahat ömür sür – nəticə etibari ilə isə sənin başqalarına verə biləcəyin şey istifadə edilmədən sönüb getsin – fərqi yoxdur.

İkinci yol ədəbiyyatdır, çətindir. Əsas məsələ tərəddüd etmədən bu işə girişməkdir.

Fikirlərim çox dolaşıq olsa, məni bağışlayın.

Mənim vəziyyətim də lap yaxşıdır. Yeni bir şey yoxdur. Bu yaxında "Gənc qələmlər"də iştirak etmişəm. Nəticəsi haqqında 17 may 1964-cü il "Azərbaycan gəncləri"ndə yazılıb. Tapsanız, oxuyun. O şerlərdən ikisini sizə göndərirəm, fikrinizi yazın. Bu yaxında Bakıda gənclik almanaxı buraxılacaq. Onlardan biri orada gedəcək. X. Rza götürüb.

Daha nə yazım. Sağ olun. Məhbubə müəlliməyə salam deyin. Hələlik.

***Sizin Sabir.***
***Bakı – 18.V.1964***

* * *

**Əziz müəllim!**

Salam!

Uzun vaxtdan sonra məktub yazıram. Artıq yeddi aydır ki, bizim əlaqəmiz üzülübdür. Bunun günahı məndə olmuşdur. Buna görə məni bağışlayın.

Bu məktubu da bir az tərəddüdlə yazıram. Adətən, adam doğma bir yerdən, doğma bir adamdan bir neçə aylığa ayrıldıqda, adama elə gəlir ki, nə isə o yerdə, o adamın həyatında çox böyük dəyişikliklər olmuşdur. Bu dəqiqə mən də belə bir vəziyyətdəyəm. Mənə elə gəlir ki, sizin həyatınızda böyük dəyişikliklər olub, ola bilsin ki, heç keçən ilki məktəbdə işləmirsiniz. Bu da mənim sizə məktub yazmağma bir növ mane olmuşdur. Bu da qanuni haldır ki, adamların bir-biriylə əlaqələri üzüldükdən sonra ilk dəfə görüşüb söhbət etməyə başladıqda çətinlik çəkirlər, arada nə isə anlaşılmaz bir pərdə olur, söhbət üçün mövzu tapılmır. Halbuki, danışılan o qədər sözlər var ki!..

Yayın əvvəlindən ayrılmışıq. O vaxtdan çox şeylər olub. Bu bəlkə gözlə görünməyən dəyişiklikdir, formal olmayan dəyişiklikdir. Hər halda, başqaları bunu görməsə də, mən bunu görürəm.

Gənclik ömrün möhtəşəm yüksəliş dövrüdür. İstiqamət düzgün müəyyən edildikdə, insanın daxili qüvvələrinə nəsə qüdrətli bir amil təkan verdikdə, bu irəliləyiş adamı əbədiyyətin ölməz, sənədsiz-pasportsuz, aralarında heç bir formal fərq olmayan dahi, nurani vətəndaşları sırasına apara bilər. Əlbəttə, bu, nadir hadisədir və bizim heç birimiz bu arzu ilə yaşamırıq, daha doğrusu, cürət etmirik.

Qeyd etdiyim kimi, istiqamətin düzgün müəyyən edilməsi – çox böyük işdir. Bəzən ilk addımda bizə gözəl, həqiqət və qanunauyğun görünən bir yol bir aydan, bir ildən sonra səhv hesab edilə bilər.

Mən isə... Hərdən mənə elə gəlir ki, həyatda sadə, anlaşıqlı bir şey yoxdur. Bütün şeylər, bütün işlər nəsə bizim qüvvəmizdən kənarda duran bir varlıq tərəfindən anlaşılmazlıq dumanına bürüdülmüşdür. Eləcə, həyat yollarımız da. Belə vaxtlarda adam hər şeyi unudub, sadəcə, axına qoşulub getmək və qəlbindəki frtınanın gurultularını boğmaq, boğmaq... heç kimə eşitdirməmək, hətta özü belə eşitməmək istəyir.

Hərdən də bütün həyat adama günəş şəfəqləriylə bəzənib aydınlaşmış və bütün qüdrət və gözəlliyi görkəmində əks edilən təbiəti xatırladır. Həyat yolları aydın və günəşli!.. Belə anlarda adamın qüdrəti yenilməz olur və adam öz varlığını görür.

Ümumiyyətlə, son vaxtlara qədər həyat haqqında çox bədbin (əlbəttə, həmişə yox) düşünürdümsə, son vaxtlar çox nikbin olmuşam. Niyə də nikbin olmayım?! Bizim çox qısa saydığımız və bundan şikayətləndiyimiz həyat – əslində, kifayət qədər uzun deyilmi?! Axı niyə biz onun qısalığından şikayətlənməliyik?! Məgər bu bizim Allah saydığımız dahilər üçün də belə deyilmi?! Həyat bizə çox havayı verilmişdir. Biz doğulmaya da bilərdik. Halbuki, doğulmuşuq. Bax, bu, mənim üçün hər şeydir. Deməli, bizə havayı verilmiş bu həyatı qiymətləndirmək bizim öz borcumuzdur, öz vəzifəmizdir. Mən, kiçik bir dağ kəndində anadan olmuşam. Başqaları kimi dünyaya gəlmişəm. İndi mən görürəm ki, təkcə o kənd yox, bütün bu dünya mənimdir. Bu dünya çox gözəldir. Əgər bizim xalqın dərdləri, bizim dərdlərimiz böyükdürsə, bu dərdlər bizi yandırırsa, bu yanğı da ana torpağın işıqlanmasına xidmət etmirmi?!

İndi mən çox rahatam. Ola bilsin ki, mən səhv etmişəm. Lakin indi bu səhvi mən görürəm və öz yolum mənə çox müqəddəs və doğmadır. Get-gedə bu yolun çətinliyini daha aydın görürəm. Bir vaxt pərəstiş etdiyim adamların da çoxunun iç üzü aydın olur. Bu yolda insanlığın, ədalətin, həqiqətin nə qədər sıxışdırıldığını, adamın, tanışlığın nə qədər böyük rol oynadığını get-gedə daha artıq duyuram. Bunlar da məni daha artıq fəallaşdırır. Nə etməli, kimi bu yolu şöhrət mənbəyi kimi seçir, kimi mənəvi bir ehtiyac ucundan, yüksək arzu və ideaLların, məqsəd və qüdrətin sərf edilməsi üçün ən gözəl obyekt kimi seçir.

Nə isə... Sağlıq olsun. Yaşayarıq! Həyat çox şeyi – bizə çətin olan çox məsələni həll edəcək! Ya xeyrimizə, ya da zərərimizə. O zaman öz ömür yolumuza baxıb, özümüzü fərəhlə həqiqi, xalqımıza layiq oğul adlandırarıq, ya da boş arzularla dolu olan, məqsədsiz və nəticəsiz ömrümüzün solğun günləri önündə diz çöküb acı-acı ağlayırıq... İndi isə, sağlıq olsun!..

Vəziyyətim yaxşıdır. Evimizdə salamatlıqdır. Atam yenə əvvəlki kimi öz zəhmətiylə ailəmizi birtəhər keçindirir. Mənə də kömək edir. Dərslərim yaxşı gedir. Əlaçıyam. Hələlik yanvar imtahanları haqqında bir söz deyə bilmərəm. Çalışacağam ki, yaxşı olsun. Hərdən cızmaqara edirəm. Yolumu, üsulumu müəyyən etmədən (bunu indidən müəyyən etmək də olmaz), necə gəldi, eləcə də yazıram. Çap edilmək üçün heç yerə getmirəm və hələlik bunun arzusunda da deyiləm. Çünki mənə elə gəlir ki, çap edilmək çox asan məsələdir. Yalnız, yaxşı şerin olsun, əlində bir şey olsun. Nə vaxt ki, mən öz şerimin həqiqi şerliyinə inanacağam, bir neçə yox, çoxlu yaxşı şerim olacaq. Onda mən onu çap etdirməyi bacararam. İndisə, sadəcə, oxumaq, bir də yeri gələndə yazmaq fikrindəyəm. Yaxşı şer yazmaq fikrində!..

Siz öz vəziyyətinizi geniş yazın. İşləriniz necədir? İş yerinizi dəyişməmisiniz ki!

Fikirlərim çox dağınıqdır. Buna görə də məktubum pis olsa, məni bağışlayın. Nə isə, qısa yazmağa çalışdım. Uzun oldu... Həm də adam düşündüklərini yaza bilmir.

Sizə beş-altı şer göndərmək istəyirdim. Ancaq, hələlik bu məktubun da sizə çatacağına şübhə edirəm, odur ki, şerləri də yollamadım. Sizdən cavab aldıldan sonra göndərərəm.

Məhbubə müəllimə və İlqar necədirlər? Mənim salamımı onlara yetirin.

Daha nə yazım. Cavab gözləyirəm.

Sağ olun.

***Sizə dərin hörmət bəsləyən Sabir.***
***Bakı – 24.XII.1964***

*Cavad müəllimlə məktublaşmalarımız mənim universiteti qutardığım vaxtadək davam edir. Xatirələr kitabımın bir bölümünü "Azərbaycan" jurnalı üçün hazırlayanda baxdım ki, mənim tanışlarım və sevdiyim insanlarla münasibətdə məktub önəmli yer tutur. Aldığım məktubların sayı-hesabı yoxdur və özüm də az yazmamışam. Unutduqlarımızı da məktublar xatırladır...*



*Firuzə MƏMMƏDLİ*

# SABAHAM, GÖZÜM DÜNƏNDƏ

## YADDAŞIM

Axır ki, ağlını yığıb başına,
Sevincdən, kədərdən doyub yaddaşım.
Bezib ömür adlı tamaşadan da,
Əlimi üzümdə qoyub yaddaşım.

Gah dost tamaşası, gah düşmən himi,
Gah həmdəm məkiri, gah həmdərd kini.
Bilmirdim ki, çözəm sirrin hankını,
Dinşəmir ta Yeri-Göyü yaddaşım.

Nə əcəb bu qismət tərk etdi məni!
Yoxsa ümidlərim dərk etdi məni?!
Tale təpiyilə görk etdi məni,
İndi çözələnir quyu yaddaşım.

İbnədi, gələndən, gedəndən küsüb,
Çəkilib küncünə – Vətəndən küsüb.
Yetəndən inciyib, yetəndən küsüb,
Eləcə dizinə döyür yaddaşım.

Qaynayıb-qarışmır, gün hədər olur,
Ayların sayında il betər olur.

Ümid müjdə deyil, bəd xəbər olur,
Elə hey özünü öyür yaddaşım.

...İtir taleyimin ulu günləri,
Ümiddən, inamdan nurlu günləri.
İtir arzuların yolu günlərim,
Qalır bir mən, bir də şeir yaddaşım.

***2020***

## ÜZDƏ

Silahlar Dünyanı sökür-dağıdır,
Yer Göyə, Göylər də Yerə yağıdır.
Qürurlar diz üstdə... Dərd ayağıdır,
Mələklər batində, şeytanlar üzdə.

Fitnələr, feillər cin atındadır,
Köhnə ədavətlər kin atındadır.
Qanunlar ədalət inadındadır,
Gözünü qan tutan meydanlar üzdə.

Çatılıb qol-qola, yollar ayaqda,
Fəsadlar oyaqdı, fəndlər oyaqdı.
Görünən hər nə var, oyunsayaqdı,
Çadırlar qurulub, ehsanlar üzdə.

Təzə siçovullar, köhnə tələlər,
Buynuz-buynuzadı qoçlar, kələlər.
Bərələ qalıbdı bəndlər, bərələr, –
Qızarır sillətək nöqsanlar üzdə.

***2020***

## ANA

***Şəhid anaları üçün***

Yağmurdumu, yağır gəlir? –
Ağrı-acı doğur gəlir.
Ha əyirsən, ağır gəlir
Dərdin sevincindən, ana.

Açıldı şeytan düyünü,
Çox gözləmişdin bugünü.
Bəs dərdin şəhid yükünü
Necə gəzdirəsən, ana?!

Gah qazanan, gah itirən,
Səbr, dözümdür bu Vətən,
Çiynində şəhid gətirən
Qələbəmizə tən ana...

***2020***

* * *

Ağ günümün qarasını
Qara günə saxlamışam.
Mən ömrümün divarına
Səbrimi suvaqlamışam.

Üz görmüşəm üzsüzlərdən,
Güc almışam gücsüzlərdən.
Heyrətlənib iç üzlərdən
Gülə-gülə ağlamışam.

Bir hənirə, bir himə yox,
Dünənimə, indimə yox,
Ümidimi heç kimə yox,
Bir Allaha bağlamışam.

***2020***

## ETİRAF

Mən özüm-özümə möhnət daşıyam,
Tənədir, töhmətdir... Mənəm daşıyan.
Nələr çəkməmişəm... Nəyə naşıyam,
Hələ də alışa bilmirəm, Allah.

Yazdığın taledir, şikayətim yox,
Sənsiz uydurduğum hekayətim yox,
Hər dəm anlaşılan rəvayətim yox,
Yoxdu kədərimlə dil bilən, Allah.

Elə əcaibəm bu yad məkanda,
Məni əzizləyir gül də, tikan da.
Nə sirdir: qəlb yıxan, könül tikən də
Dönür söz mülkündə bülbülə, Allah.

Yaxına yaxınam, uzağa yadam,
Adam doğulmuşam, insandır adım.
Bir an əzabından uzaq durmadım,
Hey məni üyüdür kirkirən, Allah.

Mənə sınağının təpəri yoxdur,
Niyə Meracına səfərim yoxdur?!
Bəlkə peyğəmbərəm, xəbərim yoxdur,
Nola məramını bir biləm, Allah...

Nə yaxşı, mən adda söz xəbərçin var,
Qanaddan ümidsiz bir göyərçin var.
Göndər nə xəracın, nə ki xərcin var, –
Borcunu boynumdan silmirəm, Allah.

***2020***

* * *

Gücünüz çatırsa, gəlin,
Əlimdən alın qələmi.
Qəlbi dağlı, gözü yaşlı,
Ayağı yalın qələmi.

Gah mülayim, gah da çılğın,
Qayğıları – yığın-yığın.
Ərk etdiyim, sığındığım
Doğmaca anam qələmi.

Bəxti sözlə açıb, dinir
Bir ömrün sevgisi, kini.
Özündən çox özgəsinin
Halına yanan qələmim.

***2020***

## GEDİRƏM

Bir kəsdən umacağım yox,
Hamıdan küsüb gedirəm.
Dost, müsahib qılığından
Əlimi üzüb gedirəm.

Ömür aşırdı səksəni,
Canım içində səksənir.
Bəxtimə yazmışdım qəmi,
Onu da pozub gedirəm.

Hərəni bir yol daşıdı,
Dərd sevincin yoldaşıdı.
Qalan ömür yol daşıdı,
Yoluma düzüb gedirəm.

***2020***

## AVQUST OVQATI

Keyfı durulub
Buludların;
Qürub yerində
Günəş can verir.

Avqust geyimində
Şirin-şirin
Doluxsunur
Sapsarı salxımlar.

Boynuma sarılan
İlan qılığıdır
İsti nəvazişin.
Açıl başımdan,
Onsuz da
Gün
Boğazıma yığılıb.

Hərf-hərf
Doğrayaram səni
Bir də
«Sevirəm» sözünü
Dilə gətirsən.

***2019***

## BİR ALLAH BİLİR Kİ...

Danışa bilmirəm, dinə bilmirəm,
Dilimi-ağzımı bağlayanmı var?!
Üz tutum haraya, kimə, bilmirəm,
Mənim bu günümə ağlayanmı var?!

Açılır əlləri çarəsizliyin,
Ümidin ümidsiz çiyni qısılır.
Alnı düyünlənir fərasətimin,
Var-gəl sitəmində günü qısılır.

Dost-düşmən adından sınayım kimi?
Niyə möhürləndi bu sirr bilənlər?
Kimdən inam umum, qınayım kimi?
Hara yoxa çıxdı qədirbilənlər?

Yaxşıya yamanam, yamana yaxşı,
Daha özümə də yadam, yağıyam.
İçimdə qıc olan amana bax ki,
Əsəbəm, ağrıyam, adam yağıya.

Bir Allah bilir ki, özüm deyiləm,
Ağ bildiyim bəxti qara gedirəm.
Namərd qapısını niyə döyürəm?
Bir Allah bilir ki, hara gedirəm.
***2020***

## HƏLƏ

Başını qatıram bekarçılığın,
Yeriyə, yürüyə bilirəm hələ.
Hərəsi bir batman ayaqlarımı
Arxamca sürüyə bilirəm hələ.

Hələ ki məhrəmdi qələm barmağa,
Daşdan-divardan da söz qoparmağa.
Ağıla varmağa, hissə varmağa
İçimdən əriyə bilirəm hələ.

Hələ gözlərim də mənə həyandır,
Hələ qulaqlarım hənir duyandı.
Bir az deyən huşum oyan-buyandı,
Çaşıb söz kiriyə bilirəm hələ.

Hələ ki həyatın iç üzündəyəm,
Nə bilim, bəlkə də köç üzündəyəm.
İşimin-gücümün puç üzündəyəm, –
Dərdimi kürüyə bilirəm hələ.
***2021***

***

Dünya, mənə ögey baxma,
Doğmaca qızınam sənin.
Bəxtinin üzü dönəndə
Ağlayan gözünəm sənin.

Görünsə də bir az yekə,
Əzabını mənəm çəkən.
Boğazında qalan tikə,
İçində dözüməm sənin.

Sabaham, gözüm dünəndə,
Oxam, mizraqam, kəməndəm.
Haqqın qılıncı dinəndə
Hayqıran sözünəm sənin.

Çəkilmişəm qış hücrəmə,
En dərdimə, düş hücrəmə.
Kaş çəkəydin baş hücrəmə,
Görəydin özünəm sənin.
***2019***

## DƏRDİNİ

Kimə ağlayasan, kimə yanasan,
Nə nəvə, nə nənə, nə də anasan.
Hər yerdə hamını simsar sanasan,
Biri bağlamaya yara dərdini.

Yandıran-yaxılan oda dönəsən,
Hər yerdə anılan ada dönəsən.
Kimə üz tutasan, yada dönəsən,
Elə geyinəsən qara dərdini.

Bir nəvə həsrəti ömrə nənəsən,
Elə öz içindən şöləl追nəsən.
Dərd sənə, sən dərdə şələlənəsən,
Çəkib aparasan hara dərdini?!

Bu karvan ömürün sarvan adına,
Yazasan təkliyi fərman adına.
Düz-dünya quruya dərman adına,
Dərdinə edəsən çarə dərdini.
***2020***

## MİNNƏT

Zamanın, məkanın bu sərt çağında
Zülmü minbərindən salana minnət.
Qocası, cavanı həmdərd çağında
Bir «xalaxətrin» salama minnət.

Yanır, hövürlənir şər ocaqları,
Görünmür zülmətin duracaqları.
İnam qayçılanır, şübhə saxlanır,
Həqiqət donunda yalana minnət.

Elə dörd bir yandan köç edir dünya,
Bir bax, gündüzdən çox, gecədir dünya.
Bəlkə biz bilmirik, necədir dünya,
Yıxılsa, deyək ki, qalana minnət.

Milçək var, div hökmü yatır gözündə,
Gölmə var, dəryalar batır gözündə.
Gör nə qəmlər baxır qatır gözündən...
Dərdin üstündən dərd alana minnət.

Vaxtı bivaxt gəlir fağırın elə,
Daşıyır taleyin ağırın elə.
Baxırsan, sökülür, dağılır elə...
Dünyanı sahmana salana minnət.

***2019***

* * *

Gülməcələr gülsə də,
Gülməyə qorxur adam.
Dərdini bir kəs ilə
Bölməyə qorxur adam.

Ay batan kölgəsində,
Gün doğan bölgəsində –
Doğmaca ölkəsində
Ölməyə qorxur adam.

***2018***

## ÖMRÜMDƏ

Yanıb-yıxılıram təndir ömrümdə,
Yığılıb boğaza kəndir ömrüm də.
Bir xoş gün görmədim andır ömrümdə,
Bəlkə bir xoş ilim, ayım var, küsüm?!

Səbirə, dözümə hasardı ömrüm,
Hələ yazılmamış əsərdi ömrüm.
Bir vaxt barışardı, küsərdi ömrüm
İndi dostdan, yaddan tayım var, küsüm?!

Ucuz qəhət çıxıb, baha da yoxdu,
Dünənki "yox" bu gün daha da yoxdu.
Ərkimə əl yetən yaxa da yoxdu,
Hansı ümidimdən payım var, küsüm?!

Niyə yazılmadı bu yarış mənə?
Uğur əl vermədi bir qarış mənə.
Elə hamı deyir: “Gəl barış”, mənə,
Yəni barışası heyim var, küsüm?!
***2020.11.07***

## BU YOL

Gör necə uzandı, uzandı bu yol,
Mənim yerişimdə usandı bu yol.
Mən elə bilirdim, asandı bu yol,
Bu yolun cəncəli hələ dururmuş.

“İkicə addımdır”, – deyirdim elə,
Bu yolu dördnala səyirtdim elə.
Yol boyu arıtdım, ayırdım elə, –
Demə, yolayrıcda tələ dururmuş.

İrəli şığıdım, geriyə düşdüm,
Köçəri quş imiş ömür-gün, uçdu.
Dedim, “keçər gedər, bu da bir işdi”,
Qarşıda gör nələr, nələr dururmuş!

Dünyanın dərd-səri pay oldu mənə,
Harda kim yıxıldı, hay oldu mənə.
Nələr yaşamışdım, toy oldu mənə,
Hələ alacağım “nəmər” dururmuş.

Bəxtəvər başıma, cah-cəlal gəlir,
Min haram içində bir halal gəlir.
Deyəsən, bəxtimə yaxşı fal gəlir, -
“Lələ” yenilsə də, “şələ” dururmuş.
***2020***

## A DOSTLAR, A TANIŞLAR

Uzaq sanırdım elə, yaxın bilib gəlmişəm,
İçimdə bardaş quran səbrə gülüb gəlmişəm.
Gözümdə həsrət yaşı... Sözlə silib gəlmişəm.
Sizə doğru gəlmişəm, a dostlar, a tanışlar.

Bəlkə də səhv etmişəm, düz etmişəm bəlkə də,
Bildim-bilmədim, elə söz etmişəm bəlkə də.
Barışmağı-küsməyi tez etmişəm bəlkə də.
Oğrun-oğrun gəlmişəm, a dostlar, a tanışlar.

Həm mənimmiş, həm sizin, öz izim deyiləmmiş,
El-oba məzəmməti, xoş üzü deyiləmmiş.
Bu nə yeriş, bu nə nitq?! Mən özüm deyiləmmiş, –
Yaman yorğun gəlmişəm, a dostlar, a tanışlar.

Aylar, illər arxada, fikrim, hissim dolaşıq,
Oğrun baxışınızda – gəlişimə yol açıq.
Demirəm ki gəlirəm, qarşılayın, qol açın,
Şaxta, çovğun gəlmişəm, a dostlar, a tanışlar.

Bir az ömür soyuğu, bir az möhnət soyuğu,
İradə yoxluğunda – bir az töhmət soyuğu,
Məni çovğun elədi bir də şöhrət soyuğu,
Solub, solğun gəlmişəm, a dostlar, a tanışlar.

***2021***

## BİLMİRƏM

Qalxdığım pillələr qayıt, "düş" deyir,
Qalxdığın miqdarı, sayı düş deyir.
Payızı "düş", deyir, yayı "düş", deyir,
Hansı fəslindəyəm ömrün, bilmirəm.

Mən balam bilmişdim söz həqiqəti,
Andım, şərəfimdi göz həqiqətim.
Bir yalan puç edər yüz həqiqəti,
Haçandan yalana döndüm, bilmirəm.

Bir addım atmadım inamdan kənar,
İnsafdan, mürvətdən, imandan kənar.
Bu həyat gəmim ki ümmandan kənar,
Niyə çalxalandı, çöndü, bilmirəm.

Neçə yol yonulub yonqar olmuşdum,
Dərd yükü çəkməkdən donqar olmuşdum.
Alışa-alışa tonqal olmuşdum,
Bu tonqal haçandan söndü, bilmirəm.

Ya qələm dinərmiş, ya söz dinərmiş...
İndi dərdləşəmmir, dərd də hünərmiş.
Ay Allah, dərdin də üzü dönərmiş,
Məndə bu nə haldı-gündü, bilmirəm.

Baxt da uğurundan məni çıxıbsa,
Bir ömür qarşıma qəmi çıxıbsa,

Öz əlim özümə qənim çıxıbsa,
Mən kimi qınayım indi, bilmirəm.

Adım silinsə də vaxt yazısından,
Gözüm yox haqlının taxt yazısında.
Bu haqq bölgüsünün baxt yazısında
Məni qaralayan kimdi, bilmirəm.

***2020***

## XEYRİ YOX

Neyləyək ki, indi zaman başqadı,
Ağla gələn, qəlbə daman başqadı.
Qayğı-filan indi tamam başqadı,
Fərhad olub dağ çapasan, xeyri yox.

Qol işlət ki, səni vuran olmasın,
Şər əlilə ömür viran olmasın.
Vay onda ki, yaxın duran olmasın,
Qohum-qardaş, əqrabasan, xeyri yox.

Əl üstündə əl deyilik, neyləyək?
Haqq yolunda sel deyilik, neyləyək?
Dinmiriksə, lal deyilik, neyləyək?
Durub dərdlə dil tapasan, xeyri yox.

Əlimizdən nə gəlirsə, biz edək,
Gecikməyək, ediriksə, tez edək.
Ya kiriyək, ya da sözü söz edək,
Ta deməyək, nə yapasan, xeyri yox.

***2020***

* * *

Sayılıb çıxarım, gəlirim elə,
Mən özüm-özümə gülürəm elə,
Hara üz tuturam, gəlirəm elə
Sənin dərgahına, Pərvərdigara.

Ömrün dərəsində düzlərin itir,
Qədəmim yollarda gizlənib itir.
Qaynayıb-qarışır, izlərim itir,
Düşürəm axına, Pərvərdigara.

***2020***

*Mübariz CƏFƏRLİ*



# ƏRƏFƏ

♦ *Roman*

*O şey ki, bizlərə lap aşikardır,*
*Orda da gizli bir xəzinə vardır.*

***Nizami***

– Xeyirliyə olsun... Yayın ortasında bu nə sıdırığı yağışdı? Tut ucundan, çıx göyə...

– Hər şeydə xeyir axtarma, onsuz da səni göyə buraxmazlar...

– Niyə?

– Cünki yerdəki işlərini yarıtmamısan... Günahın böyükdü...

– Düzdü... Hər şey göz qırpımında baş verdi, sanki birdən-birə iynə batırdılar yanımda sakitcə gəzən uşaga, qəfil əlimdən çıxıb cumdu yolun ortasına...

– O hadisəni yadından çıxart getsin...

– Gah deyirsən günahın böyükdü, gah da deyirsən yadından çıxart... Elə şeyi unutmaq olar?

– Elədi... Elə mən də Manuskanın balalarını yaddan çıxara bilmirəm...

– İndi sən pişiyin balaları ilə mənim tifil qızcığazımı eyni tərəziyə qoyursan?

– Pişik, ya adam, nə fərqi, ikisi də canlı deyil?..

– Bilmirəm... Bircə bunu anlayıram ki, taylı tayını tapar, ikimiz də bir bezin qırağıyıq, ona görə də bizi bura salıblar...

– Ağıldankəmlərin arasına?

– Yox, bizə dəli kimi baxmırlar axı... Xəstəxananın həmişəyaşıl ağaclı, ucsuz-bucaqsız həyətində yorulub əldən düşənəcən gəzişirik, hacan yuxumuz gəlsə, yatırıq, haçan istəsək, daş pilləkənlərlə sahilə enib dənizdə çimirik... Kimdi bizi itirib-axtaran? Hələ üstəlik, dadlı yeməklər də verirlər burda... Bircə bu ərazidən çıxa bilmərik, vəssalam... Burdan çıxmaq bizə heç lazım da deyil...

– Bizə, bizə... bizə niyə? Sən öz yerinə danış...

– Eee... Burda sənin üçün pis keçir? Düzünü de, onsuz da sən yalan danışa bilmirsən, gözlərindən oxuyuram hər şeyi...

– Sən mənim gözlərimi güzgüyə baxanda görə bilərsən... Yaxşıda-pisdə deyil məsələ, mən bu lənətə gəlmiş yerdən, hündür hasara alınmış ərazidən çıxmaq istəyirəm... Bura xəstəxana deyil, qapalı ərazidi... Bəlkə də bizim üzərimizdə eksperiment aparırlar...

– Heç vecimə də deyil, nə istəyirlər eləsinlər, əvəzində bizi qoruyurlar. Bura lənətə gəlmiş yer niyə olur? Hər şey var burda... "Qa" deyəndə yemək verirlər, "qu" deyəndə su, ayrı nə istəyirsən?

– O baxır "hər şey" deyəndə nəyi nəzərdə tutursan...

– Hava, su, torpaqdan tutmuş, ta yemək-içməkdən, geyim-keciməcən... Noldu sənə, sir-sifətini niyə turşutdun?

– Yemək-içmək, geyim-kecim önəmlidimi? Yoxsa, torpağı, suyu, havanı da burdakılar bizə bağışlayıblar?

– Bəs, sənin üçün... e... bizim üçün gözəl günlər gəlməyəcək?

– Gələcək...

– Haçan?

– Günəş batdığı yerdən çıxanda...

– Kəlləmayallaq danışma... Ondansa, yağış dayansın, gedib çimək... Dənizdə çimməsək, sənin kefin açılmayacaq...

– Day mən çimməyəcəm dənizdə...

– Niyə?

– Üç gün əvvəl gombul sestra batdı çiməndə...

– Noolsun?

– Onun meyiti tapılmamış, suya girən deyiləm...

– Qorxursan?

– Yox...

– Yalan demə, qorxursan... Bir dəfə təsadüfən görmüşdüm axı, gombul sestra təkliyə çəkib səni...

– Sus, utanmaz-utanmaz danışma... Məni ölüyə qısqanırsan?

– Mənim nəyimə gərəkdi, onsuz da deyirlər ki, guya, gombul sestra burdakı bütün gözəgəlimlilərin sıxıb suyunu çıxartmaqdan həzz alırmış...

– Bəsdi, abırsız-abırsız sərsəmləmə... Ölənin dalınca danışmazlar...

– Niyə?

– Çünki olülər özlərini müdafiə eləyə bilmir...

– Niyə?

– Nə tutmusan e, niyə, niyə?.. Niyəsini bilmirəm, bəlkə özünü müdafiyə eləmək lazım deyil ölülərə... Tüpürüb ölülər bizim yaşadığımız dünyaya...

– Həm də deyirlər ki, gombul sestra balıq kimi üzürmüş...

– Adətən, dənizdə elə üzgüçülər batır. Üzə bilməyənlər dərinə getmir axı... Sözünün canını de.

– Yəni, balıq suda boğulmaz, gombul sestranı boğublar suda...

– Hə?..

– Hə, hə... Eşitdim ki, gombul sestranın meyitini tapannan sonra bura komissiya gələcək... Qətlin üstünü açmağa...

– Kaş məni tutaydılar...

– Komissiya bizim üçün gəlmir e, burda işləyənlər üçün gəlir... Bizim kimiləri tutmaq olmaz... Bir də ki, nə var axı darısqal türmədə, dəmir barmaqlıqların arasında, biz burda təxminən azadıq...

– Qulaqlarını çəkmə, mən yarımazadlıq istəmirəm... Ondansa elə darısqal qəfəs yaxşıdı...

– Sən quşsan ki, qəfəsə salsınlar?

– Elə quş olmaq isrəyərdim ki...
– Quş olsaydın, neyləyərdin?
– Tənha bir adaya uçardım. Adamlardan iyrənirəm...
– Məndən də iyrənirsən?
– Yox... Dəlisən?.. Sən elə mənəm də...
– Dəli məsələsini açıb-ağartma... Həkimlər elə bilir ki, biz sağalmışıq... Ona görə bizə baş qoşan yoxdu...
– Əgər biz dəli olduğumuzu anlayırıqsa, deməli, həqiqətən, ağlımız başımıza gəlib... Ancaq doxturlar ağıllandığımızı bilirlərsə, niyə bizi buraxmırlar?
– Hara buraxsınlar?.. Yəqin bizi heç vaxt buraxmayacaqlar...
– Niyə?
– Biz hamı kimi deyilik axı...
– Necəyik?
– Bax, sən pişiyin ölümünü yaddan çıxara bilmirsən, mən balaca uşağın ölümünə görə əzab çəkirəm... Bayırda yaşaya bilmək üçün gönüqalın olmalıyıq... Orda nələr baş verdiyindən xəbərdaram mən... Ona görə bura xoşuma gəlir... Sənin dediyin o azadlıq mənə lazım deyil...
– Bəlkə, buna görə mən sakit, tənha bir adaya uçmaq istəyirəm... Üzümə çəp-çəp baxma, səninlə bir yerdə yaşamaq istəyirəm o adada...
– Bəs qorxmursan ki, o adada bizi vəhşi heyvanlar yeyər?
– Mən heyvanlardan yox, adamlardan qorxuram...
– Adamlardan qorxursansa, bayıra çıxmaq istəməyin mənasızdı...
– Qabaqlar bir xanım deyərdi ki, gözəl yaşamaq üçün ikicə yol var, ya gərək yaxşı girəsən, ya da... ya da ki, yaxşı verəsən...
– Anlamadım...
– Yəni... Burda başa düşməməli nə var axı, yəni, ya gərək yaltaqlanasan, ya da ki... yəni... bədənini təslim eləyəsən... Nədi, nəyə gülürsən? Başa düşmədin hələ də?..
– Əvvəldən anlamışdım hər şeyi, intəhası, qəsdən səni utandırmaq istəyirdim. Dilinin dolaşmağı ləzzət elədi mənə... Məni dilbilməz hesab eləyirsən?
– Yox, mənəm qanmaz, əcəb məzələnirsən mənimlə...
– Yaxşı, yaxşı, qaşqabağını sallama... Bəs, o xanım özü nə qərara gəldi?
– Heç bir qərara gələ bilmədi... O elə bilirdi ki, həyat həmişə toy-bayramdı, deyib-gülməkdi, adamlar onun qəlbinin təmizliyindən istifadə elədilər, o da əvvəlcə depresiyaya düşdü, sonra başına əməlli-başlı hava gəldi...
– Burda... Burdadı?.. Bizim aramızdadı?..
– Yox, uçub göylərə getdi...
– Şükür... Sağ əli bizim başımıza...
– Sən də getmək istəyirsən?
– Gözümü qırpmadan uçardım... Yadındadı, burda, bizim yanımızda küçə itləri üçün ayrıca yer düzəltdilər. Dəmir tordan hazırlanmış çəpərin arxasından yiyəsiz küçə itlərinə baxmağı çox sevirdim... Əvvəl-əvvəl gələndə o itlər aparıq idi, çoxunu qotur basdığından tükləri tökülmüşdü, tüksüz, qırmızımtıl dəriləri yara idi yazıqların, baxışları da qorxaq, fağır, çəkingən... Burda o itlərə yaxşı qulluq elədilər, itlər sağaldı, kökəldi, gözlərindəki qorxu-ürkü də get-gedə yox oldu, o qorxunun yerini sonsuz sevinc tutdu... Bir gün baxdıq ki, itləri köçürüb, dəmir tordan qurulan hasarı da sökürlər. Yadındadı? Demə, yiyəsiz itləri heyvansevərlərə paylamağa aparıblar... Beləcə, o itlər də xoşbəxt yaşayacaqdı... Belə düşünə-düşünə məni qəfil ağlamaq tutdu ki, niyə axı mən it doğulmamışam?.. Neçə gün elə durduğum yerdəcə ağlayırdım...

– Bu dünyanın zayı çıxıb...

– Yox, mütləq hardasa bir cənnət olmalıdı... Sirli danışmıram ki?

– Sirr dedin, yadıma düşdü, sənə bir sirr açım? O itlərin aparıldığını eşidəndə elə mən özüm də it olmaq istədim...

– Sən də ağladın?

– Yox, ağlamadım, ağlaya bilmirəm mən... Ağlamağım gələndə gülürəm... Bəlkə elə ona görə neçə gün qəhqəhə çəkdim öz-özümə... Burdakı həkimlər də çaş-baş qalmışdılar mənim halımın qəfil dəyişməyinə görə...

– Eşitmişəm ki, indi də yiyəsiz pişiklər üçün yer hazırlayırlar...

– Hə, mən də eşitmişəm...

– Deyirəm, adam gecə yata, səhər oyananda görə ki, axsaq it olub, lap xəstə, qotur bir pişiyə çevrilib...

– Bir şərtlə ki, burdan aparılan itin-pişiyin arasında olasan, yoxsa, yiyəsiz heyvan olmaq lap dəhşətdi...

– Düz deyirsən, sahibsizlik dəhşətdi... Elə yiyəsiz adam olmaq da zülümdü...

– Gəl özümüzü itliyə, pişikliyə vuraq...

– O nə təhər olur? Neyləyək?

– İt-pişik kimi dörd ayaq üstündə gəzək, hürək, miyoldayaq...

– Bəlkə haçansa bizi də itlər, pişiklər kimi əsrarəngiz bir yerə apardılar? Belə şey eşitməmisən ki?

– Eşitməmişəm... Amma yəqin, gec-tez, bizim küçəmizdə də bayram olacaq...

– İnanmıram...

– Niyə?

– Çünki bizim küçəmiz yoxdu...

* * *

Baş həkim:

– Bizi işimizdən ayırsaz da, sizə “xoş gəlmisiz” deməyə məcburam... Əyləşin, əyləşin, ancaq nəzərə alın ki, vaxtımız məhduddu...

Müstəntiq:

– Qonağı pis qarşılayırsız... Ərazinizə girəndən məni dolama yollarla sizin yanınıza gətirənəcən rəsmi sorğu-sualdan başqa bir söz eşitmədim... Qapalı bir yer yaratmısız, sizinlə görüşmək üçün neçə gündü kağız-kuğuzla əlləşirik... Ora məktub yaz, bura faks göndər...

Baş həkim:

– Bura demokratiyanın beşiyi sayılan bir ölkənin yaratdığı reabilitasiya mərkəzidi. Həm də bilirəm ki, siz xoş niyyətlə gəlməmisiz...

Müstəntiq:

– Birincisi, beşik məsələsini çox şişirtməyin... Sizin qürrələndiyiniz ölkədə, demokratiya pərdəsi altında nələrin baş verdiyi hamıya məlumdu... Beş almasaz, bir verməzsiz... İkincisi, təəssüf ki, elədi... Burda ölüm hadisəsi baş verib... İşçiniz dənizdə boğulub... Bizim də vəzifəmiz bu işi araşdırmaqdı...

Baş həkim:

– Amma boğulanın izi-tozu yoxdu...

Müstəntiq:

– Pal-paltarı sahildə tapıldığından, dənizdə batdığını ehtimal eləmək olar... Ailəsi də yaman narahatdı dənizdə boğulanın...

Baş həkim:
– Paltar öz yerində... Amma indi texnologiya əsridi... Bu ərazinin ən qaranlıq küncü də gecə-gündüz bizim nəzarətimizdədi... Başınızı ağrıtmayıb kəsəsinə deyəcəm, bizə hər şey məlumdu... Tibb bacısının sahildə soyunub dənizə girmək görüntüsü yaratmağı, sonra kişi paltarı geyinib bağın gözdən-könüldən uzaq yerində hasardan tullanaraq əvvəlcədən onu gözləyən maşına oturub qaçması... Həmin maşınının görüntüləri də var əlimizdə... Bizim burdakı ekspertlər hər şeyi başa düşdülər. Çünki qaçan peşəkar deyildi. Ya da bilə-bilə kobud işləyirdi ki, izi azdırsın. Bununla da, yerlilərdən olan sonuncu işçimizlə vidalaşdıq. Yerli işçilərin burda işləməsi, yerlilərlə təmas, alış-veriş özünü doğrultmur... Ona görə, içməli sudan, ərzaqdan tutmuş ən zəruri şeyləri belə, öz ölkəmizdən gətirməyə çalışırıq... İşçilərimiz isə sizin dili mükəmməl bilən peşəkarlardı... Nəninki dilinizi bilirlər, adət-ənənələrinizdən, tarixinizdən də xəbərdardılar...
Müstəntiq:
– Xeyirxah missiyanıza görə təşəkkür eləyirəm. Amma gəlin mətləbdən uzaqlaşmayaq... Demək istəyirsiz ki, tibb bacısı sağdı?..
Baş həkim:
– Əlbəttə...
Müstəntiq:
– Sübutunuz var?
Baş həkim:
– Şübhəsiz... Öskürəyin dərmanı sudu, su için... Bizim su safdı...
Müstəntiq:
– Çox sağ olun...
Baş həkim:
– Görüntülərə baxmaq istəyirsiz?
Müstəntiq:
– Yox... Ancaq sizinlə ətraflı söhbət eləmək də istərdim...
Baş həkim:
– Tibb bacısının gənizdə boğulması barədə?
Müstəntiq:
– O məsələni hələlik qoyaq kənara...
Baş həkim:
– Nə tez təslim olduz?..
Müstəntiq:
– Bu, təslim olmaq deyil, əməkdaşlıq təşəbbüsüdü...
Baş həkim:
– Yaxşı, buyurun, nə haqda danışmaq istəyirsiz?..
Müstəntiq:
– Elə ümumi... Sizdən tez ayrılmağımı bayırda gözləyənlər düzgün başa düşməz... Axı, siz yalnız bir nəfəri qəbul eləməyə razılıq verdiz. Bəxtimdən o da mənim payıma düşdü... Yoxsa, bu sudan içə bilməyəcəkdim... Çoxdu dünyada belə mərkəzlər?
Baş həkim:
– Keçmiş sovet respublikalarından yalnız sizin ölkənizdədi...
Müstəntiq:
– Ooo!.. Nə yaxşı, deməli, MDB-də birinciyik...
Baş həkim:
– Bilirəm... İnanın ki, dünya çox kiçikdi...

Müstəntiq:
– Kinayəli danışmayın, gəmidə oturub gəmiçi ilə yabalaşmaq sizə yaraşmaz...
Baş həkim:
– Yaba? Yaba... Bu sözün mənasını yadıma sala bilmirəm... Yaba nədi?..
Müstəntiq:
– Yaba elə yabadı da... Necə deyim... Kənd təsərrüfatı alətidi, adi kəndli aləti... Dalaşmaq, dava eləmək mənasında işlədilir...
Baş həkim:
– Zənnimcə, yabanın başqa mənası da var... Nə isə... Burda siqaret çəkmək olmaz...
Müstəntiq:
– Bağışlayın... Hansı kriteriya ilə götürürsüz xəstələri bura?
Baş həkim:
– Xüsusi bir kriteriya yoxdu... Müharibədə travma alanları... Əlbəttə, söhbət psixoloji zədədən gedir. İllər ötsə də, belə xəstələrin durumu arzuolunan səviyyəyə çatmır... Əqli qüsurlu yiyəsizləri, küçədə qalanları, yaşamağa yeri olmayanları qəbul eləyirik... Çoxunun heç bir sənədi-filanı da olmur... Hamını qəbul eləmək imkanımız xaricindədi... İndi yeni proqram üzərində işləyirik. Sağalanları başqa yerə göndərmək istəyirik ki, gedənlərin yerinə yeni xəstələr qəbul eləyə bilək...
Müstəntiq:
– İtlər kimi?
Baş həkim:
– Təxminən... Amma heyvanlarda adaptasiya prosesi tez başa çatır, rahat keçir... Depresiyaya düşüb get-gedə şizofrennikə çevrilən insanlardasa, sağalmağa bəzən illər gərək olur... Onların beyninin, yaddaşının xəzinəsindəki ağrılı məqamları silmək asan deyil... Bəzi xəstələrimiz yaddaşlarını tamam itirirlər. Ona görə də biz ən effektiv yolu seçdik...
Müstəntiq:
– Hansı yolu?
Baş həkim:
– Psixotrop dərmanlardan tamamilə imtina elədik, xəstələrə də tam azadlıq verdik... Bacardıqca azad, rahat bir mühit yaratdıq...
Müstəntiq:
– Necə yəni, tam azadlıq?
Baş həkim:
– Yəni, onlara heç bir qadağa yoxdu... Haçan istəyirlər yatırlar, haçan istəyirlər dururlar, istəyəndə yeyirlər, dənizdə çimirlər, bağda gəzirlər, oxuyurlar, musiqi alətlərində çalırlar, rəsm çəkirlər, şeir yazırlar... Belə xəstəxanalar, mərkəzlər üçün labüd, zəruri olan rejim məsələsindən də tamamilə imtina eləmişik... Yalnız müstəsna hallarda, məsələn, ilkin mərhələdə xəstə sakitləşməyəndə, bəzi xəstələr yuxusuzluqdan əziyyət çəkib yata bilməyəndə dərmandan istifadə eləyirik. Axı sağlam, dərin yuxu bizim xəstələrin sağalması üçün əsas vasitələrdən, şərtlərdən biridi...
Müstəntiq:
– Belə başa düşdüm ki, xəstələri başlı-başına buraxmısız?
Baş həkim:
– Nə danışırsız?.. Xəstələrin ən xırda hərəkəti belə daim nəzarətimizdədi... İnanın, azadlıq rahatlığı, azadlıq havası ən kəsərli dərmandan da yaxşı təsir göstərir onlara... Nəinki insanların, elə heyvanların da həyatından, sabahından

əmin-arxayın olması çox xəstəliklərin qarşısını ala bilər, çox dərdlərə dərman ola bilər... Möcüzəvi nəticələr, böyük uğurlar əldə eləmişik ən ağır xəstələrimizlə...

Müstəntiq:

– Xəstələrin arzu-istəkləri uyğun gəlməyəndə neyniyirsiz?

Baş həkim:

– Necə yəni, uyğun gəlməyəndə?

Müstəntiq:

– Məsələn, xəstənin biri yatmaq istəyir, o birisi oxumaq... Ola bilsin mən bir az primitiv dedim, amma sözsüz ki, bu tipli problemlər də çıxa bilər ortaya...

Baş həkim:

– O problem deyil, oxumaq istəyən musiqi otağına, yuxusu gələnsə, yataq otağına gedir...

Müstəntiq:

– Qadın - kişi münasibətlərini necə tənzimləyirsiz? Burda təcavüz-zad olmayıb ki, haçansa?..

Baş həkim:

– Yox... Burda elə şey ola bilməz!.. Dedim axı, hər şey nəzarətdədi... Əvvəlcə karantində olurlar bura gətirilənlər, müəyyən mərhələni keçəndən sonra həkimlərimizin, işçilərimizin səyi ilə pillə-pillə, yavaş-yavaş özlərinə gəlirlər... Amma yüksək mərhələyə çatandan sonra ülvi, məhrəm hisslərə heç kəs qadağa qoya bilməz... Düzdü, hərdənbir dırnaqarası tibb bacısı dinc durmurdu... Əlimizdə faktlar, açıq görüntülər vardı... Biz onsuz da onu işdən qovmağa hazırlaşırdıq...

Müstəntiq:

– Doktor, sağ olun ki, mənə lazımi məlumatlar verdiz... Sizi çox incitməyim...

Baş həkim:

– Narahat olmayın, məni incitmək çətindi...

...Mərkəzin dəmir darvazasının balaca qapısından bayıra çıxanda, küçədəki tənha çinarın kölgəsində maşına söykənərək gözlərini yorğun-yorğun qapıya dikən iki kişi hərəkətə gəldi.

Müstəntiq bomboş və bomboz asfalt yolu keçib onlara yaxınlaşan kimi dazbaş səbirsiz-səbirsiz soruşdu:

– Nooldu?

– Qoy bir siqaret çəkim, – dedi müstəntiq. – Orda çəkməyə qoymadılar... Bayaqdan yanıram...

Dazbaş əl çəkmədi:

– Baş direktoru görə bildin?

– Yox... – müstəntiq əlini yellədi. – Kefdən danışırsan, baş həkimin yanına güclə düşdüm...

Lopabığ söhbətə qarışdı:

– Yaxşı, bəs, baş həkim nə dedi?

Müstəntiq tez-tez dərin qüllab vurduğu siqareti kənara vızıldatdı:

– Dedi ki, mənim əlimdə üç tuzdu. Gedin, nə halınız varsa görün...

– Əclafa bax e... – dazbaş mızıldadı. – Qorxmur ki, onu deşik-deşik eləyib itə-pişiyə yedizdirərik?

Lopabığ üzünü müstəntiqə tutub:

– Yaxşı, otur maşına, şef bizi gözləyir... – qapını açıb sükan arxasına keçdi. – Kişi bayaqdan iki dəfə zəng eləyib... – nədənsə, birdən-birə bir-iki addım aralanıb gözaltı ətrafı marıtlayan dazbaşı səslədi. – Ey!.. Sənə xüsusi dəvət lazımdı, gəl otur da, nə pusursan yan-yörəni?..

* * *

– Niyə dayandın, qalx da... – qadın yuxarıdan donuxub qalaraq nə eləyəcəyini bilməyənə baxıb dilləndi. – Yerə az bax, nə tapmısan axı, orda?

– Dırmaşmaq istəyirəm e yuxarı, amma bilmirəm, əvvəlcə sağ ayağımı qoyum pilləkənə, ya solu...

Yuxarıdakı güldü:

– Kefsən e, sən... Qırxayaqdan soruşurlar ki, yeriyəndə birinci hansı ayağını atırsan, başlayır fikirləşməyə, fikirləşə-fikirləşə də ayaqları bir-birinə dolaşır, gəzə bilməyib yıxılır qırxayaq...

Aşağıdakı dodaqlarını büzdü:

– Mən ki, qırxayaq deyiləm, cəmi iki ayağım var... – ilk dəfə görürmüş kimi ayaqlarına baxdı. – Bu bir, bu da iki... – şəhadət bağmağını uzadıb saydı. – İndi ki, belə oldu, yuxarı qalxmayacam... – geri döndü. – Gedirəm meydançada futbol oynamağa...

– Onda gözlə, mən də gəlim... – qadın inciyənin könlünü almağa çalışdı. – Futbolu tək-tənha oynamayacaqsan ki...

İnciyən kin saxlamadı:

– Gəl...

Qadın tələsik pillələri enib onun yanına çatanda futbol oynamaq istəyən dedi:

– Skamyada oturan ağsaç kişi ilə başı şallı arvadı da çağıraq?

– Niyə?

– Qoy onlar da bizimlə oynasınlar...

– Yox, işin olmasın, onlara dəymə, – qadın etiraz elədi. – Onsuz da onlar bizimlə oynamayacaqlar...

İnciyən ayaq saxladı:

– Niyə oynamayacaqlar?

Qadın da dayanmalı oldu:

– Çünki onlar topdan qorxurlar...

– Nəyinnən qorxurlar topun?

– Çünki... çünki... – qadın uyarlı sözlər axtarsa da, ağlına heç nə gəlmədiyindən həqiqəti söyləməli oldu. – Çünki onların gözünün qabağında uşaqlarının başını kəsib top kimi oynadıblar...

– Uy!.. – inciyən səntirləyən kimi olub bir addım gerilədi, bir anda həm hayqırdı, həm də içini çəkdi. – Harda kəsiblər uşaqlarının başını?

– Davada kəsiblər...

– Kim kəsib? – bu dəfə inciyəyən qorxa-qorxa və yazıq-yazıq xəbər aldı.

– Ermənilər...

– Onlar kimdi ki?

– Pis adamlar... Vəhşilər...

– Ermənilər bura gələ bilməz ki?

Qadın səhv elədiyini anlayıb onun əlindən tutdu:

– Yox, qorxma, bura heç kəs gələ bilməz...

İnciyən qadına qısıldı:

– Gəlsələr?..

Qadın gözlərini bərəltdi:

– Gəlsələr, mən onların başını kəsərəm...

– Yox, başlarını kəsmə, yazıqdılar... Axı, sən vəhşi deyilsən... – inciyən razılaşmadı. – Qovarsan onları burdan... Qoy çıxıb getsinlər...

Qadın onun əlini buraxdı:
– Yaxşı, bəsdi danışdıq, gedək oynayaq...
– Yox, day mən də futbol oynamıyacam... Heç vaxt oynamıyacam!..
– Niyə? Sən yaxşı futbolçusan axı... Əvvəllər ölkə mükafatçısı da olmusan... Yadından çıxıb?.. – qadın əl çəkmədi. – Gedək oynayaq... Bax, məşq eləməsən, formadan düşərsən...
– Acmışam e, sestra bacı... – inciyən burnunu çəkib yazıq-yazıq dedi. – Mənə yemək ver də...
– Yaxşı, onda qalxaq yeməkxanaya, çörəyimizi yeyək... Amma bir şərtlə ki, daha mənə “sestra bacı” demə... Axı, gombul sestra burdan gedənnən sonra, sizə tapşırıldı ki, bizi öz şərti adlarımızla çağırasız...
– Şərti ad nədi?
Qadın diksindi. “Bu gün nə olub mənə, bu nə səhvlərdi eləyirəm, ilahi? Ağlıma, ağzıma gələni danışıram. Qeydə alanlar həftə sonu payımı verəcəklər... İllər ötüşsə də, öyrəşə bilmirəm buralara, neyləyim? Məktəb keçmək ayrıdı, birbaşa təmas ayrı... Ha dəridən - qabıqdan çıx, xeyri yoxdu... Hərdənbir xoruz buraxmalısan...”
– Yəni, öz adımızla...
– Yaxşı, Nona bacı, oldu...
– Heç “bacı”nı da demə... Elə-belə, Nona de, vəssalam...
– Yaxşı... Amma sən də məni öz adımla çağır... Yaxşı, Nona?..
– Yaxşı...
– Mənim adım nədi ki, Nona? – deyəsən, qadının adını tez-tez çəkmək futbolçunun xoşuna gəlirdi.
– Sənin adın... – Nona ani fikrə getdi. – Sənin adın: doqquz nömrə...
– Hə, yadıma düşdü, futbol oynayanda da nömrəm doqquz idi...
– Doqquz yaxşı rəqəmdi...
– Nəyi yaxşıdı?
– Yaxşıdı ki, yıxılanda da heçə dönmür... Olur altı...
– Rəqəm canlıdı ki, yıxılsın?
– Hər şey yıxılır... Ölür... – Nonanın gözləri yol çəkdi. – Bir əvvəl var, bir də son...
– Əvvəllə son? Bəs, indi biz hardayıq?
– İndi?.. İndi yəqin ki, ortadayıq...
– Ortada?.. Bəs, yemək yeyəndən sonra harda olacağıq?
Nona qəhqəhə çəkdi:
– Ay səni!.. Bir dənəsən e, bir dənə... Yeməkdən sonra sən hara istəsən, ora gedərik... Ancaq, elə yemək yeyəndən sonra da ortada olacağıq... Gedək... – qadın onun əlindən tutmaq istədi.
– Ortada olmaq yaxşıdı? – doqquz nömrə maraqla soruşub diqqət kəsildi.
– Harda olmağın fərqi yoxdu... Əsas odu ki... – Nona sözünü yarımçıq kəsib münasib sözlər axtardı. – Əsas odu ki, yaşaya-yaşaya diriykən kölgəyə çevrilməyəsən...
Futbolçu dinmədi, key-key gözlərini döyüb kirpiklərini tez-tez qırpdı...

* * *

Müstəntiq tez-tələsik şefin otağına girəndə rəhbərinin stulunu boş görüb kitab rəfinin arxasındakı düyməni basdı, şkaf divar böyu hərəkətə gəldi, o, şkafin arxasından “azadlığa çıxan” balaca qapını açıb əyilərək arxa otağa daxil

oldu. Otağa girən kimi divardakı düyməni basdı ki, kitab rəfi öz yerinə “qayıdıb” qapının qabağını kəssin, qapını arxasında “gizlətsin”. Əslində, buna ehtiyac olmasa da – kim icazəsiz, yoxlamasız-filansız şefin otağına gorməyə cəsarət eləyərdi? – müstəntiq illər boyu öyrəndiklərinə əməl eləməli idi. Ehtiyatlı igidin anası ağlamaz. Şefsə kresloya yayxanıb bapbalaca pəncərədən bayıra baxa-baxa siqaret sümürürdü. Pəncərəyə uyarlı yarıqaranlıq otağı tüstü bürüdüyündən bir anlığa müstəntiqə elə gəldi ki, gözlərini bayırdan çəkib ona baxan ağlayır. Dumanın arxasından zillənən iti baxışlı gözlərsə yaşarmamışdı, sadəcə, alacalanmış kimi nəmli görsənirdi, amma əgər şef həqiqətən kövrəlmişdisə, deməli, dünyanın axırı yaxınlaşırdı...

– Gəl-gəl... – şükür, sefin səsində qəhərdən əsər-əlamət yox idi, əksinə, həmişəkindən arın-arxayın gəlirdi kresloda əyləşənin səsi. – Gəl otur... – yanındakı kətildə ona yer göstərdi. – Gəl yerli-yataqlı danış, görüm necə gəlmisən... Gətirdiklərin sənin olsun, gördüklərindən danış...

Müstəntiq keçib taxta, rəngi getmiş kətildə tikan üstündə əyləşirmiş kimi ehtiyatla oturdu:

– Lısıya anlatmışam hər şeyi... Yəqin o da sizə danışıb...

Şef kreslosunda sağa-sola fırlanıb gözlərini müstəntiqə dikdi, əlindəki siqareti külqabına basdı.

– Lısının ağzından qan iyi gəlir, onun ağlıyla uzağa getmək olmaz. Özün açıq danış, görüm nə deyirsən... Heç lopabığın danışığından da ağlım bir şey kəsmədi... Sənin yerini verə bilməz də onlar... – yuxarıdan aşağı kətildə oturub gözlərini tavana dikənə baxdı. – Forslanma, o yazıqları içəri buraxmayıblar axı... Bütün hallarda görmək eşitməkdən yaxşıdı...

– Elədi... – kətildəki gözünü tavandan çəkmədən robot kimi dilləndi. – Mən orda ikinci adamla, baş həkimlə görüşdüm...

– Baş həkim orda ikinci deyil, üçüncü adamdı... – müstəntiqin gözünü yuxarıdan çəkib təəccüblə ona baxdığına məhəl qoymayıb davam elədi. – Orda bir prezident də var ki... – sözlərinə anicə ara verdi. – Deyəsən, onu şəxsən heç kim görməyib... Deməli, sıralama belədi: Prezident, Baş direktor, Baş həkim... İndi buyur, danış görək, sən neylədin, nələr gördün?..

– Mən Lısı ilə Bığın sizə dediklərinə heç nə əlavə eləyə bilməyəcəm... – müstəntiq rəsmiyyətlə cavab verdi.

– Hardan bilirsən onlar mənə nə danışıb? Ərlik qız kimi yalannan naz-qoz eləmə...

Müstəntiq qızardı:

– Sabah hər şey yazılı şəkildə sizin masanın üstündə olacaq...

– O öz yerində... Bəs şifahi? Mənə qeyri-adi detal lazımdı. Ağlasığmaz bir şey... Eşitdim, baş həkim sənin payını verib...

– Düzdü, əvvəlcə yekaxanalıq eləmək istədi, amma mən də kürəyimi yerə vermədim, o birini deyincə, mən beşini qaytarırdım. Ağzımdan od-alov tökülürdü...

Şef zarafata saldı:

– Yavaş, buraları yandırarsan... – deyib ciddiləşdi. – Səni ora razborkaya, dava-dalaşa göndərmişdik?

– Mən neyləyə bilərdim? – müstəntiq sözünü dəbbələdi. – Sözümü ürəklə, axıracan deyə də bilmirdim. Başa düşdüm ki, hələlik dərinə gedib çək-çevir eləməyin ziyanını görə bilərik... İçəridəkilər işləri taman korlayıblar. İndi adamımız da qalmayıb orda. Əvəzində, bizim başımızı ağrıdacaq görüntülər var onların əlində...

– Orası düzdü... – şef razılaşdı.

– Nə düzdü?

– Orası düzdü ki, içəridəkilər heyvan kimi işləyiblər... – şef izah elədi. – Vaxtında çörəyi çörəkçiyə vermək lazım idi. Guya, ora adam göndərib ağlasığmaz yerlərə böcək qoymaq çox vacib idi? Hansı əsrdə yaşayırıq? Camaat Aya, ulduzlara nəzarət eləyir, biz burnumuzun ucunda baş verənlərdən baş çıxara bilmirik... Heyif o şöbəyə aldıqları xüsusi nəzarət aparatından... Dünyanın bir-iki ölkəsində var o aparatlardan... Ancaq noolsun, nə faydası?.. Bərkə düşən kimi yenə Huh əyyamından qalma böcəkləri hara gəldi quraşdırırlar... İndi gəl bunlarla işlə... – şef şəhadət barmağını başına vurdu. – Bizə qiymətli aparatlar yox, baş lazımdı, baş... Əsl baş, qiymətli baş...

Müstəntiq quzuya dönüb büzüşdü:

– İndi heç nə eləmək olmaz?

– Fürsət əldən çıxıb... – şef təəssüflə başını buladı. – Amma görək... Mən əvvəldən əleyhinə idim bu həngamənin...

– Axı, boş dayanmaq da olmazdı... Nəsə eləmək lazım idi...

– Yox, heç nə lazım deyildi... Yalnız kənardan hiss olunmayan nəzarət lazım idi, vəssalam... Zibili basarsan, iyi çıxar. O küçə itlərinin də aparılmağına icazə vermək gərək deyildi. İndi də əllərində bayraq eləyiblər it-pişik məsələsini... Neyləyək ki, bu iş bizdən yuxarı səviyyədə həll olundu... – şef ah çəkdi. – Rəhbərliyin qərarı isə müzakirə olunmur... Yəqin ki, bunları sənə deməkdə düzgün eləmirəm, amma bilirsən ki, sənin xətrini öz balam kimi... – duruxub özünü qoca göstərməyi rəva bilmədi, – öz balaca qardaşım kimi istəyirəm. Onlarla əlaqə yaratmaq, işləmək üçün yüz üsul var idi. Bizdən əvvəlki rəhbərliksə, ən kobud yolu seçdi. Bu da nəticəsi... İçəridəki heyvərələrə də ehtiyac yox idi. Nə bilim, sestra, bağban, süpürgəçi, zibildaşıyan... Həqiqətən bizi zibilə saldılar... Kstati, hardadı olar?

– Kimlər?

– Orda işləri zibilləyənlər...

Müstəntiq çiyinlərini çəkdi:

– Mən nə bilim... Hərəsi bir dərədədi...

– Yığ onları bir yerə... Yox, bir yerə yığma... Ayrı-ayrılıqda danışdır... Sonra mənə məruzə eləyərsən... Bir tərəfdən baxanda, bu oyunda bizə ölüm yoxdu. Nə olacaqsa, babalını qoyacağıq köhnə rəhbərliyin boynuna... Belə ki, burnumuzu sallamayaq, oyun hələ təzəcə başlayır... Darıxma, məğlubiyyətdən də qorxub boynunu bükmə, elə oyunlar var ki, orda uduzan qalib gəlir... – müstəntiq anladı ki, şef ona müraciət eləsə də, əslində, özünə təsəlli verir, tutalqasız söhbəti dəyişməyi də buna sübut idi. – Bayaqdan elə mən danışıram, sən də kişi kimi mənə bir ipucu vermədin... Baş həkim barədə heç nə demədin...

– Yazacam hamısını...

– Dedim də, yazı öz yerində, bəs, səni qeyri-adi heç nə cəlb eləmədi? Özünü qoyunluğa vurma, qanmırsan nə demək istəyirəm?

– Nə de...de...yim... – onsuz da tarım oturmuş müstəntiq özünü yığışdırdığından kəkələdi. – Çox bilikli adamdı... Bizim dili də ki, bizdən e... mənnən yaxşı bilir... Bircə “yaba” sözünü başa düşmədi...

Şef birdən-birə yerindən dik atılıb səsini ucaltdı:

– Yaba?!. Nə yaba, ala? Yaba nədi, açıq danış görüm? Söz var səndə, deyəsən.

Müstəntiq qorxudan sarısını uddu. Yenə dili dolaşa-dolaşa:

– Ya...ba da... dədə-baba yabası... – dedi. – Mən yaba kəlməsini işlədəndə baş həkim anlamadı, mən də izah eləməli oldum... – gözlərini suçlu-suçlu və çəkingən-çəkingən şefin üzünə dikdi.

Şef dirsəklərini masaya dayayıb əlləri ilə üzünü örtdüyündən və müstəntiq də onun baxışlarını görə bilmədiyi üçün tamam narahat oldu, qeyri-irtiyari bir ayağını qaçaraq qoydu, guya, bir himə bənddi, bu dəqiqə ilan ağzından qurtulmuş qurbağa kimi qapıya hoppanacaqdı.

Araya çökən sükut qımıldanmağa belə cəsarət eləməyən müstəntiqə nəhayətsiz göründü, handan-hana şef əlini üzündən çəkib sakitcə:

– Bəs nəm-nişanı?.. – soruşdu.

– Anlamadım... – müstəntiqin iri hülqumu qalxıb endi. – Bir az sadələşdirin...

– Yenə nəyi anlamadın ay... məndeyən?.. – sifətinə təbəssüm qonan şef səsini qaldırdı.

– Nəm-nişan nə olan şeydi? – müstəntiq key-key gözlərini döydü.

Şef gülümsündü:

– Nəm-nişan, yəni, sir-sifəti, üz-gözü, xüsusi əlamətləri...

– Əlamət deyəndə ki, həkimdən çox qəssaba oxşayırdı... – müstəntiq yüngülcə gicgahını ovuşdurub fikrə getdi. – Yekə əlləri, hündür boyu, yekə, yekə demək azdı, heyvərə burnu vardı... Sağ yanağında da bozumtul xalı... Çal saçları keçəlləşməsə də, seyrəlib... Gözləri də ki, qapqaradı...

– Bizim tanıdığımız adamlardan kimə oxşayır?..

– Bir suyu elə... – müstəntiq sözünü yarıda kəsib udqundu.

Şef hövsələdən çıxdı:

– Alə, sözünün canını de...

Müstəntiq indi də sağ əli ilə alnının tərini silə-silə yenə kəkələyib:

– Bir suyu elə...elə... elə sizə oxşayır... – güc-bəla ilə dedi.

Sef qımışıb sövq-təbii burnunu sığalladı:

– Əclaf, demək istəyirsən ki, mənim də burnum heyvərədi?..

Müstəntiq ürəkləndi:

– Yox, mən bir suyu dedim... Yəni az-maz... – çəkinsə də, ayağını geri qoymadı. – Amma, vallah, nəsə bir oxşarlıq duydum aranızda... Baş həkimi görən kimi ağlıma gəldi bu...

– Ağlına gəlməyi yaxşıdı...

– Nəyi yaxşıdı? – müstəntiq çaşdı, bilmədi kreslodakı onu öyür, ya söyür...

– Deməli, ağlın var... – şef, ağır yük altında imiş kimi, dərindən nəfəs aldı. – Sənnən tamam əl üzməyə dəyməz...

Müstəntiq nə deyəcəyini bilməyib yalandan gülümsündü.

Şef onu bir xeyli süzüb:

– Yaxşı, yeri get... – dedi. – Get fiqurları düz... Sənnən bir şahmat oynayaq... Get... – təkrarladı. – Mən də indi gəlirəm...

Müstəntiq qalxıb tez-tələsik otaqdan çıxdı, çaşdığından az qala kəlləsi balaca qapının yuxarı çərçivəsinə dəyəcəkdi, son məqamda başını əyib özünü bayıra atdı – əslində, bayıra yox, böyük otağa – və orda, bomboş otaqda sinədolusu köks ötürdü...

* * *

Baş həkim iri çətirin altındakı taxta kətildə oturub, ovuclarını yanaqlarına yapışdıraqaq qollarını dizlərinə dirəmişdi. Lal-mat havada ləpələri heysizləşib “dincələn” dənizə diqqətlə baxsa da, fikri o qədər uzaqda və adda-budda idi

ki, düşündüklərini cəmləşdirib bir yerə yığa bilmirdi. Ölgün dalğaların ləpədöyəndəki güclə eşidilən səsi də, dənizə baxanın içinə qəfil hardansa hakim kəsilmiş özəyi naməlum sıxıntıya məlhəm olmağa kifayət deyildi. Hərcənd o, dənizin sakit, “yuxuya gedən” vaxtlarını uşaqlıqdan sevirdi. Belədə suya girib “yatanın” yuxusuna haram qatmağa da qıymazdı. Elə indiki kimi, sahildən seyr eləyərdi rahat-rahat mürgüləyəni. Üzərinə öləzik sığal çəkilənə uzun-uzadı tamaşa eləmək seyrə dalanın düşüncələrini aydınlaşdırar, fikirlərini duruldardı, indisə ziqzaqlı, dolanbac xəyal dolanbacının, labirintinin arasında ikicə kəlmə irəli çıxıb başqa düşüncələrin yolunu elə kəsmişdi ki, sanki arxadakı, xatirələrindəki, keçmişindəki bütün olmuşlar o iki kəlməyə sığışmışdı, o kəlmələrin əsiri idi: “Heç nə...”

Bir də ürəyindən keçirdi ki, durub yavaşca suya girsin, dəryada irəli yeridikcə hiss eləsin ki, bədəni pulcuqlanır, su başından yuxarı qalxdıqca görsün ki, balığa çevrilib, dənizdəki saysız-hesabsız balıqlardan seçilmir, amma dəryanın ən dərin yerində birdən-birə bədənindəki pulcuqlar öz-özünə yox olub getsin və o, yenidən adam, bəni-insan cildinə dönsün, nəfəsi təngisin, tıxcansın, bayaqdan ləzzətlə üzdüyü yer çox-çox dərin olduğundan, nə illah eləsə də, suyun üzünə qalxa bilməsin, içindən: “Heç nə!” bağırıb ürəyini soyutmaq keçsə də, ağzına dolan su buna imkan verməsin və o da əzabla dənizin dibindəcə əlacsız-əlacsız çırpına-çırpına, nə eləyəcəyini bilmədən suyun dibindəki nazik, lakin sımsıx yosunlardan yapışmağa çalışa-çalışa canını tapşırıb – bayaqdan yanında rahat-rahat, suyun altının və üstünün ən xoşbəxt canlısı kimi üzdüyü – balıqlara yem olsun...

Keçmişindən o ikicə kəlmə boylananın gələcəyi barədə şirin xəyala dalmağı da sadəlöhvlük olardı, çünki o nagüman və naməlum gələcək hər an yarı yolda qala bilərdi, qırıla bilərdi, gəlməyə bilərdi. Gələcəyin gəlib - gəlməyəcəyi sual altında olsa da, Baş həkimin gözlədiyi gəlmişdi; önündə dayanıb onun quma batmış yalın ayaqlarına baxa-baxa, sanki robot kimi, əzbərlədiyini dilə gətirirdi, Baş həkimin yarıçılpaq görünüşü – dənizə baxanın əynində yaşıl şortikdən başqa heç nə yox idi – önündəkini bərayi-ehtiyat ciddiliyə, özünü yığışdırmağa sövq eləyirdi:

– Doktor, keçin o biri masaya, tapşırmışam ki, hər şeyi ora gətirsinlər...

Baş həkim ayağa qalxsa da, etiraz elədi:

– Yox, Nona, yemək yeməyəcəm, iştahım yoxdu. De ki, çay gətirsinlər. Elə çay içə-içə sənnən dərdləşmək istəyirəm, – qonşu masaya doğru addımlaya-addımlaya ətrafa boylandı. – Nə əcəb sakitdi?..

– Gəlmirlər çimməyə neçə gündü... – Nona əmrəmüntəzirliklə Baş həkimin yanında addımlaya-addımlaya cavab verdi. – Gözə dəymirlər burda...

– Niyə?

– Deyirlər, guya, gombul sestradı - nədi, dənizdə boğulub, ona görə...

– Ooo... Özləri quraşdırdıqlarına elə özləri də inanıblar? Bilirsən, elə bu da xəstəlik əlamətidi; uydurduğunu tez-tez təkrarlaya-təkrarlaya onun həqiqət olduğuna tamam-kamal inanmaq... – Baş həkim üstünə ağappaq süfrə çəkilmiş, qəfil qalxa biləcək külək süfrəni yerə salmasın deyə qıraqlarına ağzı aşağı üstə dörd ağ fincan qoyulmuş, masanın arxasındakı yüngül bağ kreslosuna əyləşəndə, onun ağırlıqdan oturduğunun ayaqları quma daha dərun işlədi, oturan önündəki kresloda qadına yer göstərdi. – Əyləş... – qadın yerində rahatlanandan sonra davam elədi. – Necə oynadım rolumu mən?

– Əla! Heç gözləməzdim...

– Bəs, ssenarini kim yazıb?

– Yazıb niyə? Yazı-pozu hələ də davam eləyir... Şairnən klassiklərin şeirlərini təhlil eləyən görür əsas işi... Bir də ki, şaxmatist... Başqaları da kömək eləyirlər... Səhnələr düzəldirlər onlar üçün ayırdığımız sahədə, müxtəlif qurğular tikirlər, tablolar çəkirlər. Deyirlər ki, heç kim kənarda qalmayacaq... Ərazidəkilərin hamısı oynayacaq bu filmdə... Əlbəttə ki, ürəyi istəyənlər... Çox həvəslidilər, deyirlər guya, neçə vaxtdı hazırlaşıbmışlar, plan-zad qurubmuşlar kino çəkməkdən ötrü... Beləcə, bizim də başımızı qatırlar, özlərinin də...

– Sən də oynamısan?

– Mənə hələ növbə catmayıb...

– Maşını hardan tapıblar?

– Həyətimizdəki maşındı... İcazə verdik ki, çəkiliş üçün beş-on metr o baş-bu başa sürsünlər...

– Özləri sürdülər?

– Yox, elə şey olar? Bizim lopabığ şofer... Onu da çəkiblər axı...

– Yaman yerdən yapışıblar... Milli təhlükəsizlik, qulaq asma böcəkləri-filan... Qlobal məsələlər... İt-pişik haqq-hesabı... Hardan gəlib buların ağlına sən bilən? Kinonun adını “Yaba” niyə qoyublar? Ad bir az qədimi, köhnə səslənmir? Cəlbedici deyil e... Mən də lap kələfin ucunu itirirəm. Dəlilərin ağlına gələn xaotik şeylərin mənbəyini, səbəbini axtarıram. Onu öyrənə bilsəydik nə vardı, indi dünyaca məşhur olmuşduq ikimiz də...

– Axı, həmişə deyirdiz ki, onlara ağıldankəm kimi yox, başqa çür fikirləşən adamlar baxmaq lazımdı... – qadın, nədənsə, incik-incik dodaqlarını büzdü. – Ad məsələsinə gəlincə, deyirlər ki, ad şərtidi, axırda dəyişdirilə bilər...

– Qorxuram ki, bu filmin axırı həqiqətən ölüb - öldürməklə, qətllə bitsin... Yazının sonluğundan xəbərin var?

– Yox, yoxdu... Mən biləni, yazı hələ də yazılır...

– Ayıq-sayıq olmaq lazımdı...

– Axı siz özünüz icazə verdiz onların kino çəkməyinə... – Nona özünü heyrətlənən kimi göstərdi. – Onların avadanlığına, xüsusi kameraya-zada bir ətək pul xərclədik...

– Hm... – Baş həkim diqqətlə müsahibinə baxıb fikirli-fikirli mızıldadı. – Bütün təqsirləri məndə görmə, mən onlara icazə verməyə bilməzdim...

– Niyə?

– Vaxtı gələndə bilərsən... – qeyri-müəyyən də olsa, Nonanın cavabını verdi. – Çünki bu filmin sonluğunu mən özüm çəkəcəm... – gözləri yol çəkdi. – Bir də ki, mən də yanıla bilərəm... Necə deyiblər onu, ağıllıların səhvi daha pis nəticələr verir... Hərçənd, öz ağlına çox güvənmək də dəlilik əlamətidi...

– Qəribədi, doktor, sanki yavaş-yavaş biz xəstələrə yox, onlar bizə təsir eləyir... – Nona dilini dinc saxlaya bilmədi.

– Elə ona görə də dəfələrlə sizə tapşırmışam ki, ehtiyatı əldən verməyin, qəfil hadisələr nəzarətimizdən çıxmasın...

– Narahat olmayın, doktor, biz özümüz də gizli kamera ilə çəkirik hər şeyi...

– Onu bilirəm, iş başa çatandan sonra birinci mənə göstərilməlidi... Bəlkə, həqiqətən, ortaya nəsə çıxarda biləcəklər... Biz də dünyaca məşhur olacağıq... Baxma ki, bu kinonun bütün yaradıcıları həvəskarlardan ibarətdi... Bəs rejissorları kimdi?

– Konkret rejissor yoxdu... Hərəsi öz fikrini deyir, axırda yekun bir qərara gəlirlər...

– Onu hiss elədim... Amma mən də rolumu pis oynamadım. Hələ desən, ssenaridən kənara da çıxdım. Su məsələsində...

– Eləmi?.. Bəs, nə dedilər?

– Heç nə... Deyəsən, xoşlarına gəldi... Üstünü vurmasalar da, mənim çaldığım havaya oynadılar...

– Sizə nə deyə bilərdilər axı?

– Yox, sifətləri bozdu... Mənnən olan səhnəni iki dəfə çəkdilər...

– Bilirəm... Səbr var sizdə...

– Onu düz dedin, səbrdən başqa güvəniləsi heç nəyimiz qalmayıb...

– Nəsə olub, doktor? – Nona narahat-nigaran xəbər aldı.

– Niyə soruşursan?

– Belə... Birtəhər görünürsüz? – Nona səsini yavaşıdıb çəkinə-çəkinə xəbər aldı. – İşlər pisdi?..

– Pisdən də o yanadı... – Baş həkim zorla gülümsündü, kədərdən çox, yorğunluq vardı onun üzündə. – Bərbaddı...

– Niyə, nə baş verib? – təkrarən soruşdu qadın.

– Sonra deyərəm...

Nona masaya yaxınlaşan ağ xalatlı, ucaboy, cavan xanıma:

– Yemək lazım deyil, – dedi. – Çay içəcəyik... – gələn də dinməz-söyləməz dönüb getdi.

Baş həkim söhbəti dəyişdi:

– Təzə nə var?

– Heç nə, hər şey həmişəki kimidi...

– Nağayrırlar?

– Hərə öz işindədi... Kino çəkirlər, şeir yazırlar, höcətləşirlər, mübahisə eləyirlər, öz-özləri ilə danışırlar...

– Futbolist neyniyir?

– Futbol oynamır... Qorxur topdan...

– Dənizdə çimməkdən qorxurlar, futbol oynamaqdan qorxurlar... – Baş həkim öz-özü ilə danışırmış kimi səsini yavaşıtdı. – Axı gərək onlar qorxu-hürküdən qurtulub tamamilə azad, rahat olaydılar, hə?.. Biz onları qorxutmamaqdan, xoflandırmamaqdan ötrü bütün dünyanı cənginə alan yoluxucu xəstəliyin varlığını da dilə gətirmirik, bayırda, burdan kənarda hamıya dənizdə çimməyin yasaq olunduğunu demirik, bayırdakı qadağaları da burda qəbul eləmirik, içəridə heç bir yasaq-filan olmadığına sən özün də şahidsən, amma onlar yenə də çəkinirlər, üşənirlər, xoflanırlar... Bəs, hardadı çıxış yolu?.. Deyəsən, kələfin ucunu itirmişik axı?.. Bəlkə siftədən işi düzgün qurmamışıq, ona görə çıxış yolunu tapa bilmirik? Elə bilmə ki, doktorun metodu fiaskoya uğrayıb, indi də öz günahını başqasının boynuna şələləmək istəyir. Min kərə yox!.. Axı, sən mənə çox əzizsən, ona görə fikirlərimi sənnən bölüşürəm ki, türklər demişkən, sən mənim canımın içisən... – göz vurdu qadına. – Sən olmasaydın, mən illərdi bu yükü çəkə bilməzdim. Amma bəzən yaxın, doğma adamların səhvi də düzgün yolun tapılmasına şərait yaradır...

– Oy, doktor!.. – Nona nazla gülümsündü. – Elə ürəyimə dammışdı ki, məni futbolistə görə çağırmısız... – Baş həkimin sözlərini başa düşdüyü kimi yozdu. – Bağışlayın, hərdən zəiflik göstərib ağzıma gələni danışıram xəstələrin yanında... Yüz dəfə üzr istəyirəm... Çalışacam ki, bir də... – sözünün ardını deməyib anicə susdu. – Bilirsiz də, mən ümumi işimizin xeyri üçün çalışıram... Şəxsi həyatımı da işə qurban vermişəm...

– Bilirəm, bilirəm, mən hər şeyi yaxşı başa düşürəm, sən başqa cür davrana bilməzdin, sənlik bir iş yoxdu, – Baş həkim onun sözünü kəsdi.

– Hər halda, mən üzr istəyirəm...

– Üzrxahlığa ehtiyac yoxdu, mən səni başqa işdən ötrü çağırmışam...

Nona diqqət kəsildi:

– Buyurun, doktor...

– Mən qardaşıma baş çəkmək istəyirəm...

– Mürsəl dayıya?

– Hə... Böyüyü yoluxmaq savabdı... Arvadı öləndən sonra tək qalıb o... Oğul-uşağın hərəsi bir dərədədi...

– Onun oğlu yoxdu axı...

– Düzdü, oğul-uşaq kəlməsini sözgəlişi dedim...

– Baxanı yoxdu?

– Var, qızları var, intəhası, Mürsəlin başı hay-küy götürmür... – Baş həkim nagüman-nagüman cavab verdi. – Həm də, maşallah, ağacı əlindən düşməyib ki, baxıcıya-maxıcıya möhtac olsun... Bir də gördün acığa düşüb evləndi də...

– Mürsəl dayıya salam deyin... – Nona müsahibinin son sözlərinə məhəl qoymadı.

– Deyərəm... Ona dəymək adıyla elə özümün də tanıdığım yerlərə baş çəkməyim bəd olmaz... Bir az raharlanıb stressdən qurtuldum bəlkə... Hərdənbir adama da perezaryadka lazımdı... Tak şto, buralar sənə əmanət olur...

– Nə vaxt gedəcəksiz?

– Sabah...

– Haçan qayıdacaqsız?

– Üç-dörd günə... Uzağı bir həftəyə...

– Yaxşı yol, arxayın gedin, rahat dincəlin... Birinci dəfə deyil ki... Gözünüz arxada qalmasın, doktor... – Nona tez-tələsik üyüdüb tökdü.

– Amma siz də ehtiyatı əldən verməyin, virus yaman yayılıb. İndi məni ən çox narahat eləyən budu... Allah eləməmiş, xəstələrin biri virusa tutulsa, hər şey yıxılıb bir-birlərinə dəyən domino daşlarına dönəcək, burdakıların hamısını yoluxduracaq...

* * *

...Xəyaldan ayrılıb bir xeyli maşının şüşəsindən bayıra baxdı, qəfil ağlına nə gəldisə, amiranə səslə sürücüyə:

– Saxla!.. – dedi.

Və sürücü qeyri-ixtiyari lapdan əyləci basdı, maşını yolun qırağına verib əylədi, yaxşı ki yol boşdu, arxadan gələn yoxdu, yoxsa durduqları – lap düzünəsi, rahatca getdikləri – yerdə qəza-bəlaya uğraya bilərdilər.

Maşından düşüb oturacaqdakı yüngül əl cantasını götürərək çiyninə atdı. Sürücü qapını açıb düşmək istəyəndə qoymadı:

– Sən düşmə, get...

Sürücü çaşdı:

– Hara gedim, doktor?

– Hara gedəcəksən? – Baş həkim gülümsündü. – Qayıt şəhərə... İşə də getmə mən gələnəcən, otur evdə, dincəl, mənim zəngimi gözlə...

– Bildim... – sürücü mütiliklə başını tərpədib özünü qayğıkeş göstərmək istədi. – Amma çatmamışıq axı mənzil başına...

– Sənə qayıt dedim, mənim burda işim var... – acıqlandı Baş həkim.

Sürücünün ağlı bir şey kəsməsə də, Baş həkimin sözünü çevirmədi, maşını döndərib geriyə üz tutdu. Dilinə gətirə bilmədiklərini isə ürəyindən keçirtdi. “Bu

kişi dəlilərin arasında qala-qala özü də xərifləyib e... Çölün düzündə nə işi var görəsən? Nə isə, mənim üçün lap yaxşı". Sürücü bilmirdi ki, kəsə yolla Baş həkimin gedəcəyi yerə bir neçə cığır var, o çığırlarla mənzil başı yaxındı... Həm də, bayaqdan maşının arxa oturacağında mürgüləyən yuxuda səs eşitmişdi. "Necə getmişdim, elə də gəlirəm". Kim pıçıldamışdı qulağına həmin kəlmələri, mənası nə idi o sözlərin? Hardan - hara gedib gəlirdi, biixtiyar qulağına gələn sözlərin açması, açıqlaması nə idi? Anlamırdı... Lakin öz aləmində başa düşdüyü tərzdə həll elədi məsələni; sürücünü saldı yola, düşdü çoxdandı keçən olmadığından üstünü ot-ələf basmış yolun ağına... Buna yol da demək olmazdı; hər yan otluqdu. Deməli, kəndə gedən bütün kəsə yollar, izlər yoxa çıxıb. Qabaqlar nəinki kəndlərarası, rayonları birləşdirən asfalt yollar da bərbaddı, altı təzəkdi, üstü bəzək... Çala-çuxurlu, "yamaq"lı, kələ-kötür, quraq-quraq...

Baş yoldan aralanan Baş həkim gedəcəyi istiqaməti müəyyənləşdirib, cığırın-izin üstünü tamam örtən otluqla gedirdi. Saralmış ot basan yol-rizin arasından quruyub qaxaca dönmüş mal-qara təzəyi gözə dəyirdi, deyəsən, çoxdandı burdan heyvanlar da keçməmişdi, unudulmuş, yaddan çıxmış yol ömrünü başa vurmuşdu, keçilməyən, gediş-gəlişi olmayan yollar, çığırlar, izlər də ölürmüş, mal-qara təzəyinin qalıqları isə, Baş həkimə yol göstərirdi elə bil. Onun heç bir "bələdçiyə" ehtiyacı yox idi; özü bu yerlərdə kimə desən gözüyumulu sarbanlıq eləyə bilərdi. Burda təkcə otlar, ağaclar, quşlar deyil, hava, bəmbəyaz asiman da ona yaxşı tanış idi, doğma idi, buranın havasını ciyərlərinə çəkəndə həqiqətən Baş həkimə elə gəlirdi ki, çoxdandı görmədiyi məhrəm adamı ilə rastlaşır, üzbəüz gəlir, amma burdakı adamların çoxunun siması onun yaddaşından silinmişdi, adamları ona xatırladacaq salnaməçiyə ehtiyacı vardı. Təsadüfən yatmış ilan-əqrəbi tapdalamasın deyə, gedə-gedə ayağının altına baxırdı, nisbətən seyrək yerlərlə yeriyirdi gün başına, daha doğrusu, panamasına döyən... Böyrü üstə yıxılan otların arasındasa nə yatmış canlı gözünə dəyirdi, nə oyaq...

"Bu da salxım söyüd... – qara eynəyini çıxardıb nazik yay pencəyinin döş cibinə qoydu. – Burdan Mürsəlgilə çox qalmayıb... Ordan da o yana qəbiristanlıq".

Yorulmasa da dayanıb çöməldi, kürəyini ağacın gövdəsinə dirədi, çantasını yerə qoydu, deşik-deşik ağ panamasını çıxarıb sol əli ilə seyrək saçlarını sayaladı. "Bu panamada yəqin mən özüm də salxım söyüdə bənzəyirəm". Yanılırdı, panama başında olanda o, şöyüddən çox göbələyə oxşayırdı, intəhası, ətrafda müqayisə olunacaq göbələk yox idi deyə, o dəm Baş həkimin ağlına gəlmədi bu bənzətmə. Çantasını altına qoyub əməlli-başlı əyləşdi, qorxmağa dəyməzdi; çantanın içində sınan şey yoxdu, sına bilənlər tamam başqa yerdəydi və daha onları qorumaq mənasızdı; çoxdan sınmışdı. Dizlərini qucaqladı, pencəyinin ətəyinin yerə dəyməyinin fərqinə varmadı. Elə bil bir az öncə fikrindən keçirdiyi məhrəm bir adamla qucaqlaşıb qol-boyun olmuşdu, lap dəqiqi, yaxınına söykəmişdi kürəyini. Salxım söyüd ondan böyük olmalı idi, hər halda, gözünü açandan bu ağacı başıaşağı, "kədərli", "qəm-qüssəli" görmüşdü. Baş həkimə elə gəlmişdi ki, külli-aləmin dərd-sərini indi altında bardaş qurub ədəb-ərkanla əyləşdiyi söyüd çəkir, bu ağac olmasa, onun çəkdikləri cəmi bəşərin qəddini əyəcək. Bəlkə, şəhərdə məhrəm adam tapmadığından kəndə qayıdıb ağacla dərdləşməyə, yükünü ağacın boynuna şələləməyə gəlmişdi? Bir ömür yaşadığın şəhərdə bölüşməyə bir yaxın adam tapmırsansa, deməli, vaxtında kiminsə yükünü çəkməmisən, indi də hamı bir-

bir aradan çıxır ki, sən allah bağışla, məni üzürlü say, qarnım ağrıyır, öz canımla əlləşirəm, nəinki özgənin, heç öz yükümü də gəzdirməyə halım yoxdu... Yaxşı ki, halı olmayanlar kimi deyil ağac, yoxsa o da aradan çıxardı.

"Mürsəl olmasa mən dərd-sərimi kimə danışardım, ürəyimi kimə boşaldardım, xudaya?.. Yer üzündə dərdini bölüşməyə bircə nəfər qalıbsa, ən ağır əzaba sinə gərmək mümkündü..." Yadına sala bimədi ki, ağlına gələn son fikiri hardan oxuyub, kimdən eşidib, hər nədənsə, birdən-birə kövrəldi. Qəhər gəlib hülqumunda dayandı, nə aşağı gedirdi, nə göz yaşına dönüb kirpiklərini nəmləndirirdi.

O evin həyət qapısından içəri rahat keçmək üçün gərək çəkmələrini çıxarıb boynundan asaydı və qalan yolu mənzil başına ayaqyalın, iməkləyə-iməkləyə gedəydi. Bəlkə də buna ehtiyac yoxdu, qardaşı onu çoxdan bağışlamışdı. Axı heç kəs oğlunun günahından ötrü məhşər ayağına çəkiləsi deyil, hərə öz əməlinin cavabını verəcək. Kim-kim, Mürsəl belə məsələləri yaxşı bilirdi. Qalan gizlinlərisə elə Mürsəlin bilməməyi məsləhətdi. Yoxsa iki il əvvəl ona qonaq gəlməzdi, gəlsə də onun iş yerindəki adamlara qaynayıb - qarışmazdı. İki-üç gün Baş həkimin iş yerində qalmışdı Mürsəl. Demişdi ki, bura sənin evindən maraqlıdı, sənin evin məzarlığa oxşayır, quş uçur, qulaq cingildəyir sənin evində... Baş həkim böyük qardaşının sözlərindən rəncidə olsa da – hər halda, heç kəsə xoş gəlməzdi evinin qəbiristanlığa bənzədilməsi – üstünü vurmamışdı. Çünki bəzən Mürsəlin cavabı çox gözlənilməz, qeyri-adi və qılınc kimi kəsərli olardı, çünki Baş həkim qardaşıının ona qonaq gəlməsindən üç il əvvəl aralarındakı söhbəti unutmamışdı və yəqin ki, ölənəcən unutmayacaqdı, çünki aralarında açılası mümkün olmayan sirlər də vardı.

– Mürsəl, mənim oğlum yoxdu... – Baş həkimin ağzı əyilmişdi, bilinmirdi ağlamaq istəyir, ya gülmək... – Bilmirəm başıma haranın daşını salım...

– Nə gic-gic danışırsan, sənin oğlun xaricdə deyil?

– Marseldədi...

– Onu bilirəm... Nolub axı? – qardaşı çaş-baş qaldı. – Başına bir iş gəlib uşağın?

– Ailə qurub...

– Lap yaxşı... Kiminlə evlənib? Yoxsa, o da erməni qızı alıb?

– ... – Baş həkim bir neçə dəfə ağzını açıb - yumsa da səsi çıxmadı, sanki nəfəsi çatmırdı, içəridən, sinəsindən boğuq hayqırtı gəlirdi.

– Hə, danış görüm... Qanırsanmı, sənə demişdim axı, o uşaq onsuz da day buralara qayıdan deyil... Boş yerə özünü həlak eləmə... Evlənib, özü bilər, lap yaxşı... Allah xoşbəxt eləsin... Sözünü de, toxta görək...

– Nə xoşbəxt?!. – Baş həkimin boğazındakı hayqırtı yavaşıyıb pıçıltıya çevrildiyindən səsi xırıldadı. – Evlənməyib... Dərd burasındadı ki, evlənməyib... – bu dəfə də səsi quyunun dibindən gəldi. – Evlənməyib... – təkrarlayıb sanki güc topladı. – Özü...ərə gedib... Eşidirsən, mənim oğlum ərə gedib... Ürəyim partlayır, qorxuram jurnalistlər-zad xəbər tuta, dilə-dişə düşək... Ona görə sənə xəbər verirəm ki, hazırlıqlı olasan... Erməni qancığından törəyən uşaqdan nə gözləyəsən? Tələbə vaxtı onların evində kirayə qalırdım, elə gözüm açılmamış tələbə vaxtı da evləndik, oğlumuz oldu. O vaxt ara qarışanda uşağın anasını başımdan elədim, o da oğlumu götürüb getdi, indi də mənnən belə qisas aldı... Kim bu dərdə-bəlaya dözər, ay qardaş?.. – başa düşürdü ki, sakitləşməkdən ötrü hayqırmalıdı, səsini başına atıb bağırmalıdı, tərslikdən, buna da şərait yox idi, qardaşının evindəkiləri duyuq salmaq istəmirdi. – Mən adi adamam, daş-dəmir deyiləm ki...

– Belə... – Mürsəl bir anlığa nə deyəcəyini bilməyib mızıldandı...

– Hə, hə!.. Biabır oldum mən!.. Dədəm uzaqgörən idi. Aranı düzəltmək üçün uşağa onun adını versəm də, yaxına qoymadı bizi... Nə məni, nə o qancığı... Arvadı boşayandan sonra da ölənəcən dindirmədi məni ki, gərək arvad o uşağı aparanda qoymayaydın... Kişinin sözlərini mənə çatdıranda arın-arxayın qayıtmışdım ki, oğlan uşağıdı, heç nə olmaz... Amma o vaxtlar mən kim idim, kim məni tanıyırdı, nə hünərim vardı ki, ananı baladan ayırım? Evim yox, eşiyim yox, kim baxacaqdı tifilə? İndisə tüstüm təpəmdən çıxır, görən yoxdu, çünki təpəmdən çıxan tüstü içimə dolur, içim tüstü ilə dolandan sonra mən partlayacam, eşidirsən, mən sakit ölməyəcəm, mən partlayıb parça-parça olacam... Eşidirsən? – “nəhr”in qabağı açılandan sonra birnəfəsə üyüdüb tökdü.

– Eşidirəm, eşidirəm, sakit ol, qanırsanmı, özünə gəl...

– Eşidirsən, nə Allah götürər bunu, nə də din-iman... Bəs, mən yazıq bu boyda yükü necə çəkim?

– Dini tərəfdən götürəndə, həqiqətən, ən böyük günahdı bu... Qanırsanmı, müqəddəs kitablarda belə yazılıb... Axirəti xəbər alırsansa, yəqin ki, o uşağın yeri cəhənnəmdi...

– Eee... Mən nə hayda, sən nə hayda, – aldığı cavab onu qane eləmədiyindən, etinasızlıqla əlini yellədi. – Bu saat elə mən özüm də diriykən cəhənnəmdəyəm... Bəs, mənim aqibətim necə olacaq?

– Sən heç... Sən xoşbəxt adamsan... – qəfil dedi Mürsəl, lapdan da səsi dəyişdi; kallaşdı, xırıldadı belə deyəndə...

– Məni xoşbəxt hesab eləyən elə mənim günümə düşsün... – pıçıldasa da, o dəm doğrudan-doğruya partlamışdı Baş həkim.

Vəssalam... Belə deyib elə həmin gün dinməz-söyləməz şəhərə qayıtmışdı, bir də böyük qardaşından xəbər tutmamışdı. Ta o vaxtacan ki, böyük qardaş şeytanın qıçını sındırıb özü ona qonaq gəlmişdi. Şəhərə...

“İlahi, görəsən, o vaxt Mürsəl niyə birdən-birə mənə xoşbəxt demişdi? Qanmadığın şeyi gərək öyrənəsən, yoxsa, dalını çevirib getmək ən asan yoldu. Ağlıma gələnlər mənim idrakımın gedə biləcəyi hüdudacandı... Mürsəl elə demişdisə, deməli, bir bildiyi var idi, çünki o, anadan müdrik doğulmuşdu, bir tikə vaxtından sözünü dik, sərrast deyərdi, hamı da mat qalardı, çünki bəzən onun sözünün canını qananacan eşidənə bir ömür gərək olardı. Elə müdrik qardaşın üzünə ağ olmağın özü gönüqalınlıq, qanmazlıqdı... Onun ürəyi genişdi, kin-küdurətli deyil, məni bağışlamayıb, çünki heç vaxt küsməyib məndən... Allah keçsin mənim günahımdan... Ancaq həqiqətən kimin xoşbəxt, kimin bədbəxt olduğunu da yəqin ki, Allahdan başqa kimsə bilməz”. Necə ki, hardansa qulağına gələn səslərin-sözlərin mənasını ayırd eləyə bilmirdi salxım söyüdün “çətir”i altında bardaş quran. Ayırd eləməkdən ötrü əməllicə diqqət kəsilməli idi ətrafa, ən kiçik hənirtini duymağa, aydın olmayanı bacardıqca dəqiq “tərcümə eləməyə” çalışmalı idi.

– Baba, baba, sən piyansan? – səs ətrafdan yox, önündən gəlirmiş, önündəsə yeddi-səkkiz yaşında, dişləri mırıq bir uşaq dayanmışdı, əynində də ağ trusiq-mayka...

– Yox, piyan deyiləm, – dikəlmək istədi. – Elə niyə deyirsən, balaca?

– Bəs, niyə ağlayırsan?

– Hə? – qeyri-ixtiyari əlini nəmlənmiş yanaqlarına çəkdi. – Gözümə gün düşüb, gözlərim yaşarıb... – uşağı inandırmaqdan ötrü ucundan tutub getdi ucuzluğa... – Gözlərim xəstədi axı... Bax, eynək də taxıram buna görə... – pencəyinin döş cibindəki gün eynəyini çıxarıb gözlərinə taxdı və ayağa qalxdı.

Guya, uşağın ona tamam-kamal inanmağı çox mətləblərin, gizlinlərin öz-özünə açılmağına kömək eləyəcəkdi, yaxud gizli mətləbləri daha dərin qata köməcəkdi. Bəzən utandığını, daha doğrusu, zəifliyini gizlətmək istəyən kəs çaşqınlıqdan ağlasığmaz üsullara əl atır.

Əyilib çantasını götürdü, çiyninə ataraq yan-yörəsinə göz gəzdirdi.

– Adın nədi sənin?

– İbrahim...

– Bir beş ver görüm... – Baş həkim uşağın yumsaq, balaca əlindən tutdu. – Nə yaxşı oğlansan sən... – balacanın könlünü xoş eləmək xatirinə dedi.

– Uşaqların hamısı yaxşıdı... – İbrahim borclu qalmadı.

– Nə ağıllı oğlansan sən?.. – Baş həkim təəccüblə soruşdu və heyifisiləndi ki, cibində, çantasında uşağa bağışlaya biləcəyi heç nə yoxdu. – Bunu sənə kim öyrədib?

– Heç kəs öyrətməyib... – İbrahin arın-arxayın cavab verdi. – Özüm bilirəm... – uşaq yer üzünün altından-üstündən agah əda ilə danışdıqca, sanki doğrudan-doğruya çox şeydən xəbərdar olduğunu bildirmək istəyirdi...

– Yaxşı, İbrahim kişi, day mən gedim... – Baş həkim, nədənsə, utana-utana dodaqaltı mışıldandı. – Sağ ol...

– Sağ ol, baba... – dedi İbrahim.

Üzü məzarlığa doğru yol aldı.

İndi də birdən-birə kürəkləri alışıb - yandı, bilmədi ki, günün istisidi kürəklərini yandıran, ya ardınca baxan İbrahimin baxışları... Geriyə qanrılmasa da, yüz faiz əmindi ki, uşaq hələ də onun ardınca baxır... Ancaq o uşağın baxışlarında günəş qədər hərarətin olması ağlasığmaz idi...

Yan-yörədə ins-cins yoxdu, nə mal-heyvan böyürtüsü gəlirdi, nə qoyun-quzu mələrtisi, nə də itlərin ağız-ağıza verən hürüşü... Bircə kəndiçi enli torpaq yolun ərtafındakı yaşıl yarpaqlı ağacların budağından quşların səsi eşidilirdi. O quşların ki, nə ağacların budaqlarına qonduğunu görürdü yolla gedən, nə də havada süzdüyünü... Yolun qırağında iri həyətli evlər sıralanırdı. Əksərən yulğundan çəkilmiş çəpərlərdən içəri baxa-baxa gedirdi – daş hasarlı evlər də az deyildi, amma yolçu boy-buxunlu olsa da, o hasarlardan həyətə boylanmağa boyu çatmırdı – ha baxıb - boylansa da, həyətlərdə kimsə gözə dəymirdi. Bu arada arxadan minik maşını gəldi, qırağa çəkilib maşına yol verdi. Maşın yanından keçəndə maskalı sürücü açıq pəncərədən başını tərpədib onunla salamlaşdı. Baş həkim əvvəlcə elə zənn elədi ki, sürücü onu tanıyıb, amma arxadan-irəlidən maşınlar keçdikcə və sürücülər başı ilə onu salamladıqca salamı alan anladı ki, tanıdı-tanımadı, burda gələni salamlamaq adətdi. Görünür, təkcə burdakı adamların çöhrəsini yox – çöhrə məsələsini açıb-ağartmağa dəyməzdi, sürücülərin çoxu maskalı idi – bu yerlərin adətini də unutmuşdu...

Nə sağa dönməliydi, nə sola, düppədüz getsəydi, yolun axırında qardaşının evinə catacaqdı. Qardaşının evi düz yolun üstündə idi, yolun qurtaracağında, sonunda idi, daha doğrusu, o ev torpaq yolu iki hissəyə ayırırdı, intəhası, o iki hissəli yoldan maşınlar yalnız məzarlığa gedib - gəldiyindən, o yolda maşınlar kəndə yas düşəndən - düşənə olardı... Bir də ki, cümə axşamlarında-zadında, qara bayramlarda... Baş həkim o evin dəmir darvazasını aydın görürdü, bu yolun axırı düz o evin darvazasına çıxırdı, o həyətin arxa qapısı isə qədim məzarlığa açılırdı.

Baş həkim, yarızarafat-yarıgerçək, həmişə qardaşına deyərdi ki, sən bu boyda rayonda düz-əməlli bir yer tapmadın ev tikdirməyə... Mürsəl də borclu

qalmırdı ki, özüm qəsdən burda tikdirmişəm belə yaxşıdı; mollanın evi ya məscidin yanında olmalıdı, ya qəbiristanlığın qırağında, yoxsa, gəlir - çıxarını dəqiq bilməz... Burdasa hesab-kitab göz qabağındadı...

Daha hardan - hara getdiyini bilsə də, bircə şeydən baş açmırdı; kürəklərindəki dözülməz isti niyə get-gedə azalırdı, o isti nə səbəbə azalıb-azalıb küt ağrıya, soyuq tərə çevrilirdi? Ağrı ilə bahəm ürəyinin döyüntüsünü də aydınca eşidirdi. Lakin ürəyi bu cür bərk, taqqa-tarakla döyünməklə köksündən çıxmalı idi. Bəs niyə o, rahat və sakitdi?.. O qədər sakit, rahat idi ki, o sakitliyin, o rahatlığın içində küt ağrı əriyib yox olmuşdu. İlahi, nə ürək döyüntüsü-filan-bazlıqdı, səs içəridən, daxildən yox, bayırdan gəlirdi; Baş həkim narıncı rəngli darvazanın bala qapısını döyəcləyirdi ürkək-ürkək... Həyətdən, içəridənsə hay verən tapılmırdı, yəqin ki, bu taqqıltını evdən eşitmək çətin idi, bu səsi duymaq üçün mütləq həyətdə, lap qapının o tərəfində olmaq lazımdı. Qonaq gəldiyini bildirməkdən ötrü qapını bir az möhkəm döyəcləmək istəyirdi ki, bala qapı zərbənin gücündən qəfil elə açıldı ki, az qala Baş həkim üzü üstə yerə dəyəcəkdi. Qıfıllanmayan qapını yoxlamadan şappıldatmaq də başdanxarablıq əlamətidi. “Məndə də az yoxdu a, kənd yerində kimdi günün günorta çağı darvazasını bağlayan, üstəlik arxadan da qıfıllayan? Yoxsa, ürəyimdən keçir ki, pişvazıma çıxıb kəmali-ədəblə qarşılasınlar məni, hələ ayağımın altında bir toğlu da kəssinlər, hə?.. Niyə də yox?”

Əslində, onu qarşılayan vardı; salxım söyüdün kiçik qardaşı, qollu-budaqlı küknar evin qabağında dimdik dayanıb, Baş həkimin yolunu gözləyirdi, amma salxım söyüddən fərqli olaraq, küknar bir kəndin, bir məhəllənin ağacı deyildi, çünki o qədər yükü də çəkmirdi, olsa-olsa, bir həyətin və bir həyatın dərdini -- ələmini daşıyırdı, şələsi qamətinə, “çiyin”lərinə uyarlı gəldiyindən, boy-buxunu dimdikdi... Bəlkə, yükünün, şələsinin azlığından yox, cavanlığındandı həyətdəkinin qamətinin dikliyi?.. Yerində dimdik, bir az da ağayana dursa da, hələ duza gedirdi küknar, yükünün az, lakin dəryaca böyük olduğundan yüklənənin özü də xəbərsizdi... Ona görə küknarı nəinki qucaqlamaq, ona kürəyini söykəyib arın-arxayın bardaş qurmaq məsləhət deyildi, ən yaxşısı, aralıdan dayanıb sakitcə tamaşa eləməkdi, sonra da üzüsulu aradan çıxmaq...

* * *

Qanırsanmı, bir tikə uşağı götürüb az qala bütün dünyanı gəzdirdim, sən tapşırdığın, nişan verdiyin həkimlərə də göstərdim, aşağı-yuxarı bütün təbiblər elə Ələkbərzadənin sözünü dedi. Mən də əlacsız, naçar qayıtdım çıxdığım yerə; rayonumuzun xəstəxanasına, uşaqlıq dostum Ələkbərzadənin otağına, oturdum onunla üzbəüz...

Hər yan Ələkbərzadənin saçları kimi ağappaqdı – yazığın saçı tez ağarmışdı, özü zarafatyana deyirdi ki, içməkdəndi, araq yeknəsəq rəssamdı, cəmi üç rənglə işləyir; adamın sir-sifətini qaraldır, burnunu qızardır, saçlarını ağardır, bilirdim ki, məzələnir, çünki rəng-ruhu qaralmamışdı, sifəti də saçları təki ağappaqdı, bəmbəyazdı, göy gözləri isə həmişə işım-işım işıldayırdı – bircə yan, sol divarın suvağı ucub tökülmüşdü. Dinməz-söyləməz bir-birimizə baxanda qəfil ağlıma gəldi ki, ilahi, görəsən biz ağlımız kəsəndən niyə Ələkbərzadəni soyadı ilə çağırırdıq? Deyəsən, yavaş-yavaş onun adını da unutmuşduq, hər halda, üzbəüz oturanda nə illah elədimsə, Ələkbərzadənin adını yadıma sala bilmədim... Yadıma salsaydım, bu dəfə onu adı ilə çağıra-

caqdım ki, nə isə bir yenilik olsun. Bəlkə adidən-adi görünən yenilik ardınca adı ilə çağırdığım ağ saçları kimi ağappaq zolağa çıxaracaqdı məni, qəflətən çıxdığım o ağ zolaqdan biçarə balama da pay düşəcəkdi, beləcə, bütün düyünlər də öz-özünə açılacaqdı? Yaddaşımsa məni yarı yolda qoydu. Yaddaş köpəy oğlu başına haranın daşını salsın, dərd-sər bir deyil, iki deyil, sayı-hesabı bilinmir, nəinki bütün qapılar, pəncərələr, nəfəsliklər də bərk-bərk bağlıdı, belə görünür ki, haçansa açılacağına ümid yoxdu, əstəğfürullah, Allah günahımdan keçsin, ümidi itirmək şeytanilikdi...

Qapı - pəncərə haqqında fikirləşdiyim dəmdə qapı astaca döyüldü, kimsə içəri boylanıb ürkək-ürkək zarıdı:

– Doxturrr...

Ələkbərzadə acıqla onun sözünü kəsdi:

– Nədi, a kişi?.. Görmürsən yanımda adam var?

– Görürəm, görürəm, işinizdə olun, mən gözləyərəm... – səsi titrəyə-titrəyə üzrxahlıq eləyib qapını ehmalca örtdü.

Həkimi gözləyənlərin çox olduğunu kəsdirib birbaşa mətləbə keçdim:

– Uşağı hər yerə apardım, elə hamı sən deyəni dedi... – ah çəkdim sövq-təbii. – Qanırsan?

– Qansaydım, sənə kömək eləyərdim. Amma bilirəm...

– Nəyi bilirsən?

– Onu bilirəm ki, hara gedirsən - get, elm, təbabət bəzi məsələlərdə acizdi...

– Onda açıq danışaq, qardaş kimi...

– Buyur... – Ələkbərzadə acı-acı gülümsünəndə mən onun ürəyindən keçənləri oxudum, yəqin elə bunu anladığından zarafat eləmək istədi. – Amma qardaşlığımıza şübhə eləyirəm, mən badə toqquşdurmadığım, araq içmədiyim adamları özümə yaxın hesab eləyə bilmirəm e, axund ağa...

– Axırıncı dəfədi bu... Day səni incitməyəcəm... – mənimsə zarafatlıq halım yox idi. – Bilirəm ki, yazıya pozu yoxdu...

...Evə qayıdanda da yol boyu Ələkbərzadə ilə söhbətimiz fikrimdən çıxmadı, elə evdə də canımı qoymağa yer tapmadım. Baxmayaraq ki, bu barədə indiyəcən yazıq Ələkbərzadəni yüz kərə sorğu-suala tutmuşdum.

"Çətin da olsa, başa düş, bu uşaq anadangəlmə ən ağır formalı beyin iflici keçirib... – deyəsən, Ələkbərzadə bezdiyindən bu dəfə, malalamamış, rəndələməmiş bəzək-düzəksiz dedi sözünü mənə, ancaq o qədər xəstəxana qapısı döymüşdüm ki, onsuz da özüm onun dediklərini əzbər bilirdim, intəhası, indi dünyanın bütün təbiblərindən çox inanırdım önümdə əyləşib siqaret tüstülədənə, həm də, boğulmamaq üçün saman çöpü axtarırdım, di gəl, Ələkbərzadə o çöpü də mənə çox görürdü. – On beş, on altı il yaşıyacaq, onu da çarpayıda, yataqda, vəssalam... Ağıldankəmlik də olur belə xəstələrdə... Belə... – yüz dəfə dediyini yüz birinci kərə açıb-ağartdı, sandıqdakı bütün pambığı töküb dərindən nəfəs aldı, hirslə siqaretini gümüşü külqabıya basıb söndürdü. – Həkim Allah-zad deyil ki, ay qardaş, həkim başına haranın daşını salsın?!."

"Bəs, nə məsləhət görürsən?"

"Heç nə!.. – çarəsiz-çarəsiz davam elədi. – Məşhur bir yapon yazıçısının oğlu da dünyaya iflic gəlmişdi. O yazıçı da ömrünü həsr elədi xəstə oğluna. Min bir əzab - əziyyətə qatlandı, gecələri yuxusuz qaldı. Həmin yazıçı haqqında yazılanları adi oxucu kimi yox, bir həkim kimi oxudum, mənə çox şey öyrətdi həmin yazı..."

"Ömrünü oğluna həsr elədi? Axı, bütün həkimlər deyir ki, belə xəstələr çox yaşamır... Qanırsanmı?"

“Xəstəliyin dərəcələri var də... Yüngül xəstələr çətinliklə də olsa, özlərini idarə eləyə bilirlər, güc-bəla ilə də olsa, birtəhər yeriməyə çalışırlar, əl-ayaqları sözə baxmasa da, xaotik hərəkətlər eləyirlər, başlarını boyunlarının üstündə saxlaya bilməsələr də, boynu əyri də olsa, çullarını sudan çıxarırlar, dilləri dolaşa-dolaşa zor-güc danışırlar da... O cür xəstələr otuz beş, qırx il yaşaya bilirlər... Yaşa dolduqca içəridəki qatmaqarışıq vəziyyətdə olan orqanlarının sıxılmasından dünyalarını dəyişirlər. Mənim fikrimə gəlincə, bu çür yaşamaq yaşayış deyil, həyat deyil, ömürlük əzabdı... Bir ömür möhtac, naxoş yaşamağa başqa nə ad verəsən?Amma yenə hər şey Allahın əlindədi. Sənin sevimli bir kəlamın var e... Qədər Allahındı... Belə şeyləri sən mənnən yaxşı bilirsən”.

“O uşaq da öldü?”

“Hansı uşaq?” – Ələkbərzadə gözlərini döydü.

“Yapon yazıçısının oğlu”.

“Orasını bilmirəm, amma yazıçı özü sağdı hələ”.

“Yaxşı, qanırsan, ehtimala əsasən bizim uşaq haçansa sağala bilər?”

“Yox! O uşaq ömürlük yatağa möhtacdı... – dəryada ilğım kimi sezdiyim saman çöpünü də əlimdən aldı. – Mən səni aldada bilmərəm, yox, yox, min kərə yox! Heç sən də özünü boş yerə aldatma”...

Məni yüzüncü kərə başa saldıqca Ələkbərzadənin üzündəki öləzik təbəssüm də itib getmişdi, sir-sifətindən zəhrimar yağmağa başlamışdı. Ayrı vaxt olsaydı, əlini çiynimə vurub məzələnə-məzələnə davam eləyərdi: “Möhtərəm axund...” Bir az kefi yuxarı olanda qoluma girib lap dərinə gedərdi: “Möhtərəm axund, gəlsənə, bir yüz-yüz vuraq”... İndisə yəqin ki, nə eləyəcəyini bilmədiyindən, siqareti siqaretə calayırdı, ağappaq otaq ağ tüstüyə bürünmüşdü, daha doğrusu, ağappaq, bəmbəyaz otağı ağ tüstü bürümüşdü.

Qanırsanmı, evə qayıdanda Ələkbərzadənin dəryadakı saman çöpünü əlimdən almağından təsirlənsəm də, elə onun sözlərindən bərk-bərk yapışmışdım. “Bu cür yaşamaq yaşayış deyil ki, əzabdı”.

Söz vaxtına çəkər, indiki kimi yayın qızmar çağıydı, günortadan sonra gün sınmışdı, meh də vardı yüngülcə... Evdə nə qızlar gözümə dəydi, nə arvad... Özlüyümdə dedim, elə yaxşı oldu, sakitlikdə bir az uzanıb dincimi alaram, bəlkə yuxu da apardı məni, bir hovur yatıb gözümün acısını aldım. Qapı-pəncərəsi taybatay açıq olduğundan tül pərdələri yellənən yataq otağına keçdim, taxta uzanmaq istəyəndə baxdım ki, uşaq yatıb mənim yerimdə. Uşağı çox vaxt elə mənim yerimdə yatızdırırdılar, hərə gedirdi öz dərd-sərinin dalınca, arxayındılar ki, yazıq balam əl-ayağını atıb yataqdan yerə yumbalanmayacaq. Uzaqbaşı, ağlayanda səsə ya arvad, ya da qızlardan biri özünü yetirib uşağın başını qatırdı... Haqqüçünə, rahat uşaq idi, ağlayıb adam çərlətməklə də arası yoxdu...

Yatmış uşağı müştəri gözü ilə süzdüm. İlahi, bu uşaq nə mənə oxşayırdı, nə də bizim arvada... Rəngi qapqara, başı da bədənindən yekə... Yaxşı ki, yatmışdı, çünki mən onun bəbəyi az qala qarasından iri olan gözlərinə baxa bilmirdim... Heç kəs öz ayranına turş deməz, hamının balası özünə şirindi, mənim yatağımda dünyadan xəbərsiz yatan körpədən ötrü canımdan keçərdim, di gəl, elə bil içimdə nə isə qırılmışdı, bir anda başımdan min bir fikir keçirdi, mən başımdan keçənlərin içindən qaraları silib atmaq, işıqlıları, nurluları saxlamaq istəsəm də bacarmırdım, çünki qara fikirlər, işıqlılardan qat-qat çoxdu. Görəsən, yapon yazıçısının da oğlu belə... belə.... belə... qaraquradı, onun da başı bədənindən böyükdü? Yatağa möhtac idi, ya köməklə də olsa, birtəhər ayaqlarını sürüyürdü? Danışa bilirdi, ya yox?..

Mən də sənin yolunda ömrümü həsr eləyərəm, mənim balam, ancaq sənin əzab çəkməyinə dözə bilmərəm, qıymaram ki, sən ömrün boyu yataqdan boylanasan. Əyri bitən ağacı tez qoparmaq lazımdı ki, hər yetən külək onu böyrü üstə aşırmasın, amma sən ağac, ting deyilsən, mənim balam, mənim bir parçamsan, əlimsən, ayağımsan, ürəyimsən, canımsan, qanımsan, mənim balam, mən özümü özümdən necə ayıra bilərəm, necə qopara bilərəm? Fəqət yazan elə yazıb ki, nə sən mənim əl-ayağım ola biləcəksən, nə mən sənin... Nə deyim? Ömrünü sənə həsr eləmək nə deməkdi? Yəni bir ömür sənin əzablarına, iztirablarına sakitcə tamaşa eləmək? Həm özümü, özüm cəhənnəm, həm də səni günbəgün şam kimi əritmək?.. Kaş bircə anlıq dilin söz tutaydı, ağlın kəsəydi, qərarı özün çıxaraydın, mənim balam, deyəydin ki, bir ömür yarımcan yaşamağa, yaşamağa yox, əriməyə hazırsan, razısan, ya yox? Mən özüm özümü görə bilməyəcəkdim, özümdən xəbər tutmayacaqdım, fəqət gözümün qabağında sənin əriməyinə baxıb elə mən də şam kimi, yox, qıpqırmızı qızarmış peçə salınan dəmir təki əriyəcəkdim, mənim balam, mən sənin əriməyinə baxa-baxa yıxılmayacaqdım, günün birində qəfil partlayacaqdım, mənim balam, elə partlayacaqdım ki, tikəm ələ gəlməyəcəkdi. Bəs, məndən sonra sənin halın necə olacaqdı, kim baxacaqdı sənə? Mən özümü yox, səni düşünürəm, mənim balam, mənimki kecib artıq... Yazan belə yazıb səninlə mənim yazımı, biz nəkarəyik, neyləyə bilərik?.. Bircə papağımızı qabağımıza qoyub çıxış yolu seçə bilərik ki, qurban olduğum səndən ağıl payını da əsirgəyib. Deməli, sənin seçim hüququn, seçim haqqın da mənə verilib, məhşər günü sənin əvəzinə də mən cavab verəcəm, ona görə bu gün, məhşərdən qabaq mən qəti qərar çıxardıb ağlasığmaz işgəncəyə qatlaşmalıyam, mənim balam...

Xudaya, üç qızdan sonra oğlum olması üçün neçə-neçə səhəri dirigözlü açıb sübh namazında neçə il yalvarmışdım sənə... Səcdə eləyəndə sözümün, yalvarışımın əvvəli-axırı oğul idi... Vermədiyin verdiyindən yaxşı idisə, niyə cavabsız buraxmadın mənim, günahkar, aləmlərdən bixəbər bəndənin istəyini? Bəlkə elə günahım bunda imiş? Mənə yazılmayanı yalvar-yaxar almaq istəyimdə... Keç günahımdan, ay Allah, mən nə suç işlətmişəmsə, qanmazlığımdan olub, bilə-bilə qarışqa da tapdalamamışam. Cəza verirsənsə, mənə ver, balama qıyma, bu tifilin günahı yoxdu...

Pərdənin arasından günəş süası uşağın üzünə düşdü, amma uyuyan bunun fərqinə varmadı, “bunda da bir hikmət var,” – düşünüb bəlkə də uşağın simasını gündən qorumaq, günün qabağını kəsmək üçün sağ əlimi şüanın qarşısına tutdum, yavaş-yavaş ovcumu aşağı gətirib uşağın ağız-burnunu qapadım. Deyəsən, uşaq mənim qərarımla – bu qərar-filan da deyildi, qanırsanmı, qəfil, qeyri-ixtiyari, ağlıma belə gətirmədən elədiyim sövq-təbii hərəkətdi – razı idi, qımıldanıb eləmirdi. Sonralar ağlıma gəldi ki, nə qımıldanmaq, axı, yazıq balam əlini-ayağını tərpədə bilmirdi. Beləsə, əlimi, ovcumu yatanın ağız - burnunun üstündə nə qədər saxlayıb yüngülcə sıxdığımı bilmədim, amma bir qərinə, bir əsr kimi göründü həmin anlar mənə, boğazımdan ürəyimə neştər batırırdılar sanki, havasızlıqdan neçə kərə ağzımı açıb yumdum, yumub - açdım, kürəyimin ortasından yanğılı gizilti keçdi. Yazıq balamsa, heç gözlərini də açmadı, kirpikləri də səyrimədi, bircə sağ gözünün bulağından iki damla yaş axdı baş barmağıma sarı... İntəhası, o yaş, o su əlimi, ovcumu, üstəlik, uşağın üstünü islatmaq üçün həddən ziyadə az idi. Bəs, bu sel-su hardandı? Demə, balamın ağız - burnunu sıxa-sıxa biixtiyar mən özüm ağlayırammış. Ağlamaq demək də düz deyildi buna, ağlayanda yaş

damcı-damcı axar, mənimsə göz yaşlarım, şırnaqlanıb, sellənib çal saqqalımdan tökülürdü, saqqalımdan əlimin üstünə, uşağın alnına damırdı, beləcə, mənim selləmə göz yaşlarım balamın bir-iki damla göz yaşına qarışmışdı, mənim göz yaşlarım balamın göz yaşına qovuşmuşdu...

Əlimi ağız burnundan çəkəndə baxdım ki, balamın qapqara sifəti ağappaq avazıyıb. Üzündən, sifətindən, çöhrəsindən nur yağırdı uşağın, simasına heç vaxt, heç vədə görmədiyim qəribə, kinayəli bir təbəssüm qonmuşdu. Başı da kiçilmişdi elə bil, yupyumru, bapbalaca olmuşdu... Burun pərələri genişlənmişdi. Demə, balamın sol yanağında balaca, bozumtıl, solğun xal varmış, di gəl, sifəti qapqara olduğundan, o xalı sezməmişdim indiyəcən, indisə, çöhrəsi avazıyıb bəyazlaşanda yanağındakı xal apaydın görsənirdi. Birdən - birə yataqdakı körpə mənə çox qəşəng, çox gözəl, çox şirin görsəndi. “Sən cənnət quşu idin, mənim balam, – dedim özlüyümdə, – sənin ruhun bədənində rahatlıq tapa bilmirdi, vurnuxurdu, inciyirdi, darıxırdı, sıxılırdı, qayıt geriyə, bu zalım dünya sənin yerin deyil, yaxşı yol, mənim balam”... Əyilib körpənin xalından dəfələrlə, ehmal-ehmal öpdüm, öpüşün say-hesabın itirsəm də, ürkək-ürkək, qorxa-qorxa toxundururdum dodaqlarımı uşağın yanağına. Balamın yuxusuna haram qatacağımdan qorxurdum.

Hə, bir də, dikələndə gördüm ki, sağ əlim əsir. Nədənsə, tez çıxmaq istədim otaqdan. Guya, nə isə bir günah iş görmüşdüm, otaqda ləngisəydim kimsə məni elədiyim, işlətdiyim suç üstə yaxalaya bilərdi, həm də elə bil qapı-pəncərəsi taybatay açıq otaqda havam çatmırdı, balamın ruhu bədənini tərk eləyərkən otaqdakı, ətrafdakı qarışıq, gözəl, xoş rayihəni də özü ilə aparmışdı, bəlkə də o xəfif qoxu, ətir, iy balamın ruhundan yan-yörəyə yayılırmış, elə balamın ruhundan gəlirmiş...

Otaqdan çıxıb ölgün-ölgün, sürünə-sürünə həyətə düşdüm, evin dalına yol alanda baxdım ki, təkcə əlim əsmir, əməlli-başlı axsayıram. Sonralar yerişim düzəldi, əlimin əsməyi yox... Ona görə yavaş-yavaş sol əlimlə yazmağı öyrəndim. Oldum solaxay... İndiyəcən əsas işləri sol əlimlə görürəm, sol əlimlə də yazıb -pozuram... Fəqət, o dəm yeriş, əl titrəmə hayında deyildim, evimizin gün işığına həsrət qalan arxa hissəsində, sıx fındıq kollarının arasındakı gözdən-könüldən iraq yerdə dizlərimi qucaqlayaraq çökmüşdüm yerə, səssiz-səmirsiz, zülüm-zülüm ağlamaqda idim, ağladıqca özüm də mat-məəttəl qalmışdım, adamda nə qədər göz yaşı olarmış... Köynəyimin qabağı, şalvarımın dizləri yamyaş idi.

Qanırsanmı, ay qardaş, mən bunları heç kəsə danışmamışam, yəqin ki, day heç kəsə də danışmayacam. Amma sən mənə diqqətlə qulaq as, görünür, həyatda elə gizlinlər var ki, hökmən kiməsə açmalısan, kiməsə danışmalısan, yoxsa, adam həqiqətən partlayıb parça-parça ola bilər. Özü də məni yaxınım kimi yox, kənar bir hakim kimi dinlə; yəqin sən də mənim yerimə olsaydın, belə eləyərdin, indi sənnən məhrəm adamım yoxdu, düzünü de, özün bilirsən ki, mənim dilimə heç vaxt içki dəyməyib, fəqət, Allah günahımdan keçsin, evimizdə sənin düzəltdiyin çaxırdan gillədirdim hərdən bala-bala, kefim yaxşı olanda, çünki səni elə özüm sanırdım, özüm hesab eləyirdim, elə bilirdim təkcə bədənimiz ayrıdı, ruhumuzsa birdi, eynidi, ən azı, əkizdi...

Bəlkə də göz yaşlarım axıdıqca həyəti sel-su bürüyəcəkdi, qəfil eşitdiyim nalədən dik atıldım: “Ay Allah, kül mənim başıma, tifilim ölüb ki! – bizim arvadın səsi, daha doğrusu, boğazı gəldikcə qışqırtısı idi. – Ay qızlar, hardasız, qardaşınız nəfəs almır e, bədbəxt balam gedib eee!.. Tez başı daşlı atanızı tapın!..”

Mən o vaxtacan bizim arvadın o cür yanıqlı, yanğılı qışqırtısını eşitməmişdim, cünki nəinki qışqırtı, çığırtı, heç bərkdən danışmaqla da arası yox idi, hərdən dediklərini ayırd eləyə bilməyib təkrar soruşurdum nə istədiyini, fəqət, başını itirdiyindən boğazı gəldikcə çığırsa da, bircə şeyi düz deyirdi, sərrast deyirdi; mən həqiqətən başı daşlı idim, başıma düşən daşın ağırlığından, yekəliyindən dikələ bilmirdim, başıma düşən ağırlıq get-gedə artırdı, sanki arvadımın naləsi ayıltmışdı məni, anlamışdım ki, bu yüklə nəinki qalxmaq, heç oturmaq da mümkün deyil, ona görə dizlərimi qucaqlamaqdan vaz keçib uzanmışdım yerə, nəm torpaq həzin, hiss olunmaz bir titrəyişlə kürəklərimə sığal çəkib məni ovundurmaq, toxtatmaq istəyirdi, mən isə, apaydın səmaya baxıb, balamın ruhunun uçduğu yerə tamaşa eləyərək təsəlli tapmağa çalışırdım, amma sıx yarpaqlar göyün qabağını tutduğundan, örtdüyündən asimanı görə bilmirdim.

O vaxtdan yataq otağıma gedə bilmədim, yatağıma girə bilmədim, elə bilirdim uşaq hələ də mənim yerimdə uyuyur, uzansam, balamı əzib xurd - xəşil eləyəcəm, nəinki yataq otağında, bütün evdə, həyət-bacada hara baxırdımsa, balamın əksini görürdüm. Arabir mənə elə gəlirdi ki, otaqda, evdə, həyətdə körpə oğlum dalımca yüyürür, mənə çatmaq, məni tutmaq istəyir, hövllənib çəkinə-çəkinə arxaya baxa-baxa qaçırdım. Arvad, qızlar mənim lapdan o baş-bu başa qaçmağımdan xoflansalar da üstünü vurmurdular. Yataqda, evdə, həyətdə gündən, günəş şüasından da qorxurdum. Yuxum da ərşə çəkilmişdi, hərdənbir divanda bir hövr mürgüləyəndə də rəhmətlik atamızı görürdüm yuxuda, görən kimi də səksəkəli oyanırdım, o dəmlər dədəm dəfələrlə yuxuma girdi, o yuxulardan, bir şey qanmasam da, vahimələnirdim atamı röyada görəndə... Bir dəfə də yuxuda gördum ki, iri yük maşınının arxasında tanımadığım adamların arasındayam. Hava soyuqdu, sulu qar yağır, şaxtadan dişimiz-dişimizə dəydiyindən bir-birimizə qısınmışıq ki, birtəhər qızışaq. Soyuqdan, nəmişlikdən otura da bilmirik maşının üstüaçıq yük yerində. Maşını da atam yaman bərk sürür, elə sürür ki, sanki axtamızca düşmən qovur. Birdən maşın qəflətən çuxura düşüb sürüşüb yoldan çıxaraq aşır, mən huşumu itirirəm, özümə gələndə görürəm ki, hamı ölüb, üstüm, ətrafım meyitlə doludu, ölənlərin altından çıxmağa cəhd göstərsəm də, gücüm çatmır, təngnəfəs oluram. Yuxarıdan kimsə, hansı qüvvəsə üstümdəki meyitləri bir-bir kənarlaşdırır, baxıram ki, yanağı xallı cavan bir oğlandı ölənləri mənim üstümdən ehmalca sağa-sola sürütləyən... Səksəkə içində cavandan: “Atam hanı?” – soruşuram. Cavan gülümsünüb: “Baba çıxıb getdi, – deyir. – Məni də göndərdi ki, səni xilas eləyim”. “Bəs, sən kimsən?” – xəbər alıram. Cavan: “Mən sənin oğlunam,” – deyəndə oyanıram yuxudan tərin-suyun içində, bilmirəm ki, oğlum məni yerdən qaldıra bildi, ya yox?.. Elə yuxudaca – həlbət ki, o dəm röyada olduğumu kəsdirmirdim – cavan mənə suyuşirin, doğma gəlmişdi, yanağındakı xalı da yekəlmişdi, yəqin adam böyüdükcə, əl-ayağı, ağzı-burnu kimi xalı da iriləşir.

Qəribədi, ömrü boyu şoferliklə, yük maşınında mişar daşı, daşımaqla çörək qazanıb bizi, balalarını dolandıran atam yuxuda elə kubik kimi bir-birlərinə kiplənmiş, sıxılmış adamları hara daşıyırdı, hara aparırdı? Həmin o yük maşınındakı adamlar kim idi? Heç biri tanış gəlmirdi mənə, hələ də o yuxunu gözümün qabağına gətirəndə o adamların heç birini xatırlaya bilmirəm, daha doğrusu, yadıma salıram həmin yuxunu olduğu kimi, o yuxu indiyəcən yadımdan çıxmır, di gəl, birinci kərə gördüyum o yad adamların kimliyi, atamızın maşınına hardan, necə gəlib düşdüyü hələ də qaranlıqdı mənə.

Qanırsanmı, yuxuda mənimlə maşının üstüaçıq yük yerində gedən adamlardan heç olmasa birini tanımaq üçün, bəlkə də, həmin yuxunu indiyəcən yüz kərə ən xırda detalları ilə xatırlamağa çalışmışam. O qarlı-çiskinli havada nə səbəbə maşındakı adamların ağız - burnundan buğ, buxar çıxmırdı, niyə o adamlardan heç birinin gözünü görə bilmirdim, nədən maşındakıların hamısı mürgülü-mürgülü gözlərini yummuşdu – hər halda, üzünə baxdıqlarım eləydi – nədəndi ki, heç olmasa maraq xatirinə yuxarıdan, maşının yük yerindən ətrafa tamaşa eləmək istəyən yoxdu? Bu suallardan birinə cavab tapsaydım qalan düyünlər öz-özünə açılacaqdı. Fəqət çifayda... Hələ ki, nə suallara cavab tapıram, nə də ki, yan-yorəmdəki o adamları tanıya bilirəm. Bircə burasını fəhmən anlayıram ki, maşındakılar yad deyildi, qocalı-cavanlı hamısı mənə öz oğlum kimi suyuşirin gəlirdi...

Evdə hələ də səksəkəli gəzirdim, ayaqlarımı yerə ehmalca qoyurdum, sanki nəsə qiymətli bir şeyə toxunub sındıracağımdan qorxurdum. Qulağıma da lap uzaqlardan sözlərini ayıd eləyə bilmədiyim qarışıq səslər gəlirdi. Yaram soyuduqca ağrısı şiddətlənirdi, get-gedə aydın dərk eləyirdim ki, əslində nə, nələr baş verib... Demə, bilmirəm, nə təhər deyim, hamı idarəçi imiş, bir körpə də adamın yolunu dəyişdirə bilərmiş, adamın yolunu idarə eləyə bilərmiş, ümumiyyətlə, yer üzündəki cəmi məxluq istədi – istəmədi – yaşlı, yaxud körpə, şah, yaxud rəiyyət, fərqi yoxdu – sövq-təbii bir-birini idarə eləyirmiş, o yolu ki, əzəldən biz seçirik, sonra seçdiyimiz bizi idarə eləyir, yol özü bizi seçir, bir də ayılırıq ki, biz seçdiyimiz yolun əsirinə çevrilmişik...

Beləcə, başa düşdüm ki, day evimizdə rahat yaşamaq xəlbirlə su daşımaqdı, ona görə ata yurdumuzu satıb qəbiristanlığın yanında ikimərtəbəli ev tikdirdim ki, balama yaxın olum. Düzdü, uşağı sakitcə dəfn elətdirmişdim, üstünə başdaşı-zad qoydurmamışdım, çox balaca idi axı, dinimizdə ağlı kəsməyən uşağa başdaşı qoydurmaq yasaq olmasa da, düzgün sayılmır, fəqət, bilirdim ki, harda, hansı qəbirlərin arasında dəfn olunub balam... Day məzarlığı da mənim kimi tanıyan olsa, haranın axundu, mollası sayılardım mən? Üstündən yazısı pozulan qədim qəbirlərdə uyuyanların kimliyini məxluq mənnən xəbər alırdı. Hər ehtimala qarşı, gələcəkdə itməsin deyə, bir küknar ağacı da əkdirdim qəbirin başında... Ancaq günlərin birində – onda bu evə köçmüşdük – baxdım ki, balamın üstündəki küknar öz-özünə tamam quruyub, yıxılıb böyrü üsrə, sanki od vurub yandırmışdılar ağacı. Yaman bikef oldum, elə bil ikinci kərə itirmişdim balamı. Bağban Səlimi məzarlığa gətirib məsələni açdım ki, ay kişi, bax gör bu nə olan şeydi, ağac durduğu yerdə yanıb, üzü də neçə ildi əklilib, di gəl böyümür, bapbalacadı, özün də şahidsən ki, ətrafda neçə küknar, şam ağacı var, lap belə söyüd var, çinar var, hamısı da yamyaşıldı, yepyekədi, bu ağacsa, qupquru quruyub. De görüm, nə sirrixudadı bu? Bağban Səlim qayıtdı ki, sən bu ağacın qurumağına baxma, kökü safdı, fəqət ağac burda bitməyəcək, nədən ki, bu ağac burda nəfəs ala bilmir, qəm-qüssədən, xiffətdən quruyur, bə nədi, ağac da adamlar kimidi, axund ağa, ağlayır, gülür, qəmlənir, danışır, intəhası, biz ağacların dilini qanmadığımızdan, bizə elə gəlir ki, ağaclar laldı, bu ağacı çıxardıb başqa yerdə basdırsan, əksən, qulluq eləsən, yenə yaşıllaşacaq, canlanacaq... Sırtıq ağacdı küknar, yeri rahat olanda tez böyüyüb qol-budaq atır... Görərsən, mən ölü, sən diri... Ağacı ordan çıxartdırıb evə gətirdim, elə bağban Səlimin özünə əkdirdim, təzə həyətimdə, evimin düz qabağında... Səlim deyən doğru çıxdı, göz qırpımında ağac dirçəldi, yaşıllaşdı, böyüdü, yekəldi, bizim arvad həmişə deyinirdi ki, bu barsız ağacı neynirsən, ay pir olmuş, gətirib əkdirmisən gözümüzün qabağında,

görmürsən həyətdə nə qədər yer tutub, günün qabağını da kəsib, yan-yörəsindəki ağacları da böyüməyə, yekəlməyə, artmağa qoymur. Özü də bu ağaca yaxın getmək olmur, adamın başından ağrı qopur bu ağacın altında duranda... Burasını düz deyirdi bizim arvad, qanırsanmı, hələ də bilmirəm nədəndi, bəlkə sən özün də sınamısan, məzarlıqdan gətirib həyətimdə əkdiyim küknarın altında bir az dayanan kimi, həqiqətən, adamın başı ağrıyır, təkcə ağrımır e, başı gicəllənir, ürəyi bulanır, elə bil köhnədənqalma bir təam dadmısan, indi də yediklərin zəhərə dönüb, gəlib dayanıb hülqumunda, nə aşağı gedir, nə də yuxarı qalxır... Ona görə heç kəs o ağacın həndəvərində çox hərlənib fırlana bilmir...

Fikrimdə idi ki, balamın dəfn olunduğu yerə nəsə bir nişanə qoyum, ya da başqa bir ağac əkdirim ki, nə qədər mən sağam, uşağın basdırıldığı yer itməsin... Səhlənkarlıqdan günü - günə satdım, saldım sabah-sabaha, bir də xəbər turdum ki, ay dadi-bidad, gül balamın, nakam balamın yerində, nişanladığım iki məzarın arasında, küknarı kökündən çıxardırdığım çuxurda cavan bir qız uşağını basdırıblar. Xəbər tutdum da demək düzgün deyil, qəbri ertədən qazmışdılar, mənim gözümün qabağındaca yazıq qızı basdırmışdılar “balamın qucağında”. Day mən də səsimi çıxartmadım, üstünü vurmadım, qəbirqazanlar balamdan bir nişanə görsəydilər, özləri bu işdən vaz keçib başqa yerdə qazardılar qəbri. Yer qəhətliyi deyildi ki... Qızı basdırandan sonra aranı xəlvət eləyib qəbirqazanlardan soruşdum ki, qazdığınız yerdə qədim – qədim dedim ki, şübhələnməsinlər – sür-sümük-filan çıxmadı ki? Qızarıb - bozardılar ki, bu nə sözdü, axund ağa, biz nəkarəyik qədim qəbri qazıb sür-sümük çıxardaq, kiminsə ruhunu incidək, bizi ki, yaxşı tanıyırsan, elə şey olanda o saat örtürük qazdığımız yerin üstünü, gedib başqa yerdə qazırıq qəbri... Intəhası, mərhumənin atası buyurdu ki, qızının qəbrini burda qazaq, nədən ki, mərhumənin babası ilə nənəsinin qəbirlərinin arasıdı... Nə məsələdi ki, axund ağa, nolub, nədən narahatsan? Dərinə getməyib: “heç...” – mızıldandım, onların düzünü dediyinə zərrəcə şəkk-şübhəm yox idi, baxdım ki, burasını da doğru söyləyirlər; təzə qəbrin sağında mərhumənin, ölənin babasının məzarı idi, solunda nənəsinin... “Rahat yatın, balalarım... – pıçıldadım özlüyümdə, – bir-birinizdən muğayət olun...”

Yəqin rəhmətlik qızın qəbrini qazanda bir az sağı-solu götürüblər, ona görə tifil balamın qalıqlarına rast gəlməyiblər, həm də əl boyda uşaqdı mənim balam, heç sümüyü də bərkiməmişdi, ola bilsin, çoxdan əriyib-çürüyüb torpağa qarışmışdı. Qismət beləymiş həlbət... Bəlkə elə belə olmağı yaxşıydı ki, nə qədər mən sağam, balamın qəbir yerini itirməyim? Balam qəbirdə tək-tənha darıxmasın deyə, tanrı onun yanına bir günahsız qönçəni də göndərmişdi bəlkə? Balamın yanında, yerində basdırılan qız da bir gün görməmişdi, nakam getmişdi. Nə yatmışdı ki, nə yuxu görə? Mərhumənin atası pula pul deməsə də – fermalarının, mal-heyvanının, dükanlarının sayı-hesabı yoxdu – yazılan yazının qarşısında acizdi, dünya malını yığ-yığmala, yenə də yazıya pozu yoxdu, olacağa da çarə tapmazsan, baxma ki, bəndəyə seçim haqqı da verilib... Bəndəyə seçim haqqı verilsə də, mərhum qız da o haqdan məhrumdu. Deyirlər, guya, qızın qardaşı onu yerli bir oğlanla görüb, pəzəvəngin biriydi qızın qardaşı, oğlana bir-ikisini çəkib, qızın da başına nə təhər vurubsa, qorxudanmı, zərbədənmi yazıq uşağın dili tutulub... Paytaxtdan da həkim gətirdilər qızın üstünə, yenə xeyri olmadı, üççə gün yaşadı binəva qız... Paqonlular əl çəkmirdilər qızın qardaşından... Deyəsən, tutub aparmışdılar da... Atası pul-para ilə, hörmətlə, minnətlə işi yoluna qoyub oğlunu sudan quru

çıxartdı. Qızına da yekə qara qranitdən başdaşı qoydurdu, qəbir üstünə gedən çığıra da qalın asfalt döşətdirdi. O kişini də qınamaq olmazdı, itirdiyini itirəndən sonra başlamışdı odu söndürüb külü ilə oynamağa... Hayıf ölənin canından, düz deyiblər ki, can candan ayrıdı, sonra mərhumənin istəklisi də gedib qonşu kənddən bir qız aldı, indi dəstəy uşaqları var...

Qanırsanmı, ya bu dünya ədalətsiz qurulub, ya da onun ədalətini dərk eləməyə bəndənin ağlı, zəkası, kəraməti çatmır... Mən ikincinin tərəfdarıyam, fəqət, Həsən keçəl, keçəl Həsən, fərqi yoxdu...

* * *

Allah verəndən yeyib toqqanın altını bərkidəndən sonra artırmadakı üstünə ağ süfrə salınmış mebelli masanın arxasında üzbəsurət əyləşib çay içirdilər. Evin qabağındakı küknar başını dik tutmuşdu, evin dalındakı qədim məzarlıqdakılar sakit-sakit uyuyurdu. Ələlxüsus, alatoranlıqda üstünə qızılı şəfəqlər düşən qəbirlər ayaq üstəcə uyuyub, qəflətən oyanaraq hələ nə eləyəcəyini kəsdirmədən karıxıb qalan və aləmi tamam başqa cür görən varlığa bənzəyirdi. Amma alatorana xeyli vardı və hələ ki, canlılar mürgüləməmişdi. Yatmaq nədi, qonaq təzəcə oyanmışdı, neçə gündə ilk dəfə idi ki, oyananda özünü bapbalaca quş kimi yüpyüngül hiss eləyirdi. Quş kimi də dünən səhər bişirilən – bunu qardaşı demişdi – yarpaq dolmasının beş-altısını elə qazandan çörəksiz-zadsız “dənləmişdi”.

Nazik, parçası naxışlı, şalvarının yanı zolaqlı, rahat idman kostyumu geyindiyindən həyətə düşüb qaçmaq da istəyirdi, lakin baxırdı ki, gün günortadı. Mürsəl ağ, gen üçdüymə köynəyinin düymələrini boğazınacan bağlamışdı, köynəyinin ətəyini sallamışdı qara şalvarının üstünə, keçəl başındakı ağ fəs bəyaz, qısa saqqalı ilə həmahəngdi.

– Gecəni necə yatdın?

– Daş kimi... Çoxdandı yaxşı yata bilmirdim, amma burda birdə-birə div yuxusuna getdim... Adətən, ayıq yatıram mən, səksəkəli yatıram, bu gecəki kimi bərk yatmağım yadıma gəlmir... Bizim xəstələrin sağalmağının əsas şərti yuxudu... Çox yatan, möhkəm yatan xəstələr daha tez sağalır. Tak şto, yəqin mən də bura sağalmağa gəlmişəm...

– Sən də dəli olmusan?

– Elə hamımız dəliyik...

– Nə yaxşı gəldin?..

– Hə... Gəldim... – mızıldandı Baş həkim. – Sakitlikdi bura... Qızlar gəlib eləmir?

– Əvvəllər tez-tez gəlirdilər. Axırda bezib “Quran”a and içdim ki, həftə səkkiz, mən doqquz gəlib baş qulağımı dəng eləsəz, gedib arvad alacam. Day qabaqkı deyiləm e, başım hay-küy götürmür... And içənnən sonra ayaqlarını kəsdilər... Analarını çox istəyirdilər axı... Bilirdilər ki, mən tərsəm, dünya dağıla, dediyimi eləyəcəm. O vaxtdan day öz aralarında vədələşiblər, on gündən bir gəlirlər... Yəni hər qızı ayda bir kərə görürəm, bəsimdi... Həm də bu lənətəgəlmiş virus zəhrimara görə adamlar bir-birinin evinə az-az gedib gəlirlər... Bircə Ayna həftədə iki-iç dəfə gəlib yır-yığış eləyir. Yemək-zad bişirir...

– Ayna necədi?

– Nətəhər olacaq, elə bizim kimi... Əri ölənnən sonra uşaqların, sonra da nəvələrin əlində əsir-yesir oldu... Zəhmətkeşdi... Çox əziyyət çəkdı binəva... İllərdi Əlinin papağını Vəlinin başına, Vəlininkini Əlinin başına qoyur ki, gün-

güzəranını birtəhər düzəltsin. Bir ara gəlmişdi yanıma ki, ay qardaş, namaz qılmağa başlamışam, sən axund adamsan, din-imandan mənə də bir-iki kəlmə öyrət, mollalıq eləyəcəm, olacam arvad mollası... Dedim, ay bacı, yeri get, el-obada az-çox hörmətimiz var, bizi biabır eləmə... Day orasını söyləmədim ki, balamın müsibətindən sonra mən özüm məsciddə pişnamaz olannan-olana namaz qılıram...

– Kömək-zad eləmirsən ona?

– Necə eləmirsən? Bir əlim üstündədi, intəhası, quyuda dərmədeşik çox olanda ha su tök, xeyri yoxdu... Külfəti də çoxdu axı... Oğul, gəlin, nəvələr...

– Ayna hələ də oğlu ilə qalır?

– Hə... Bəs kiminlə qalacaq?.. Xəstəlik yayılannan o yetimin də işlədiyi restoranı bağlıyıblar. Qalıb bekar... Bir də gördün hardansa beş-üç manat tapıb içdi, içən kimi də gəlir bura, başlayır zülüm-zülüm ağlamağa ki, ay dayı, sənə qurban olum... Cibinə beşdən-üçdən qoyuram, çıxıb gedir...

– Qızları necədi Aynanın?

– Babatdı... Hərəsinin öz ev-eşiyi, dirriyi, hamı kimi birtəhər başlarını girləyib günlərini kecirdillər... – axund sözlərinə ara verib söhbəti dəyişdi. – Sən bilərsən, bu xəstəlikdi, virusdu, nədi, haçan bitəcək? Məxluq nə zaman rahat nəfəs alacaq?

– Mən nə bilim... – Baş həkim çiyinlərini çəkdi. – Qəliz, dolaşıq həngamədi... Guya, xəstəlik əleyhinə vaksin hazırlayırlar, o vaksin hazır olanda hamıya vuracaqlar, daha heç kəs bu xəstəliyə yoluxmayacaq. Amma düzünə qalsa, heç vaksin-maksin məsələsindən də ağlım bir şey kəsmir, deyəsən, gizli mətləblər var... – cavabı bilmədiyindən pərtliyini gizlətmək üçün söhbəti çevirdi. – Sən məscidə gedib - eləyirsən?

– Yox, məscidin həyət qapısına iri bir qıfıl vurmuşam... Məscidə-filana getmək də yasaqdı. Allahdan gələn bəlaya görə... Qanırsanmı, hökümətlə hökümətlik eləmiyəcəm ki... Ağa deyir sür dərəyə, sür dərəyə... Nə toy eləmək olar, nə yas... Olmasın da, elnən gələn bəla toy-bayramdı...

– Məscid bağlı, yasa da qadağa qoyulub, yaxşı, bəs, sən necə dolanırsan?

– Eh... Mollaya, dindara bəzən ruhani də deyirlər. Yəni ruh adamı... Fəqət fələk başımıza elə oyun açıb ki, bizdə ruh-muh qalmayıb... İnanırsan, hər şeyi candərdi eləyirəm. Dolanışığa gəlincə, həkimnən mollanı el-oba dolandırır da... Bilirlər ki, birinə sağlıqlarında, o birinə öləndə işləri düşəcək... Bir də ki, mənim nə xərcim var axı? Tək adamam, bir dənə təndir çörəyini üç günə gücnən yeyirəm... Sən özünə baxma, Allah sənə qədd-qamət, boy-buxun verib, mən xırdasümüyəm, partlayınca yeyib - içməklə binadan aram olmayıb... Hərdən kəbin-zad kəsirəm...

– Nə kəbin?

– Şura hökuməti vaxtında rəsmi nigahı olmayana kəbin kəsmək yasaq idi, indi qadağa-filan yoxdu deyə, kim kimə salam verir, gəlirlər bura, elə burda kəbinlərini kəsirəm, olurlar ər arvad... Adam var, ildə beş-altı dəfə məni yaxşı mənada, xeyir işindən ötrü narahat eləyir... Belə ki, Allah öz mömin bəndəsini çörəksiz qoymur... – gülümsündü axund. – Bircə Allahın qəzəbi yatsın, virus keçib getsin, inşallah, hər şey yoluna düşəcək, məxluqun günahı bəs deyincə olsa da, yenə yazıqdı, gücsüzdü, binəvadı... Allah da bilir bəndələrinin fağır, gücsüz olmağını... Bəndə bəd əməllərini gücsüzlüyünü ört-basdır eləməkdən ötrü törədir...

– Amma bəziləri deyir ki, bu kütləvi yoluxma Allahın yox, elə bəndələrin öz işdəkləridi... Nə bilim...

– Çox vədə Allah bəlanı elə bəndələrin əli ilə göndərir... Günahı çoxdu məxluqun, hərdən fikirləşirəm ki, adamlar olmasaydı, dünya indikindən qat-qat gözəl də yox e, necə deyim, rəvan, rahat olardı. Qanırsanmı, çox bəlaların başında elə məxluq özü dayanır... Sonra da ozü öz alışdırdığı odda yanır... Özündən xəbərsiz özü oturduğu ağacın budağını kəsir... – Mürsəl də söhbəti dəyişdi. – Sənin işlərin nə təhərdi?

– Pisdi... – Baş həkim kəsəsinə cavab verib gülümsündü. – Yaxşı olsaydı, bura gəlməzdim ki... İşdən çıxmaq üçün ərizəmi yazıb qoymuşam seyfə... Çıxıb gəlmişəm bura...

– Nədən? Bəs neyləyəcəksən?

– Heç nə, gedib Türkiyədə yaşayacam...

– Neyniyəcəksən orda?

– Universitetdə dərs deyəcəm...

– Bəs, Nona necə olacaq?

– Heç necə... Yəqin onu mənim yerimə qoyacaqlar... – Baş həkim boğazını arıtladı. – Necə deyirlər onu, düşmən ocaq başındaymış... Həmişə məni bir yerə yola salanda yalvarıb - yaxarardı ki, tez qayıt, sənsiz ötüşə bilmirik, bu dəfəsə dedi ki, arxayın get, gözün arxada qalmasın... Mən də bura gələndən qəsdən mobil telefonumu söndürüb atmışam çantama. Qoy qırsınlar bir-birlərini...

– Mənim dalağım sancmışdı o xanımı görəndə... – Mürsəl kimin kimi qıracağını kəsdirməsə də, gözləri yol çəkə-çəkə dedi. – Kişidən gözlədiyini ala bilməyən arvadın qəzəbindən adamı Allah qorusun...

– Əslində, onda da günah yoxdu, mənim çoxillik təcrübələrim effekt vermədi, necə ildi milyonlarla pul havaya sovruldu, bu məqamda işdən sakitcə çıxmağımın özü də bir qazancdı... Arvad almaq məsələsinə gəlincə, birinci dəfə ağzım elə yanmışdı ki, daha rəsmiyyətdən qorxurdum... Elə bilirdim haçansa oğlum geri qayıdacaq. Ağlı kəsənnən sonra... Böyüdü... Amma ağlı kəsmədi... Ağıllanmağı cəhənnəm, lap zibilini çıxartdı...

– Sənin işlədiyin yer bir dərya idi... Ucsuz-bucaqsız ərazi, içəridə də türkün məsəli, topun -- topxanan... Üstəgəl, fərqli insanların dəryası, ümmanı... Bəlkə ona görə uğur qazana bilmədin ki, o xəstələrin hamısını eyni qəlibə salmaq istəyirdin, eyni gözlə baxırdın hamısına... Onlarsa bir-birlərindən çox fərqlənirdilər, düşüncələri, fikir-xəyalları yerə-göyə sığışmırdı.

– Ola bilər...

– Bax, mən iki-üç gün qaldım orda... Həmin günlər sənin xəstə dediyin o qədər adamla söhbətləşdim ki, ömrümün axırınacan mənə bəsdi...

– Oho!.. Xırdala... Məsələn...

– Məsələn, orda bir sarışın, çil-çil sifət kişi Sabirin “Uşaq və buz” şeirini təhlil elədi mənimçün... Bilirsən də, məşhur uşaq şeiridi, qabaqlar orta məktəb dərsliyində də vardı... Bilmirəm, bəlkə indi də var... “Dərsə gedən bir uşaq...” mən nə bilim nə... Hə, sizin ordakı təhlilçi mənə dedi ki, şair bu şeirdə birtərəfli mövqe tutub... Uşağın narazılığını qələmə alıb, di gəl, buzun fikrini yazmayıb... Ən azı, buz da uşağa cavab verməliydi ki, düzdü, yaz gələcək, mən suya dönəcəm, axıb çaya gedəcəm, ancaq bu sənin yox, günəşin, təbiətin qüdrəti sayəsində olacaq... Həm də mən bir ildən sonra yenidən “doğulacam”. Çünki mən də günəşin özü kimi əbədiyəm. Sən isə ölərisən...

– Maraqlıdı... Ancaq o şeir uşaqlar üçün yazılıb, belə incəliklərə getməyə ehtiyac yoxdu...

– Mən demirəm ki, o sarışın yüzdə - yüz düzünü deyir, fəqət, yanaşması qeyri-adidi... Həm də maraqlıdı... Qanırsanmı?.. Sonra orda bir nəfərlə uzun-

uzadı dindən danışdıq, çox maraqlı söhbətimiz oldu, vaxtın necə keçdiyini hiss eləmədik, səhəri dirigözlü açdıq... Belə bilikli adamlara “dəli” demək insafsızlıqdı axı... Bəlkə də mizan - tərəzi itdiyindəndi, kimin dəli, kimin ağıllı olmağı bilinmir, aləm bir-birinə qarışıb, bəlkə dəlillər ağıllıları öz gününə salmaq istəyir, hə?..

– O şeirləri təhlil eləyəni də, dindarı da yaxşı tanıyıram mən... Gözümüz daima onların üstlərindədi...

– Hə, ordakı bir neçə nəfərin də ən böyük arzusu kino çəkmək idi... Ssenaridən də xırda bir parça oxumuşdular mənə... Ali istəklərindən danışanda gözləri işım-işım işıldayırdı...

– Kinonu çəkməyə başlayıblar...

– Mən ölüm?!

– Özüm icazə vermişəm... Onlar üçün bahalı avadanlıqlar da almışıq film çəkməkdən ötrü... Deyəsən, elə o avadanlıqların zibilinə düşmüşəm, indi də maliyə məsələsini yoxlamaq istəyirlər ki, ya bu boyda tanınmış həkimin başına at təpib ki, dəlilər üçün astronomik qiymətə lazımsız avadanlıqlar aldırıb, ya da torbada pişik var... Guya, alınan avadanlıqların qiyməti qat-qat ucuzmuş, xərclənən pulun çoxu kiminsə cibinə gedib... Bir də ki, bu adamlar sağalıblarsa, buraxın getsinlər ev-eşiklərinə, xəstədilərsə, adam kimi müalicə eləyin. Yaxşı, ariya, romans oxumaqlarını, üzməklərini, şeir yazmaqlarını, gözəl şahmat oynamaqlarını başa düşdük, amma dəli də kino çəkər?.. Bu harda görünüb? Belə çıxır ki, bu adamlar neçə vaxtdı qəsdən saxlanılır xəstəxanada... Səbəbi?.. Qısası, indi hərə bir “mız” qoyur işimizə, hərənin ağzından bir avaz gəlir, Allah axırını xeyir eləsin...

– Hələ mən öz-özü ilə danışanın ikiləşməyini demirəm, – Mürsəl o günləri yada salmağa çalışdığından qardaşının dediklərinin sonluğunu qulaqardına vurdu, deyəsən, yaxşı anlamadı Baş həkimin sözlərini. – Özü-özünə yad adam kimi suallar verir, əvvəlcə elə bilirsən tamam səfehdi, kələfin ucunu itirib, fəqət, yanında duranda başa düşürsən ki, ilk baxışdan səfehləmə dediyin qatmaqarışıq kəlmələrin, sual-cavabın içində nə boyda dərd-ələm var, nə boyda ağrı var, bir də ki, rəvanlıq var... Ağlı başında olmayan elə səlis danışa bilməz axı... Həm də, həmin adam öz-özü ilə danışdıqca gah kişi olur, gah arvad... Ona, onun danışığına dinməzcə qulaq asa-asa mən özüm də çaşıb qalmışdım... Get-gedə anlamadım ki, yan-yörədəkiləri vecinə almayıb kiminləsə söhbət eləyirmiş kimi danışdıqca danışan, məşədi İbad demişkən, kişidi, yoxsa arvad... Sizin işdə adam gördüklərinə yox, duyduqlarına, hiss elədiklərinə inanmalıdı...

– Təəssüf ki, illər ötüşdü, o xəstələrin heç birisi tamam sağalmadı... Adına “sağlam” deyib xəstəxanadan buraxdıqlarımızdan da bədgümanam mən... Öz aramızdı, evə buraxdığımız xəstələrin çoxu sonralar intihar elədi...

– Bəlkə, onlar heç xəstə-zad deyillər, xəstə bizik?

– Belə fikirlər mənim sudan quru çıxmağıma kömək eləyərdi... – Baş həkim armudu stəkandakı çayla dodaqlarını islatdı. – Ancaq o adamların cəmiyyətdə normal yaşaması mümkündümü? Bax, əsas məsələ bundadı... Nə isə... Lap bezmişəm, yüz fikir bir borcu ödəmir, sən o dünyadakı işlərdən danış, bir az təsəlli tapaq...

– Hansı dünyadan?

– Cənnətdən, cəhənnəmdən... Day biz də ərəfədəyik də... Görəsən orda bizi nələr gözləyir, hə? Sənin söhbətlərin məni rahat eləyir həmişə... – Baş həkim işdən-filandan danışıb dərinə getmək istəmirdi.

– Kefsən e... – Mürsəl gülümsündü. – Elə deyirsən, guya, mən cəhənnəmdən dünən qaçıb gəlmişəm...

– Bəs, neçə ildi boş yerə külüng vurursan?..

– Gözümüzün qabağındakıları görməyə hünərimiz çatmır, axirətdən, cənnət-cəhənnəmnən dəm vururuq. Nizami necə deyib:

O şey ki, bizlərə lap aşikardır,
Orda da gizli bir xəzinə vardır.

– "Sirlər xəzinəsi"di? – Baş həkim özünü bilici kimi göstərmək istədi.

– Yox, – Mürsəl başını buladı. – Leyli - Məcnun...

– Leyli - Məcnun oxuyursan... – Baş həkim qımışdı. – Xeyir ola, gec deyil?

– Çoxdan oxumuşam... – Mürsəl ağ fəsin üstündən keçəl başını qaşıdı. – Axirətdə baş verənləri öyrənmək məsələsinə gəlincə, belə nəql eləyirlər ki, Süleyman peyğəmbər qəbir əzabından qurtulmaqdan ötrü qarışqasını çağırır hüzuruna – həzrəti Süleyman cəmi heyvanatın dilini bilirdi – tapşırır ki, bu gün kim dəfn olunsa, girərsən onun qəbrinin içinə... Dinlə gör, məzarda canını tapşırana hansı sualları verirlər, nə xəbər alırlar ölən adamdan... Eşitdiklərini yaxşı-yaxşı yadında saxla, sonra gəl mənə xəbər ver... Ertəsi gün qarışqa Süleymanın yanına gəlib deyir ki, bəs, bütün gecəni təzəcə basdırılmış filankəsin qəbrinin içində qaldım, fəqət, heç nə eşitmədim, heç bir səs-səmir gəlmirdi, məzar elə məzar kimi, ölü də min ilin ölüsü kimi sapsakit idi. Süleyman peyğəmbər pərt olub qarışqaya getmək üçün rüsxət verir, gecə isə yuxuda kinayəli bir səs eşidir ki, ay Süleyman, sən ki bizim qüdrətimizdən xəbərdarsan, bəs, nədən bizi qarışqa ilə aldatmaq fikrinə düşdün?..

– Cavanlıqda deyirdin axı, mən axirətin sirrini açacam... Deməli, elə sənin də təcrübələrin mənimki kimi daşa dirəndi?

– Elə də demək olar... Fəqət mənim işlərim qəlizdi, "xəstələrim" də param-parçadı, yarısı yerin altındadı, yarısı ərşi-əlada... Mənə elə gəlir ki, Adəmnən üzü bəri bütün seçilmişlər əsl həqiqətdən xəbərsizdi. Çünki ölçülər dəyişməlidi... Bunu da eləmək üçün bəndə bəndəliyindən çıxmalıdı, əsl həqiqəti öyrənmək məxluqa yasaqdı, qadağandı, qanırsanmı, ola bilsin, bəzi heyvanlara həqiqət daha əyan rəva görülüb, nəinki insana... Hərdən mənə elə gəlir ki, heyvanlar, ağaclar, otlar, daş, torpaq məxluqdan çox bilir... Nədən ki, insan çiy süd əmib, bəzən çox bildiyindən bəlaya düşür, idrakının yükünü çəkə bilmir... Nəyisə bir anlığa görən peyğəmbərlər də gördüklərini axıracan dərk eləyə bilməyiblər. Təkcə gözlə gördüyümüz dünyanın, bizə qaranlıq axirətin yox, bütün aləmlərin rəbbi böyük sirri məxluqa, ən adi sınaqlardan çıxa bilməyənə necə açsın, niyə açsın? Qanırsanmı?

– Yox... Dərinə getmə e, məclislərdə elədiyin söhbətlərdən danış, cindən-şeytandan, o dünyada bizi gözləyən olaylardan... Qoy başımız qarışsın, fikrimiz dağılsın... Belə görürəm ki, qəbr evinə də bir şey qallmayıb... Sənnən iraq, səni demirəm ha... – üzrxahlıq elədi. – Maşalla, sən hələ qıvraqsan... Mənim yaşamaq həvəsim ölüb...

– Dedin - demədin, nə fərqi, qədər Allahındı... Gec-tez hamı o güzgüyə baxacaq. Dərindən - dərin söhbətlərə qulaq asmaq istəyirsənsə, gərək rəhmətlik, əstəğfürullah, yəqin uzun yaşıyacaq, kişi sağdı hələ, zərər yoxdu, elə diriyə də rəhmət düşür, Ələkbərzadəni görəsən. Məndə də az yoxdu a, başım qaçıb, rəhmətlik deyirəm yeri gəldi - gəlmədi... Hə, nə isə, deyirlər xəstədi, hələ ki, yanına da adam buraxmırlar, Allah Ələkbərzadəyə cansağlığı versin, o, belə söhbətləri xoşlayır, özü demişkən, elmlə dini calayır bir-birinə. Deyir, hər şey nöqtədən başlayır, sonra nöqtə parçaya dönür, parça sahəyə çevrilir, sahə

həcmə... İnsan da qalır yaratdığı həcmin içində... Kiminin həcmi çox olur, kiminin az... Həcmin içi varsa, deməli, zəkamız da məhduddu... Həcmdən qurtulub çoxvektorlu ola bilsəydik, kainatın, aləmlərin sirrini açardıq... Hərdən saatlarla höcətləşirik, mənim xoşuma gəlir Ələkbərzadənin sirli-sehirli söhbətləri, çünki onun dediklərinin çoxunu başa düşmürəm. Arabir məclislərdə ondan eşitdiklərimi də danışıram, camaat az qalır ətəyimdə namaz qılsın ki, axund ağa arifdi, çox dərrakəli din adamıdı, mövhümatçı deyil, elm xiridarıdı...

– Məclislərdə incə mətləbləri də xırdalayırsız?

– Day axund ağa adi bir molla kimi hər məclisə gedib, cənnət - cəhənnəmdən, inkir-minkirdən danışıb özünü yüngülsaqqal eləyə bilməz ki... Fərq, çəki hiss olunmasa, hörmətdən düşər adam. Elə məclislər olur ki, orda qırğın düşür, hərə öz dediyində durur, axıracan bir nəticə hasil eləyə bilməyəndə, hamı pişik kimi mənim ağzıma marıtlayır. Dəbdə olan xanəndələr kimi axundun da qiyməti bahadı. Məclislərin birində mən: “Əməlsiz iman ölüdür,” – dedim. Özümdən demədim a, dini kitabdan məsəl çəkdim... Yanımdakı da qayıtdı ki, axund ağa, üzr istəyirəm, bir ayağısürüşkən qadın, əstəğfürullah, bədəni ilə pul qazanır, qazandığı pulu da yetim-yesirə xərcləyir. Həmin qadının yeri cənnətdi, ya cəhənnəm? Mən udqunub ətrafıma baxdım, molla Əlqəmə – bizdən uşaq olsa da, ağıllı, hazırlıqlı din adamıdı – mənim əvəzimə cavab verdi ki, o qadının elədiyi günah savabından ağırdısa, yeri cəhənnnəmlikdi, yox əgər əksinədisə, qadının yeri cənnətdi... Beləcə, mübahisə qızışdı, hərənin ağzından bir avaz gəldi, axırda mən: “Sizlərdən hansınız cənnətdən-cəhənnəmdən dünən qayıdıb? Qeyb aləminin sirri Adəm övladına rəva görülməyib, nədən ki, babamız Adəm, sirr saxlamaqda, sözə baxmaqda zəiflik göstərib, bəlkə elə buna görə ondan sonrakı peyğəmbərlərə əsl biliklər, əsas sirlər tam etibar olunmayıb?”

– Axund ağa! Axund ağa! – həyət darvazası zərblə açılıb - örtülən kimi, kimsə xırıltılı səslə çığırdı.

Deyəsən, Mürsəl səsin yiyəsini tanıyırdı.

– Odey, adın çək, qulağın bur... – deyib qalxdı və irəli yeriyib məhəccərə söykəndi. – Nədi, nolub, ay Əlqəmə?

Baş həkim oturduğu yerdə geri qanrılsa da, gələni görmədi, ancaq eşitdiyi xırıltılı səsə çəkingənlik qarışdığını duydu.

– Bir balaca söhbətim var e, axund ağa...

– Bəs, qoltuğundakı nədi? – Mürsəl gözlərini qıyıb astadan xəbər aldı.

Əlqəmə qoltuğuna vurduğu bükülünü irəli uzatdı:

– Bumu?.. Qutabdı... Göy, ət, qarın, balqabaq... – səbrlə sadaladı. – Arvad təzəcə bişirib... Dedi ki, apar bunları axund ağaya, qoy isti-isti, nuşcanlıqla yesin... Yoxsa, bizim boğazımızdan keçməz... Axund ağa, özün bilirsən ki, bizim evdə hamı səni çox istəyir... Çünki, sən bizim hamımıza atalıq, ağsaqqallıq eləmisən...

Mürsəl:

– Gəl-gəl... Day aşağıda yağlı dilini işə salıb baş-beynimi xarab eləmə... – dedi və keçib yerində oturdu.

Əlqəmə Baş həkimi görüb duruxdu, bilmədi əlindəkini masaya qoysun, ya yox... Baş həkim başını yüngülcə tərpədib ağızucu Əlqəməyə salam verdi, Mürsəl təzə gələnə göz vurub gülümsündü:

– Adə, çəkinmə, qardaşımdı... Pul-zad gətirməmisən ki, qorxasan... – gələni qardaşına təqdim elədi. – Molla Əlqəmədi... Pul-zad verən deyil, xəsisin biridi, bunnan gərək zorla qopardasan... Elə hərdən qutab-mutab gətirirsə, buna da

şükür... – gələn ağappaq süfrənin arasındakı iri bükülünü çıxardıb səliqə-səhmanla onların qabağına, masanın üstünə qoyaraq əyləşmək istəyəndə Mürsəl: – oturma... – dedi. – Ordan bizim çayımızı təzələ, özünə də bir stəkan gətir...

Əlqəmə buyrulanı eləyib – arifdi, üstəlik içəridən xırda boşqablar da gətirib qoydu əyləşənlərin qabağına, hiss olunurdu ki, bu evdə qab-qaşıq yerinə yaxşı bələddi, özü üçün nimçə qoymadı, yəni mən gətirdiyimdən yeməyəcəm – yerini rahatlayanda axund məzələndi:

– Nə yaman yaşmanmısan, ay molla, heç saqqalın da görsənmir, maskanı çıxart görüm... Gözün yaman qorxub, deyəsən... – üzünü Baş həkimə tutdu. – Sən qutablardan nuş elə, bunun övrəri yaxşı qutab bişirir, Əlqəmə də sağ olsun, işi düşəndən-düşənə qutabdan-zaddan gətirib mənim başımı tovlayır... Mən də ki, avam adamam da... Bir qarın çörəyə dağ boyda işlər aşırıram bunun üçün... – gözucu Əlqəməyə baxdı. – Qulağıma qəribə səslər dəyib, xeyirdimi? De görüm, yenə neynəmisən?

Əlqəmə maskasını çıxardıb cod saqqalı ilə həmrəng qara köynəyinin döş cibinə qoydu, neyləyəcəyini bilmədiyindən şişmiş cibini sığallayıb suçlu-suçlu gözlərini süfrəyə dikərək susdu, iri hülqumu qalxıb endi, yavaşca öskürsə də, dilə gəlib danışmadı, suçlu-suçlu susub, üşüyürmüş kimi, əllərini ovuşdurdu. Sonra yayın istisində qoyduğu buxara papağını başından götürüb dizinin üstündə rahatladı, maskasını cibindən çıxardıb keçəl qırxılmış başının tərini sildi.

– Hə, dillən görüm... – axund əl çəkmədi.

– Nə deyim e... Allah şeytana lənət eləsin, – Əlqəmənin dili dolaşdı. – Ətək mənim... e... əl mənim, ətək sənin, boynum qıldan nazikdi... Özün bilürsən ki, ölü yiyəsi rayonumuzun hörmətli adamıdı, neçə il öncə bəxtiqaranın qızı lapdan, üççə günün içində rəhmətə getmişdi, indi də köhnə palan içi eşələyənlər kişinin amin-zamin, yeganə oğlunu bıçaqlayıb öldürdülər... Dağ boyda kişinin sinəsinə təzədən dağ çəkdilər... Mənim də ürəyim yuxadı, neyniyim, qurban olum?..

– Ay sənin yuxa ürəyinə quzu kəsim... – axund ağzı işləyə-işləyə dedi. – Müxtəsər elə, Əlqəmə...

– Müxtəsəri budu ki, o hörmətli kişi mənə xəbər göndərdi ki, gəlib məclisi yola verim, dedilər bəs, qorxma, polis, prokuror, lap belə icra başçısı xəbərdardı, icazə veriblər məclisi keçirməyə... Yoxsa, biz nəkarəyik ki, başbilənlərdən xəbərsiz məclis keçirmək fikrinə düşək... – Əlqəmə münasib, uyarlı kəlmələr axtardığından sözünün ardını gətirə bilmədi, gözücu qutablara girişənlərə baxaraq boğazını arıtladı, burnunu çəkdi, çaşdığından özünə çay süzməyi unutduğu boş, armudu stəkanı əlinə götürüb təkrarən nəlbəkiyə qoydu.

– Sonra?.. – axund balqabaq qutabını dişləyib razılıqla baxdı ki, qardaşı da dinməz-söyləməz, iştahla yeyir, deyəsən, heç söhbətə də qulaq asmır, mollanın gətirdiyi qutablar Baş həkimə də ləzzət verir.

– Sonrası budu ki, məclis sakit keçirdi, çadırda da bəs deyincə adam vardı. Maskalı, maskasız...

– Əlqərəz... – axund qəsdən səbirsizlik eləyəndə Əlqəmə özünü tamam itirdi.

– Əlqərəzi budu ki, budu ki, əlqərəzi... Elə ehsan süfrəyə yenicə gəlmişdi ki, polislər aldı başımızın üstünü, kəsdilər çadırın qapısının ağzını... And olsun Allaha ki, heç o ehsandan dilimə vurmağa macal tapmadım... Getdiyin Məkkə mənə qənim olsun, yalan deyirəmsə... Gələnlərin də maskası çibində.... Kimi qınayasan, axund ağa, maska ilə ehsan yemək olar? Belə ki, içi mən qarışıq, yasda olanların hamısını cərimələdilər. Yas sahibini, məni, bir-iki ağsaqqalı idarəyə aparıb izahat da aldılar. O hörmətli adam dediyimiz yas sahibi olan

kişi də orda qızıl-qırmızı durdu üzümə ki, bəs, mən rəhmətə gedənimə məclis-filan eləmirəm, içi molla Əlqəmə qarışıq, camaat özü təşrif buyurub, day başsağlığına gələnləri qapıdan qova bilməzdim ki? Xudavəndi aləm bilir kimin başına nə gətirir, biz bəndələrin ağlı kəsmir... – Əlqəmə iki daş arasında qarğışından də qalmadı. – Bu fani dünyada heç kəsə etibar yoxmuş... Belə ki, axund ağa, həm ziyana düşdüm, həm də, ziyan cəhənnəm, başımıza sadağa, abırım getdi e... İndi də eşitmişəm ki, yuxarıda oturanlar mənim işimi sənə tapşırıblar, axund ağa, hökümətin cərimәsini ödəmişəm, bəs, sənin verəcəyin cəza nə olacaq, bax, onu bilmək istəyirəm, qurbanın olum... Yoxsa, nigarançılıqdan bağrım çatlayar...

– Belə çətin məsələni beş-altı qutabla yoluna qoymaq olmaz... – nədənsə, qəflətən Baş həkim məzələnmək istədi, ağzı işdə olsa da, qulağı söhbətdə imiş. – Paytaxtda yas mərasimində tutulduğuna görə neçə mollanı dama da basıblar... – qaşlarını çatıb ciddi-ciddi dedi. – Baxma ki, insafən çox ləzzətli qutabdı. Çoxdandı belə qutab yeməmişəm... Yağı, sumağı da yerli-yerində... Dadından doymaq olmur. Görüntüsü də səliqəlidi, bir boyda, bir biçimdə... Zərgər işidi sanki... Adamın ağzına qoyub yeməyə də heyfi gəlir. Kəsdirə bilmirsən hansı qutab daha dadlıdı... Yoxsa, şəhərdə qutab adına, Allah bilir, nə verirlər adama... Bilmirsən yediyin qutabın içindəki nədi... – sonluğu yaxşı gətirsə də, zəhri yarılmış Əlqəmənin rəngi tamam qaçdı.

– Elədi, Əlqəmənin övrətinin bişirdiyi qutabların dadı həftələrlə damaqda qalır... – axund qardaşının sözünə qüvvət verdi. – İntəhası, hökumətlə hökumətlik eləmək istəyənə necə dayaq durasan? Belə çıxmaz ki, əstəğfürulah, mən də səninlə razıyam, həmfikirəm, əlbirəm, hə? Belə çıxar ki, sən düz iş görmüsən, sabah da başqaları sənə baxıb min hoqqadan çıxar. Axı, biz gərək məxluqa nümunə olaq... Elədi? – qabağındakı boş nimçəni yüngülcə kənara itələyib gözlərini Baş həkimin yanında əyləşənə dikdi.

– Elədi... – Əlqəmə yazıq-yazıq başını tərpədib təsdiqlədi.

– Əlqəmə, bu virus, xəstəlik məsələsi çıxanda mən sizi məscidə yığıb demədimmi ki, yuxarıdan göstəriş gəlib yasaq, qadağa bitənəcən yas məclisinə getməyi yığışdırın. Dedim, demədim?..

Əlqəmə bu dəfə başını yarıkönül yox, tez-tez tərpədib ürəkdən:

– Dedin, dedin... – dedi. – Qurbanın olum, dedin...

Axund davam elədi:

– Yasaq zamanı sən məni hansısa bir yas məclisində, tünlükdə gördünmü, ay Əlqəmə? Qanırsanmı, əgər məclisə getməkdisə, elə mən özüm gedərdim də, mən haçan məxluqun xeyir-şərinnən qalmışam, hə?

– Görmədim, axund ağa... Sözün haqdı... – Əlqəmə büzüşüb yumağa döndü. – Görmədim...

– Ay Əlqəmə, sən qanırsanmı ki, mən olmasaydım sən cərimə ilə də canınını qurtara bilməyəcəkdin, ən azı, on beş sutka verəcəydilər sənə, el-aləmdə rüsvayi-cahan olacaqdın...

– Bilirəm, bu canım sənə fəda olsun, axund ağa... – Əlqəmə sağ əlini sinəsinə vurdu. – Sən hamımızın ağsaqqalısan.

Mürsəl qeyzləndı:

– Ağsaqqal?.. Bəs, beş-üç manata görə də ağsaqqalın sözündən çıxarlarmı, ay Əlqəmə?.. Pula, dünya malına görə də ağsaqqalın dediyini qulaqardına vurub onu yüngülsaqqal eləyərlərmi? – yenə üzünü qardaşına tutdu. – Buların mənə xala - xətrin qalmasın, elgözünə: “ağsaqqal,” deməyinə baxma, beş-üç manata görə bular məni də satar, mənim nəslimi də...

– Bir də eləməz yəqin... – Baş həkim odun üstünə su tökdü. – Böyükdən xəta, kiçikdən əta, deyiblər... – özünü bilici kimi göstərmək istəsə də, lapdan yadına düşən atalar məsəlini tərsinə dedi.

Axund qımışıb üstünü vurmadı, Əlqəmə isə kiminsə dediyində qələt axtarmaq hayında deyildi, "qələt" sözünü bayaqdan beynində hərləsə də, üzrxahlıq eləmək üçün dilinə gətirdi.

– Bir qələtdi eləmişəm, axund ağa... Olan olub, keçən keçib... – Əlqəmə doluxsundu.

– Yaxşı-yaxşı... – axund qəsdən sözünün dalını gətirmədiyindən, araya qısa, zərif və xəfif sükut çökdü. – Day zarıma, – sükutu pozanın səsi həlimləşdi. – Dur bizim çayımızı təzələ, özün də çıx get... Qanırsanmı, bir-iki günə gəlib mənə dəyərsən, baxaq görək, sənin işinə necə əncam çəkirik ki, nə şiş yansın, nə kabab...

Əlqəmənin qırışığı açıldı, sevincək:

– Allah köməyin olsun, axund ağa, – deyib cəld ayağa durdu, qalxanda dizi masaya dəydi mizin üstündəkilər cingildədi, buxara papağı da diyirləndi döşəməyə. – Allah sənin ömrünü uzun eləsin, Allah səni bizə çox görməsin... – Əlqəmə papağını yerdən götürüb başına qoydu, istiqanlılıqla, cani-dildən masa arxasında oturanlara qulluq eləməyə başladı. – Stəkanları da təzələyim, axund ağa?..

* * *

– Nə çox yatırsan, ay qardaş... – gözlərini açıb Aynanı başının üstündə görəndə əvvəlcə elə bildi ki, hələ də yuxudadı, oyanmayıb... – Azarlısanmı, ağrın canıma? – başının üstündə dayananın sir-sifətindən narahatlıq, nigarançılıq oxunurdu.

Baş həkim üstündəki nazik örtüyü cinəsinə çəkib, kürəyini yastığa dirəyərək dikəldi və gözlərini ovuşdurdu:

– Yox... Burda çox yatıram, yaxşı yatıram... – əsnədi. – Nədi ki? – gərnəşdi rahat-rahat. – Qardaşımın evində yatmağı da çox görürsən mənə? Dincəlib yorğunluğumu canımdan çıxarıram da...

Mürsəl narazı-narazı bacısına göz ağartdığı üçün Ayna şəhərdən gələn qardaşına cavab verə bilmədi.

– Az, sənə dedim, girmə bu otağa, durğuzma onu yuxudan... Qoy yatsın... İndi ki oyatmısan, imkan ver, geyinsin...

Ayna dinməz-söyləməz otaqdan çıxdı.

...Baş həkim əl-üzünü yuyaraq artırmaya çıxanda, Ayna, marığa yatıbmış kimi, irəli cumub onu qucaqladı:

– Qurban olum sənə, ay qardaş!.. – doluxsundu. – Bəlkə mən heç Mürsəlgilə gəlməyəcəydim, sən elə bura dəyib sakitcə qayıdacaqdın? Mənim də xəbərim olmayacaqdı sənin gəlişindən, hay?!. Yadına düşməyəcəkdi ki, sənin burda bədbəxt bir bacın da var?.. Onu nədən görmək istəmirsən, ay qardaş?.. – kövrəldi. – Bizim qapımızı haçan açacaqsan ki, el-oba da görsün şəhərdən əziz qardaşım gəlib, qardaşım məni sayır... – ağladı. – Mən qarabaxtı adam hesab eləyir...

– Bu nə sözdü... Elə şey olar? – bacısının çiyinlərini sıxıb sudan quru çıxmağa çalışdı. – Təzə gəlmişəm, vallah... Hökmən sizə dəyəcəkdim. Amma qalmışdım naəlac... İndi xəstəlik tüğyan eləyir... Heç kəs heç kəsin evinə getmir, heç kim heç kimin qapısını açmır qorxudan...

– Buy, bu nə sözdü, sənə gələn qada-bəla mənə gəlsin... – ağlayan əl çəkmədi. – Bizə gəlməmişdən şəhərə qayıtsan, ölüncə sənin üzünə baxmaram!.. – gözlərinin yaşı axsa da, hikkə ilə dedi. – Bunu da sırğa elə, as qulağından!..

– Kim ölüncə? – Baş həkim bir-iki addım geriləyib bacısını süzdü və gözucu məhəccərə söykənib qımışan qardaşına da baxmağa macal tapdı.

– Annamadım, ay qardaş... – çaşdığından Aynanın dili dolaşdı. – İraq-iraq, necə yəni, kim ölüncə?

– Sən ölüncə, ya mən?

– Həlbət ki, mən!.. – Ayna ürəkdən dedi. – Allah gecindən versin, qulaqlara qurğuşun, – əlini qulağına apardı, – mən sizin ölümünüzə dözə bilmərəm... Sizdən başqa kimim var mənim? Min yaşayın...

– Çox olmadı? – Baş həkim keçib qardaşının yanında dayanaraq həyətə, küknara baxdı. Gün göyün üzünə meyllənirdi. – Çox yuxarıdan getmə, yüzdə saxla, bəsimizdi...

– Çox, ya az, mənnən dilməkdi... Təki qurbanolduğum səsimi eşidib məni sizin qabağınızda öldürsün... – Ayna arxadan qürrələnə-qürrələnə qardaşlarına baxıb istiqanlılıqla dedi. – Siz oturun, mən bu saat çay dəmləyim... – mətbəxə keçdi.

– Ayna yaman qocalıb... – Baş həkim pıçıltı ilə qardaşına dedi. – O, bizdən balacadı axı... – elə söylədi ki, guya, nə isə gizli bir sirr açırdı və axund da bunu bilmirdi.

– Pis gün adamı tez qocaldar... – Mürsəl fikirli-fikirli cavab verdi. – Binəva bir gün gördü ki, cavan da qalsın... – qardaşına təsəlli verməyi də unutmadı. – Fəqət, şükür, hələ ki, qıvraqdı, beş zənənin iş-gücünü göz qırpımında görür...

– Kim ona demişdi ki, yumurtadan çıxan kimi oğrunun, başkəsənin biri ilə qoşulub qaçsın, onu da öldürsünlər, cavan vaxtından dul qalsın... – dedi Baş həkim. – Günahın hamısı elə Aynanın özündədi...

– Köhnə palan içi eşmə... – axund etinasızlıqla pıçıldadı. – Hamımızın günahı bəs deyincədi...

Həyət qapısı açıldı, Baş həkim baxdı ki, həyətə girən İbrahimdi, əlində də qırmızı top...

– İbrahim, sən burda nə gəzirsən? – gülümsünüb əlini yellədi.

– Babamgilə gəlmişəm... – İbrahim aşağıdan yuxarı ona baxaraq dilləndi.

– Babangilə?.. – Baş həkim təəccübləndi.

– Aynanın nəvəsidi də... – Mürsəl dedi. – Çox ağıllı uşaqdı...

– Bilirəm... – Baş həkim təsdiqlədi. – Bura gələndə məni İbrahim qarşılayıb. Salxım söyüdün altında...

– Hə, küçə-bacanın cəngavəridi... Gələnə yoldaşdı, gedənə qardaş... – axund uşağı səslədi. – Bala, gəl doxtur babanla görüş...

Uşaq topu həyətə atıb artırmaya çıxdı, Baş həkimə yaxınlaşanda o, əyilib əlini İbrahimə uzatdı:

– Bir beş ver görüm... – əl-ələ tutdular. – Ay bərəkallah... Böyüyəndə nə olmaq istəyirsən? – uşağın üzündən ehmalca öpdü.

– Axund!.. Babam kimi... – uşaq şəstlə dilləndi.

– Bərəkallah... – Baş həkim İbrahimin təzəcə qıxrılmış keçəl başını sığalladı.

– Bəzi ərəb hərflərini öyrətmişəm. Tez götürür... – axund razılıqla başını tərpədib mehriban-mehriban İbrahimə baxdı. – Zehinlidi... Hərdən elə şeylər xəbər alır ki, qalırsan mat-məəttəl... Bilmirsən nə cavab verəsən...

Ayna, əlində çay dəstgahı ilə dolu sini, artırmaya çıxıb nəvəsini görəndə, stəkanları masaya düzə-düzə uşağa təpindi:

– Axır ki, gəldin... Sənə deməmişəm tez-tez bura gəlib babanı yorma... Əl çəkmir də burdan... – deyinib üzünü ev yiyəsinə tutdu. – Qardaşın gəldiyinə görə plov asmaq istəyirəm...

– Nə istəyirsən bişir də... – axund çay süfrəsi arxasına keçdi. – Şükür Allaha, evdə hər şey var...

Süfrə arxasına əyləşdilər, Ayna Baş həkimə dedi:

– Plov hazır olanacan sənə yumurta, yağ-bal, pendir-çörək gətirim?

– Yox... – Baş həkim etiraz elədi. – Mən səhərlər heç nə yemirəm... – ağzını marçıldatdı. – Amma dünənki qutab ləzzət elədi.

Ayna Mürsəldən soruşdu:

– Əlqəmə gətirmişdi qutabı?

– Hə... – axund cavab verdi. – Başqa kim gətirəcək, axunda molla qulluq eləməlidi də...

– Əlqəmənin arvadının qutabını ölü yesə dirilər... Zalimin qızı elə bil qutab bişirməkdən ötrü gəlib bu dünyaya... Bir dəfə bizim uşaq məni göndərdi Əlqəmənin arvadının yanına, mən də gedib ona dedim ki, bəsdi qonum-qonşuya bişirdiyun qutabdan bir-ikisini verib hamını umsuq elədin, oğlumun işlədiyi restoranda qutab bişirsən, müştəri əlindən yer tapılmaz orda, sən də çoxlu pul qazanarsan... Əlqəmənin arvadı qıpqırmızı qızarıb üstümə çımxırdı ki, sən nə danışırsan, ay Ayna, axund Mürsəlin bacısı olmasaydın, sənin cavabını başqa cür verərdim, bir o qalmışdı desinlər ki, o boyda molla Əlqəmənin arvadı restoranda qutab bişirir... Gördüm çox bozarıb yuxarıdan gedir, mən də qayıtdım ki, az, dədəni qəbirdən xortlatmadım, ananı söymədim, neynədim ki, coşub özündən çıxırsan? Bir sözdü dedim, istəyirsən razı ol, istəmirsən olma... Bir də ki, Əlqəməni mənim yanımda çox şişirdib forslanma, kimdi ki, molla Əlqəmə? Mənim qardaşımın əlinin uşağıdı da... – Ayna lapdan ayağa qalxdı. – Buy, başıma xeyir, mən nədən oturmuşam, gedim, xörək tədarükü görüm...

Masa arxasında üçü qaldı; axund, Baş həkim və İbrahim...

Baş həkim qardaşından xəbər aldı:

– Sabah Aynagilə gedək?

– Gedirsən gedək... – axund etiraz eləmədi.

– Bazardan şey-şüy də alarıq...

– Heç nə almağa ehtiyac yoxdu. Aynaya pul verərik, istədiyini özü alar... – Axund bacısını səslədi. – Az, ordan İbrahimə də çay gətir...

Ayna, əlində armudu stəkan, deyinə-deyinə içəridən çıxıb:

– Ədə, sən evdə çay içməmişdin? –çımxırdı. – Bu gərək, yeyənlə yesin, içənlə içsin, gedənlə getsin, gələnlə gəlsin... Günümüz yoxdu ki, bunun əlinnən... – desə də, stəkanı uşağın qabağına qoydu, iri fincandan balaca nəlbəkiyə moruq mürəbbəsi tökdü, nəlbəkini ehmalca balacaya sarı sürüşdürdü. – İç, başına dönüm... – İbrahimin başını sığallayıb təzədən onun yanında oturmağa də ərinmədi. – Mürəbbə ilə iç... – üzünü Baş həkimə tutdu. – Sənin oğlun nə təhərdi?

– Yaxşıdı... – Baş həkim boğazını arıtladı. – Yaxşıdı oğlum...

– Gəlib - eləyir yanına?

– Gəlir... Gəlir hərdən...

– Gələndə gətir də onu bura, qoy uşaq bibisini görsün, əmisini görsün, qohum-əqrabasını, el-obasını görsün...

– Gətirərəm... Hökmən gətirərəm...

– Evlənib?..

– Hə, evlənib... – Baş həkim udqundu. – Evlənib...

– Heç olmasa toy şəkillərini gətir, burda göstərək, qoy qonum-qonşu paxıllıqdan çartlasın...

– Gətirərəm... Gətirərəm mütləq...

– Uşaqları var?

– Yox, yoxdu... – Baş həkim gözucu qardaşına nəzər saldı.

– Bura gəlsəydilər, pirə aparardım onları, pir sahibinin kəraməti ilə gəlinin cüt-cüt doğardı...

– Gətirərəm bura, darıxma, hökmən gətirərəm ikisini də... Qatarsan qabağına, apararsan ocağa, pirə... Qoy elə ər-arvad ikisi də birdən cüt-cüt balalasınlar... – deyəsən, Baş həkimin səbri çatmırdı sorğu-suala, sakit görünməyə çalışsa da, öz-özünə əsəbiləşirdi.

– Səkk eləmə, ay qardaş, bizim "Bala" pirinin həyətindəki gövdəsi haçalı ağacda böyük kəramət var... O qədimdən-qədim ağacın haçalarının arasından sürünə-sürünə keçə bilən sonsuz gəlinlərin hökmən oğlu olur...

– Keçə bilməyənlərin də kitabı bağlanır, hə? – Baş həkim istehza ilə acı-acı gülümsündü.

– Yox, nə danışırsan, keçə bilməyən, haçaların arasında ilişib qalan gəlinlərin də qızları olur. Pir sahibi ona pənah gətirənlərin heç birini naümid, əliboş qaytarmır... Gülmə, gülmə, sənə qurban olum, ağız-burnun əyilər, yox yerdən qada-bəlaya düşərsən...

– Kişilər də gedir ora? – bir anın içində Baş həkimin kefi termometrin civəsi kimi aşağıdan yuxarı sıçrayırdı.

– Ələ salma məni, kişilər nədən getsin? Kişilər də doğacaqlar?..

– Sən geri qalmısan, indiki kişilər arvadlardan çox doğur... – Baş həkim qabağındakı çaydan bir qurtum aldı.

– Buy, başıma xeyir, sən dədəmizin ruhu, kafir-kafir danışma, sənin yerinə mən qorxuram e... – Ayna sir-sifətini turşutdu.

– Elə mənim yekə burnum əyilsə yaxşıdı... – nədənsə, birdən-birə Baş həkimin şitliyi tutmuşdu. – İstəyirsən kişilərin doğmağından bir-iki məsəl çəkim sənə?..

Axund masabəyi kimi çay qaşığını stəkana vurub cingildədərək qardaşının sözünü kəsdi. Stəkanın cingiltisi ətrafa yayılanda Baş həkim diksinib: "mən nə danışıram, ilahi, başım xarab olub deyəsən", - fikirləşərək özünü yığışdırıb susdu və Mürsəl üzünü bacısına tutub aramla sözə başladı:

– Ay bacı, bilirsən rəhmətlik dədəm səni nədən şəhərə oxumağa göndərmədi?

Ayna tez dilləndi:

– Həlbət ki, bilirəm, kişi iki ayağını bir başmağa dirədi ki, bəs, qız uşağı oxumaz, qızın yeri ev-eşikdi, həyət-bacadı, biş-düşdü...

– Yox, onun paytaxtdakı məllimlərə yazığı gəldi, bildi ki, sən boş-boş sorğu-suallarınla o məllimləri çərlədib öldürəcəksən... Nə yapışmısan qardaşının yaxasınnan, nədən qoymursan rahat çayını içsin...

– Buy, qardaşımnan doyunca hal-əhval tutmaq qəbahətdi?.. Allah bilir, bir də sizi harda görəcəm... – burası Baş həkimə aid idi. – O ki qaldı mənə, mən orta məktəbdə yaxşı oxuyurdum, qiymətlərim dörd-beşdi, rəhmətlik anam da istəyirdi ki, mən oxuyum, ali təhsil alım, amma anamın sözünü saya salan kim idi? Rəhmətlik dədəmiz şofer olsa da, zabitəsi yerə-göyə sığmırdı, sanki həzrəti Yusifin bacısı oğluydu... Yəqin elə hikkəsindən Hitlerin bığı kimi bığ da saxlayırdı. Avariyaya düşüb öləndə də gözləri hikkə ilə bərələ qalıbmış,

deyirlər... Beləcə, mən oxuya bilməyib burda, bu xarabada bədbəxt oldum... – doluxsundu. – Oxusaydım mənim də əlim çörəyə çatardı, bir qarın çörəkdən ötrü heç kəsə möhtac olmazdım, belə naəlac, umudsuz ömür sürməzdim... Mən qarabaxt... – kövrəldiyindən sözünün ardını gətirə bilmədi.

– Əvvəla, rəhmətlik dədəmin həzrəti Yusifin bacısı oğlu olmaq məsələsi hardan ağlına gəldi? Yenə arvad mollası olmaq damarın tutub? Həzrəti Yusuf hara, Hitler hara? İkincisi, sən nədən bədbəxt olursan, adam naşükürlük eləməz, naşükürlük, umudsuzluq küfrdü, günahdı... – axund davam elədi. – Nolub sənə, maşalla, evin - eşiyin, balaların, nəvələrin... Hamısı da sapsağlam, sağ-salamat... Naşükürlük eləmə, Allaha acıq gedər...

Ayna xoflandı:

– Həlbət ki, qurban olum Allaha, buna da min şükür...

Baş həkim bacısının könlünü almaq istədi:

– Sənin uşaqların necədi?.. Qızlar, oğlan...

– Sənə duaçıdılar, ay qardaş, qızlar ev-eşik olub, oğlan da evlənib, toyuna da nəmər göndərmişdin, çox sağ ol... Mənim yanımdadı oğlum...

– İşi-gücü var? – Baş həkim canıyananlıqla xəbər aldı.

– Yox... Restoranda işləyirdi, yoluxucu xəstəlik yayılannan beş gün icazə verirlər işləməyə, beş ay qadağan eləyirlər... O yazıq da qalıb gic-gicələk... – elə bil Aynanın yadına qəfil nə isə düşdü. – Ay qardaş, bəlkə bizim oğlanı yanında bir işə-mişə götürəsən...

– Götürə bilmərəm...

– Nədən? – Ayna pərt olsa da geri durmadı. – Balaca bir iş... Soferdən-zaddan...

– Yanım yoxdu daha... Pensiyaya çıxmışam...

– Zarafat eləyirsən, sənin pensiya yaşına xeylaq qalıb axı...

– Ağır işdə işlədiyimizə görə bizləri tez çıxardırlar pensiyaya... – Baş həkim qaşqabağını sallayıb ciddi-ciddi dedi.

– Vay-vay, can ay qardaş, bəs, sən yazıq beş-üç manat pensiya ilə necə dolanacaqsan? Gəl qal bizdə, Allah verənnən ye, iç, gününü keçirt... Yerimiz gen-boldu, Allaha şükür... Valah, ürəynən deyirəm, pensiya çıxmısansa, day nə işin var o şəhər xarabada? Qayıt gəl... Gəl doyunca danışaq, söhbətləşək... Yaxın qohum da görüşməyə-görüşməyə yadlaşır, ay qardaş...

İbrahim lapdan dedi:

– Gəl qal də bizdə, doxtur baba, nolar...

– Adə, qırışmal, özün axund olmaq istəyirsən, fəqət heç məni evinizə çağırmırsan, bəs, indi doxtur baban birdən-birə nə şirin oldu, hə?.. – Mürsəl İbrahimə göz ağartdı gülə-gülə.

İbrahim sir-sifətini turşudub ağlamsındı:

– Doxtur baba yazıqdı axı...

Gülüşdülər, axund hiss elədi ki, qardaşının təbəssüm bürümüş çöhrəsindən öləzik, güclə sezilən bir kölgə keçdi.

– Buy, başıma xeyir, əcəb mən də sizinlə oturmuşam... – Ayna dik qalxdı. – Bəs, mənim işimi-gücümü kim görəcək? – deyib içəri cumdu.

– Get-get, söhbət quzunu qurda verər... – axund bacısının dalınca dedi.

İbrahim duranda Baş həkim:

– Sən hara gedirsən? – soruşdu.

– Həyətdə oynamağa...

– Onda, məni də gözlə...

– Mənnən oynayacaqsan? – uşaq təəccübqarışıq sevinclə soruşdu.

– Yox, sən özün oynayarsan, – Baş həkim dikəldi. – Mən həyətdə gəzişəcəm...

Beləcə, Ayna içəridə qalıb biş-düş tədarükü görürdü, axund artırmadakı məhəccərə dirsəklənib həyətə baxırdı, İbrahim həyətdə topunu diyirlədirdi, Baş həkimsə həyətin dal qapısından çıxıb ucsuz-bucaqsız qəbiristanlığı seyr eləyirdi. Üstünü sapsarı ot basmış qəbirlər sanki qəsdən görünmək istəmirdi, istəmirdi dirilərə görsənsin. Bəlkə buna görə Baş həkim ata-anasının, qohum-əqrabasının qəbrini ziyarət eləmək istəsə də, irəli yerimədi, elə evin kölgəsində çöməldi, həm də fikirləşdi ki, yəqin indi məzarlıq zəhərli ilanla doludu. Hər daşın altında, hər ot-ələfin, yulğunun arasında bir ilan yatır. Bu arada, yox yerdən özünə iş açmağın yeri deyildi. Hhəqiqətən ruh deyilən bir şey vardısa, qəbrinə baş çəkmək istədikləri onsuz da Baş həkimin gəlişindən xəbər tutmalıydı, daha məxsusi qəbir üstündə, başdaşının yanında dayanmağa ehtiyac yoxdu. “Əzizlərim, mən burdayam, siz orda, bəlkə də əksinədi, siz burdasız, mən orda...” – fikirləşdi Baş həkim, hənirti duyanda baxdı ki, İbrahim yanında durub, boyları da təxminən eynidi. Diqqətlə baxanda elə çöməldiyi yerdən də başdaşılardan “əzəmətli” olanları görmək mümkündü. Bəridəki qara qranitdən olan başdaşılar daha aydın sezilirdi. Bir də məzarlıqdakı ağaclar... Sarı otların arasında itib - batan balaca, bəzilərinin köhnəlikdən yazısı getmiş sarımtıl başdaşılar sanki öz rənglərinə həmahəng olan otların arasında gizlənib marığa yatmışdı. Lapdan Baş həkimin ağlına gəldi ki, ölüb eləsə, gərək onun üstünə ağır daş qoymasınlar. O ağırlıqda yükü əbədiyyən çəkməyə gücü çatmazdı. Heç balaca başdaşı da qoymasınlar. Şəkil, ad-filan da lazım deyil. Basdırsınlar, üstünə də güldən, koldan nə isə əksinlər, vəssalam... Daş olmaqdansa, gülə, kola, lap belə, ağaca çevrilmək yaxşıdı. Burası vardı ki, elə ağac özü də ağırdı. Lakin o baxır ölünün, ölənin, dünyadan köçənin “yük götürmə qabiliyyətinə”. Adamlar fərqli olduğu kimi, yəqin ölənlər də müxtəlifdi. Adam var ki, yük, basqı altında olmağı xoşlayır, elələrinin üstündə başdaşı əvəzi lap palıd ağacı da əkmək olar. Ümumiyyətlə, adamların xasiyyətinə, həyatına, ömrünə uyarlı, uyğun, münasib olmalıdı öləndə üstünə əkilən... Bəzilərinin qəbrinə həqiqətən daş qoymaq gərəkdi... Görəsən, bizimkilərin, anamın, atamın üstünə nə əkilməli idi? Ya onlara da elə daş qoyulmalıydı? Baş həkim ağlına gələn fikirlərdən duruxub gözlərini övuşdurdu.

– Baba, istəyirsən ora gedək? – uşaq qabağa düşüb irəliləmək istədi. – Biz tez-tez Mürsəl baba ilə orda gəzirik...

– Harda gəzirsiz?

– Məzarlıqda... – Ibrahim bir-iki addım qabağa getdi. – Gəlirsən? – geri çevrilib soruşdu.

– Yox... Elə burda dayanaq bir az... – Baş həkim dikəldi. – Ora istidi, gün başımışı deşər...

– Bəs, ölənlərin başını gün deşmir? – İbrahim maraqla xəbər aldı.

– Onlar öyrəşiblər... – uşağa cavab vermək üçün söz tapdığına sevindi.

...Ayna içəridən çıxıb əlindəki balaca cib dəsmalı ilə üzünün tərini silə-silə axunddan soruşdu:

– Bunlar hanı?

– Həyətə düşüblər... – məhəccərə söykənən Mürsəl geri qanrılmadan cavab verdi.

Ayna yaxına gəldi.

– Ay qardaş, çoxdandı sənə bir söz demək istəyirəm...

– De... – axund bacısına qıyğacı nəzər salıb diqqət kəsildi.

Ayna içində nəyisə götür qoy eləyib axır ki, qərara gəldi:

– Sən... sən bizim ata yurdunu nədən satdın? – çəkindiyindən səsi titrəsə də, könlündəkini dilinə gətirdi. – Rayon mərkəzində o cür evimizi qoydun, gəlib ucqarda, qəbiristanlığın yanında ev tikdirdin. Axı, maşallah, imkanın var idi o evi də saxlamağa... – səsini qaldırmasa da, qızışıb təkrarladı. – De görüm, nədən satdın evimizi, ay qardaş?.. Hərdən elə bilirəm o ev satıldığı üçün Allahın bizə qəzəbi tutdu, hamımız tar-mar olduq... – doluxsundu. – İnanırsan, evimiz indiyəcən yuxuma girir mənim, evimizi, həyətimizi indi səni gördüyüm kimi görürəm yuxuda...

Axund boğazını arıtlayıb bacısına elə matdım-matdım baxdı ki, elə bil dağınıq ağ saçlı, hündür, toppuş, alnı qırışmış, gözlərinin rəngi qarışmış qadını ilk dəfəydi görürdi və Mürsəl ömründə birinci kərə hiss elədi ki, Ayna get-gedə tamamən anasına bənzəyir, bəlkə də Ayna anasına lap cavanlıqdan oxşayırdı, intəhası, yaşı artdıqca yaddaşı "cavanlaşırdı" axundun. Hərdənbir saatlarla albomdakı köhnə şəkillərə baxmağı xoşlayırdı axund, bəzən hansısa şəklə baxa-baxa uzun-uzadı xəyala dalıb olmuşları gözünün qabağına gətirirdi, o xəyallarda şəkildəkilər canlanırdılar, dirilirdilər, gəzirdilər, ağlayırdılar, danışıb gülürdülər, şəkildən çıxıb günlərini keçirirdilər, cavanlaşırdılar, qocalırdılar, ölürdülər, axundun gözünün qabağındaca ömürlərinin ayrı-ayrı fraqmentlərini, hissələrini təkrarən yaşayırdılar, – o albomda təkcə Mürsəlin oğlunun şəkli yox idi, uşaq doğulandan öz canı ilə əlləşdiyi üçün ağıllarına gəlməmişdi onun şəklini çəkdirib yadigar saxlasınlar, – sonralar ev satılanda və evdən-evə köçəndə, iri şəkil albomu it-bata düşmüşdü və albomun itməsi ilə "şəkil yaddaşı" da kütləşmişdi axundun, çünki kütləşəni təzələmək imkanı, itiləmək "daşı" itmişdi.

– Sənə dedim axı, naşükürlük günahdı, biz tarmar nədən oluruq, beş kişidən biriyik... – Mürsəl yüngülcə sinəsinə vurdu, sanki bacısını dediklərinə tamam-kamal inandırmaq istəyirdi. – Qanırsanmı, burda ev tikdim ki, dədəmizə, anamıza, dünyasını dəyişən qohum-əqrabamıza yaxın olum... – təhər-tövrünü pozmadan yavaşca dedi. – Bir də ki, sən yuxuya-röyaya çox bənd olma, get işini gör... Aşı yandırarsan, ildə-əyyamda bir kərə şəhərdən gələn qardaşının yanında xəcil olarıq, yaxşı deyil...

Ayna ürəklənib əl çəkmədi:

– Mən demirəm ki, nə səbəbə burda ev tikmisən, dediyim odu ki, ata evimizi nədən ötrü satdın?

Axundun hövsələsi daraldı:

– Az, gir içəri, işini gör, aşı yandırarsan... Fatihə verə bilmirsiz, fəqət hamınız molla olmusuz... Hərəniz bir moizə oxuyursuz mənə, ağsaqqal vaxtımda hərəniz bir yol göstərirsiz... Mənsə yaxşı bilirəm, day yol yoxdu... Lənət sənə, kor şeytan... – dedi və bunu deyən dəm ağlına gəldi ki, şeytan kor olsaydı, əstəğfürulah, Allahla qoz-qoz oynayıb min bir həngamə qopara bilməzdi, dünyanı baş-ayaq çevirməyə gücü çatmazdı. – Hər şey dərindədi, göründüyündən qat-qat qəlizdi... – elə bil qəfil ağlına gələnlərdən xoflandı və yan-yörəsinə boylanıb təkrarladı. – Lənət şeytana...

Axund şeytanı ikinci kərə lənətləməmişdən tez-tələsik içəri girən Ayna dilxor oldu. "Buy, başıma xeyir, yaman "yol-yol" deyir Mürsəl, deyəsən, bu da köçüb getmək istəyir. Uzağa getmə, ay qardaş, sənsiz biz neyləyəcəyik, bəs, bizim əlimizdən kim tutacaq, kim bizə həyan olacaq dar ayaqda? – özünü qınadı. – Mən də ki, yekə arvadam, hələ də ağzımın danışığını bilmirəm, dilimi qarnıma qoyaydım gərək..."

* * *

Ertəsi Baş həkim yuxudan oyanıb əl-üzünü yuyandan sonra – hələ üzünü də tərtəmiz təraş eləmişdi – artırmaya çıxaraq həyətə böylənanda gördü ki, qardaşı küknarın altında dayanıb ağacın gövdəsini sığallayır. Əlbəttə, küknarın gövdəsi hamar olmadığından onu sığallamaq da mümkün deyildi, yəqin görüntü Baş həkimi aldatmışdı, lakin axundun sol əlini ağacın gövdəsinə qoymağı şəksizdi. Deyəsən, fikrə getdiyindən əvvəlcə tərpənib - eləmirdi. Nəhayət, əyilib ağacın altındakı "meyvələrdən", qozalardan götürüb irəli, həyətin ot basmış, göy-göyərti əkilmiş yerinə tulladı, elə bil hirslənmişdi, əsəbiləşmişdi, səhər-səhər kimsə kefinə soğan doğramışdı, çünki qozaları qolu gəldikcə sağa-sola, irəli tullayan – atdıqlarından biri bayıra, küçəyə düşəndə Baş həkim sevindi ki, şükür, qardaşı arxaya heç nə atmır, yoxsa, təsadüfən artırmada dayanıb məhəccərə söykənənin kəlləsinə tuşlaya bilərdi atdığını, xırdasümük də olsa, qoldan qüvvətli imiş, atılanlar uzağa düşürdü, bəlkə də Baş həkim özü küknarın altındakı qozaları qardaşı kimi hara gəldi vızıldada bilməzdi, həm də küknarın qozası qəmbərdən, daşdan qat-qat yüngüldü, yüngülü də uzağa tullamaq müşküldü – öz-özünə dodaqaltı deyinirdi. "Ay çər dəysin sizə, necə ki, mən yanıram, görüm siz də yanıb kül olasız..." Bu, adi deyinmək yox, əməlli-başlı qarğış idi. Baş həkim heyrətləndi, çünki ətrafda canlı adına çər dəyiləsi, at-eşşək, qoyun-quzu, mal-heyvan bir yana, heç toyuq-cücə də yox idi, deyəsən, gün işığında axundun gözünə cin-şeytan görsənmişdi; dodağının altında nəsə pıçıldayıb qarğış eləməyində idi, ya öz-özünə deyinib tamam başqa mətləbləri yadına salırdı?! Məlum deyildi, çünki Baş həkim bu dəfə nəinki qardaşının sözlərini ayird eləyə bilmirdi, hətta qəfil üzünü artırmaya çevirənin səsini də eşitmirdi. Təkcə dodaqları tərpənirdi qardaşının, vəssalam. Əsəbi-əsəbi öz-özü ilə danışırdı axund, yuxarıdan, artırmadan Baş həkimin ona baxdığından xəbərsizdi. Nəhayət, elə bil bir balaca toxtadı, yenə əlini ağacın gövdəsinə qoyub yerə baxa-baxa fikrə getdi. Bu dəfə üzü artırmaya... Yerdəki məchul nöqtədə nə görmüşdü, nəyə diqqətlə tamaşa eləyirdi? Ayağının altındakı qozaları nəyə görə seçib - seçmələyirdi, nə vardı küknarın yerə düşən "barında, meyvəsində?" Dünyanın, hər halda, bəridəki dünyanın gərdişindən az-çox xəbərdar olan balaca kişini (Baş həkim özlüyündə qardaşına belə deyərdi hərdənbir) hövsələdən çıxardıb qıcıqlandıran adi məsələ olmamalıydı. "Yazıq qardaşım, illər bizdə ağıl-kamal da qoymadı, – düşündü Baş həkim və birdən-birə başa düşdü ki, təkçə bacısı qocalmayıb, elə qardaşının da ağacı əlindən düşür. – Yəqin elə mən özüm də yaşlanmışam, burası var ki, adam özünü görə bilmir, nədənsə, bizə elə gəlir ki, qocalan, ölən həmişə başqası olacaq".

– Durmusan?.. – nəhayət, axund başını yuxarı qaldırıb Baş həkimi gördü. Həlim-həlim dedi, səsində hirsdən-əsəbilikdən əsər-əlamət yox idi, sanki gördüyünə inanmırdı, qardaşının səsini də eşitmək istəyirdi ki, onun oyanmağına, məhəccərə söykənənin həqiqətən qardaşı olduğuna tamam-kamal inansın. Xırda addımlarla irəli gəlib aşağıdan yuxarı xəbər aldı. – Çoxdan durmusan?

Yuxarıdakı gülümsündü:

– Sən qozaları sağa-sola tullayannan... – əli ilə də qardaşını çağırdı. – Bəri gəl, bir çay içək, sonra da yavaş-yavaş gedək Aynagilə... Tez gedib, tez gəlsək yaxşıdı. Gecəyə düşməyək...

Mürsəl pillələri bir-bir ehmalca qalxıb artırmaya çıxdı.

– İbrahimnən xəbər göndərdim, Ayna özü bura gələcək... – keçib masa arxasında oturdu. – Bizə qulluq eləməyə... – əslində, "sənə" deməli idi, çünki axund özü-özünə qulluq eləməyə öyrəşmişdi, məxsusi qulluğa-filana ehtiyacı yoxdu.

– Niyə? – Baş həkim qardaşı ilə üzbəsurət əyləşib təəccüblə soruşdu. – Axı dünən vədələşmişdik...

– Aynagilə sabah gedərik... – axund üzünü qaşıdı. – Axır vaxtlar hirslənəndə sir-sifətim qaşınır, nədəndi görəsən?

Baş həkim axundun sualına cavab verməyib diqqətlə onu süzdü, önündəki həqiqətən özündə deyildi, qıpqırmızı qızarmışdı.

– Nolub e, sənə?

– Heç... – axund baxışlarını yayındırıb mızıldandı.

– Nə heç, heçə oxşamır... Görürəm axı... – Baş həkim əl çəkmədi. – Təzyiqin-zadın var?

– Yox, nə təzyiq... – axund bikef-bikef mızıldadı dodaqaltı. – Təzyiq xırda şeydi... – qısaca ara verib lapdan dedi. – Ələkbərzadə ölüb... – damağında qəribə bir dad-tam duyurmuş kimi ağzını marçıldatdı.

– Aaa!.. – Baş həkim qardaşının dilxor olduğunu görüb bir az da üstünə qoydu, dozanı artıq eləməyə çalışdı, ancaq nə illah elədisə, adını, lap dəqiqi, soyadını qardaşından tez-tez eşitdiyi – şübhəsiz, haçansa gördüyü, görüşdüyü – Ələkbərzadənin çöhrəsini xatırlaya, gözünün qabağına gətirə bilmədi. – Hayıf... Niyə? – özünə, üzünə qayğılı, hüznlü görkəm vermək istədi.

– Nə niyə? – axund anlamadı.

– Deyirəm, nədən ölüb?

– Hə... Zəhrimar virusdan... Həkim idi də... Viriusa tutulanlara baxırdı, özü də xəstəliyə yoluxdu. Neçə gündü canıyla əlləşirmiş... – axund dərindən köksünü ötürdü. – Yanına da heç kəsi buraxmırdılar... Mən dünyasında inanmazdım onun ölümünə. Virusa tutulduğunu eşitsəm də, arxayın idim ondan, deyirdim Ələkbərzadə uzun yaşayacaq... Camaata şəfa verən özü belə tez gedə bilməzdi ki... Loğman kimi ən azı yüzü qatlamalıydı o. Heyf... Bu da faciəli sonluq... – axund yenə qızarmış sifətini qaşıdı. – Dünən axşam basdırıblar yazığı... Heç mənim də xəbərim olmayıb... – səsindəki təəssüfə, kədərə bir az da biganəlik, laqeydlik qarışmışdı. – Urvatsız dəfn olundu biçarə Ələkbərzadə... Son borcumuzu verə bilmədik ona... Qismət... – bikef-bikef ah çəkdi. – Eh... Kim bilir ki, axırı, aqibəti necə olacaq? Ruhun bədəndən çıxdısa, vəssalam... Qurtardı... Məsələ bitdi...

– Qulağımızın dibində necə aparıb basdırıblar ki, xəbərimiz olmayıb?

– Doğrusu, mən də mat-məəttəl qalmışam... Yəqin tez-tələsik başdan eləyiblər ki, adam çox yığışmasın... Bu, sən fikirləşdiyin dəbdəbəli dəfn mərasimi-zad deyil ki... Mollasız-kəfənsiz quyulamaqdı ölünü...

– Mollasız-kəfənsiz niyə? – Baş həkim ya nəzakət xatirinə, ya da qardaşının başını qatmaq üçün gözlərini döyüb bildiyini xəbər aldı.

– Onu sən mənnən yaxşı bilərsən... – axund şübhəli-şübhəli önündəkinə nəzər salsa da, davam elədi. – Deyirlər, guya, virusdan ölənlərin ölüsündən də yoluxmaq olar... Ona görə virusa yoluxub rəhmətə gedənləri tez-tələsik qəbiristanlıqda quyulayıb gedirlər... Kimdi canından bezib hökumətlə, Əzrayılla çiling-ağac oynayan?

– Buralarda da elədi? – Baş həkim qardaşını inandırmaq üçün geri çəkildi.

– Həlbət ki... – axund başını tərpətdi. – Bura ayrı ölkə-zaddı?.. Fəqət, eşitmişəm ki, bəzi yerlərdə gecə gizlincə məscidi açıb, mürdəşirə də virusda

işləyən həkimlərin geyindiyi kambinzona oxşayan paltardan geyindirib, ölünü yudurdub kəfənləyirlər, sonra da aparıb basdırırlar... Düzdü, yəqin ki, o cür yuyulub kəfənlənməyin xərci ağırdı, fəqət, ölü yiyəsi neyləsin? Çarəsi yoxdu, ölüsünə son borcunu verib təsəlli tapır...

– Siz də elə eləyirsiz? – Baş həkim pıçıltıya keçdi.

– Əşi, yox... – axund duruxdu. – Mən elə şey eləyərəm? Qadağa qüvvəyə minənnən nəinki məscidin özünün, həyətinin də qapısını qıfıllayıb açarı qoymuşam evə... “Olmaz”, - deyirlər, deməli, olmaz də... Qanırsanmı, bilmirəm, nə fırıldağı vardı, o dəfə Əlqəmə gəlib mənə dedi ki, axund ağa, məscidin açarını ver, qoy heç olmasa, azan verilsin orda, namaz qılanlar vaxtı-vədəni ötürməsinlər. Dedim, Əlqəmə, başına at təpib? Mən hökumətdən ağıllıyam? Sən namaz qılanların dərdini çəkmə, namaz əhli ibadətinin vaxtını-vədəsini səndən-məndən yaxşı bilir, get işinin dalınca... Sən Əlqəmənin quyruğu qapının arasında qalanda quzuya dönməyinə baxma, o qutab mollası yaman bic gədədi, barmağını uzatsan, qolunu qopardar...

– Hə? – Baş həkim gülümsündü.

– Həlbət ki... Sən buları yaxşı tanımırsan... – bir anlığa axundun qırışığı açılsa da, yenə sifəti kölgələndi, seyrək, ağ qaşları çatıldı. – Belə... Səhər bu bəd xəbəri eşidib çox pərişan oldum. Yəqin İbrahim də halımın dəyişməyini, özümdə-sözümdə olmdığımı hiss elədi, yazıq uşaq qorxa-qorxa mənə sığınıb neçə kərə: “ölmə, baba, sən ölsən mollalığı mənə kim öyrədəcək?” – dedi. Birtəhər özümə gəlib uşağı da yanıma aldım, getdik qəbiristanlığa... Bir xeyli gəzdik orda... İçi rəhmətlik Ələkbərzadə qarışıq, yeri behişt olsun, yara təzə olduğundan adamın “rəhmətlik” də deməyə dili gəlmir, bütün qohum əqrəbalarımızın məzarına baş çəkdim, torpağı soyumamış, başdaşı əvəzinə hələlik üstünə taxta basdırılan, hələ ki, qəbr evinə öyrəşməyən qardaşımı tapşırdım dünyadan köçən qohum əqrəbalarımıza. Qanırsanmı, nədən ki, Ələkbərzdə həmişə mənə qardaşlıq eləyib, sən uzaqda olmusan, sənin yerini tutub mənim üçün o...

Axund belə deyəndə Baş həkim utandı və o utancaqlığın içindən sevincəbənzər bir hiss də keçdi ki, neçə ildi xəbərsiz-ətərsiz onu əvəz eləyən adam, nəhayət ki, yerini boşaldıb, Baş həkimə elə gəldi ki, qəfil qəlbinə dolan şeytani fikirləri qardaşı onun gözlərindən oxuya bilər, ona görə baxışlarını yayındırıb gözlərini ağappaq süfrə çəkilmiş bomboş masaya dikdi.

– Sevinirəm ki, burda məni əvəz eləyən bir adam olub... – qəfildən, bəlkə özü də gözləmədən yavaşca və günahkarcasına dedi. – Ancaq şəhərdə mənim elə bir yaxınım, dost-tanışım yox idi ki, səni əvəz eləsin...

Axund mehriban-mehriban qardaşına baxdı:

– Mən onu sözgəlişi dedim... – müsahibinin könlünü almaq istədi. – Heç kəs heç kəsi əvəz eləmir, hərənin öz yeri var...

Baş həkim dərinə getmədi:

– Bəs, Ələkbərzadənin qohum əqrabası, oğul-uşağı yoxdu?

– Var, qohum - qardaşı çoxdu, övladı yoxdu... – başını buladı axund.

– Niyə?

– Evlənmədi ki Ələkbərzadə...

– Niyə? – Baş həkim əl çəkməyib təkrarladı.

– Tələbə vaxtı bir qıza könül vermişdi. İstəyirdilər bir-birlərini. Qız da çox tanınmış, adlı-sanlı şairin qızıydı ki, o şair indi rəhmətə gedib... Bilmirəm, sənin yadına gələr-gəlməz, o vaxtlar həmin şair tez-tez televizora çıxıb millətə nəsihətlər verərdi. Doluxsunardı, ağlayardı ekranda...

– Sonra nə oldu e? – Baş həkimin səbri çatmadı.

– Nolacaq, həlbət ki, şair qızını Ələkbərzadəyə vermədi, deyirlər, hansısa prokurorun oğluna verdi qızını zorla... – axund ağır iş görübmüş kimi susub nəfəsini dərdi.

– Sonra?

– Nə sonra, Ələkbərzadə də dünyadan küsüb guşənişin oldu, ürəyinə saldı bu zərbəni, axıracan özünə gələ bilmədi, cavan vaxtından saçları qəfil ağarıb oldu qar kimi ağappaq... O cür ağılla, o cür kəllə ilə gəlib rayonumuzda adi həkim işlədi. Şişirtmirəm ha, vallah, mən yer üzündə Ələkbərzadədən kamil adam tanımıram. Biliyi, zəkası, zövqü, davranışı, əlqərəz, hər şeyi kamil idi Ələkbərzadənin... Bizdə sən onu görmüsən yəqin, ağsaç, ucaboy...

– Görsəm də indi xatırlaya bilmirəm... – Baş həkim utana-utana həqiqəti dedi. – Elə bil burdakı yaddaşım itib, salxım söyüddən, bir də sənin həyətindəki küknardan savayı, heç kimi, heç nəyi xatırlamıram. Dünən evin dalında bir kişi yaxınlaşıb hal-əhval tutdu, danışığından belə anladım ki, mənim uşaqlıq dostum olub, birtəhər vəziyyətdən çıxsam da, kim olduğunu xatırlaya bilmədim, uşaqlıq dostum xudafizləşib gedəndən sonra İbrahimdən soruşdum ki, bu kişinin adı nədi? İbrahim kişinin adını da dedi, amma uşağın dediyi ad da yaddaşımı təzələyib mənə yeni heç nə söyləmədi... – Ələkbərzadəni xatırlaya bilmədiyinə haqq qazandırdı. – Mən də həkiməm, anlayıram ki, yaddaşını itirmək deyil bu, qohum-qardaş xatirimdədi, hər nədisə, bu, çoxdandı görmədiyim adamlarla əlaqəlidi... Yəni, belə deyək, uzaqmənzilli görüntü yaddaşım beynimin dərinliklərə gedib...

– Olur elə şeylər... – axund əlini qardaşının əlinin üstünə qoydu. – Fikir eləmə, elə məndə də o cürdü... İntəhası, mən burdakıları hər gün gördüyümdən yaddaşım daima təzələnir. Keçmişi xatırlamaqsa, qocalıq əlamətidi, qocalırıq yəqin... Səni bilmirəm, mənim üçün xatırlanası, yada salınası işıqlı bir şey də yoxdu, keçmiş zülmət içindədi...

– Hə, qocalırıq... – qardaşı axundun axırıncı kəlmələrini qəsdən qulaqardına vurub razılaşdı. – İlləri yola saldıqca həmişə belə olur, zaman ötür, istədin - istəmədin, qocalırsan...

– Yox, nə qocalıq... – axund əlini Baş həkimin əlinin üstündən çəkdi. – Mən öz payıma deyirəm, sənin yaşlanmağına hələ çox qalıb, sən dünənki uşaqsan... – zarafata saldı. – Sənin gələcəyin qabaqdadı...

– Gələcək?

– Hə... – axund başını tərpədib təsdiqlədi. – Həyat davam eləyir...

– Həyat davam eləmir, bitir... – kədərlə dedi Baş həkim. – Mənasız, boş bir ömür, sonra da qorxulu ölüm... Üç nöqtə... Əbədiyyət... Bir də qeyri-müəyyən sonsuzluq...

– Bədbin olma, bu həyatı ki biz yaşayırıq, ölüm zərrəcə qorxulu deyil...

Bir də baxdılar ki, Ayna kəsdirib başlarının üstünü, yanında da İbrahim:

– Buy... Kül mənim başıma, iki qardaş çaysız-çörəksiz necə də sakit oturub bir-birlərinə baxırlar... – əl-ayağa düşdü. – Səbr eləyin, bu dəqiqə, bu süfrəni naz-nemətlə dolduracam... – doluxsundu gözlənilmədən. – Mənim sizdən başqa kimim var axı... Bacınız ölsün...

* * *

Maşına əyləşib Aynagildən təzəcə aralanmışdılar ki – lap dəqiqi, salxım söyüdə çatanda – Baş həkim qəfil sürücüyə dedi:

– Saxla!..

Sürücü çaşqın-çaşqın əyləci basıb yanında əyləşən Mürsəldən xəbər aldı:
– Nolub, axund ağa?
– Bilmirəm... – axund çiyinlərini çəkib geri qanrıldı. – Nəsə yadından çıxıb orda?..
– Yox... Burdan evəcən piyada getsək yaxşıdı... – Baş həkim yerində qurcalanıb maşından düşməyə hazırlaşdı.
– Hava qaralıb axı... – axund etiraz eləmək istədi.
– Noolsun?.. – Baş həkim dediyindən dönmədi. – Yaxşı yeyib - içmişik, bir az da piyada gəzək... – söylədikləri həqiqət olsa da, yarımçıq idi; axund içməmişdi.
– Yaxşı, – axund əlacsız-əlacsız razılaşıb üzünü sürücüyə tutaraq əlini cibinə atdı. – Sənə borcumuz nə qədərdi, a bala?
– Ayıbdı, axund ağa, nə yol gəldiz ki... Minməyinizlə düşməyiniz bir oldu. Heç nə qədər... – sürücü mehribanlıqla dedi. – Sizə yaxşı yol...
Axund borclu qalmadı:
– Onda molla Əlqəməyə tapşıraram, cümə axşamı sənin dədən üçün bir “Yasin” oxuyar...
– Axund ağa, mənim dədəm sağdı axı... – sürücünün gözləri kəlləsinə çıxdı. – Tanımadın məni, qəssab İsfəndiyarın oğluyam da... O qədər səni bu maşınla məscidə aparıb - gətirmişəm ki...
Axund:
– Hə... Maskanı da vurmusan, qaranlıqda gözüm yaxşı seçmir, məndə günah yoxdu, indi adamları tanımaq olmur, hamı maskalıdı... – desə də, kürəyini yerə vermədi. – Nolar bala, Allah dədənə cansağlığı versin, qanırsanmı, “Yasin”in ziyanı yoxdu, bəri başdan da oxumaq olar ki, o tərəfdə kişinin “zapas”ı olsun...
Sürücü dil-ağız elədi:
– Çox sağ ol, axund ağa, Allah səni bizə çox görməsin...
– Sən də sağ ol, bala, sənə də yaxşı yol, Allah səni xata-bəladan hifz eləsin...
Maşından düşdülər, düşən kimi də bir-birləri ilə sözləşiblərmiş kimi, maskalarını çıxardıb tulladılar yerə.
Baş həkim gülə-gülə dedi:
– Zapas nə məsələydi dedin şoferə?
– Əmimiz Abduləhəd yadındadı də... Həm əmimiz idi, həm də mənim qaynatam, – axund qımışıb qardaşından cavab gözləmədən davam elədi. – Hə, yeri cənnətlik olsun, əmimiz Abduləhəd də çox bilikli, savadlı, dərrakəli din adamı idi axı... Elə mənim dinə marağım da o kişinin axıtdığı bulaqdan su içməyimlə başladı. Nə isə, bir də görürdün kimsə gəlirdi, əli əsə-əsə pul verirdi kişiyə ki, bəs, molla əmi, dədəmə, anama, ya bir yaxınıma “Yasin” oxuyarsan... O rəhmətlik də pulu alıb ciddi-ciddi qaşlarını catırdı ki, Allah ölənlərinə rəhmət eləsin, arxayın get, bu dəqiqə oxuyaram...
– Oxumurdu? – Baş həkim qəhqəhə çəkdi, kefi yuxarı idi.
– Yox, oxuyub - eləmirdi, hərdənbir mən dilimi dinc qoymayıb bic-bic xəbər alırdım ki, ay əmi, yadından çıxdı deyəsən, filankəsdən pulu aldın, heç ölüsünə “Yasin” oxumadın. Rəhmətlik kişi də, indi istəməsin, mənim xətrimi çox istəyirdi, qayıdırdı ki, zapasım var idi, bağladım həmin adamın ölüsünün adına... Bir dəfə də dərinə gedib xəbər aldım ki, ay əmi, sən bilən, oxunan “Yasin” gedib ölüyə çatır, ölünün xəbəri olur bundan? Kişi etinasızlıqla qayıtdı ki, hardan, öldün, qurtardı getdi, ölünün nə vecinədi bəri tərəfdə kim boğazını

yırtıb nə oxuyur... Aləm idi rəhmətlik Abduləhəd əmimiz... Bizi gətirən sofer dədəsinin sağ olduğunu deyəndə qəflətən Abduləhəd əmini xatırladım. Rahat yat, ay əmi, nəsil cırlaşır, cılızlaşır, sizin kimi kişilər bir də gəlməyəcək, – axund heyfsləndi. – Bilsəydim belə tez düşəcəksən, heç maşına minməzdim, elə Aynagildən pay-piyada gələrdik... – dəqiq bilinmədi niyə təəssüflənir, qaynatasının ölümünə, yoxsa maşından düşüb piyada getməklərinə...

Baş həkim qardaşının sözlərini ağlına gələn kimi yozdu:

– Qorxursan ki, şofer mənim içkili olduğumu hiss eləyib orda-burda sənin haqqında ağzına gələni danışar ki, bəs, axund ağa filan vaxtı sərxoş bir kişiylə mənim maşınıma oturmuşdu? – hələ də gülməyini saxlaya bilmirdi.

Axund laqeydliklə əlini yellədi:

– O südəmər nəkarədi ki, mənim haqqımda hərzə-mərzə danışmağa cəsarət eləsin?.. – gülümsündü. – O getsin gecə-gündüz dua eləsin ki, axund ağa haçansa onun maşınına əyləşib... Bəlkə elə buna görə o dünyada cənnətin qapısından içəri boylanmağa macal tapdı.

İki qardaş yanaşı addımlayırdılar, yol hamar olsa da, qaranlıq idi, yan-yörədəki evlərin, həyətlərin işığından yola pay düşmürdü. Cırcıramalar aramsız "nəğmələrinə" başlamışdı.

– Deyirsən, cənnət-cəhənnəm əfsanədi, boş şeydi? – nəhayət, gülməyini kəsərək qardaşının qoluna girdi, qardaşı balacaboy olduğundan Baş həkim qəddini azca əyməli oldu.

– Əstəğfürüllah, mən elə deyə bilmərəm... Bəndənin hökm veməyə nə haqqı var? Qeyb aləmini, digər aləmləri, cəmi kainatı başa düşmək insan ağlına sığışmır, ona görə dini kitablardakı cənnət, cəhənnəm elə yer üzündəki olaylara bənzəyir ki, bəşər nəsə qana bilsin. Aləmlərin sirrini məntiqlə yox, insan ağlına gəlməyən məntiqsizliklə anlamaq olar ki, bu da bizlər üçün əlçatmazdı... Umudumuz da o dünyayadı... O da ki, yarıbayarı, əllinin əlliyə, bəlkə də var, bəlkə də yox...

– Oho! – Baş həkim axundun qolunu sıxdı. – Qardaşım lap filosofdu... Axund olsa da, ateist kimi danışır...

– Nə ateist, nə filosof, düzdü, mən də azdan-çoxdan oxumuşam, nələrdənsə ağaham, fəqət indi sənin üçün rəhmətlik Ələkbərzadənin dediklərini xırdalayırdım...

– Hə... – Baş həkim ağızucu mızıldandı.

– O ki qaldı insan məntiqinə sığışan cənnət-cəhənnəm məsələsinə, o vaxt mən sizə gələndə yaman darıxırdım, qanırsanmı, ona görə axır günləri gəlib sənin iş yerində qaldım. Nə isə, bir gün orda darıxmaqdan bağrım çatlayan məqamda bayıra çıxıb sənin evinin yanındakı bağa gəldim ki, bir az gəzişib başımı qatım. Bağda sarışın, səliqəli, fəqət, üst-başı nimdaş bir qadına rast gəldim. Hiss olunurdu ki, qadın, yumşaq desəm, yoxsuldu, kasıbdı. Oturmuşdu kənardakı bir skamyada, pişiklər də yığışmışdı başına, qadın pişiklərə yemək verə-verə onları sığallayırdı. Mən ayaq saxlayıb qadına rus dilində dedim: "Çox sağ olun ki, yiyəsiz pişiklərə kömək eləyirsiniz". Qadın mənə baxıb əlini yuxarı qaldırdı: "Ona sağ ol deyin ki, heyvanlara kömək eləmək üçün bizə imkan verir". Bax, mənim zənnimcə, adi məntiqlə, qeyb aləmindəki ən yüksək məqamda o qadın olmalıdı, fəqət şübhəsiz ki, bizim mizan-tərəzimizlə götürüləndə... Bəşərin tərəzisilə ha ölçünü düz saxlamağa çalış, axırı gedib dalana dirənəcəksən. Deməli, bizim ölçülər ordakılarla düz gəlmir də yox e, uzlaşmır, tamam fərqlidi. Üzü bəridə nə eləyiriksə, elə özünə təsəllidi, çünki evdə də sənə dedim: əsl həqiqəti, aləmlərin sirrini heç kəs bilmir...

– Elə bil, mən də o qadını görmüşəm axı... – Baş həkim anicə fikrə getdi. – Həmişə küçədəki it-pişikləri yedizdirən qadın... Amma, deyəsən, onun başı xarabdı axı?.. – burasını çəkinə-çəkinə dedi. – Yanında da əlil arabası, arabada da cavan bir oğlan oturardı həmişə... – haçansa gördüyünü yadına salmağa çalışdı. – Oğlan aparıqdı, iflicdi, güclə oturardu arabada, başı çiyninə düşürdü, dili da ağzından bir qarış bayıra çıxırdı, yarıyuxulu, ölgün baxışlarla daima irəli baxırdı iflic oğlan, ancaq bilmək olmurdu ki, bir şey görür, ya yox... Mən o qadını bağda tez-tez görürdüm. Əlil arabasını sürəndə, kücə it-pişikləri də yan-yörəsində... Axır zamanlar rastlaşmıram. Bəlkə də evimə az-az getdiyimdən görə bilmirəm o qadını...

O qadının yanındakı əlil arabasında oturan yaxasıaçıq oğlanı Mürsəl də görmüşdü, qardaşı yada saldıqca dediklərindən də çox şey görmüşdü axund qadınla rastlaşdığı beşcə dəqiqənin içində. Axund o dəm gördüklərini, duyduqlarını xatırlayıb qardaşına xırdalasaydı, səhər açılardı. Orda, o iflic oğlanı görəndə bir anlığa Mürsələ elə gəlmişdi ki, oğlu ölüb - eləməyib, əlil arabasında əyləşən elə öz oğludu. Düzdü, oğlu sarışın deyildi, di gəl, nə bilmək olar, körpə böyüdükcə yeddi arxa dönənlərdən kimlərə çəkəcək? Elə axundun böyük qızı da sarı-surudu, Allah bilir kimə çəkmişdi, hansı bulaqdan su içmişdi... Əgər böyük qız sarışındısa, qardaşı nədən böyüdükçə bacısına oxşamasın, hə? Axund orda qəflətən ağlına gələnlərə elə inanmışdı ki, qəhər gəlib hülqumunda dayanmışdı, gözləri dolmuşdu, əlləri titrəyə-titrəyə sığal da çəkmişdi xəstənin sarımtıl saçlarına, intəhası, qadın bunun fərqinə varmamışdı. Yalvar-yaxar pul da vermişdi iflici əlil arabasında gəzdirən – burası dəqiq deyildi, hələ ki, araba dayanmışdı skamyanın yanında, iki balaca pişik balası da arabada, daha doğrusu, qolları yanına sallanan xəstənin qucağında özünə yer eləyib mürgüləyirdi – qadına. Qadın da əlacsız-əlacsız, bir az da sevincək, pulu alanda soruşmuşdu ki, siz bunu mənə niyə verirsiz? Axund dili-dodağı əsə-əsə qayıtmışdı ki, elə bil verdiyimi sənə O, göndərib... Başını yuxarı qaldırmışdı. O dəm apaydın səmaya baxanda sanki bir anlığa asiman yuxarıdan enib düz axundun başının üstündə dayanmışdı, göydə balaca bir kölgə, qaramtıl bir ləkə yellənirdi, yellənmirdi, yox, elə bil yuxarıdan axunda əl eləyirdi və axunda elə gəlirdi ki, o qara kölgə axundun indicə saçlarını sığalladığı iflic sarışına bənzəyir, əlini uzatsa, göydəkinin də saçlarını sığallaya bilər. Birdən yadına düşdü ki, nahaq yerə çox uzağa gedib hər şey göz qabağındadı; elə öz arvadı da sarışındı... Və bu yadına düşəndə daha it-pişik "sevdalısı"nın, sarışın qadının yanında dayana bilməmişdi. Xırda, ehmal, ürkək addımlarla sərxoş kimiləngər vura-vura birtəhər bağın o biri tərəfinə keçsə də, ayaqları ona vəfasızlıq eləmişdi və dayanıb bir xeyli bağdakı iri küknara söykənərək yerindəcə mıxlanıb qalmışdı. Hətta ucaboy, cavan bir oğlan da yaxınlaşmışdı ona: "Dayday, kömək lazımdı?" "Yox, bala, sağ ol..." – dili dolaşa-dolaşa cavab vermişdi axund və keçib söykəndiyi küknarın altındakı boş skamyada əyləşmişdi. Bəlkə elə buna görə axund həmin gün qardaşına demişdi ki, sizin evdə qala bilmirəm, ya məni rayona yola sal, ya da özünlə işə apar ki, orda başım qarışsın. Həm də öz gözlərimlə görüm ki, sən oralarda neynirsən...

– Yaman çox içirsən... – axund söhbəti dəyişdi.

– Başqa çarəm yoxdu, axır vaxtlar təkcə içki çatır dadıma...

– Elə mənim də könlümdən vurmaq keçdi...

– Bəs, niyə içmədin?

– Bacoğlunun ağzı yırtıqdı, deyirsən, məni el-aləmnən bir eləsin?!

– Şoferdən qorxmursan, bacoğludan çəkinirsən?.. – Baş həkim anlamadı. – Qəribə adamsan...

– Şofer yaddı, bacoğlu evin içi... İçəridən aldığın yaradan qurtula bilməzsən... Yada cavab verməyə nə var ki? Birini eləyər, beşini eləyərsən... – axund burnunu çəkdi. – Mən ancaq sənin düzəltdiyin çaxırdan içmişəm. Qardaş çaxırı... – pafosla əlavə elədi.

– Ələkbərzadə ilə də vurmamısan?

– Yox...

– Onun da ağzı yırtıq idi?

– Sən də mizan-tərəzini itirmisən, – Baş həkim qardaşının səsindəki incikliyi duydu, – gör kimi kiminlə eyni daş-tərəziyə qoyursan...

– Bəs, niyə dostunla vurmurdun meylin çəkəndə?

– Ələkbərzadə ilə vurmağa başlasaydım, get-gedə öyrəşəcəkdim içməyə... Gec-tez onun da səsi aləmə yayılacaqdı… Oğurluqla ayağısürüşkənlik kimidi də bu, ha gizlət, bir gün cidanın çuvaldan çıxdığı aşkar olacaq... – axund qısaca ara verdi. – Sən mənim yolumu daşlığa salma, mən alkaş-zad deyiləm ki... İntəhası, hərdən şeytan məni aldadır, sənin düzəltdiyin çaxırın dadı gəlir damağıma...

– Şeytan axundu aldadırsa, vay bizim halımışa!.. – qardaşını tələyə salmaq istədi.

– Axund kimdi ki, peyğəmbərlərlə çiling-ağac oynayanın yanında? – Mürsəl yaxasını ələ vermədi.

– Düzəldərdim yenə sənin üçün çaxır, vurardıq evdə ikimiz bala-bala, amma vaxt da yoxdu, uzun işdi... Hayıf... – Baş həkim ah çəkdi. – Heç qabaqkı həvəs də qalmayıb...

– Ehtiyac yoxdu... Çaxır düzəltmək öz yerində, qanırsanmı, fəqət, pis, narahat vaxtı gəldin sən...

– Niyə?

– Xəstəlik hər yanı bürüyüb, ürəyimizcə gəzib - dolaşa bilmirik... Qorxudan evdən eşiyə çıxmaq olur ki... Hara da getsən canına sınmır, çəkinə-çəkinə başını girləyirsən...

– Eh.... Buralarda məni heç nə ilə heyrətləndirmək olmaz... Heç yana çıxmaq da istəmirəm... – Baş həkim etinasız-etinasız dedi. – Heç kimi də görmək istəmirəm. Pis başa düşmə, Aynagilə də candərdi getdim... Əlacım olsa, ora da ayaq basmazdım... Deyirlər guya, yaşa dolduqca doğulduğu yerlər çəkir adamı. Amma yalandı, çəkib eləmir... Mən heç vaxt nəinki bu yerlər, heç yan üçün, heç kəs üçün darıxmamışam... Hərdən sən yadıma düşmüsən ki, dərdləşim, ürəyimi boşaldım. Qurtardi getdi... Aynagildə ona görə çox içdim ki, başımı qarışdırım, bacoğlunun səfeh-səfeh danışmağını vecimə almayım... Öz aramızdı, bacoğlu lap başdanxarabdı ha... Gördün nə qədər içirdi? – bilinmədi ki, içməklə başdanxarablıq arasında hansı əlaqə var...

– Day neyləsin, restoranda işləyənin çörəyi içməkdən çıxar... Sən nahaq yerə Aynaya onun yanında pul verdin. Yəqin biz evdən çıxan kimi bacoğlu pulu alacaq anasının əlinnən...

– Ana-bala özləri bilərlər. Mənnən verməkdi... Gördün də, Ayna da mənnən pul götürmək istəmirdi ki, adam pensiyanerdən pul almaz...

– Mən ona nəsə verəndə təklikdə verirəm ki, heç kəs əlinnən almasın...

– Aynanı əfəl bilmə... Onnan pul almaq olar?.. Canını verər, pulunu verməz o...

Hardasa itlər ağız-ağıza verib hürüşəndə axundun ayağı çökəyə düşüb büdrədi. Baş həkim qardaşının qolunu bərk sıxıb yıxılmağa qoymadı.

– Elə biz özümüz də başdanxarabıq, – deyindi axund, – hansı dəli gecə gözü rahat maşından düşüb pay-piyada gedər, hə? – bu kəlmələr Baş həkimə aid olsa da, Mürsəl nəzakət xatirinə ümumiləşdirdi.

– Qoxma, – qürrələndi Baş həkim, – nə qədər ki, mən yanındayam, səni yıxılmağa qoymaram... İstəyirsən boynuma mindirib aparım səni?

– Ara küçələr zülmət içindədi... – axund hələ də deyinməyində idi. – Deyirəm, məxluq həyət qapısının qabağına bir lampa qoyub yandırmır ki, yola işıq düşsün, gecələr gedib - gələn rahat olsun... Gərək məscid açılanda minbərə çıxıb deyim ki, ay camaat, gecələr həyət qapısının qabağında lampa yandırıb gedib gələnin yolunu işıqlandıran bəndənin yeri cənnətlikdi...

– Deyirsən, moizən kömək eləyər?

– Həlbət ki! – bu dəfə Mürsəl qürrələndi. – Bəndələri cənnətlə şirnikləşdirib cəhənnəmlə qorxutmaqdan başqa çarə yoxdu...

– Biz buranın hər qarışını tanıyırıq, işıq bizim nəyimizə lazımdı...

– Mən nabələd adamlardan ötrü narahatam...

Qəfil Baş həkimin yadına nə isə düşdü:

– Axı, heç sənin evinin də həyət qapısında, hasarının üstündə elektrik lampası-zad yoxdu...

– Yoxdu... – axund əlacsız-əlacsız razılaşsa da, bəraət üçün çıxış yolu tapdı. – Çünki mənim evimdən o yana yol yoxdu, evimdən o yana gedənlərin yolu elə o yanlıqdı ki, onlara da işıq-filan lazım deyil...

– Sənə kitab gətirmişəm... – Baş həkim birdən-birə xarırladı. – Çantamdadı...

– Nə kitab?.. – axund anlamadı.

– Öz kitabımdı... Təzəcə çıxıb çapdan...

– Hə... Hədən yazmısan?

– İtlərdən, pişiklərdən... – Baş həkimin dili dolaşdı. – Onların həyat tərzindəki, psixikasındakı, şüurundakı fərqlərdən... Çoxu mühazirələrimdi, bir az əl gəzdirib kitab halına salmışam...

– Ay xətəkar, deyəsən, adamlardan bir nəticə hasil olmadı, indi itə-pişiyə keçmisən... – Mürsəl məzələndi. – Axırda mal-heyvan həkimi olmasan yaxşıdı...

– Yox, təkcə it-pişik deyil ki... Balıqlardan da yazmışam həmin kitabda, başqa heyvanladan da, bitkilərdən də, daşlardan da... – sadaladı müəllif, – elə adamlarla da müqayisə var... Karoçe, aləmi bir-birinə qatsam da, axırda hər şey gedib elə adamlara dirəşir... – qaşqabağını sallayıb ciddi-ciddi dedi. – Xarici ölkələrdə də çap olunub həmin kitab... Həvəsin olsa, vərəqləyərsən...

– Vərəqləmək nədi, hökmən oxuyaram... – axund qardaşının könlünü aldı. – Səndə günah yoxdu, yer üzündəki bütün yazılanlar qüsurludu... Yaradılışın, qeybin, sonsuzluğun, kainatın sirrini bilməkdən ötrü Adəm övladının ağlının hüdudlarından kənara çıxmağı bacarmaq gərəkdi... Bu da ki, mümkün deyil.

– Mənim o məsələlərlə işim yoxdu... Öz peşəmlə bağlı yeni araşdırmalar aparmışam...

– Fəqət əsrlərdir ki, dünyanın bütün dəyərli kitablarında müəlliflər uğursuzluğa düçar olsalar da, mən sadaladığım məsələlərdən əl çəkmirlər, bəziləri dönə-dönə döyürlər qıfıllı qapıları... Yüz illərdi o qapıların heç zaman açılmayacağını anlasalar da, vaz keçmirlər qapı döyməkdən. Nəsillər dəyişir, əməllərsə, həmən-həməndi...

– Ooo... Qardaşım əsl müdrikdi... Sən mənim tanıdığım ən ağıllı axundsan. Hərçənd, mən sənnən başqa axund da tanımıram...

– Amma öz aramızdı, məğlub filosofsan, bəri başdan əllərini qaldırıb

döyüşsüz təslim olursan...

– Tərifləmə, dediklərimin çoxunu o rəhmətlikdən eşitmişəm... – axund qardaşının tənqidini qulaqardına vurdu. – Ələkbərzadədən...

– Hayıf ki, vaxtında yaxşı tanımamışam onu. Oturub - durmamışam...

– Hayıfıslanma... – axund qardaşının dediklərini başa düşdüyü kimi yozdu. –Sənin kitabını mütləq oxuyacam... – təkrarladı. – Mənim otağımda sənin kitablarından çoxdu. Məsciddə...

– Evə niyə gətirmirsən? – Baş həkim gülümsünüb əlini qardaşının qolundan çəkdi. – Kitabları...

– Məscid etibarlıdı da...

Cırcıramaların "nəğməsi"ni və addım səsi nəzərə alınmasaq, araya öləzik sükut çökdü, iki qardaş yavaş-yavaş irəliləyirdilər. Qəfil hardansa quzu mələrtisi eşidiləndə baş həkim dedi:

– Burda mənim ən çox xoşuma gələn, xoşuma gələn də e, əsəbilərimi sakitləşdirən axşamüstü qoyun-quzuların küçəboyu bizim e... sizin evə doğru gəlməsinə tamaşa eləməkdi... Yuxarıdan, ikinci mərtəbədən baxanda adamın ruhu dincəlir... Əslində, hər şeyin lap sadə olduğunu anlayırsan... Adamlarsa boş yerə sadəni qəlizləşdirməklə məşguldu...

– Sən ertədən o heyvanların örüşə getməyini görəsən... Qoyun-quzu mələrtisi həzin layla kimi gəlir adama, mürgü ağuşuna alır adamı, istəyirsən təzədən kəlləni atıb yatasan... – Mürsəl yuxusu gəlirmiş kimi əsnədi. – Maşınla gəlsəydik indi çoxdan evdəydik...

– Ertədən dura bilmirəm də yuxudan... – Baş həkim qardaşının sözarası məzəmmətini qulaqardına vurub təəssüfləndi. – Yoxsa, tezdən də durub baxardım qoyun-quzuya...

– İndi hər yerdə restoran, otel, ev-eşik tikiblər, heç otlaq yeri də qalmayıb yazıq heyvanlara... Sürünü örüşə buraxmaq üçün binəva çobanlar, yalan olmasın, beş min arşın yol addayırlar...

Qəflətən elə bil cırcıramaların səsi də kəsildi, qardaşların addım səsi də eşidilməz oldu. Irəlidəsə, zülmət qaranlığın içində qara kölgələr sezilirdi, bəlkə, o qaraltılar hərəkətdə olduqlarından, zülmətin içində hiss olunurdu. Onlarla qarşı-qarşıya gələn adam-filan deyildi, yeriyən başdaşıları idi. İntəhası, adi başdaşıları deyildi məzarlıqdan üzü bəri gələn, güllər, kollar, ağaclar idi, qoyun-quzular kimi səs-səsə vermirdi, sakitcə, dinməzcə, "ədəb-ərkanla", səliqə ilə, nizamla bir-birlərinə yol verə-verə gəlirdi. İlahi, yeriyən qəbirlər görəsən hara yol almışdı? Gözü qaranlığa tamam alışdığından Baş həkim qarşıdan "gələnləri" getdikcə daha aydın görürdü və qəribəydi ki, onun ürəyində-qəlbində zərrəcə xof, qorxu-ürkü yox idi. Bir məzarlıq müxtəlif başdaşı qoyun-quzu kimi bütün küçəni tutsa da, nizamla, laldinməz üzü bəri hara gedirdi görəsən? Baş həkim fikir verdi ki, qarşıdan gələnlərin arasında daşlar da var. Di gəl, daşların da "yerişi" sakitdi, sanki "ayağı" yerə dəymirdi, uçurdu. Ancaq lap aşağıdan uçurdu. Yəqin ki, qanadsız-ləléksiz yalnız beləcə, aşağıdan uçmaq mümkündü. İrəlidən mavi-yaşıl işıq zolağı da gəlirdi. İlahi, görəsən onlarla qabaq-qənşər "gələnlərin" arasında atası, əmisi, məzarlıqda dəfn olunan yaxınları var idimi, vardısa, onlar hansı qiyafədə gəlirdi? Kol, ağac, yoxsa elə daş kimi?..

– Sən də görürsən? – Baş həkim bu dəfə çəkinə-çəkinə pıçıldayıb yenidən qardaşının qoluna girmək istədi.

– Nəyi?

– İşıq zolağının altındakı yeriyən ağacları...

– Başına hava gəlib?.. – axund gülümsündü. – Nə işıq zolağı, nə yeriyən ağac... Mobil telefonumun işığını yandırmışam ki, qapının qıfılını aça bilim... – nəhayət, Mürsəl həyət qapısını açıb kənara çəkildi. – Keç içəri, araq səni tamam kefləndirib, hər şeyi baş-ayaq görürsən... İçə bildiyin qədər iç, ifrat haramdı... Təkcə içkinin yox a, hər şeyin ifratı haramdı...

* * *

Səhər tezdən bir hay-küy qopdu ki, Baş həkim yerindən dik atıldı. Yekə yük maşınının nəriltisi ilə aman vermədən çığırışan boğuq kişi səsləri bir-birinə qarışmışdı. Əvvəlcə elə bildi ki, yuxudan ayılmayıb, gözlərini ovuşduranda bayırdakı hay-haray artdı və o, narahat-nigaran ayağa qalxıb evdə geyindiyi mazik idman paltarını əyninə keçirərək artırmaya çıxdı. Həyətin dəmir darvazası taybatay açıqdı, yük maşınının arxası həyətə girmişdi, "başı" qalmışdı bayırda. Üç-dörd nəfər həyətdə o baş-bu başa var - gəl eləyirdi, dişləri mırıq, üzü tüklü bir kişi də artırmada, axundun önündə dayanıb nədənsə, ağzını yumub açırdı, açıb yumurdu, ancaq səsi çıxmırdı ki çıxmırdı. Daha doğrusu, fısıltıyabənzər səs çıxırdı, amma kişinin nə demək üstədiyi anlaşılmırdı. Demə, kişi pəltəkmiş...

– Çay içirsən?.. – axund əlacsız-əlacsız soruşdu.

– Bə... Fs... Yox... Qurrr... ban olum... – axır ki, kişinin dili işə düşdü. – Di... di... di... – sevinməyə dəyməzdi, yenə ilişdi.

– A Bəhmən, bir yuxarı gəl, de görüm, bu nə demək istəyir, qıpqırmızı qızarıb öldü ki, bu yazıq... – hövsələdən çıxıb aşağıdan kimisə səslədi. – Elə mən özüm də çərlədim... Gəl məni bunun, bunu da mənim əlimnən al, ikimizin də canı qurtarsın...

Aşağıdakılar gülüşdülər...

Həyətdəki dazbaş yuxarı qalxıb, pəltək də fağır-gağır və yavaş-yavaş aşağı enincə, Ayna Baş həkimə dedi:

– Sabahın xeyir... Durmusanmı, qurban olum? Otur, sənə yaxşı bir çay verim, eynin açılsın...

Baş həkim keçib masa arxasında əyləşdi:

– İbrahim hanı?

– Mən gələndə yatırdı... – Ayna qardaşına çay gətirdi. – Duran kimi gələcək... Evdə bənd olan deyil...

– Bəhmən, de görüm, o, binəva Fərman nə demək istəyirdi? – axund məhəcərə söykənib altdan yuxarı önundəki dazbaşa baxaraq xəbər aldı.

– Axund ağa, fikrimiz budu ki, əvvəlcə ağacın budağlarını kəsək, sonra yuxarıdan yavaş-yavaş doğrayaq ağacı, axırda da dibindən kəsək, nöşün ki, ağac iridi, aşıb evə-hasara xələl gətirməsin... Gün günorta olmamışdan əsas işimizi qurtaraq... Nöşün ki, cəhənnəm istisində işləmək nədi, nəfəs almaq olmur... Qalan işimizi də axşamüstü görək... Kəsib doğradığımız ağacı maşına yükləməyi, həyət-bacanı təmizləməyi deyirəm... Sən bir qram da narahat olma, axund ağa, inşaalla, bu gün işi tamam qurtararıq...

– Bəhmən, Allah işinizi avand eləsin, sənin rəhmətlik atan, bağban Səlim deyərdi ki, küknar həyasız ağacdı, yansa da öz-özünə təzədən bitir. Siz işi elə görməlisiz ki, bu ağac bir də təzədən burda çıxmasın...

Bəhmən gözlərini döydü:

– Biz neyləyə bilərik, axund ağa, bu ağacın kökü, yalan olmasın, bəlkə də gedib qəbiristanlığa çıxır... Kim zamin dura bilər ki, bu ağac təzədən boy atmayacaq?

– Deyirsən çarəsi yoxdu?..

– Nöşün, çarə həmişə var... Ağacin altını bir az da qazıyıb lap dibindən kəsərik, ağacı kəsdiyimiz yerin üstünə də nöyüt tökərik... Vəssalam, şüdtamam, bir də həmin yerdə, ağac çıxmaq nədi, heç ot da bitməz...

– Ev-eşiyi yandırmarıq?

– Yox... Allah eləməsin, evi nöşün yandırırıq?

– Bəs, qanırsanmı, ağacın dibinə, kəsildiyi yerə nöyüt tökmək günah deyil? – öz-özünə danışırmış kimi fikirli-fikirli soruşdu axund.

– Özün mənnən yaxşı bilərsən, axund ağa, əslində, ağacı kəsmək də günahdı, nöşün ki, ağac da canlıdı. Dədəm deyərdi ki, canlını öldürməkdi ağacı kəsmək... Amma ki, sənə mane olursa, hökmən kəsməlisənsə, gərək günaha-filana baxmayasan... Günahsız bəndə yoxdu ki... Elə deyil, axund ağa? – Bəhmən onun ağzına marıtladı.

– Elədi... – gülümsündü axund. – Siz işinizdə olun... – dedi, keçib qardaşı ilə üzbəüz əyləşdi və nədənsə, baxışlarını yayındırmağa çalışdı.

– Ağacı kəsdirirsən? – astaca xəbər aldı Baş həkim.

– Hə... – axund başını tərpətdi.

Ayna Mürsələ çay gətirdi, armudu stəkanı qardaşının qabağına qoya-qoya:

– Çoxdan kəsdirməliydin bu ağacı, ay qardaş, – dedi. – Gör nə boyda yer tutub, barı-bəhəri də yox...

– Kölgəsi ki, var idi... – Baş həkim etiraz elədi. – Özünüz bilərsiz, amma mənim hayıfım gəlir bu boyda ağaca...

– Elə kölgəsi də ziyanlı idi... – Ayna dediyindən dönmədi. – Qoymurdu evin qabağına gün düşsün...

– Günortaya bularçün nə asacaqsan? – Axund bacı-qardaşın deyişməsinə qarışmayıb həyətdəkilərə işarə elədi.

– Bozbaş...

– Suyun, qartofun bol elə, – axund armudu stəkandakı çayından bir qurtum aldı. – Qoy qarınları doysun...

Ayna Baş həkimə dedi:

– Sənə də yumurta qaynadım, ye, cana gəl...

– Yox, – Baş həkim, nədənsə, qaşqabağını salladı. – Bilirsən ki, mən səhərlər heç nə yemirəm... – zarafat eləmək istəsə də, səsi açıqlı çıxdı. – Sən çalış, Mürsəli ətə-cana gətir, mən arıqlamaq istətəyirəm... – oturduğu yerdəncə həyətə boylandı. – Bu fəhlələrdən ehtiyatlı olun. Heç birinin maskası yoxdu...

– Olara nə maska... Neç maskasız danışa bilmirdi, biçarə, – axund qımışdı. – Bir də ki, olarda xəstəlik olmaz. Hərəsi gündə bir ləyən araq içir...

– Burda da içəcəklər? – Baş həkim soruşdu.

– Nə danışırsan... Bir o qalmışdı... – Mürsəl əməlli-başlı təəccübləndi, onun heyrətinə əsəbilik də qarışmışdı. – Olar nəkarədi axundun evində araq içələr... – bayaqdan başlarının üstündə dayanan Ayna içəri keçəndə axund səsini yavaşıdıb pıçıldadı. – Nolub sənə? – xəbər aldı. – Birtəhərsən...

– Yuxudan kal durmuşam... – Baş həkim stəkandakı çayını yarıladı. – Gic kimiyəm...

– Get gir yerinə, yat...

– Elektrik mişarının səsindən, fəhlələrin qışqırığından, budaqların şaqqıltısından yatmaq olar? – Baş həkim doğrudan-doğruya açıqlı idi, hələ ki, baş verməyənlərin səsini eşidirdi, qardaşını da borclu çıxarırdı; ağacı kəsdirəcəkdinsə, niyə mənim getməyimi gözləmədin?

– Qapı-pəncərəni bağla... – axund çıxış yolu tapdı.

– İstəyirsən içəridə istidən ölüm? – Baş həkim geri durmadı.

– Otaqdakı kondisioneri işlət də... – axund yenə yola işıq tutdu.

– Onda da soyuqdan ölərəm... Kondisioner altında yata bilmirəm... – Baş həkim yola gəlmədi.

– Demək, çarə yoxdu, işimiz əngəldi... – axund təslim oldu. – İstəyirsən deyim çıxıb getsinlər, sonra gələrlər... – durmasa da, yerində qurcalandı.

– Yox, yox, qətiyyən... – Baş həkim həlimləşib basdığını kəsmədi. – Gəliblərsə, qoy işlərini görsünlər... Amma sən düz deyirsən, mən gedib bir az uzanım... Heç gecəni də yaxşı yatmamışam e... – üzrxahlığı yatmağa getmək istədiyinə görə yox, bayaqdan iki ayağını bir başmağa dirədiyinə görə eləyirdi.

– Get... – axund razılıqla başını tərpətdi.

Yataq otağına keçib qəhvəyi skafın qapısını araladı, aşağı rəfə qoyduğu çantasından mobil telefonunu çıxardıb açdı, harasa zəng vurmaq istəsə də, fikrindən vaz keçdi, telefonu trümonun üstünə qoyub yenə çantasını eşələdi. Bu dəfə kitab çıxartdı çantadan, paltar şkafından asılmış pencəyinin döş cibindən qələm götürüb trimonun üstünə əyilərək elə ayaq üstə, durduğu yerdəcə yazmağa başladı.

*Əvəzsiz qardaşıma...*

*Müəllifdən...*

*27 avqust 2020 ci il.*

Yazdıqlarının altına yekə, əzəmətli bir imza da atdı. Sonra soyunub paltarını səliqə ilə taxtın yanındakı iri, oymalı-naxışlı stula yığdı. Yatağa uzanıb öz kitabını vərəqlədi. Səliqəsiz, adda-budda vərəqləyirdi kitabı. Ordan-burdan... Düz-əməlli seçə də bilmirdi hərfləri. Çünki eynəyini də çıxardıb aralıya, trümonun üstünə, mobil telefonunun yanına qoymuşdu, qalxıb götürməyə ərinirdi, bəlkə buna ehtiyac da yox idi; az qala kitabın hər sətrini əzbərdən bilirdi. Hər sətrini əzbər bildiyini bir də vərəqləmək isə, keçmişə boylanıb nələrisə xatırlayaraq yüngülcə köks ötürmək kimi bir şeydi...

...Başa düşə bimirdi ki, niyə pay-piyada gedirlər. Çiyinlərində də ağır tabut... Qabaqda əmisi ilə atası idi, arxada o və qardaşı. Dördü də ayaqyalın... Günün istisindən ocaq daşının üstündəki teşt kimi qızmış torpaq ayaqlarını yandırırdı. Qəflətən ağlına gəldi ki, əmim burda, atam burda, qardaşım da yanımda, bəs, tabutdakı kimdi, kimi aparırdılar dəfn eləməyə? Nə səbəbə özlərindən başqa bir ins-cins yoxdu və nədən ayaqyalındılar? Hər şey bir qırağa, bəs, molla hardaydı? Mollalığı qardaşı eləyəcəkdisə, qabaqda getməliydi, tabutun altında yox... Adam öz yaxınının, doğmasının yasında mollalıq eləyə bilərmi? Ya molla hökmən yad, kənar birisi olmalıdı? Bunu bilmirdi. Qardaşı da onunla yan-yana, tabutdakının ağırlığına çiyin vermişdisə, belə çıxırdı ki, apardıqları doğmalarıdı. Görəsən, tabutu daşıyan yaxınlarının da ayaqlarını ipisti, bərk qızdığından göz qamaşdıran narın qum yandırırdı? Bəlkə, onlar öyrəncəli idilər? Yəqin ayaqlarının altı, dabanları çoxdan yanmışdı, ayaqlarının dərisi də tamam bişib sümükdən ayrılmaqdaydı. Bu cəhənnəm əzabına öyrəşmək mümkünmü? Burda söhbət alışmaqdan yox, yalnız dözməkdən gedə bilərdi ki, dözümün də həddi-hüdudu vardı. Birdən ağlına gəldi ki, əynindəki köynəyi soyunub ayaqlarına dolasaydılar, dabanları yanmazdı. Düzdü, onda da bədənlərinin dərisi çıxacaqdı, hər halda, bədən yanğısının göynəltisi ayaq əzabının yanında toya getməli idi, ancaq gecdi yəqin, tabutu yerə qoymaq yasaqdı, həm də yarıçılpaq tabut daşımaq da ölənə hörmətsizlikdi. Toya getmək öz yerində, hələ ki, məzarlıq-filan gözə dəymirdi, görəsən, nə vaxt, kim, gedənlərdən hansı taqətdən dü-

şüb büdrəyəcəkdi ki, qalanlarının da canı qurtarsın? Tabutu sakitcə yerə qoymasınlar, necə gəldi çiyinlərindən tullayıb qaçsınlar sərinlik-kölgəlik axtarmağa. Tapdıqları kölgəlikdə başlarına çarə qılıb başlasınlar yaralarına məlhəm axtarmağa. Məlhəmi tapandan sonra yaralarına necə çəkəcəklərini bilməyib təbib axtarışına çıxsınlar. Sonra tapdıqları təbibin zəhmət haqqını ödəməkdən ötrü pul-para arasınlar və beləcə, sonu görünməyən zəncir kimi, əbədiyyən axtarışda olsunlar. Bəla burasındadı ki, get-gedə hər şeyi bir-birinə qatıb, əslində nəyi nədən ötrü axtardıqlarını unutsunlar, yaraları da əbədiyyən açıq, sapınmamış, məlhəm qoyulmamış qalsın. İstidən yalın ayaqlarını yerə becid basıb tez də götürərək atıla-atıla yeriyənlərin gec-tez yellənən tabutu çiyinlərindən salacağı şəksizdi, çünki atılıb - düşənlər, istər - istəməz çiynindəkini də yırğaladırdı. Ayaqlarının yanığısı beyinlərinəcən işlədiyindən, başlarını deşən gün onlara sərin meh kimi gəlirdi. Macal tapıb sağına baxdı, qardaşının boyu balaca olduğundan tabutun bir tərəfi əyilmişdi. Elə qardaşının ağız-burnu da tabut kimi əyilmişdi. Yəqin ki, ağırlıqdan, əzabdan, yanğıdan, taqətsizlikdən... Bu tabutu dörd yox, altı adam aparsaydı, yükümüz yüngül olardı. Amma yəqin ki, onda qardaşımın çiyni çatmayacaqdı tabuta. İrəlidəkilərin də halı qibtə olunası deyildi; ağappaq köynəklərinə sanki vedrə-vedrə su əndərmişdilər, günün istisi də köynəklərini qurudub yapışmışdı qapqara bədənlərinə... Çalışırdı ki, önündəkinin ləpirinə, izinə qoysun ayağını. Ona elə gəlirdi ki, ləpir qumdan az yandırar dabanlarını, çünki irəlidəki ayaq əsl istiliyi, yanğını götürüb, canına çəkib. Qardaşından him-cimlə xəbər almaq istədi ki, tabutdakı kimdi? Deyəsən, qardaşı onu sözsüz anlayıb, min bir əzabla qaş-göz elədi ki, bilmirəm. Hər kimdisə, ya yaman ağırdı, ya da aparanların gücü-qüvvəsi getdikcə tükənirdi. Ola bilsin, çaşdığından him-cimlə yox, pıçıltı ilə xəbər alnışdı qardaşından çiyinlərində gedənin kimliyini. Pıçıltısını da qardaşından savayı kimsə eşitmişdi. Çünki qulağına gələn səs, gələn çavab nə atasınındı, nə əmisinin; ümumiyyətlə, o, qulağına gələn, sual-cavab elədiyi əks-sədalı səsi heç vədə eşitməmişdi. “Çiyninizdəki güzgüdü”. O, təəccübdən bir anlığa beyninə işləyərək ağlını yerindən oynadan ayaqlarının yanğısını unutmuşdu. “Nə? Güzgü? Güzgünü də basdırarlar?” “O güzgüyə kim baxsa, öləcək”. Elə bunu eşitmişdi ki, tabut sürüşüb – bəlkə də sürüşmədi, bezdiklərindən, taqətdən düşdüklərindən qəsdən atdılar çiynindəkini ayaqyalın gedənlər – yerə düşdü. Adam boyda, yekə, ağır güzgü çilik-çilik olub ətrafa dağıldı. Tabut daşıyanlar vahimə içində qaçıb, elə sınan güzgünün qəlpələnən şüşələri kimi, ora-bura dağılışdılar və beləcə, o, yaxınlarını; atasını, əmisini, qardaşını itirərək – hər halda, onların qəflətən hara yox olduqlarını kəsdirmədi – gəlib gözdən uzaq, könüldən iraq bir kilsəyə çıxdı. İçəridə ondan savayı bir ins-cins yoxdu. Ağır qapısı kip bağlanmış kilsənin iri, qalın ikiqat pənçərələrinə qara pərdə çəkilmişdi, yuxarıda tavandan sallanan iri çilçıraqların işığı sönmüşdü, aşağıda, ikonanın qabağındakı çıxıntıda, qalın divarların, sütunların haşiyəsində şamlar yanırdı. Yəqin kilsənin həyəti arxa tərəfdə idi, çünki o, elə küçədən birbaşa qapını güclə açıb içəri girmişdi, axrasınca ağır, yekə qapı da öz-özünə örtülmüşdü. Kilsənin əzəmətinə, bərbəzəyinə uyarlı olaraq, yuxarıdan gələn və ətrafa yayıldıqca nisbətən incələşən, nazilib kövrəkləşən boğuq, bir az da monoton, yeknəsəq orqan səsi içəridəki ölü sükutunu yarsa da, elə çalınan musiqinin özü də sükutla həmahəngdi, onun çıxardığı səsi, melodiyanı dünyanın bəri üzündən hesab eləməmək olardı. Sanki kilsədəki çeşidli şəkillər, ikonalar, freskalar, nəqşlər yalnız orqanın səsinə uyuyub yuxuya gedirdi, musiqi kəsilsəydi, “yatanlar” oyanıb, canlanıb hərəkətə gələcəkdi, Məryəm ana çarmıxa çəkilənin başını dizlərinin üstünə alıb onun

yaralarına məlhəm qoymağa çalışacaqdı, ardıcılları içki məclisindən qalxıb müəllimlərinə kömək eləmək üçün tələşla ora-bura vurnuxacaqdılar, quşlarsa səssiz-səmirsiz süzəcəkdi ana-balanın başının üstündə. Ehmalca yeriyirdi mərmər döşəməli kilsədə, ona elə gəlirdi ki, ayağını yerə ehtiyatsız bassa, sürüşüb yıxılar, ya da quş kimi havaya qalxar. İçindəki qov yüngüllüyünün səbəbini anlamırdı. Uca, enli, dairəvi sütunların üstünə müxtəlif quş rəsmləri çəkilmişdi yağlı boya ilə. Qartaldan tutmuş qumruyacan... Dini rəvayətlərə aid rəsmlərin arasında uçan, üzən, yeriyən, qaçan heyvanlardan yalnız qanadlıların rəsmi niyə vardı? Bunu anlamırdı təsadüfənmi, ya bilə-bilə kilsəyə gəlib çıxan. Özü də gözəgəlimli yerdəydi quş şəkilləri... Başını qaldırıb tavandakı kölgəyəbənzər incə əl işlərini sezməkdənsə, iri sütunlardakı quşlara baxmaq rahatdı. Rəsmlərdəki quşlar Nuh dövrünə işarə idisə, başqa çanlıların da şəkli olmalıydı qanadlıların arasında. Rəngarəng şəkilli tavanı güclə sezilən, divarlarına da freskalar, dini rəsmlər – əsasən ikonadakının uşaqlığı, anasının qucağında və ardıcıllarının arasında olan rəsmləri – nəqş olunmuş bər-bəzəkli kilsədəki iri ikonanın qabağında dayanıb dua eləyirdi, dodaqaltı pıçıldayırdı. Sonra keşiş gəlib ikona ilə onun arasında dayandı və o, duasını kəsməli oldu, yəqin qabaqlar da önündə dayananı gördüyündən, bəlkə də elə gələni gözlədiyindən, keşişin onun duasını yarımçıq saxlamasına qətiyyən təəccüb eləmədi və əvvəlcə əyilib keşişin çeçələ barmağındakı üzüyün qaşından, yüngülcə, ehmalca qucaqlaşanda isə sinəsindəki qızıl xaçdan öpdü. Keşişin cod, ağappaq, uzun saqqalı, göy, dərin gözləri vardı, başındakı konusvari qara papağın kəlləsinə qızıl xaç bərkidilmişdi, amma qəribəydi ki, zər-ziba içində olan keşişin ağzında bircə dişi də yox idi. “Ayaqların sağaldı, mənim oğlum?” – yəqin ki, keşiş onu tanıyırdı, yoxsa, belə mehriban da yox, məhrəm danışmazdı, yaxşı tanımasaydı ayaqlarının isti qumda yanıb - bişdiyini hardan bilirdi? “Sağaldı, müqəddəs ata, ancaq indi ürəyim yanıb külə dönür”. “Səbirli ol, o da keçəcək. De görüm, nədən ötrü görmək istəyirdin məni?” “Mən öz qardaşımı öldürmək istəyirəm”, – sanki çoxdan bu qərara gəlmişdi, zərrəcə tərəddüd yox idi pıçıltı ilə gələn səsində. “Niyə?” – keşiş təəccüblənmədi, yəqin çox rast gəlmişdi onun kimisinə. “Qardaşım mənim oğlumu öldürüb!” – kirpiklərini də qırpmadan cavab verdi. “Sənsə öz qardaşını öldürmə... – sifətindəki təbəssüm kölgələnsə də, aram-aram dedi keşiş. – Onsuz da öləcək o. Min ildən sonra olsa da öləcək”. “Min ildən sonra? – heyrətləndi özlüyündə qardaşını öldürmək istəyən. – Bəs, mən onun ölümünü necə görəcəm?” – nədənsə, bunları keşişə demədi, sadəcə, fikrindən-xəyalından keçirdi və bunu xəyalından keçirəndə, hardansa, çox-çox uzaqlardan qulağına öləzik bir səs gəldi: “Qədər Allahındı”... Lapdan yeknəsəq kilsə zəngi aləmi başına götürdü, orqanın səsini də batırdı kilsə zəngi və keşiş sözlərinin doğruluğuna dəlil-sübut tapıbmış kimi, gülümsünüb əlavə elədi. “Eşidirsən zəngin səsini, yuxarıdan işarə də gəldi, yəqin Allah da bunu istəmir, öldürmə...” Amma zəngin səsi kəsilmək bilmirdi, sanki Yaradan birdən-birə qəzəblənib göydən daş yağdırmağa hazırlaşırdı...

...Gözlərini açdı, mobil telefonu özünü didib - dağıdırdı. Dili-dodağı təpimişdi, tərin-suyun içindəydi. Yerindən durub telefonu götürdü. Danışandan sonra əl atıb divardakı düyməni basaraq yarıqaranlıq otağın işığını yandırdı. Ayaqlarının altı göynəyirdi, bir-bir qaldırdı, əyilib baxdı, yüngülcə qızartı olsa da, dabanlarında-zadında yanğı-filan yox idi...

Yuxu dərmanı atıb çox və möhkəm yatmışdı, həyətdən səs-səmir də eşitməmişdi. Geyindi, əyilib döşəməyə, taxtın ayağının yanına düşmüş kitabını qaldırdı...

* * *

Artırmaya çıxanda gördü qardaşı masa arxasında sakitcə əyləşib, qollarını stola dayaq verərək başını alıb əllərinin arasına... Hava qaralmışdı, tavandan sallanan səkkizlampalı çilçırağın ətrafında pərvanələr uçurdu, çırcıramaların nəğməsi tamam yeni görkəm alan həyəti başına götürmüşdü, sanki bu dəfə qəmli-qəmli oxuyur, yaraları təzə olduğundan yorulmadan küknara ağı deyib bir-birlərinə macal vermədən ötüşürdülər. Küknarın yerinə öləzik işıq düşsə də, kəsilən ağacın dibi qapqara zülmətdi. Baş həkimə elə gəldi ki, yer üzündə təzə kəsilən ağacın dibindəki kimi qatı qaranlığı bir də heç yerdə tapmaq, görmək mümkün deyil, səhər açılsa, gün günorta olsa da, o zülməti heç bir işıq, heç bir nur bəyazlaşdıra bilməyəcək.

Keçib səssizcə qardaşı ilə üzbəüz əyləşdi. Axund onu görcək diksindi, əllərini üzündən çəkib dilləndi:

– Durmusan? Məəttəl qalmışam sənə, gecə-gündüz bu qədər vaxtı necə yata bilirsən?

– Hə... – səsinə gümrahlıq vermək istədi. – Yatmaq sağlamlıq əlamətidi... Yaxşıca yatıb özümə gəldim... Sanki min ilin yorğunluğunu çıxardıram canımdan, – yüngülcə əsnəyib sinəsini şappıldatdı arın-arxayın. – Gözlərin niyə yaşarıb? Həm qızarıb, həm yaşarıb... – qardaşına diqqətlə baxdı. – Ağlamısan nədi?..

– Yox, ağlamamışam... – axund əli ilə gözlərini silib baxışlarını yayındırmağa çalışdı. – Nədən ağlamalıyam ki? Gözümə nəsə düşüb... – söhbəti dəyişdi. – Get özünə çay süz, səhərdən acsan, Ayna sənin üçün çığırtma bişirib, tavadadı, onu da qızdır, ye...

Baş həkim dərinə getməyib xəbər aldı:

– Heç kəs yoxdu evdə?

– Yoxdu... Hamı gedib...

Əlindəki kitabı axundun qabağına qoyub:

– Sənə gətirmişəm... – nədənsə, sıxıla-sıxıla dedi. – Sənə dediyim kitabımdı... Təzə çıxıb...

Dərzinin iynəsi yaxasında olduğu kimi axundun da eynəyi əlinin altında, masanın üstündə idi. Eynəyi gözünə taxıb kitabı əlinə götürdü və üstünü oxuyub:

– "İNSTİNKT VƏ ŞÜUR" – bəri başdan "mız" qoydu. – Yaman qəliz adı var, - kitabın içini açıb qardaşının yazdığı avtoqrafa baxaraq gülümsündü. – Əvəzsiz qardaş... – mızıldandı dodaqaltı, – başqa cür qardaş da olur, hə? – bic-bic önündə oturana baxıb qımışdı, sanki kitabı əlinə götürməmişdən, ümumiyyətlə, qardaşı artırmaya çıxmamışdan tək-tənha, bikef-bikef masa arxasında xəyala dalıb gözləri yol çəkən adam deyildi. – Elə hamı əvəzedilməzdi... Hərə öz canını tapşırıb gedir... – kitabı örtüb masanın üstünə qoydu. – Oxuyaram... Ərinirsənsə, durub mən sənə çay gətirim?.. – axund yerindən qalxmaq istədi.

– Yox, yox... – qardaşı etiraz elədi. – Hələ heç nə istəmirəm. Yuxudan duran kimi xaladelnikdəki bir butulka soyuq suyu içmişəm. Susuzluqdan yanırdım. Əl-üzümü də təzəcə yumuşam, qoy bir az özümə gəlim...

– Nolub?.. Birtəhər görünürsən... – axund qardaşını süzdü. – Azarlamısan?.. Bayaqdan hay-küy salsan da, sir-sifətindən zəhrimar yağır, sanasan ki, bütün içalatın od tutub yanır... Nə məsələdi? Elə bil eşitdiyin bəd xəbəri

gizlətməkdən ötrü yalandan gümrah görsənməyə çalışırsan... – diaqnozu da qoydu. – Çox yatmaqdandı hamısı...

– Mən sabah şəhərə qayıdası oldum... – Baş həkim gözlərini ağappaq və boş süfrəyə dikdi. Düzünə qalsa, süfrə boş deyildi, düz ortada, ikisinin arasında ağzı qapaqlı büllur qəndqabı, bir az aralıda, Mürsəlin əlinin altındasa kitab vardı, kitabın üstündə də axundun eynəyi.

– Nə tez? – axund heyfsləndi.

– Bizim xəstəxanada yanğın olub... İndicə zəng vurub xəbər verdilər mənə...

– Oturduğumuz yerdə işə düşmədik... – axund narahat-narahat yerində qurcalandı. – Ölən-itən var?

– Yox, dedilər yoxdu... Ciddi bir şey olsaydı, televizorda-zadda göstərərdilər, – Baş həkim fikirli-fikirli mızıldandı. – Bu təxribat da ola bilər...

– Nə təxribat?

– Yanğını qəsdən törədə bilərlər...

– Nədən?

– Mənim dalımdan dəyməkdən ötrü... Mən onsuz da ərizəmi yazmışam... İşdən çıxmaq istəyirəm...

– Səni ilişdirə bilməzlər ki? – xəbər aldı axund, səsindəki təlaş və qayğıkeşlik bir-birinə qarışmışdı.

– İnanmıram... Mən tanınmış həkiməm, ordenim, medalım... Siyasətçi-filan deyiləm ki... Boş yerə hay-küy salmaq kimə lazımdı? Yəqin ki, bəd ayaqda beş-üç manatımı alıb rahat buraxacaqlar məni... – planlarından da danışmağı unutmadı. – Gedib Türkiyədə dərs deyəcəm...

– Bilirəm, onu demisən...

– İstanbulda ev də almışam, – səsini yavaşıdıb pıçıldadı. – Bu zəhrimar yoluxucu xəstəlik qurtarsın, ara sakitləşən kimi gəlib qalarsan mənim yanımda...

– İnşallah, gələrəm... Sağlıq olsun... – Mürsəl əlüstü razılaşdı. – Gəlib yaxşıca dincələrəm orda... İki qardaş cavanlıq eləyərik...

– Mənim gedəcəyimi Aynaya-zada xəbər vermə... Hay-küysüz getmək istəyirəm... Ayna sabah bura gəlməyəcək ki?

– Yox, gəlməməlidi... Yeməyi də çox bişirib... Bu gün əldən düşdü axı o yazıq... Ona görə tapşırdım ki, sabah dincəlsin evində... Bircə gün iki qardaş özümüz keçinərik... Mən hardan biləydim ki, sən belə qəfil gedəcəksən?

– Elə yaxşı oldu, Ayna gəlsə, hay-küy salacaq...

– Onda bir taksi çağırım, ertədən gəlib səni paytaxta gedən maşınlar dayanan yolacan aparsın? – Mürsəl başındakı fəsi də çıxardıb kitabın üstünə qoydu, fəs kitabın üstündəki eynəyi tam qapaya bilmədi, eynəyin qırağı görünürdü, elə fəsin bir qırağı da sürüşüb masaya düşmüşdü. – Lap istəyirsən tapşırım, sabah elə qapıdan götürüb birbaşa şəhərə çatdırsınlar səni, hə?

– Yox, – Baş həkim etiraz elədi. – Heç kəsə demə, özüm tək, səssiz-səmirsiz getsəm yaxşıdı... Özü də, ertədən niyə? Mənə olan olub, daha hara tələsirəm? Səhər rahatca çayımı içib, on birdə-on ikidə çantamı çiynimə atıb pay-piyada düşəcəm yola, siz sağ, mən salamat... – qardaşını inandırmaqdan ötrü qəsdən rəngləri tündləşdirdi. – Məni ötürsən, diqqəti cəlb eləyərsən. Otur evdə... Şər deməsən, xeyir gəlməz...

– Nə deyirəm, – axund onun sözünü çevirmədi. – Özün bilən məsləhətdi... Gəl duraq, çay-çörəyi qızdırıb gətirək bura... – ayağa ayağa qalxdı. – Elə mən də acam... Qanırsanmı, ac adamda da ağıl olmaz, nədən ki, acın başı yalnız qarnına, yeyib içməyə işləyər...

* * *

...Həyət qapısının ağzında qucaqlaşdılar.

– Özündən muğayət ol... – Mürsəl dedi.

– Sən də... – Baş həkim dəmir darvazanın bala, balaca qapısını açdı. – Günün altında çox dayanma...

– Yaxşı, heç həyətdən bayıra da ayaq qoymaram sən məhəllədən gedincə... – qardaşının dediyini başa düşdüyü tərzdə yozub bic-bic gülümsündü axund. – Yox yerdən səni ötürən də tapıldı. Balaca kişi... – yanlarında sakitcə durmuş İbrahimin başına sığal çəkdi.

– Bu balaca kişi niyə olur?.. Qoçaqdı, qorxmazdı... – Baş həkim onun dediklərindən xoşallanan uşağın incə, nazik qolunu yüngülcə sıxdı. – Bir ordunun gücü var bunun qollarında... İbrahimlə yola çıxana zaval yoxdu...

Mürsəl gülə-gülə başını tərpərdi:

– Pəhləvandı da... Day heç nədən qorxmağa dəyməz, arxamızda dağ boyda bir igid dayanıb...

– Hazırsan, pəhlivan?.. – Baş həkim qapıdan çıxanda üzünü İbrahimə tutdu.

– Gedək... – uşaq onu qabaqlayıb sevincək küçəyə qaçaraq daş hasarın kölgəsində dayandı.

Qapının o tərəfindən axundun səsi xırıltılı və boğuq gəldi:

– Yaxşı yol, Allah amanında... – qapı ehmal-ehmal, ehtiyatla, səssizcə örtüldü.

Elə Baş həkim də ehmalca İbrahimin əlindən tutdu və xırda addımlarla dinməz-söyləməz yanaşı yeriməyə başladılar, yol boyu kəlmə kəsmədilər.

...Salxım söyüdün yanına çatanda Baş həkim ayaq saxladı:

– İbrahim, burdan o yana, mən tək getsəm yaxşıdı... – nəhayət, uşağın onun ovcunun içində tərləmiş balaca əlini buraxdı. – Sən get evinizə, nənənə, atana mənnən salam de... – söyüdün kölgəsində nəfəsini dərə-dərə söylədi.

– Yaxşı... – uşaq başını tərpətdi. – Gedib deyərəm...

Baş həkim əlini ona uzatdı:

– Onda, bir beş ver görüm... – İbrahim bu dəfə var gücü ilə onun ovcunu şappıldatdı. – Yaxşı, daha burda durma, istidi, get evə... – təkrarlayıb əyilərək ağacın altına qoyduğu çantasını çiyninə atdı və düzəldi yola...

Yenicə aralanmışdı ki, arxadan İbrahimin cır səsi gəldi:

– Baba!..

– Nədi?.. – ayaq saxlayıb geri qanrıldı.

– Yenə bura gələcəksən?

– Hə!.. – özü də gözləmədiyi inamla cavab verdi. – Hökmən gələcəm!..

– Haçan? – uşaq dəqiqləşdirmək istədi.

– Sən böyüyəndə...

***2020 - 2021***

# ♦ Poeziya



***Kəmaləddin QƏDİM***

## MƏNİM ŞEİRLƏRİM DARIXANDILAR

Yarı sözdülərsə, yarı qandılar,
Qorxub, çəkindilər toxunmaq üçün.
Nənim şeirlərim darıxandılar,
Yaman tələsirlər oxunmaq üçün.

Birində bir qədər kəsirəm, kəməm,
Biri də Tanrıdan gələn payımdı.
Birində təpədən-dırnağa mənəm,
Sanki öz oxşarım, əkiztayımdı.

Rəngləri ağdılar, ya da ki, qara,
İçində bozu yox, kürəni yoxdu.
Üzünü çevirib ağ saraylara
yal üçün yalmanıb, hürəni yoxdu.

Elə, can atdılar haqqa varmağa,
Bir kiçik yaramı sarımadılar.
Mənim şeirlərim nə ad almağa,
Nə mənzil almağa yarımadılar.

Tutub əllərindən xeyirdə, şərdə,
Dərələr keçirdim, dağlar aşırdım.

Bəlaya saldılar başımı hərdən,
Ruzimi kəsdilər, baxıb, şaşırdım...

Yarı sözdülərsə, yarı qandılar,
Qorxub, çəkindilər toxunmaq üçün.
Mənim şeirlərim darıxandılar,
Yaman tələsirlər oxunmaq üçün...

## ƏFƏNDİM

Neynəyirsən çoxunun isti keçmir canına,
Çoxunun da canından isti çıxmır, əfəndim.
Qulaqlar nələr çalır, nələr gəzir dillərdə...
Od olmayan yerlərdən tüstü çıxmır, əfəndim.

Bilinmir nəyi nədi, kimi kimdi, bilinmir,
Suçlu kim, cəzalı kim, kim hakimdi, bilinmir.
İçlərdəki bu necə qəzəb, kindi, bilinmir,
Bu necə hay-haraydı, səsdi, çıxmır, əfəndim?..

Ulaq qaldı ulağı, dəyişsə də palanın,
Uzandı, ömrü yaman uzun oldu yalanın.
Yaddaşlara həkk olub, ürəklərdə qalanın
ha yonursan, heykəli, büstü çıxmır, əfəndim.

Təkcə ha gül, ha şadlan, kef-damağın saz olmur,
Bilirsən, bir çiçəklə, bir gülünən yaz olmur.
Qırx var, uzağı il var, bir ömürlük yas olmur,
Bəs bu necə hüzndü, yasdı, çıxmır, əfəndim?

Hələ ocaq ocağın, pir pirinin təkrarı,
Elə, ölən ölənin, sağ dirinin təkrarı.
Bir-birinin eynidi, bir-birinin təkrarı;
Adamın zayı çıxır, dostu çıxmır, əfəndim...

## KİRAYƏ QALIRMIŞ XATİRƏLƏRİM

Nə doğub-törəyib qaldığı yerdən,
Nə məndən yarımış xatirələrim.
Dolaşıb, qarışıb biri-birinə
mənim yaz, mənim qış xatirələrim.

Bir ucsuz-bucaqsız yolmuşam ondan,
Necə dilsizmişəm, lalmışam ondan.
İllərdi asılı qalmışam ondan,
Kətilmiş, darımış xatirələrim.

Nə bezib, nə də ki, doyub gəlmişdim,
Bir gün dönəcəyəm, deyib, gəlmişdim.
Mən cavan, təzə-tər qoyub gəlmişdim,
Qocalıb, qarımış xatirələrim.

Ayrılıb, tərk edib sonbeşiyim də,
İzi yox, tozu yox sonbeşiyimdə.
Köhnə yurd yerimdə, ev-eşiyimdə
kirayə qalırmış xatirələrim...

## NƏ VAR YALANÇININ EVİ KİMİDİ...

Başlar ayazımır fitnə-fəsaddan,
Adam heç bir kövrək hissə inanmır.
Boğazdan yuxarı haray-həşirə,
Tribun acığa, hirsə inanmır.

Var qohum-qəbilə, klan adamlar,
Min cür qurğu-düzən, plan adamlar.
O qədər artıb ki, ilan adamlar,
Artıq öz gücünə kürzə inanmır.

Təpədən-dırnağa Sənəm, toxunsan,
Açıq-aşikaram, Tanrım, oxunsam.
Məsciddən, kilsədən mənə yaxınsan,
Məscid şəkk eləyir, kilsə inanmır.

Bu necə ocaqdı, necə pir idi,
Kimlərin əlində açar-kilidi?
Nə var yalançının evi kimidi,
Yanır-yanmağına, kimsə inanmır...

## ÖLƏNƏDƏK VAXTIN VAR...

Gəlir, qoy gəlsin əcəl,
Gələnədək vaxtın var.
Ağla, boşalt qəlbini,
Gülənədək vaxtın var.

Aşkar, sir bilməyənə,
Ərkan, yer bilməyənə.
Salam ver bilməyənə,
Bilənədək vaxtın var.

Tapın, tək haqqa tapın,
Döyülər bir gün qapın.

Dərdini həmdərd tapıb
bölənədək vaxtın var.

Titrəmə, əsmə, yaşa,
Ümidi kəsmə, yaşa.
Yaşa, tələsmə, yaşa,
Ölənədək vaxtın var...

## OLA

Bir koman, hərdən də döyülən qapın,
Üstdə bir ünvanın, bir adın ola...
Sevəsən, birinə ərk eləyəsən,
Küsəsən, birinə iradın ola...

Könlünü bir vaxta qurub, yıxalar,
Oturub yıxalar, durub yıxalar.
Yolu düz gedəsən, vurub yıxalar,
Qalxıb, dikələsən, inadın ola...

Kərəm də olasan hələ gizlicə,
Dolana ardınca Lələ gizlicə.
Neçəsi dərdinnən ölə gizlicə,
Səninsə sevdiyin bir qadın ola...

Solda gözləyələr, sağa çıxasan,
Dərilib, sovrulan bağa çıxasan.
Qaçıb dərd əlinnən dağa çıxasan,
Üstəlik beş-on da fanatın ola...

Tez-tez nərə çəkə bir səs içində,
Qısıla bir küncə nəfəs içində.
Quşa çevriləsən qəfəs içində,
Uça bilməyəsən, qanadın ola...

## ELƏ YOL ÇƏKƏCƏK GÖZÜM DEYƏSƏN...

Elə, yol çəkəcək gözüm deyəsən,
Elə, ömür boyu sən axtaracam.
Səni havam sayıb, suyum biləcəm,
Səni ömrə-günə tən axtaracam.

Mən elə gözləri yola dikili
bənövşə koluyam, boynubükülü.
Bir az da qarışqa kimiyəm, gülüm,
Məcburam, balama dən axtaracam.

Yox tayın, oxşarın, inadda təksən,
Elə həmin ələm, həmin ətəksən.
Sən hər gün sinəmə dağ çəkəcəksən,
O dağda mən duman, çən axtaracam...

## SƏNƏ ŞEİR-ŞEİR YOL GƏLİRƏM MƏN...

Ürəkdə dərd-qübar, başda duman-çən,
Dərələr keçirəm, dağlar aşıram.
Sənə şeir-şeir yol gəlirəm mən,
Sənə şeir-şeir yaxınlaşıram...

Mən səni ucaldıb sevmişəm, gülüm,
Yenə ucaların-ucasısan sən.
Yazdığım şeirin nöqtə-vergülü,
Vəznisən, ritmisən, hecasısan sən.

Elə çəkmişəm ki, içimə səni,
Nəfəsim tükənmir, xeyir, tükənmir.
Baxma ki, yaş keçir, ömür tükənir,
Adına yazılan şeir tükənmir...

Sözlə bağrıbadaş, sözlə əlbirəm,
Uçuram, götürüb qol, gəlirəm mən.
Gün-gün, saat-saat, vəd-vəd gəlmirəm,
Sənə şeir-şeir yol gəlirəm mən...

Unut, xatırlama dərddi keçmişi,
Bax, bircə yolumuz, çaramız qalıb;
Ayrılıq boyunda bəndi keçmişik,
Bir-iki sətirlik aramız qalıb...

## ŞƏKİLDİ

Şəkilmiş sən demə varım, sərvətim,
Haranı tərpədim, açım, şəkildi.
Açıq sir-sifətim, qəddim, qamətim,
Sığallı-tumarlı saçım şəkildi.

Neynim, bu həyatdı, yuxumu, yatam,
Yüyürəm ardınca, gedənə çatam.
Şəkilə dönüblər anamla, atam,
Qardaşım şəkildi, bacım şəkildi.

Bəmləri zilləşib gəlir üstümə,
Qəmləri dilləşib gəlir üstümə.
Dostlar şəkilləşib gəlir üstümə,
Baş alıb hayana qaçım, şəkildi...

Haqqımdı yolumda bu boran, bu qar,
Başımın üstündə bu kətil, bu dar.
Əslində bir az da rəssamlığım var,
Çəkirəm, hər ağrım, acım şəkildi...

## ƏVVƏLİN DEYİBDİ, GERİSİN DEYƏ...

Deməyə çox şey var, adam istəyir
birisin saxlaya, birisin deyə.
Mən hər gün dərdimə layla çalıram
bir azca uyusun, kirisin deyə.

Bir cürə quluyam balam arzumun,
Məni dağa-daşa salan arzumun.
Yorulub yollarda qalan arzumun
qoluna girirəm yerisin deyə.

Gəzib, dolanıram yalqız başıma,
Qayıdıb dönməkçün qan yaddaşıma.
Nə ola, birisi çıxa qarşıma,
Bir ünvan söyləyə, bir isim deyə.

Bu da bir şeirdi, qüssə ki, qəm ki,
Harada kəsir ki, harada kəm ki?
Üz tutub Allaha, gözləyirəm ki,
Əvvəlin deyibdi, gerisin deyə...

## YER TAPMIRAM

Dərdim başımdan aşır,
Saymağa yer tapmıram.
Sanırlar ki, bala yer,
qaymağa yer tapmıram.

Könüləm, söz dolusu,
Ocağam, köz dolusu.
Dünyadan gözdolusu
doymağa yer tapmıram.

Tanrıdan alıb canı,
Atəşə salıb canı.
Əlimdə qalıb, canı
qoymağa yer tapmıram...

## BİR VAXTLAR ÜRƏKDİ SİNƏMİZ ALTDA

Tanrının ən gözəl əl işi bəndə,
Şəkildi, ən gözəl bəndə şəkildi.
Təkcə ruh diridi bədəndə, təndə,
Bədən də şəkildi, tən də şəkildi.

Çox da ki, dörd tərəf qucaq-qucaq dən,
Ya tordu, tələdi, ya da tuzaq dən.
Mən bir ac sərçəyəm, sənsə uzaq dən,
Qalıbdı gözlərin dəndə...şəkildi...

Bir az qara çıxmış ağın şəkliyəm,
Ya sağam, ya da ki, sağın şəkliyəm.
Sən mənə çəkdiyin dağın şəkliyəm,
Başımda duman da, çən də şəkildi.

Bu dünya dediyin yaddaşda, yadda,
Bir Allah bilir ki, kim hansı qatda...
Bir vaxtlar ürəkdi sinəmiz altda;
Səndə nə - bilmirəm, məndə şəkildi...

## BİR SEVGİ GÖNDƏR...

Nə torlar toxundu yan-yörəsində,
Quruldu mun cürə tuzaq adama.
Yaxın da, uzaq da uzaqda tutdu,
Açan tapılmadı qucaq adama.

Dilin ucundakı sözdü, kəlmədi,
Düşdü, elə düşdü, heç dikəlmədi.
Ən qızmar yayın da sıcaq gəlmədi
bu soyuq adama, sazaq adama.

Bir ömür yaşadı, "görək nə olur..."
Bilmədi fırıldaq, kələk nə olur.
Yazdığın yazını silək, nə olur,
Təzədən bir tale yazaq adama.

Bu yurdun bir qara daşına döndər,
Ya, fırlat, o daşın başına döndər.
Nə olar, İlahi, bir sevgi göndər
Bu gözdən-könüldən uzaq adama...

*Xanım AYDIN*



# Rəngbərəng kəpənəklər

♦ *Hekayə*

Yol gedirik. İlkin salamlaşmadan sonra fikrinin yarısı bir tərəfdən maşın, bir tərəfdən də nataraz, yolu hardan gəldi keçən piyadalarda, yarısı da bir az əvvəl çıxıb mənimlə görüşə gəldiyi işində. Onsuz da qısa olan zamanımızı işiylə bağlı söhbətlərlə doldurur. Halbuki danışası o qədər söhbətimiz vardı... Bayaqdan səbrlə dinləyirəm. Söhbətinin arasında yolda baş verənlərə də münasibət bildirir: "Burdan yol keçərlər?", "Yol doludur da sürə bilməyənlərlə!" və s. Yenə də səbrlə dinləyirəm. Arada gözlərimi yoldan ayırıb üzünə baxıram. Danışır... Əlbəttə, mənə ona aid hər şey maraqlıdır. Hətta indi danışdıqları da, axı özüylə bağlıdır – gün ərzində başına gələnlərdir. Gözləyirəm. Düşünürəm, bəlkə, bu mövzu bitəndə bizdən danışarıq. Amma çifayda. İşıqforun işığı qırmızıdan yaşıla keçən kimi söhbət yenə də gəlir işin-gücün üstünə. Hiss edirəm ki, artıq səbrimi güclə basıram. Hər nə qədər də səs tembrinə, danışıq manerasına, arada özünəməxsus sözlər işlətməsinə vurğun olsam da, canım sıxılır. O danışdıqca düşünürəm ki, bəlkə, daha sözünü kəsim, deyim ki, ay bala, burda mən varam. Mən sənin iş yoldaşın, əsgər yoldaşın deyiləm; yoruldum, yetər daha. Ürəyimdən bu sözlər dilçəyimin altına qədər gəlir, dişlərimi sıxıram, bu demək istədiklərimi səsə çevirmirəm. O isə hələ də işdən, gücdən, problemlərdən danışır. Arada ağıllı-ağıllı ona məsləhət verməyə də çalışıram. Amma hiss edirəm ki, bu, mən deyiləm. Gözlədiyim başqadı. Alaqaranlıqda yola baxıram. Sonra sükandan bərk yapışan əllərinə diqqət edirəm. Sonra yenə də üzünə baxıram. Yenə də fikri yolda və işindədir. Mən burda nəyəm, kiməm, anlamağa çalışıram. Növbəti işıqfora çatmağımızı və onun "yaşıla" düşüb yolu tez keçmək istəyinə baxmayaraq, "qırmızıya" düşüb dayanmağımızı gözləyirəm. Nəhayət. "Qırmızı"ya düşdük. Əlimi sakitcə ona tərəf uzadıram. Əlimə baxır, sonra işıqforun zaman tənzimləyicisinə, sonra da mənə. Gülümsünür. Heç nə demirəm. Ümid edirəm ki, məni başa düşər. Əlimdən tutur. Barmaqlarımı barmaqlarının arasında bərk sıxıram. Sanki onu daha çox hiss etməyə çalışıram. Və həm də eyni zamanda özümü ona hiss etdirmək istəyirəm. Yenə də gülümsəyir. Və işıqforun "yaşılı" yanır. Yenə də yol, yenə də işdən-gücdən ümumi

söhbətlər. O danışdıqca da mən diqqətlə onu dinləyirəm. Düşünürəm ki, görəsən sıra mənə nə vaxt gələcək. Yəni əgər mən vacibəmsə, mən ona lazımamsa, mənim üçün darıxıbsa, mənlə danışsın, bizdən danışsın. Yox deyiləmsə, açıq-açıq desin. Mənim ona təkcə dost-yoldaş olmaq kimi bir fikrim yoxdur. Düşüncəmdə özüm üçün bu ifadəni xüsusi vurğulayıram: "təkcə dost-yoldaş". Çünki həmişə hesab etmişəm ki, insanlar bir-birini sevəndə hər şeydən öncə bir-birinə dost, yoldaş olmağı bacarmalıdırlar. Dinləməyi, anlamağı, səbr etməyi bacarmalıdırlar. Amma bunun da bir həddi, bir ölçüsü var axı...

Yenə də yol gedirik. Yenə də o danışır, mən də danışdıqlarına fikir bildirirəm. Və birdən görürəm ki, alınmır, özümü hiss-duyğu qəfəsində çərçivələyə bilmirəm. Söhbətinin qəti dəxli olmayan yerində astaca deyirəm: “Burda mən də varam”. Qəfil maşını saxlayır. Üzümə baxır: “Bilirəm də burdasan. Nəsə olub ki?” Mən: “Yox, heç nə olmayıb. Sür gedək, gecdir.” O da heç nə olmamış kimi yoluna davam edir. Və mən yenə də düşünürəm. Görəsən, doğrudan, mənim nə hiss keçirdiyimi bilmir, yoxsa bunu üzə çıxarmaq, cavab vermək, bir müstəviyə çıxarmaq istəmir deyə, özünü bilməzliyə, görməzliyə vurur? Hmmm... Çətin sual oldu. Çözə bilmirəm onu. Əslində, insanları çözmək, nə düşündüklərini bilmək, başa düşmək mənim üçün heç vaxt çətin olmayıb. Yarım cümləsindən dilinin altında nə yatdığını həmişə bilmişəm. Bəs... onun nə düşündüyünü niyə anlaya bilmirəm. Məncə, məsələ mənim yox, onun özünün özünü hələ ki, tam anlamamasındadır. Ya da ki, mən buna belə bir don geyindirirəm. Çünki soyuqluğuna başqa ad vermək istəmirəm. Bəzən insan özü başa düşə-düşə, bilə-bilə ki, qarşısındakının hissi özününkünə adekvat deyil, bunu qəbul etməmək üçün şüuraltı olaraq min cür bəhanələr uydurur. Deyəsən, mən də uydururam. Amma bunu istəməyərəkdən edirəm. Mən əslinə qalsa, realist adamam. Bilsəm ki, doğrudan da, bu uydurmadır, özüm elə sağollaşıb bu yolun ortasında elə qaranlıqdaca düşüb piyada gedərəm. Vəssalam. Hisslərimlə istiqanlı olduğum qədər də sərt və soyuqqanlı ola bilirəm. Və bu hissdən o biri hissə keçid almaq mənim üçün bir dəqiqənin söhbətidir. Sadəcə buna əmin olmalıyam. Fikrim düşüncələrimdən ayrılır, yenə də yanakı üzünə baxıram, sonra əlimdən tutduğu əlinə baxıram. İstəyirəm ki, məni hiss etsin, fikrini dağıtmaq, mənə yönəltmək üçün yenə də barmaqlarını möhkəm sıxıram. Əlimizə, sonra da üzümə baxır. Gülümsəyir. İlahi, mən bu adamla nə edim?.. İnsan da bu qədər biganə olarmı?.. Birdən nəyisə xatırlayır, gülə-gülə həmin hadisəni danışır, təbii ki, mən də gülürəm. Amma yenə də ürəyimin içində qaynar qazan var. Sanki bu dəqiqə qapağı havaya qalxıb danqıltıyla yerə düşəcək... Yenə də təmkinli olmağa çalışıram. Özüm-özümə sual verirəm: "Sən bu adama niyə bu qədər səbr edirsən ki?..” Cavabım da özüm kimi havalıdır: “Bilmirəm”. Mən: “Axı bilirsən”. Özüm: “Hə, bilirəm. Bircə bunu bilirəm ki, onu itirmək istəmirəm. Həyatımda hansı adla qalır-qalsın, bircə qalsın. Getməsin. Onu itirmək istəmirəm”. Mən: “Görürsən? Bilirsən”. Özüm: “Hə, bilirəm, nə olsun? O ki bilmir. Mən də ona bunu deyə bilmirəm. Deməyə özü imkan vermir. Sanki bilir nə deyəcəyimi başqa sözlərlə sözümün qarşısını sərhədləyir”. Susuram. Üzünə baxıram. Yenə də yolumuza davam edirik. Yenə də danışır. Və bu dəfə bayaq demək istəyib, dilçəyimin altında

saxladığım sözləri qulağımda eşidirəm. Düzü, özüm özümə təəccüblənirəm. Yəni mən dedim? Onun qəfil söhbətini kəsməyindən, bir anlıq sükuta dalmağından belə başa düşürəm ki, mən doğrudan da, çox dəxilsiz bir anda demişəm: “Sənin üçün darıxmışam”. Araya düşən fasilə, teatr antraktı kimi uzun çəkmir. Cavabı da fasilə kimi qısa və həm də dilucu olur: “Mən də darıxmışam”. Açığı bu cavab, bu söz məni bir o qədər də açmır, qane etmir. Biz – qadınlar hisslərin ən dərininə düşəndə, onu özündən də dərin yaşamağı sevirik. Əgər düşmüsənsə ora, həmin dərinliyə, gərək orda özünə yuva qurasan, orda dibçəklərə çiçək əkəsən, günəşi orda böyüdəsən gözlərində, yağışı onunla birgə orda sevəsən, həm də ondan sevgini ala biləsən. Bu hisslər indiki dövr üçün – dəbdə olan terminlə desəm, qloballaşan dünyamız üçün – həddindən artıq romantik və xəyali səslənsə də, mən hisslərimi belə yaşamaq istəyirəm – tam dərinlikdə. Yəni hissimin ən ucası ürəyimin ən dərinində olmalıdır... Qəfil əlini əlimdən çəkir və yolumuza çıxan maşına siqnallayır. Dərinlinlikdən işıqlı, maşınlarla dolu, qarmaqarışıq prospektin üstünə qayıdıram. Və qəfil sualına yaxalanıram: “Elədir?” duruxuram. Söhbətin nədən getdiyini bilmirəm. Astaca “ya Allah” ümidinə cavab olaraq sadəcə onun fikrini təsdiqləyirəm: “Hə, əlbəttə, elədir”. Və onun reaksiyasına həyəcanla baxıram. Allah bilir nə deyibmiş. Hər halda, onu bu anda dinləmədiyimi, nərdivanla aşağı-yuxarı hissimlə düşüb-qalxdığımı deyə bilmərəm ki... Nəysə ki, gülümsünür, yenidən əlimdən tutur və yolumuza davam edirik. Bir-birinə pərçimlənən əllərimizə baxıram. Sakitliyi pozmaq üçün istehzayla soruşuram: “İşdə başqa nə var, nə yox?..” Bilmirəm sözümü tutur, özünü yenə də bilməzliyə vurur, yoxsa tutmur. Və mövzunun davamı gəlir... Arada başqa şeylərdən də danışırıq. Məsələn, yoldakı asfalt örtüyündən, səkilərin düzgün qurulub-qurulmamağından, piyada keçidlərindən, dünyada baş verənlərdən... Amma heç cür bu mövzlardan qopub öz dünyamıza keçid edə bilmirik. Astaca əlimi əlindən çəkirəm. Soruşur: “Nə oldu ki?..” Mən: “Heç nə. Rahat yolunu sür”. O: “Mən rahatam, əlini ver.” Bu, məndə sönməkdə olan odu yenidən üfürür, közərdir. Özümdə yazda ağacların canlanmağına oxşar qəribə bir canlanma, yeni nəfəs hiss edirəm dərhal. Qapıldığım bu eyforiya da çox çəkmir. Söhbət yenidən ümumiyə qayıdır. Dərindən nəfəs alıram. Dilxor oluram. Nə edim? Nə deyim? Bu qədər adamı incidərlərmi? Olmazmı ki, elə birabaşa münasibətimizə nə ad qoyduğunu desin? Məni də bu qədər incitməsin. İçimdə yenə də kəpənəklərin öldüyünü hiss edirəm. Qanadları qopur düşür. Özləri də havadan yıxılır yerə, məhv olurlar. Mən onlara baxa bilmirəm. Ürəyim sızlayır. Kəpənəklərim – rəngbərənglərim... Kövrəlirəm. Axı, mən əmindim ki, bu adam mənim taleyimə elə-belə gəlməyib. Bilirdim ki, mən də onun taleyinə tam zamanında gəlmişəm. Bizim bu görüşümüz təsadüfi ola bilməzdi. Deyildi də. Heyfim gəlir bu hisslərə... Yenə də asfalta, yola, prospektə qayıdıram. Bayaq dediyim "darıxmışam"a görə özümü qınayıram. Peşmanlıqdan dişlərimi bir-birinə elə sıxıram... “Dilini dinc qoy da. Nə vacibdir axı, darıxdığını demək? Görürsən ki, mənası yoxdur. Başımı geriyə – söykənəcəyə dirəyib gözucu üzünə baxıram. O da bunu hiss edir, ilk fürsətdə üzümə baxır. Gözlərinin içi gülür. Sonra yenidən yola baxır. Mən də söhbətin yenə də dəxilsiz yerində deyirəm: “Kaş mənə baxanda gözlərinin necə gülümsədiyini özün də görə biləsən...” Gülüm-

səyir... Yenə də artıq söz dediyimi düşünürəm. Bəlkə, mənə elə gəlib. Bəlkə səhv hiss etmişəm... Of... O yenə də ümumi mövzularda danışır – nə bilim sosial problemlərdən və sosial şəbəkələrdə yayılan son xəbərlərdən, dünyada baş verənlərdən və sairə və ilaxır...

Mən sözümün məğzinə xüsusi vurğu vuraraq: "Deyirəm ki, sənin üçün darıxmışdım... O: "Hə də... dedim ki, mən də darıxmışdım..." Boğazımda qəhər möhürlənir. Belə kobud adam yer üzündə yoxdu bəlkə. Amma mən onun ürəyinin içini bilirəm... "Bilirəm" dedim də, amma deyən kimi duruxdum. Hardan bilirsən, ay qız? Sən onun ürəyini hardan bilə bilərsən ki? Sən sadəcə bildiyini düşünürsən. Çünki belə olmağını istəyirsən. Sən istəyirsən ki, bütün onu kobudluqlarını necəsə malalayasan. Və bundan da ötrü özündən min bir yox eee, milyon bir bəhanə uydurursan. Yenə bu zəhləmgetmiş dilxorluq qəsdimə durur. Fikrim qarışır. Fikrim kimi cizgilərim də qarışır. Qarışan həm də önümüzdəki yoldur. O gərginləşir yola görə, mənsə sevinirəm. Yox, dəli deyiləm. "Yox"u da elə qətiyyətlə deyirəm ki... Nə yox? Dəli olmasam bu adamın yanında nə işim? Sadəcə yolumuzun biraz uzanacağına, daha doğrusu, yol həmin yoldu, vaxtın uzanacağına sevinirəm – bir yerdə ola biləcəyimiz vaxtın... O başa düşmür ki, onsuz süni nəfəs aparatına qoşulmuş kimiyəm – yaşamıram, süni nəfəs alıram...

Arada fikrim ora-bura getsə də, daha bütün dediklərini söz-söz, hətta hərf-hərf eşidirəm. Heç bir vergülünə də etinasızlıq etmirəm. Özü bəzən bütünlükdə mənə etinasızlıq etsə də. Belə şeylər əslində məni çox sındırır. İnciyirəm. Amma duyğumun hansı "level"idirsə bu incikliyi elə özüm bəhanəylə ört-basdır edirəm. Bu adam bütün bu ağır xasiyyəti və mənim üçün anlaşılmaz qalan tərəfləriylə məni yormur, əksinə yorğunluğumu – ruhi yorğunluğumu gicgahlarımdan çıxarıb atmosferə tolazlayır. Mən hələ fiziki yorğunluqdan danışmıram. Onu necə sıfra endirdiyini dərk edə bilmirəm. Lap kürəyinə baxmağım gəlir. Bəlkə tanrı mələk endirib göydən mənim üçün. Yox əşi. Belə kobud mələk olar? Olsa-olsa belə ancaq öküz olar. Düşüncəmdən məni gülmək tutur. Yenə yanakı ona baxıram: görəsən "öküz" məsələsini duymadı ki? Yenə də qayıdıram asfalta, prospektə... Onu dinləyirəm... Mən bu adam üçün niyə darıxıram axı? O mənim varlığıma da biganədir. Neynim? Bəlkə, elə indi – yolun ortasında deyim ki, maşını saxlasın, mən də küskün-küskün düşüm gedim?.. Görəsən bu susqun gedişimin səbəbini anlayar? Yaxşı, tutalım anladı və bu onun ürəyincə oldu. Onda bəs? Onda mən daha çox əzab çəkərəm axı. Bəs, əgər heç anlamasa. Buna sadəcə mənim bir şıltaqlığım kimi baxsa və heç nəyin fərqinə varmasa... Düşünürəm. Və elə bu vaxt üçüncü variant da üzə çıxır: bəs əgər bilsə, başa düşsə və məni itirib axtarmasa necə?.. Yəni canında məni itirmək qorxusu olmasa, təbii ki, məni axtarmayacaq... ay da... dəli olacam... emosiyalarıma qapıldığımı hiss edirəm... Yenə də üzünə baxıram. Özümü toparlayıb daha bu qədər bəs olduğunu düşünürəm. Çatanda düşərəm, sağollaşaram, vəssalam... Bu adamdan heç nə gözləyən deyiləm. Ağılsızlıqdı. Bu adam soyuqqanlığın, kobudluğun pikidir. Hə! Məndən çıxmayan iş – ağ bayrağımı qaldırıb təslim oluram. Telefonuna zəng gəlir, qanım qaralır. O isə heç nə olmamış kimi zəngə cavab verir, rahatca danışır, mən də susuram. Bu zəng edən kimdirsə ikimizə aid vaxtdan oğurluq edir. "İkimiz" ha! Mənim bir iddiama bax e. İkimiz! Yox bir! Onunla

mənim aramda "ikimiz" deyilən bir anlayış var ki?.. O başqa adamdır, başqa dünyadadır, mən də ona yadam, hər nə qədər özümü aldatsam da, yamağam... Çox da bu yolu bir yerdə gedirik. Bu, sadəcə asfalt yoldur... Mənim onunla getmək istədiyim ömür yoludur... Sonuna qədər, Allah yazan qədər, bir yerdə, sevgi dolu... Deyəsən, xəyallarımdan yıxılacam bu dəqiqə yarğanın lap dibinə, qolum-qanadım qırılacaq. Üşünürəm... Yenə də üzünə baxıram... Nə gözəl təbəssümü var. İmisti. Nəysə, özünü aldatma, please. Bu axşam sağollaşırsan və daha bu haqda düşünmürsən. Çünki mümkün deyil, adam hər sözü, hər kəlməsi, hər hərəkəti, nə bilim, az qala alıb-verdiyi nəfəsiylə də etinasızlıq göstərir, məsafə saxlayır. Bundan da dahası varmı? Yox, əlbəttə. Həm də mənim ona duyduğum əgər birtərəflidirsə, deməli, sevgi-zad deyil. Bu, nədirsə, elə-belə ötəri bir hissdir. Nəysə. Bir az da gözlə. Az qalıb, çatırıq. Hər şey maşından düşəndə bitəcək onsuz da. Mən artıq özümü buna kökləmişəm. İndi sanki ürəyimə bir rahatlıq gəlir. Hiss edirəm ki, üzümdəki qarışıq ifadələr də çəkilir. Hə, rahatam. İndi mən narazı halda: "Nə vaxt düzələcək ee bu yollar? Səhər də çıxırsan tıxac, günorta da çıxırsan tıxac, axşam da çıxırsan tıxac". Dedim və səsimdə bir soyuqluq dəydi qulağıma. Aha. Əla! Demək, artıq hər şey qaydasındadır. Bundan sonra nə istəyir desin, istəyir lap soyuqluğu, nəzakətləsizliyi ilə qar, dolu yağdırsın. Daha vecimə deyil. Çünki qəbul etdim, dərk etdim və tərk etdim. Bu qədər. O da elə bil himə bəndmiş kimi deyinir: "Əşi düzələn deyil ee, düzələn deyil. Sürücülük mədəniyyəti yoxdur bunlarda. Üstəlik çoxu da heç ümumiyyətlə sürə bilmir. Ona görə də belə olur da. Aləm dəyir bir-birinə". Mən qısa və konkret şəkildə: "Hə!" O da sanki bu "hə"mdən diksinir. Təəccüblə: "Nə, hə?" Mən: "Nə "hə" olacaq? Deyirəm yəni düz deyirsən də". Bayaqdan bəri məni duymayan, vecinə almayan adam indi qəfil bir kəlmə soyuq "hə"mə diqqət kəsilir. Amma mən qərarlıyam. Düşürəm, sağollaşıram, vəssalam...

Çatırıq... Düşüb getməliyəm. Əlim qapının kilidində; açılmağa ürək etmədi birdən-birə. Niyə belə oldu ki? Bayaqdan asıb-kəsirdim axı. Pərt oluram. O da üzümə baxır. Heç nə demir. Eləcə sağollaşır. Düşünürəm: Nə deyim, görəsən?.. Üstünüyü sükuta verirəm. Sadəcə gözlərinin dərinliyindən daxilinə nüfuz etməyə çalışıram. Alınmır: "Gedim?.." Çiyinlərini çəkir. Yenə də qeyri-müəyyənlik. Yenə də kəpənəklər ölür, göyqurşağımın rəngləri qarışır, bulanır: "Yaxşı... gecən xeyrə..." Maşından düşürəm, çantamı boynumdan poçtalyonlar kimi yanakı keçirib asta-asta küçə boyu gedirəm. Mən bu adamı anlaya bilmirəm... bilmirəm... bilmirəm... Məndən qaçdığınımı, mənə gəldiyinimi, nəyin nə olduğunu anlaya bilmirəm.... bilmirəm... bilmirəm... Və artıq yorulduğumu hiss edirəm. Əslində mübarizə məni yormur; ona görə və onunla axıra qədər gedərəm. Məni yoran qeyri-müəyyənlikdi, "niyə"lərdi... Həm də ona əsəbiləşirəm ki, verdiyim qərarı maşının qapı kilidində atdım getdi. Bax, buna görə lap dilxor və gərginəm. Heç evin qarşısına necə çatdığımı bilmirəm. Baxıram. Amma evə girib işıqları yandırmağım gəlmir. Bilirəm ki, içimin hövülündən divarlar məni sıxacaq, üstümə doğru əyiləcəklər. Otağın ortasında dizlərimin üstünə yıxılacam. Boynum büküləcək. Yumaruqlarımla divarları döyəcləyəcəm. Divarlara elə onun özü kimi heç nə olmayacaq, olan əlimə olacaq, ürəyimə olacaq. O da daşdır evimin divarları kimi... Yoxsa belə olmazdı. Elə dərhal

da yolumdan dönüb bir az da gəzişməyə üstünlük verirəm. Doğrudan özümü çox pis hiss edirəm. Onsuz da yanında, görünüşümə görə, çox balacayam. İndi mənəvi də balaca olmuşam. Bu mənə çox ağır gəlir. Yəni qaldıra bilmirəm, özümə sığışdıra bilmirəm bunu, qüruruma toxunur. Və indi ruhumu dəlmə-deşik edən onu itirməyim yox, onun gözlərində kiçilməyimdir. Həzm edə bilmirəm bunu. Nənəm demişkən, "əlindən zəncir çeynəyirəm".

Telefonuma mesaj gəlir. Heç baxmaq istəyim də yoxdur. Kim olacaq e? Yüz faiz işdəndir. Mən küçədə olmağıma baxmayaraq, hirsli səslə: "Yoxam, ölmüşəm, əl çəkin məndən... yoxam mən... yoxam... yoxam..." Yanımdan əl-ələ tutub ötən cütlük mənə qəribə baxır. Özümü saxlaya bilmirəm: "Hə, nədir? Özüm-özümə danışa bilmərəm?" Qız oğlanı dartışdırır: "Dəlidir, fikir vermə, canım!". Gedirlər. İndi daha da qəzəbliyəm. İstəyirəm acığımı onlardan çıxım. Dərhal da fikrimi dəyişirəm. Başa düşürəm ki, axmaqlıq etmiş olaram. Addımlarım hirs-hikkənin təsiri altında bir az da itiləşir. Birdən yenə də gələn mesaj yadıma düşür: Yüz faiz işdəndir. Əşi işdəndirsə, işdəndir. Görüm nə istəyirlər. Onsuz da əl çəkən deyillər. Özümü də söyürəm ki, axşam-axşam nə vacibdir axı, işdən gələn mesaja baxırsan... Amma eyni zamanda da başımı işlə qatmaq istəyirəm ki, unudum – onu unudum. Narazı sifətlə telefonu cibimdən çıxarır, baxıram. Yazan odur. İnciyəm, küskünəm, əslində ona yox e, özümə. Niyə axı, mən bu qədər ümidlənmişdim? Nəyə də, nəyə? Ortada heç nə olmadan adam bu qədər hissini dərinləşdirər? Yox, əlbəttə, yox. Amma ağzında hiss deyirsən e. Dəniz dalğası kimidir, qarşısını almaq, qəfəsə salmaq, bir qaba, bir qutuya salıb bağlamaq, qapatmaq olmur axı... Bütün bu düşüncələrdən mədəmin tam ortasında aşağı-yuxarı qalxıb-düşən giziltiyə – həyəcana ayrılıram. Lənət olsun, özüm özümə söz keçirə bilmirəm. Amma yox, qətiyyətliyəm. Nə olur-olsun, daha özümü aldatmayacam. Ürəyimi bu qədər incitməyə haqqım yoxdur. Tanrının mənə əmanətidir. Yenə mədəmin içindəki gizilti məni fikirlərimdən ayırır. Nə də olsa, rəsmi, soyuq bir cavab yazacam, vəssalam. Bəlkə, heç onu da yazmadım. Yox amma. Yazaram. Etik deyil. Nəzakət xətrinə yazaram nəsə. Yəni yenə də işdən, gücdən, problemlərdən nəsə yazıbsa təəccüblənmərəm. Nəhayət ki, göndərilən mesajı sönük baxışlarla oxuyuram:

"Quzum mənim, bilirsən ki, səni sevirəm. Amma nə edə bilərəm, mən də belə sərt, kobud adamam. Belə olsam da, səni dünyalar qədər çox istəyirəm. Bilirəm, mənə ürəyində "öküz" deyirsən. Bu sərtliyi, bu kobudluğu canımdan ancaq sənin eşqin çıxara bilər. Neynim, ürəyimdən gələnləri dilimlə deyə bilmədim. Hiss etdim, incidin məndən. Amma sən də inciyib getsən, mən həmişəlik belə sərt, kobud qalaram. Səni sevən adamdan getmə..."

Bu gələn mesajı yeddi dəfə oxuyandan sonra içimdə bir az əvvəl qanadları qırılan kəpənəklərin necə yenidən pərvazlandığını görürəm. Kəpənəklərim – rəngbərənglərim. Kövrəlirəm... Göy qurşağının bulanıqlığı çəkilir, rəngləri öz yerinə qayıdır. Gecənin bu saatında günəş də doğur, vallah doğur. Mənim üçün yeni gün, yeni ömür başlayır. Mən səhv etməmişəm. Ürəyini bilirəm...

***2021***

## ♦ Poeziya



*İsmayıl MƏRCANLI İMANZADƏ*

**GƏL, YAPIŞIM ƏLİNDƏN ...**

Bircə baxım nur payısan, işıqsan
Günəş kimi əlçatmazsan - uzaqsan.
Bəlkə təzə ayaq açan uşaqsan –
Qoy yapışım, dünya sənin əlindən.

Ürəyimdə fikrim-duyğum qarışıq,
Niyə artıb üz-gözünün qırışı?
Uzat mənə əllərini barışaq –
Qoy, yapışım, dünya sənin əlindən.
İtən ömür yaddan çıxmış nağılın,
Bilən yoxdur çatacaqmı axırın?
Ta gizlətmə, üzə çıxıb paxırın –
Qoy, yapışım, dünya sənin əlindən.

Sən çoxbilmiş, mən aldanan bir naşı,
Dərd göyərdib, qəm bitirər göz yaşım.
Nə qəribə bəxtin varmış, qardaşım –
Qoy, yapışım, dünya, sənin əlindən.

**OVÇU MƏMMƏD**

Ovçu Məmməd, yadındamı o çağlar
Dağa-daşa çiləyirdin gülləni.

İndi tənha mağaralar qan ağlar,
Boş yuvalar doluxsunub dillənir.

Yaşıl tala ceyran, cüyür soraqlı,
Yanma görüm tənhalığın oduna!
Yamaclarda turac, kəklik nə gəzir,
İndi necə ovçu deyim adına?

Niyə qıydın gözəlliyə, sən axı,,
Perik düşüb torağaylar örüşdən.
Sərçələrin görən nəymiş günahı,
Düzünü de, heç bezdinmi bu işdən?

Ovçu Məmməd, çıx dağların seyrinə,
Bulaq üstə nə fikrə get, nələngi.
Neçə günah yüklənibdi boynuna,
Çırpma görüm di, daşlara tüfəngi!..

## BAXIŞLARIM

Gözlərimdən-gözlərinə
cığır salıb baxışlarım.
Qaşlarında düyümlənib,
fikrə dalıb baxışlarım.
Soyuqluğun gecə-gündüz
ovxalayıb sıxır məni.
Gözlərində üşüyürəm,
ürəyinə çağır məni.

## GEDİRSƏN…

Durmuşam bir eşqin yol ayrıcında,
Gedirsən…nə deyib saxlayım səni?
Əzəlki istəyə, əzəlki anda
Necə bənd eləyim, bağlayım səni?

Gedirsən…həsrətin sinəmi sıxır,
Arxanca yüyürən ürəyimdimi?
Gedirsən…gözlərim dalınca qaçır,
Qatara gecikən sərnişin kimi…

## ÇAYIN SAHİLİNDƏ BİR QIZ AĞLAYIR

Siyah saçlarını oynadır külək,
Qəmli sinəsindən asılıb bilək.

Sanki göydən enmiş mələkdir, mələk
Nədənsə dayanıb yalqız ağlayır -
Çayın sahilində bir qız ağlayır.

Nəmli gözləriylə baxır sulara,
Bilən yox fikrində üz tutub hara.
Dönüb sərt küləyə, çevrilib qara,
Göyərmiş əlləri bumbuz, ağlayır -
Çayın sahilində bir qız ağlayır.

Əsir yarpaq kimi sızladıqca can,
Qəfil bir ölümmü axtarır hər an?
Asılıb durubdu göz yaşlarından,
Elə bil bənövşə, nərgiz ağlayır -
Çayın sahilində bir qız ağlayır.

Qəlbindən keçəni suya danışmır,
Çöküb çöhrəsinə həya-danışmır.
Nisgili gəlməyir saya-danışmır,
Gah dodaq səyriyir, gah üz ağlayır -
Çayın sahilində bir qız ağlayır.

Bəlkə o, cavabsız eşqə əsirdir,
Bəlkə bir kimsəsiz yetim-yesirdir?
Anlamaq olmur ki, bu necə sirdir,
Lal haray hıçqırır, avaz ağlayır -
Çayın sahilində bir qız ağlayır.

İndi dünya ona qəfəs kimi dar,
Halına acımır nə dost, nə də yar.
Allahım, gəl onu özünə qaytar,
Dil dönüb kösövə, ağız ağlayır -
Çayın sahilində bir qız ağlayır.

## SUYA SÖYLƏDİYİM YUXU

Ha gözlədim - gün çıxmadı,
Bu zülmətdən cin çıxmadı.
Çiçək açan vədəsiydi,
Neyləyim ki, çin çıxmadı –
Suya söylədiyim yuxu.

Ötüb gedən qışım idi,
Bir damla göz yaşım idi.
Deyəsən gecə yarası

Bəxtinən savaşım idi –
Suya söylədiyim yuxu.

Bulud kimi dolub getdi,
Qönçə idi, solub getdi.
Göyərib üzə çıxmadı,
Sulara qərq olub getdi –
Suya söylədiyim yuxu.

Sehrindən çıxa bilmədim,
Yamanca aldatdı məni.
Heç yana çatmadı əlim,
Gör necə yubatdı məni –
Suya sgylədiyim yuxu.

Nə əzəl, nə axır idi
Dərd kimi çox ağır idi.
Sonunu görə bilmədim,
Bir yarımçıq nağıl idi –
Suya söylədiyim yuxu.

## BAŞ ALIB GEDİRƏM…

Baş alıb gedirəm mən bu şəhərdən,
Döşümə yatmadı burda yol, küçə.
Bəlkə də nə vaxtsa yuxuda hərdən
Gəzib tapacaqsan məni gizlicə.

Burda indən belə qalmağım hədər,
Onsuz da tapmadım gəzdiklərimi.
Gedirəm, gözümdə bir baxım kədər,
Nə fərqi kim tutur, tutsun yerimi…

Halıma yanmadı mənim bu şəhər,
Uğur diləmədi bir işimə də.
Bir vaxt gəlişimə baxdı birtəhər,
Köks ötürən deyil gedişimə də.

Gördüm dönə-dönə boz sifətini,
Boylanmaz dalımca divarı, daşı.
Məndən əsirgəyib məhəbbətini,
Üzümə bozardı hər addımbaşı.

Acı tüstüsünü uddum eləcə,
Məni isitmədi burda od-ocaq.

Başımın üstəki ulduzlu gecə
Bilirəm mənimçün darıxmayacaq.

Ta çıxıb gedirəm mən bu şəhərdən,
Qoy qalsın özünə işvəsi-nazı.
Gedirəm hardasa axtaram hərdən
Burda itirdiyim çiçəkli yazı.

Gedirəm, gizlicə dolur gözlərim,
Bir istək səbrimi çəkir tarıma.
Yollara sancılıb qalan izlərim
Arabir dolaşır ayaqlarıma…

## BƏSTƏ BOYLU MİSRALAR

Pəltək tərif
bihuşdarı kimidir,
Eşidəndə
adamın yuxusu gəlir.
Ütülü sözlərdən
nədənsə elə hey
yaltaqlıq qoxusu gəlir.
Adamın əti ürpəşir,
bayağı sözlər
dırmaşanda
boğazdan yuxarı.
Görəsən nə vaxtsa
çatacaqmı
yalanın sonu-axırı?..

* * *

Yağışdan sonra
göylər durulur
axar su kimi.
Qövsq-quzeh
çiçəkləyir elə bil
göylərin çin çıxan
yuxusu kimi...

# Nizami Gəncəvi və İmadəddin Nəsimi

***Nizami İli çərçivəsində "Nizami söhbətləri" ədəbi layihəsi davam edir. Ədəbi layihədə hər ay bir ədəbiyyatşünasın müsahibəsi dərc olunur. Sonda isə bütün ədəbi söhbətlər bir kitabda toplanacaq.***

***Budəfəki qonağımız filologiya üzrə fəlsəfə doktoru, nəsimişünas Səadət ŞIXIYEVADIR. Müsahibəmiz Nizami Gəncəvi və İmadəddin Nəsimi yaradıcılığının müqayisəli təhlilinə həsr olunub.***

**–Sizcə, birbaşa təfəkkür, yaradıcılıq və əqidə planında Nizami Gəncəvi və İmadəddin Nəsiminin ortaq və fərqli cəhətləri hansılardır?**

–Nizami Gəncəvi və Seyid İmadəddin Nəsimi orta çağ islami ədəbiyyat və mədəniyyətinin nümayəndələri olduğundan, onların yetişdiyi mühitdən qaynaqlanan ortaq cəhətləri çoxdur. Mükəmməl təhsil almış bu iki şairin ədəbi biçimli mirasının fikri tutumu onlara həm də bir mütəfəkkir şöhrəti gətirib. Hər iki şairin yaradıcılığı təkcə ədəbi düşüncə deyil, fəlsəfi təfəkkür baxımından da ənənəyə bağlılıqla yanaşı, yeniliyə meyilliyi, fərdi baxış bucağı ilə seçilir. Hər ikisi islami dəyərlərə bağlı, islami ənənəni poetik biçimdə ifadəyə yönəlikliyi ilə seçilir. Hər ikisi saray mühitindən və hökmdardan asılılıqdan uzaqda ədəbi fəaliyyətlə məşğul olması ilə daşıdığı ilahi nurun hörmətinə öz şəxsiyyətinə dəyər verən insan təsəvvürü yaradır. Hər ikisi ərəb və fars dilindən başqa pəhləvi dilinə də bələd olmuş, həmin dil vasitəsilə daha qədim mədəni, ədəbi, fikri və dini qatlardan da bəhrələnmişlər. Nizami, özünün də etiraf etdiyi kimi, əsərlərinin qəhrəmanları Sasani hökmdarları Bəhram Gur və Xosrov Pərvizin tarixini öyrənmək niyyəti ilə pəhləvi qaynaqlarına müraciət etməli olmuşdu. Nəsimi isə, hürufiliyin dini-fəlsəfi doktrinasının ifadəsini tapdığı "Cavidannamə"ni oxumaq üçün pəhləvi – Avesta dilinin varislərindən Astarabad ləhcəsini də bilməli idi. Ümumiyyətlə, hər iki mütəfəkkirin pəhləvi dilinə bələdlik səviyyəsi, hər ikisinin həmin mətnlərə müraciətinin səbəbləri və hansı mətnlərdən istifadəsi xüsusi və dərin tədqiqata möhtacdır. Bununla belə, qeyd etməliyəm ki, istər, bu dildə yazılan mənbələrdən, istər, ərəb, istərsə, farsdilli qaynaqlardan bəhrələnmələr onlara türk mənsubiyyətini unutdurmamış, özlərinin türk soyunu iftixar hissi ilə dilə gətirmiş, türklüklə öyünmüş, "türk" sözünü xüsusi bir qürur hissi ilə məcaz yaradıcılığında da istifadə etmişlər. Buna görə də, hər ikisində türk sevgisi xüsusi bir düşüncə istiqamətini təşkil edir. Nizaminin yaradıcılığında "türk" sözünün kəsb etdiyi müsbət və geniş

mənalar barədə Məhəmmədəmin Rəsulzadə, Mübariz Əlizadə və Cavad Heyətin tədqiqatlarından yetərincə məlumat almaq olur. Nəsimi şeirində türk etnoniminin daralıb və genişlənən anlamları barədə isə mən ayrıca bir məqaləmdə – "Nəsimi şeirində türk etnonimləri, – təxəyyül və tarixi gerçəkliyin inikas şəkilləri", – bəhs etmişəm. Bu əsasda da hər iki şairin türk təəssübkeşliyi ilə bu etnonimə çeşidli bədii anlamlar qazandırdığını deyə bilərəm.





Hər iki mütəfəkkirin əxiliyə münasibəti də onların ortaq əxlaqi-mənəvi dəyərlərindən sayıla bilər. Hətta Nizaminin özünün o dairələrlə əlaqəsi barədə tədqiqatlarda məlumatlar yer alır, mübahisəli olsa da, Əxi Fərəc Zəncaninin onun mürşidlərindən ola biləcəyi ehtimalı irəli sürülür. Araşdırmalarda, həmçinin, onun "İskəndərnamə"sində yer alan bərabərlər ölkəsi barədəki düşüncəsinin əsasında əxiliyin durması vurğulanır. Nəsiminin də əxilik və fütüvvətə rəğbəti olub və hər iki divanında bu, aydın ifadəsini tapıb. Hətta farsca divanında "Fütüvvətnamə" başlıqlı şeir də yer alır. Bu barədə ayrıca bir məqaləmdə, – "Hürufilik ədəbiyyatı və tarixində əxiliklə kəsişən məqamlar", – bəhs etdiyim üçün burada qısa xatırlatma ilə kifayətlənirəm.

**–Bəs say simvolikasından istifadə onların hər ikisinin ortaq zehniyyətinin göstəricisi sayıla bilərmi?**

–Nizaminin "Yeddi gözəl" əsərinin təkrarlanan yeddilər – yeddi iqlim, yeddi gözəl, yeddi nağıl, yeddi planet, yeddi gün, yeddi rəng, yeddi məhbus,... – üzərində qurulmasının həm islamı "təkrarlanan yeddilər", – "səbül-məsani" – "Fatihə", – həm də təkrarlanan onluqlar üzərində qurulan "Bəxtiyarnamə"lər kontekstində təhlili mümkündür. Digər tədqiqatçıların diqqətini cəlb etməyən bu özəllik xüsusi araşdırmaya möhtacdır. Nəsimi də saylar içərisində ən çox "yeddi" sayının təkrarı üzərində poetik-fəlsəfi fikrini ifadəyə meylli olub:

***Yedi ayətlə yeddi xətt tamam,***
***Yedi ə'za ki, yeddi ümmətdir.***

***Yeddi yerdir, yeddi gögdür, yeddi dərya, yeddi xət,***
***Yeddi müshəf, yeddi ayət, yədi-beyzası nədir?***

Bu iki şairin say simvolikasından istifadəsində diqqətdən kənarda qalan daha bir özəllik var: bu da bir saydan digərinə keçilməsinin gizli ifadəsidir.

Nizamidə bu “Xəmsə”nin və “Yeddi gözəl”in say sistemində gizli ifadəsini tapıb. Təxəllüsü Nizamiyə uyğun olaraq, əsərlərində gizli və ya aşkar bir simmetriya və nizamlılıq olan şairin “pənc gənc”, – “beş xəzinə” deyə təqdim etdiyi “Xəmsə”sində, – “Beşlik”də gizli altıncı say da mövcuddur. “Şərəfnamə” və “İqbalnamə”dən ibarət sonuncu məsnəvisi “İskəndərnamə”də beşinci sayın altıncıya bu şəkildə gizli keçidi bir təsadüf əsəri deyil və xüsusi araşdırmaya ehtiyacı var...

“Yeddi gəzəl” əsərində “yeddi” sayından fərqli olaraq, bir də gizli səkkizinci say var: Bəhram. Yeddi eynitipli və eynicinsli gözəlin əlaqəli olduğu səkkizinci sayın təmsilçisi Bəhramdır. Nəsimi şeirində də bənzər say keçidi və artımını görə bilirik:

***Yeddi gəz yeddi olur hər yeddimiz,***
***İstiva keçdik səkizdir yeddimiz.***

Yeddi sayından səkkizə keçidi biz arxitekturası qədim dini etiqadlardan qaynaqlanan Qız qalasının – hürufi mətnlərində: Bakuyə – quruluşunda da görürük: yeddi eyni tipli mərtəbə səkkizinci fərqli quruluşlu üst qata açılır. Bu səkkizinci qat müxtəlif dini inanclarda Tot, Hermes, Merkuri, – Utarid, – Mehdi kimi mövcud olan kultun taxtı sayılıb. Fəzlullahın öz yaxınları ilə Şirvana gələrkən məhz Bakuyə və çevrəsini özünə məskən seçməsi buranı Mehdinin zühur edəcəyi yer saymasından qaynaqlanırdı. Bu barədə “Cavidannamə”də Bakı ilə bağlı ezoterik interpretasiyalar” adlı məqaləmdə daha təfərrüatlı bəhs etmişəm.

**–Deməli, Nizaminin əsərlərində beşdən altıya, yeddidən səkkizə keçidlər sadəcə, təsadüfi seçim deyil, çox qədim dini-etiqadi görüşlərin bədii düşüncədəki inikası sayılmalıdır, yoxsa?**

–Bəli. Eynilə Fəzlullahın “Cavidannamə”sində səma cisimlərinin iyerarxik quruluşunun təsvirinin, Bakuyənin sxemi və buraya gəlişinin, Nəsiminin yeddi və səkkiz sayları arasında xüsusi bağ qurmasının, “istiva”nı yeni ölçülü məkana və fərqli duruma keçid vasitəsi saymasının arxa planında zərdüştilik görüşləri və onun qaynaqlandığı etiqadların izlərini tapmaq mümkündür.

Hər iki şair fərqli məqsədlərlə olsa da, kamil və ideal insan anlayışını yaradıcılıqlarının əsas qayəsinə çevirib. Nizaminin bu barədəki düşüncələri ədaləti simvolizə edən, cəmiyyətin təşkili və idarə olunmasında mühüm rol oynayacaq ideal hökmdar surətinin axtarışı və bədii həllində tapır. O, bilərəkdən öz çağından deyil, eradan öncə yaşamış tarixi şəxsiyyəti sonuncu baş və müsbət qəhrəmanının prototipi olaraq seçir. Sasani hökmdarları Bəhram və Xosrovu deyil, Qərb və Şərqin əlaqələndiricisi İskəndəri sonuncu qəhrəmanı seçməsi, məhz onu xoş tale sahibi kimi peyğəmbərlik, mənəvi kamillik mərtəbəsinin sahibi kimi təqdimi də düşündürücüdür. Nəsiminin “insani-kamil”i, “Yarın bədəl”i – əvəzi, – saydığı isə öz müasiri və mürşidi olan Fəzlullahdır. O, hürufilik düşüncəsinə görə, nübüvvətdən, – peyğəmbərlik, – sonra gələn vəlilik məqamının sahibidir. Əslində, Nizami və Nəsiminin kamil insan anlayışının kəsişən və ayrılan cəhətləri, bu anlayışları formalaşdıran qaynaq və səbəblər də xüsusi araşdırmasını gözləyir və bir çox gizli mətləblərə işıq sala bilər...

Fərqliliyə gəlincə, Nizaminin ədəbi mirası yalnız fars dilindədir, Nəsimi isə özünü 3 dildə – türk, fars və ərəb – ifadəyə meyilli olub. Nizami farsca ədəbi

dili yeni səviyyəyə yüksəldib, dəri farscasının zənginləşməsində xüsusi yeri olub. Nəsiminin maraq dairəsi isə fərqli olub. O, farscanı təkmilləşdirən Xaqani və Nizamidən fərqli olaraq, türkcənin ədəbi dil səviyyəsində kamilləşməsi yolunda bütün fitri istedadını səfərbər etmiş, ana dilində qələmə aldığı əsərlərdə həm fərdi təxəyyülünün göstəricisi olan eksperimental xarakterli şeirlər qələmə almış, həm də farsca poetika kitabları və farsdilli sələflərindən öyrəndiklərini türkcə şeirə tətbiq edərək, türk divan və təsəvvüf ədəbiyyatını janr və poetik forma baxımından zənginləşdirib. Nizami ədəbi, dini və ictimai səciyyəli mühakimə yürütməyə geniş meydanlar açan epik şeir sahəsinə maraq göstərmiş, yüzilliklərlə davam edən "Xəmsə" ədəbi məktəbinin ədəbi-fikri zəminini yaradıb. Nəsiminin ədəbi zövqünə isə, divan və təsəvvüf şeiri uyğun olmuş, söz sənətinin bu istiqamətlərində özünü bir mütəfəkkir şair kimi təsdiqləməyə müvəffəq olmuşdur.

**–Sizcə, İ.Nəsiminin farsca divanının elmi-tənqidi mətnini hazırlayan Yədulla Cəlali Pəndarinin həmin siyahıda Nizami adını qeyd etməməsinin səbəbi nədir? Burda da qonşu dövlətin milli maraqları rol oynayıb, yoxsa?**

–Bunun başlıca səbəbi, zənnimcə, milli maraqlar deyil, klassik şeirin sözün çoxanlamlılığı üzərində qurulmasıdır. Təkcə Nəsiminin deyil, digər klassiklərimizin əsərlərində də Nizaminin adı iki şəkildə qeyd olunur: açıq və eyham biçimində. Nəsiminin farsca şeirində Nizaminin adının istifadə olunduğunu müəyyənləşdirmək üçün onun ana dilindəki divanına da müraciət etmək lazım gəlir. Çünki hər iki divanda Nizami adı eyham poetik fiquru vasitəsilə şeirə gətirilib və xüsusi təhlil nəticəsində aşkarlana bilir. Əslində, onun türkcə şeirində sələfinin adı daha artıq assosiativliyə malik olduğundan, farsca beytinə də işıq tutmuş olur. Nümunələrə nəzər salaq:

***Vəsfində Nəsimi sözünü ərşə çıxardı,***
***Qanqı sədəfin incusi buldı bu nizami?***

تا نشد چشم نسيمي ز غمت لولوبار
گوهر نظم سرشکش به نظامی نرسید.

*Yəni, Nəsiminin gözü sənin qəmindən (əzab çəkib) göz yaşları axıtmadıqca – hərfən: gövhərsaçan olmadıqca, onun göz yaşlarından yaranmış nəzm gövhəri bir nizama yetmədi..*

Təkcə bu beytlərdə deyil, başqa şeirlərində də Nəsimi "nəzm" – "nizam" – "nizami" sözlərinin assosiativliyi və eyniköklülüyündən istifadə etməklə sələfi Nizaminin adı ilə fikir bağı qura bilib. Məsələn: "Mən mərifət kəlamini nəzm eyləmiş idim // Əşarü nəzmü nəsr nizam olmadan hənuz".

Nəsiminin türkcə divanında "nəzm" sözünün "gövhər" və "dürr" – inci, – ilə əlaqəli istifadəsi sıxlığı ilə diqqəti cəlb edir. Bu məcazlaşmanın ideya qaynağının da Nizaminin şeiri olduğunu düşünmək olar. Belə ki, Nizaminin "İqbalnamə"dəki bir qeydi əsasında araşdırmalarda onun zövcələrindən ikincisinin adının Gövhər olduğu ehtimal kimi ifadə edilib. Bu mənada Nəsiminin "nəzm" sözünü "gövhər"lə çox zaman qoşa işlətməsinin təsadüf olmadığı və onun dolayısı ilə bu məlumatdan da təsirləndiyi fikrə gəlir.

Beləliklə də, göründüyü kimi, Nəsimi sələfinin adını bəlağət elminin açdığı imkanlardan faydalanmaqla, eyham, tənasüb, iştiqaq və s. kimi poetik fiqurlar vasitəsilə xatırlatmağı bacarmış və söz sənətindəki ustalığını bu yolla da nümayiş etdirə bilmişdir. Amma bu kimi xatırlatma-beytlərdə nəzərdə tutulan şəxs adları xüsusi araşdırma tələb etdiyi və ifadə olunan anlamın arxa planında yer aldığından, bir qayda olaraq, adlar indeksində yer ala bilmir...

**–Ancaq Nəsimi batini, hürufi, Nizami İraq məktəbi... Bu iki qütbü birləşdirən əsas özəlliklər hansı idi ki, Nəsimi dönə-dönə Nizami irsini yenidən öz əsərlərində canlandırırdı?**

–Maraqlı qarşılaşdırmadır. Amma bu baxış bucağından da onların hər ikisinin ədəbi zövq və fəaliyyətində ortaq məqamları tapmaq mümkündür. Əslində, Nəsiminin hürufi şəxsiyyəti onu batiniliyə bağlasa da, şair şəxsiyyəti ilə o da İraq məktəbinin – İraq səbkinin nümayəndəsidir. Onu da qeyd edim ki, Nizami bəzən İraq səbkinin, bəzən də bir sıra əsərlərdə müstəqil, digərlərində İraq səbkinin qolu kimi dəyərləndirilən Azərbaycan səbkinin nümayəndəsi sayılır. Xaqani və Nizaminin zənginləşdirdiyi İraq səbki, – eləcə də əsasını qoyduqları Azərbaycan səbki, – farsdilli şeirdə ərəbizmlərə xüsusi bir çəki qazandırdı, ona türkizmlərlə zinət verdi, sözlərin anlam yükü və çalarını artırdı. Sözün çoxanlamlılığı və düşüncələrin çoxqatlılığına geniş imkanlar yaradan bu səbki hər iki şairimiz bədii təxəyyülün ifadəsində məqbul saymışlar. Bu anlamda şair Nəsimi də zəngin məcazlara əsaslanan İraq səbkinin nümayəndəsi və Nizaminin bu səbkidə açdığı yolun davamçısıdır.

**–Nəsiminin bir sıra qəzəllərində çox zaman oxşar mənalarda işlədilən Şirin və Şəkər sözlərinin təzadlı mənalarını görürük. Bu həm də Nizaminin “Xosrov və Şirin”də Şirinin Şəkər obrazından daha üstün olmasına bir göndərmədir, vurğudur. İstərdim, bu incə məqamdan danışasınız...**

–Bəli, Nəsimi şeirinin özəlliklərindən biri də onun Nizaminin “Xosrov və Şirin”inin bu qəhrəmanlarının adını irfani və ya ədəbi-təsəvvüfi baxımdan mənalandırmasıdır. 20 ildən yuxarıdır ki, təkcə bu məcazın işlənmə şəkillərini izləyirəm. Digər tədqiqatçıların nəzərini cəlb etməyən bu incəliyə ilk dəfə “Orta əsrlər ədəbiyyatında eşq anlayışı” məqaləmdə toxundum, daha sonralar “Nizami “Xəmsə”si və rəmzilik”, “Nəsiminin fikir düzənində Nizami məntiqi və söz sənətindən təsirlənmələr”, “Nəsiminin divanlarında onomastik məcazlar və poetik-üslubi özəllikləri” kimi bir sıra məqalələrdə Nəsiminin Nizaminin “Xosrov və Şirin”indən bəhrələnmə şəkillərini müxtəlif bucaqlardan araşdırdım. Hazırda “Nəsiminin “Şirin hekayəti”" adlı məqalə üzərində işləyirəm və bu mövzu mənə yenə əhatə olunmuş kimi görünmür. Səbəb Nəsiminin çoxqatlı irfani görüşləri və bu dərin fikir ümmanında Şirin surətinin də bir xəyali bələdçi statusuna sahib olmasıdır. Nizaminin ideal qadın və kamil insan kimi sevə-sevə qələmə aldığı Şirin surəti arif Nəsiminin təqdimatında ən ali məqamın sahibinə çevrilir, bəzən əslin, zatın və son nəticə etibarilə Haqqın simvoluna çevrilir. Nəsimini Nizamiyə bağlayan ən güclü bağın da Şirin surətinə münasibətdə üzə çıxdığını deyə bilərik. Nizamiyə görə, Şirin gözəllik, iffət, saflıq və ədalətin qadın surətində təcəssümüdür. Mənim qənaətimcə, Nizaminin idealı olaraq, təqdim olunan kişi hökmdarlar, – Xosrov, Bəhram, İskəndər, – deyil, məhz Şirin ən nümunəvi hökmdar xislətinə sahibdir. Nizami heç bir qəhrəmanını Şirin qədər sevməyib, Şirin qədər təəssübünü çəkməyib və onun qoruyucusu olmayıb. Sevdiyi zövcəsi Afaqın bədii təcəssümü

olduğundan əsər boyu sevgi dolu kəlamların müşayiət etdiyi Şirini Nizami Xosrova da qısqanıb...

Ümumiyyətlə, Nizaminin ideal hökmdarı, mənə görə, nə Xosrov, nə Bəhram, nə də İskəndər deyil, məhz ŞİRİNDİR! Ali məqam və ülviyyətin simvolu olan Şirin Nəsiminin də sevdiyi, elə Nizaminin baxış bucağından gördüyü bir surətdir. Nəsimi bəzən onun adını müstəqim şəkildə Fərhad, Xosrov və ya Şəkkərlə yanaşı yad edir, bəzən məcaz olaraq Xosrov və ya Şəkkərlə birlikdə xatırladır. Amma ən çox məcazlaşma və təzadlı anlamlar yaradılması Şəkkər sözü ilə yanaşı işlədilərkən müşahidə olunur: Şirin əslin, Şəkkər surətin rəmzinə çevrilir. Bəzi nümunələrə nəzər salaq:

***Dirildi qisseyi-Şirin, tükəndi Şəkkərin dövrü,***
***Ləbin dövranıdır, gəlgil ki, sənsən Xosrovi-dövran.***

***Dodağın qəndinə şəkkər dedilər,***
***Cani-şirinə gör nələr dedilər...***

***Sənin şirin sözün ta Misrə düşdü,***
***Əritdi, şəkkərü qəndü nəbati.***

Apardığım araşdırma göstərdi ki, Şirin və Şəkkərin hərfi anlamı, eləcə də Nizaminin "Xosrov və Şirin"ində bu iki qəhrəmanın mövqeyi Nəsiminin xəyalını fərqli ənginliklərə doğru qanadlandırmış, çoxsaylı bədii və irfani əsaslı təzadların yaranmasına yol açmışdır.

**–"Fərhad ilə Xosrov, ey Nəsimi, Şirin kələci, şəkkərdəhansan". Çox maraqlıdır ki, bu qəzəli siz "Xosrov və Şirin"dəki iki sevgi üçbucağı kimi – Xosrov-Şi¬rin-Fərhad və Şirin-Xosrov-Şəkkər, – xarakterizə edirsiniz, mənaladırırsınız. Nəsimi yaradıcılığında bu cür dərin işarələnmə nə üçün idi, sadəcə, özündən əvvəlkilərə bələdliyi göstərmək, sözlə ustalıqla rəftar, yoxsa hansısa mənanı ehtiva etmək üçün yaranan ehtiyac?**

–Hər bir sualınız kimi, bu sual da çox düşündürücüdür, yeni araşdırmalara təşviq edir... Əslində, bu kimi beytlərdə qeyd etdiyiniz məqamların hər üçü olur. Şair təlmih vasitəsilə sələfinin fikir dünyasından faydalanır, geniş mütaliəsini dolayısı ilə vurğulayır, çağının insanının o əsərlərə bələdiyini nəzərə almaqla, sələfi ilə eyni düşüncə axarına köklənir, onun dediklərini daha da dərinləşdirmək iddiasında olur və assosiativ anlamlardan istifadə ilə sələfin fikri zəmini üzərində özünün poetik təqdimatını edir. Tədqiqatlarım əsasında belə qənaətə gəldim ki, Nəsiminin ilk dövr yaradıcılığında ənənəyə bələdliyini nümayiş etdirmək, xəyali söz yarışı təşkili daha qabarıq idi, sələfinin şeir texnikasından müəyyən asılılıq, onun cızdığı poetik dairədə fikir fərqliliyi nümayişi daha ön planda olub. Amma şairin söz sənətinin yetkinlik mərhələsində artıq onun məlum olanı naməluma doğru istiqamətləndirmək, sələfinin bədii fikrinin axarını irfani düşüncəyə, daha geniş xəyali gedişlərə yönləndirmək istəyi aşkar görünür. Xatırlatdığınız beytdə də belədir. Nizaminin "Xosrov və Şirin"inə bələd olmadan Nəsiminin bu ad – xatırlatmalarla hansı məqsədi izlədiyini təyin etmək mümkün deyil. Burada haşiyə çıxaraq qeyd etmək istəyirəm ki, Nizamiyə qədər də Xosrov və Şirindən bəhs edən əsərlər olub. Bunun ən məşhur nümunəsi də Firdovsinin "Şahnamə"sidir. Amma bu

iki şəxsi eşq dastanının qəhrəmanına çevirmə, eləcə də bu məhəbbət xəttinə Şəkkər və Fərhad surətlərini gətirmə Nizaminin adı ilə bağlıdır. Xatırlatdığınız beytdə də Nəsimi cəmi yeddi sözlə həm sələfinin məhəbbət dastanına işarə etmiş, poetikanın təlmih, tənasüb kimi fiqurları vasitəsilə söz ustalığı nümayiş etdirib, həm də dərin irfani məzmunları ifadəyə nail olub. Beyti belə açıqlaya bilərik: sevən də, sevilən də, eşqi yolunda canından keçən – Fərhad, – də, yolunda candan keçilən – Xosrov – də səndə cəmləşib, ey Nəsimi. Çünki sözün, – "kələçi", şirin, – həm də: Şirin, – o sözün ifadəçisi, vasitəsi olan ağızın, – "dəhan", – şəkkərdir, – həm də: Şəkkər. Burada dərin irfani məzmunları da çözələyərək üzə çıxarmaq mümkündür. Sözə yüksək dəyər vermənin tarixi səmavi kitablardan da öncəyə gedir və hürufiliyə gəlib çıxanadək uzun bir yol keçib. Bu ənənəni yaşadaraq zənginləşdirən Nəsiminin şeirində söz ilahi mənşəlidir, Yaradana aid bir ali varlıqdır. Söz candır, ruhdur, əsldir... Buna görə, Nəsimi qədim türkcədə söz anlamında istifadə olunan "kələçi" sözünün epiteti kimi Şirinin, sözün ifadəçisi, surət, görüntü olan "dəhan"ın epiteti kimi isə Şəkkərin adlarından istifadə edir.

Gördüyünüz kimi, Nəsiminin bu kimi beytlərinin təhlili şairin həm sələfinin irsinə dərindən bələdliyini, onun söz ustalığında ali dərəcəsini və ənənədən yola çıxaraq, çoxqatlı yeni məzmunlar yaratmaqda fitri bacarığını göstərir.

Ümumiyyətlə, Nəsimi fikri keçidlər üzərində poetik örnəklər yaratmağı sevən şairdir. Bu beytdə də onu görürük: Fərhad və Xosrovun adları müstəqim anlamda şeirə gətirilsə də, digər sözlərin təsiri ilə mücərrədlik kəsb edir. Belə ki, Nəsimi həmin təlmihlər vasitəsilə özünü onların aşiq ruhunun daşıyıcısı kimi təqdim edir. Şirin və Şəkkər adları isə ümumi isim kimi nəzərdə tutulur. Amma Fərhad və Xosrov adları ilə birlikdə "şirin" və "şəkkər" kəlmələri Nizaminin "Xosrov və Şirin" əsərinin qəhrəmanlarının adı ilə də assosiasiyalar yaratmaqla, beytin arxa planında şəxs adı statusu qazanır və tənasüb poetik fiqurunun orijinal səciyyəli örnəyinə çevrilir...

**–Nəsimi qəzəllərində Xosrovdan daha çox Fərhadı əsas qəhrəman hesab edir. Siz bu məqamı necə şərh edərdiniz?**

–Tamamilə doğru vurğuladınız. Bəli, Nəsimi də elə Nizaminin mövqeyindən Fərhada daha artıq rəğbəti ilə seçilir və məndə belə bir qənaət mövcuddur ki, əgər Nəsimi "Xosrov və Şirin" mövzusunda yazsaydı, o da elə Əlişir Nəvai kimi, Fərhadı əsərinin baş qəhrəmanı seçərdi. Çünki şairin, istər farsca, istərsə də türkcə divanlarında yer alan müvafiq beytlərin təhlili belə bir təsəvvür yaratdı ki, Nəsimi bir ideal aşiq olaraq Fərhadı Xosrovdan daha artıq dəyərləndirib, eşqi yolunda tərəddüd etmədən canından keçən Fərhad onun diqqətini daha çox cəlb edib. Şairin özü ilə onun arasında bəzən eyniyyət yaratması da bu münasibətdən qaynaqlanır:

***Gəlmişəm didarına ta canımı qurban edəm,***
***Ey dodağı cani-Şirin, gör nə Fərhad olmuşam.***

Amma Fərhadı nə qədər dəyərləndirsə də, onun da məqamı Şirindən aşağıdır:

***Daşü kəsək oldu vərdi-nəsrin,***
***Fərhad ilə Xosrov oldu Şirin.***

Bəlağətin ləffü nəşr sənətindən istifadə edən Nəsimi Fərhadı "daş", Xosrovu "kəsək", Şirini isə "vərd", – qızılgül, – və "nəsrin"lə, – ağ rəngli yabanı gül, – müqayisə edərək, ümumi və xüsusi isimlər arasında irfani məzmunlu bənzəyən-bənzədilən əlaqəsi qurur. Nəticədə, Fərhad və Xosrov kəsrətin, – çoxluq, surət, Şirin isə vahidin, – tək, zat, – rəmzinə çevrilir.

– Növbəti sualım sizin maraqlı bir qənaətiniz barədədir. Yazırsınız ki: "Nəsimi Leyli və Məcnun bəhsinə verdiyi fərdi yozumlar ilə Füzulinin "Leyli və Məcnun"undakı bir sıra qəzəllər üçün fikri zəmin hazırlayıb". İki "Leyli və Məcnun" müəllifi arasında konkret olaraq Nəsimi hansı poetik zəmini qurub?

Nəsimi sələfinin hər iki eşq dastanının, – "Xosrov və Şirin", "Leyli və Məcnun", – bəzi motivləri və baş qəhrəmanlarını çox zaman təsəvvüfi düşüncəsini ifadə məqsədilə xatırladır. "Xosrov və Şirin"lə bağlı xatırlatmaların səbəb və məqsədləri barədə az öncə bəhs etdim. Şair bu sələfinin Məcnun surətini də Şirin qədər sıxlıqla yad edir, onunla bağlı məlum motivlərdən müxtəlif məzmunlu irfani görüşlərini ifadə edərkən yararlanır. Bu tərzdə təsəvvüfi kontekstə daşınmalar və təsəvvüfi baxış bucağından interpretasiyaları ilə Nəsimi Füzuliyə sələflik edir. Çünki məlum olduğu kimi, Nizaminin "Leyli və Məcnun"unda təsəvvüf baxımından yozula biləcək məqamlar olsa da, bu düşüncənin ifadələri Füzulinin eyniadlı əsərindəki qədər qabarıq şəkildə deyil. "Leyli və Məcnun" motivlərinin Füzuliyədək divan şeirində təsəvvüfi boyalar qazanması və irfani məzmunun ifadəçilərinə çevrilməsinin parlaq nümunələri Nəsiminin şeirində görünür. Bu mənada, istər, Füzulinin "Leyli və Məcnun"u, istərsə də, türkcə divanında eyniadlı qəhrəmanların yad olunduğu təsəvvüfi səciyyəli beytlərlə Nəsiminin şeiri arasında düşüncə və ifadə paralelliyi tapmaq mümkündür. Nəsimi divanından iki beytə nəzər salaq:

***Çünki Məcnun gördü ol üzündə Həqqin surətin,***
***Aşiqin mə'şuqəsi Leyli olur didarına.***

***Yaxıldım eşqinə manəndi-Məcnun,***
***Xəyalın eynimə Leylinümadır.***

Bu kimi beytlər onun irfani məzmunlu qəzəllərində yer alır.

Yeri gəlmişkən qeyd etməliyəm ki, Nəsimi Məcnunu, digər məhəbbət dastanlarının qəhrəmanlarından fərqli olaraq, təklikdə də yad edir:

***Mişkin saçın eşqi bizi zəncirə çəkdi, bağladı,***
***Yə'ni ki, biz məcnunlarız, şol həlqədir zəncirimiz.***

Bu zaman Məcnun adının həm də hərfi anlamı nəzərdə tutulur. Doğrudur, Nəsiminin divanında bəzən "leyl" sözünün "leyli" biçimində Məcnunla tənasüb yaratmadan təklikdə istifadəsinə də rast gəlinir. Amma bu kimi hallarda həmin ifadə izafətin birinci hissəsi və "gecə" anlamını daşıyan ümumi isim kimi işləndiyindən, Leyli surəti ilə assosiasiya yarada bilmir.

Maraqlıdır ki, Nəsimi şeirində bir sıra hallarda Məcnunun adının təkcə çəkilməsi belə, onun məşuqunu da yada salır. Bu şəkildə iki aşiqin bir adla nəzərdə tutulması düşüncəsinə Füzulinin "Leyli və Məcnun"unda da rast gəlinir. Bir dəfə Leyli ilə özünün təsvirinin yanaşı çəkildiyini görən Məcnun sevdiyinin təsvirini pozur və səbəbini soruşduqda belə açıqlayır:

***Dedi: "Bizə birdürür həqiqət,***
***Birlikdə yaraşmaz iki surət...***

**–Nizami Gəncəvinin poetik dünyagörüşünü Nəsimi öz yaradıcılığında hürufiləşdirərək təqdim edirdi, yoxsa özək mənaya sadiq idi?**

–Nəsiminin şeirində Nizaminin ideyalarından daha çox dünyəvi və irfani mövzuların ifadəsində istifadə olunması diqqətimi çəkdi. Qəribədir ki, Nizaminin “Xəmsə”sində yer alan beş əsərdən yalnız sonuncusunun – “İskəndərnamə”nin qəhrəmanlarının adı və əsərin bəzi motivlərindən Nəsimi təkcə irfani düşüncəsini deyil, həm də hürufilik görüşlərini ifadə etmək üçün yararlanıb. İskəndərin Yəcuc və Məcuc qarşısına sədd çəkməsi, dünyanı göstərən aynaya malik olması, dirilik çeşməsinin axtarışına çıxması və s. kimi motivlər Nəsiminin yeni ideyaları üçün fikri zəmin təşkil edib. Məsələn, İskəndərin dünyanı göstərən aynasını nəzərdə tutan Nəsimi deyir:

***Hər arifin kim, oldu ayinəsi camalın,***
***Aləmdə şək degil kim, İskəndərü Cəm oldur.***

Sələfinin dini, bədii və tarixi qaynaqlar əsasında yazdığı bu əsəri Nəsiminin həm irfani, həm hürufilik düşüncəsini ifadə edərkən istinad etdiyi mötəbər bir qaynaqdır.

**–Nəsimi yaradıcılığının üsyankar ruhu, məncə, “İskəndərnamə”dəki dünya ilə barışmayan, təslimçilikdən uzaq ruhla daha yaxındır. Bu barədə siz necə düşünürsünüz?**

–Nəsiminin, doğru qeyd etdiyiniz kimi, üsyankar ruhuna İskəndərin – dolayısı ilə Nizaminin özünün “İskəndərnamə”də ifadəsini tapan ruh halı daha uyğun görünür. Məlum olduğu kimi, İskəndər yüzillər boyunca şərqli və qərblinin diqqət mərkəzində duran parlaq bir surətdir, cəlbedici şəxsiyyətdir. Nizaminin İskəndəri daim axtarış halında olan, özündə fiziki və əqli qüdrəti birləşdirən kamil insanın simvoluna çevrildiyindən, qəhrəmanı olduğu əsər çoxsaylı nəzirələrin yaranmasına yol açdı. İstər farsca, istərsə, türkcə divanında İskəndəri yad edən Nəsimi də bu böyük sələfinin son əsərindən istifadə edib. Amma onun poetik xəyalı kimi, irfani düşüncəsi də sələfinin eşq dastanlarından daha artıq bəhrələnib. Ümumiyyətlə, qənaətim belədir ki, onun hüdudlu çərçivəni aşmağa meylli ruhi durumu hər hansı bir əsərin uzunmüddətli təsirində qalmağa imkan verməyib. Bununla belə, Nəsimi “İskəndərnamə”nin təsəvvüfi baxış bucağından yozula biləcək motivlərinə daha çox diqqət yetirmiş, az öncə qeyd etdiyim kimi, sələfinin bu əsərinin qəhrəman və motivlərini irfani ideyalarının ifadəçisinə çevirib. Hər iki divanda yer alan örnəklərdən də göründüyü kimi, Nəsiminin bu əsərdə diqqətini ən çox çəkən motiv İskəndərin Xızırla bərabər dirilik çeşməsi axtarmaq üçün qaranlıq aləmə getməsidir:

***Həm Məsihəm, həm Skəndər, həm mənəm abi-həyat,***
***Həm həyati-Xızr buldum, çeşmeyi-heyvan mənəm!***

***Ləblərin çeşməsinə Xızrü Skəndər, Dara***
***Zəmzəmü kövsər ilə çeşmeyi-heyvan dedilər.***

Qeyd etməliyəm ki, Nəsimi irfani səciyyəli məcaz yaradıcılığında Nizaminin "Xəmsə"sindəki hər bir əsərə müraciət edib. Amma bəhrələnmənin qaynağı və şəkilləri fərqlidir. Belə ki, şair "Sirlər xəzinəsi"nin, – "Məxzənül-əsrar", – adı, "Xosrov və Şirin", "Leyli və Məcnun"un qəhrəman və motivləri, "Yeddi gözəl"in, – "Həft peykər", – adı və bəzi motivləri, "İskəndərnamə"nin baş qəhrəmanı və əsərdə əlaqəli olduğu digər surətlər, – Xızır, Dara, –, əsərin müxtəlif motivləri çeşidli irfani düşüncələrin ideya qaynağı olub. Amma bu bəhrələnmələrdə fikri zəmini Nizaminin ideyaları təşkil etsə də, yenidən mənalandırma və irfani biçimə salınma xələfə – Nəsimiyə aiddir. Buna örnək olaraq, iki motivi qeyd edə bilərik: İskəndərin dirilik çeşməsinin həsrətiylə dodağı qurumuş halda həyatı ilə vidalaşması motivindən Nəsimi irfani düşüncəsini ifadədə istifadə edir. Başqa bir nümunə "İskəndərnamə"dəki dünyanı göstərən ayna ilə camı-cahannüma arasında paralellik quran Nəsiminin bu motivə başqa bucaqdan işıq salmasıdır. Şair ilahinin camını, – bəzmi-ələst nəzərdə tutulur, – Allahın yaratdığı və ona məxsus camı İskəndər və Cəmin, – Cəmşid, – camı ilə müqayisə olunmayacaq qədər yüksək bilir.

Maraqlıdır ki, şair bəzən İskəndərin adını Daradan başqa məşhur və qədim İran şahları, – Cəmşid, Keyxosrov, Keyqubad, Kavus, – ilə yanaşı yad edir. Bu şəkildə bədii yozumda Firdovsinin ilahi fərr düşüncəsi əsasında İskəndəri İran şahları xanədanına bağlama cəhdinin təsirini görmək mümkündür.

**–Nizami Gəncəvi və Nəsimi yaradıcılığını müqayisə edərkən bircə Nizaminin "Yeddi gözəl" əsərindən örnək gətirmirsiniz. Sizcə, Nizaminin bu əsəri Nəsimidə heçmi təəssürrat oyatmamışdı?**

–Haqlısınız, 9 il öncə yazdığım məqalədə bu əsərlə fikri bağlara çox diqqət ayırmamışam. Bunun da başlıca səbəbi bu istiqamətdə əlaqənin qabarıq nəzərə çarpmamasıdır. Əslində, say simvolikasına söykənən "Həft peykər"in, – "Yeddi gözəl", – struktur və ideyası Nəsiminin diqqətini daha çox çəkməli idi. Mövcud paralelliklər barədə birinci suala cavab verərkən qısaca toxundum: hər ikisinin bəzi rəmzi sayları əlaqəli istifadəsində mövqe yaxınlığı və baxış bucağının eyniyyətini görmək olur. Doğrudur, Nizaminin bu əsərinin baş qəhrəmanı və motivlərinə Nəsimi xüsusi maraq göstərməsə də, "Həft peykər"ə bələd olmadan xələfin bəzi beytlərinin ideya qaynağı və bədii-fikri dəyərini də müəyyənləşdirmək mümkün olmur. Məsələn, Nəsimi deyir:

***Müştəri, Bəhramü Keyvan, Tirü Zöhrə, Mehrü Mah***
***Hüsnünə təhsin oxurlar rüb'i-məskun, şeş cəhat.***

Digər şeirlərində eynianlamlı Mərrix, – Mars, – terminini ifadəyə meylli olsa da, 7 planetin adını birlikdə sadalayarkən şairin məhz Bəhram variantını seçimini təsadüf əsəri saymıram və bunu Nizaminin "Həft peykər"inin təsiri kimi dəyərləndirmənin doğru olacağı düşüncəsindəyəm. Başqa bir beytdə də bu əsərin bədii detallarından istifadə diqqətimi çəkdi:

***Ey mənim Xürşidü Mahim, ey çırağım, fanusum,***
***Şux çeşmim, lütfi-şahim, ey mübarək peykərim.***

Nəsiminin yeddi bənzətmə, "Xürşid", "Mah", "çırağ", "fanus", "şux çeşm", "lütfi-şah", "mübarək peykər", – üzərində qurulan bu beytində səma cisimləri ,

Xürşid – Günəş, – Mah, – “şah” və “peykər”in işlənməsi “Həft peykər”in yaratdığı assosiativ fikri keçidlərlə açıqlanıb öz bədii dəyərini ala bilir. Amma bu kimi beytlərdə sələfin bədii təxəyyülünə bağlılıq daha alt qatlarda mövcud olduğundan, təfərrüatlı araşdırma nəticəsində üzə çıxarıla bilir.

Nəsiminin farsca bir şeirində “şahid”, – gözəl, – və “pəri” ilə əlaqələndirilən “peykər”in İskəndərlə bir beyt daxilində istifadəsi də Nizami “Xəmsə”si ilə assosiasiya yaradır. Şairin başqa beytlərində də Nizaminin “Həft peykər” əsərinin motiv və elementlərinin “Xəmsə”nin digər əsərləri ilə simmetrik bədii detal kimi istifadəsinə rast gəlinir:

***Məcnun kim ola, aqibət şol zülfi-zəncir olisər,***
***Yay oldu fitnələr mənə, kirpiklərin tir olisər.***

Bu beytdə Nizaminin “Leyli və Məcnun” əsərindən alınan Məcnun və onun zəncirə bağlanması motivi ilə “Həft peykər”də ov səhnəsində yad olunan Fitnə, “ox” və “yay”ın eyni bir mətn daxilində əlaqələndirilməsi təsadüfi deyil və sələfin bədii xəyal gücünün divan və təsəvvüf şeirinə də nüfuzedici təsirini göstərir. Amma Nəsimi öz yaradıcılıq yoluna sadiq qalaraq, Məcnunun zəncirini gözəlin zülfü, Fitnənin taleyini dəyişən yay və oxu qaş, “yay”, – və kirpik “tir” ilə əlaqələndirir. Burada “tir” təkcə ox anlamını daşımır, o həm də yazı, katiblik sənəti ilə bağlı Ütarid, Tir, Merkuri, – planetinin də adıdır.

Maraqlı bir müşahidəni də qeyd etmək istərdim ki, Nəsiminin bu əsərdə ən çox diqqətini çəkən və çoxqatlı düşüncələrini ifadəyə yol açan Fitnə surətidir. Məhz onu şair Nizami gözəllərinin sonuncusu, onların gözəlliyinə möhür vuran “üzük”, – “xatəm”, – adlandırır:

***Qəmər dövründə, ey fitnə, son oldun xublara xatəm,***
***Sənin xalın xəyalından cahan pürşurü qovğadır.***

Göründüyü kimi, şair həm Məhəmməd peyğəmbərlə bağlı təsəvvürlərdən, – “qəmər dövrü”, “xatəm”.., – həm də Nizaminin dördüncü məsnəvisinin motivlərindən, – Fitnə, gözəl..., – yararlanıb. “Xatəm” sözü də xitamla, – yekun, – əlaqəli ifadə kimi beytdə çoxanlamlılıq yaratmağa xidmət edir. Nəsiminin başqa bir beytinin fikri açarı da yenə Nizaminin bu əsərinin məlum motividir:

***Sənə ol gün kimi, ey fitnə, sücud eyləyənin,***
***Əxtəri-taleyi məs’udu müzəffər dedilər.***

“Həft peykər” əsərindən də məlum olduğu kimi, Fitnə Bəhram şahdan üzr istəyib ona səcdə edəndən sonra tale onun üzünə gülür...

Gördüyünüz kimi, Nizami irsinə bələd olmadan Nəsiminin bir sıra beytlərinin ideya qaynağını, fikri tutumunu və bədii dəyərini müəyyənləşdirmək mümkün deyil.

Sonda Nizami və Nəsiminin fikri bağlılığını açıqlamağa yardımçı olan məntiqli və düşündürücü suallarınız üçün sizə çox təşəkkür edirəm. Çünki bu suallar öncə diqqət etmədiyim bir sıra məqamları araşdırmağa təşviq etdi...

***Söhbəti Fərid HÜSEYN apardı***

*Xəyal RZA*



# KÖTÜK BABA

♦ *Novella*

Mən gözlərimi dünyaya açanda anam, atam, qardaşlarım heç biri bu dünyada yox idilər... qohumlarımın çoxu qırılmışdı. Sağ qalanlar isə əlil idilər – müharibə əlili.

“Müharibə əlili...” Bundan bir az balaca olanda müharibə əlili olan babamdan tez-tez bu sözün mənasını soruşurdum: “Müharibə nədir? Əlil nə deməkdir?” O isə hər dəfə cavabında “sən hələ balacasan, böyüyəndə bilərsən” deyirdi.

Qohumlarımızın, qonşularımızın, babamın üzü gülməzdi heç vaxt. Xoşbəxt deyildilər sanki. Belə məsələlərdən o qədər də başım çıxmasa da, hiss edə bilirdim. Onların üzündə həmişə bir nigaranlıq, həsrət, nisgil, kədər, qüssə var idi.

Biz uca bir dağın ətəyində yaşayırdıq. Bizim yerlərdən böyük bir ərazi ovuc içi kimi görünürdü. Aşağılarda bir neçə kənd vardı. Amma kəndlər viran qalmış xarabalıqlara oxşayırdı. Axşamları isə daha dəhşətliydi, işıq gələn bir ev belə gözə dəymirdi. Babam deyirdi ki, əvvəllər bütün o evlərin işığı var imiş, orada yaşayanlar var imiş, hətta ayrı-ayrı kəndlərdən, uzaq rayonlardan biz tərəflərə istirahətə gələn, yeyib-içən insanlar, ailələr olurmuş, gülüşləri, qışqırıqları dağlarda əks-səda verən uşaqlar olurmuş. Bəs hanı o insanlar? Hanı o uşaqlar? Niyə gəlmirlər? Mən doğulandan belə bir şey görməmişdim.

Bütün fəsilləri gözəl olurdu biz tərəflərin. Yazı bir başqa gözəl idi. Mən ən çox yaz fəslini sevirdim. Yayı da sevirəm. Amma qış və payız gözümün düşmənidir. Yəqin çox üşüdüyümə görə. Babam üçün isə fərqi yox idi. O, o qədər müdrik idi ki, hər şeydə bir gözəllik tapırdı. Hərdən düşünürdüm ki, görəsən bütün qocalar belə olur?! Hər şeyi sevmək, hər şeydən razı olmaq necə mümkündür axı?

Xoşbəxt olmasa da, xoşbəxt görünməsə də, babam bunu mənə hiss etdirməməyə çalışırdı. Ona görə “mən qışı sevmirəm” deyəndə, ağzımın üstündən vururdu, “elə demə” deyirdi, “Allahın yaratdığı hər şey gözəldir”.

Qışda çoxlu qar yağırdı biz tərəflərə. Yox, əslində, qarı da sevirəm deyəsən. Mənim sevmədiyim təkcə buz kimi havadı. İlk dəfə qarı görəndə elə sevinmişdim, elə sevinmişdim ki, bu möcüzəyə... Babam gülümsünüb, “qartopu oynayaq” demişdi. Onsuz da üstüm-başım ağappaq idi.

Dağların ətəyində hərdən itlərin ulaması, hərdən də qışqırıqlar, bağırtılar eşidilirdi. Bəzən sərxoş adamların səy-səy mahnılara qışqıra-qışqıra əylən-

məklərini də eşidirdik. Belə vaxtlarda babam çox əsəbi görünürdü. Səbəbini isə hər zamankı kimi demirdi, özünə qapanırdı. Qorxumdan sual verə bilmirdim həmin anlarda.

Bir gün isə əlllərində dəmir-dümür olan bir sürü adam görmüşdüm biz tərəflərdə. Babamın yenə təzyiqi qalxmışdı. Soruşanda birtəhər öyrənə bilmişdim ki, onlar əsgərlərdir, əllərindəki dəmir-dümür isə silahları. Sən demə, aşağıdan gələn anqırtı səsləri də bunların səsləri imiş.

Belə məqamlarda Bənövşə xala səhərə qədər susmazdı. Elə bir ucdan qarğış edərdi. Qarğışın nə demək olduğunu da onda öyrənmişdim. Niyə qarğıyırdı görən onları?

Bənövşə xalayla babam tez-tez mənim baş açmadığım mövzularda mübahisələr edirdilər. Belə başa düşürdüm ki, mübahisə zamanı babam daha inamlı danışır. Bənövşə xala isə elə bil ölmüşdü, basdıranı yox idi.

Sonradan silahların nə olduğunu anlamağa başladım yavaş-yavaş. Məntiqimi işə saldım, belə bir nəticə alındı ki, silahlardan atəş açılır, adamlar bununla bir-birilərini öldürə bilrlər. Bu, iki millət, iki dövlət arasında baş verəndə isə adı müharibə olur. Müharibə əlili isə müharibədə yaralananlara, şikəst qalanlara deyilir. Babam başqa bir qəza və ya təbii fəlakət nəticəsində də əlil ola bilərdi, ya da anadangəlmə əlil ola bilərdi, amma müharibədə əlil olduğu üçün ona “müharibə əlili” deyirlər.

Babamın əlisilahlı əsgərləri görəndə əsəbiləşməyinin səbəbini də öyrənə bildim. Hərdən gecənin qaranlığında səy-səy musiqilərə qışqırıb-bağıran adamların səslərinə dilxor olmağının da səbəbi məlum oldu. Çinar dayım mənə başa saldı ki, onlar düşmənlərdir. Və başımıza gələn bütün bəlaların baiskarları onlardır. Atamın, anamın, qardaşlarımın yoxluğu da, qohumlarımın şikəst qalması da, babamın bu vəziyyəti də onların ucbatından olub.

Bu yerlərin o insanlara aid olmadığını isə babam bütün bunları mən ona danışanda dedi. Deyəsən, hiss elədi ki, artıq böyümüşəm. Mənimlə dərdləşmək olar.

Babam baş verən dəhşətləri danışdıqca mən daha da böyüyürdüm, çox sürətlə böyüyürdüm sanki. Elə bilirdim indi mən özüm də babam yaşdayam. Gülən üzümdən, kefcilliyimdən əsər-əlamət qalmamışdı. İçimdə dəhşətli bir yanğı vardı, qisas yanğısı. Bu yanğını da, nifrət eməyi də yenicə öyrənmişdim. Nifrətin nə olduğunu, kimə, kimlərə edildiyini indi yaxşı başa düşür və deyəsən, yaxşı bacarırdım.

Birdən-birə mən bu yerlərin payızını, qışını da sevməyə başlamışdım. Vətən sevgisi, Vətən məhəbbəti mənim canımı üşüməyə qoymurdu, qisas yanğısı bütün bədənimi isidirdi, mən indi yaxşı başa düşürdüm babamı, mən indi anlayırdım ki, “Allahın yaratdığı hər şey gözəldir” deyəndə o, bunu hansı yanğıyla deyirmiş.

Mən böyümüşdüm, çox böyümüşdüm. Babam yalan olmuşdu, mən gerçək. İndi aşağılardan gələn anqırtı, bağırtı, musiqi, əyləncə səslərinə mən babamdan əvvəl əsəbiləşirdim, o murdar əlisilahlı əsgərləri görəndə, üstlərinə atılıb, parça-parça etmək keçirdi içimdən. Bənövşə xalanın onları qarğıması ürəyimdən tikan çıxarırdı sanki. İndi mən sevdiklərimin niyə heç bir zaman xoşbəxt olmadıqlarını yaxşı dərk etməklə yanaşı, özüm də xoşbəxt deyildim.

Babamın gözləri yol çəkirdi hər zaman. O, uzaqlara baxıb fikir çəkəndə, artıq nə düşündüyünü anlayırdım. O, kimlərinsə gəlişini istəyirdi. O, evlərin işıqlarının yanmasını istəyirdi. Sən demə, “bir vaxtlar buralara istirahətə gələn insanlar var idi” deyəndə gözləri ona görə dolurmuş.

Babam mənim yanımda ağlamazdı heç vaxt. Qürurlu idi, çox qürurlu. Yalnız bir neçə dəfə yağış yağanda ağladığını görmüşdüm. İndi başa düşürəm ki, o, niyə ancaq yağış yağanda ağlayır... Göz yaşlarını kimsə görməsin deyə!

Bir dəfə babamla Çinar dayımın söhbətinə qulaq asanda Şəhid sözü eşitdim. Adətim üzrə təzə eşitdiyim sözün anlamını bilmək üçün əl-ayağa düşdüm. Babam elə şeylər danışdı ki, Şəhid olmaq istədim.

Şəhid olmaq istəyirdim, qisas almaq istəyirdim, babamın ümidlərini doğrultmaq istəyirdim, onun uzaqlara dikilən baxışlarının, onun yağışda axıtdığı göz yaşlarının əvəzini çıxmaq istəyirdim, Çinar dayının fəxri olmaq istəyirdim, Bənövşə xalanı "diriltmək" istəyirdim, bütün qohumlarımın, sevdiklərimin ruhu sevinsin istəyirdim. Eybi yox, Şəhid ola bilməsəm də, babam kimi müharibə əlili olaram, amma Vətən azad olar!

Babama "mən də Şəhid olmaq istəyirəm" deyəndə, gözləri yaşardı, qəhərdən boğuldu, mənə sarılmaq keçdi könlündən, hiss elədim, amma qolları yox idi, sarıla bilməzdi, qəribə, çox qəribə bir görkəm alıb, boğuq səslə "bu mümkün deyil, balaca" dedi.

Şəhid ola bilməyəcəmsə, niyə yaşayıram axı mən?! Torpaqları azad edə bilməyəcəmsə, niyə yaşayıram, niyə böyüyürəm axı mən?! Ağrılar bütün bədənimi sarmışdı. Yaşamaq gözümdə adiləşmişdi. Əlimdən heç nə gəlmirdi və bu, məni məhv edirdi, ruhum sarsılmışdı, gözlərim qaralırdı, başım gicəllənirdi bunları düşündükcə.

Gecələrin birində aşağı kəndlərdən qışqırtı, bağırtı səsləri ucaldı. Bu, həmişəki kef qışqırıqlarından deyildi. Təşviş, həyəcan var idi. Babama baxdım, yatmamışdı, səslərə qulaq verirdi, Çinar dayı da həyəcanla eyni istiqamətə baxırdı, Bənövşə xalanı da oyaq görəndə nəsə fərqli bir şeyin baş verdiyini anladım.

Səhərə yaxın atəş səsləri eşidildi. Hər tərəfə güllə yağırdı. Düşmən əsgərləri gözlərini açmağa macal tapmamış, raketlər başlarına yağmağa başladı. Mən ilk dəfə idi belə səslər eşidirdim. Hər yer alışıb-yanırdı. Fəryad səsləri ərşə qalxmışdı. Bənövşə xala "ölün elə, gəbərin elə, it uşağı it" deyib bağırırdı. Çinar dayı qollarını bacardığı qədər yuxarıya qaldırmışdı, sanki çığırıb hoppanmağa hazırlaşırdı, babam göz yaşları içindəydi, ilk dəfə idi yağışa xəyanət edirdi.

Mən nə baş verdiyini tam anlaya bilmirdim. Amma baş verən hər nə idisə, Çinar dayımı da, Bənövşə xalanı da, babamı da xoşbəxt eləmişdi. Mən ilk dəfə idi kimisə, kimlərisə xoşbəxt görürdüm. Xoşbəxtliyin nə olduğunu, xoşbəxt olmağın necə olduğunu da onda anladım. Xoşbəxt olmaq istədim. Onlara oxşamaq istədim. Sevincimdən uçmaq istədim, amma qisas hissi, Şəhid olmaq istəyi bu hissimə üstün gəldi. Yenidən qəzəbli, hirsli bir görkəm aldım.

Qəribədir, axı, başımıza güllə yağır, axı, hər tərəf alışıb yanır, axı, biz indi, elə bu andaca ölə bilərik, şikəst, əlil ola bilərik, bunlar niyə, nəyə sevinirlər belə?.. Mən gah aşağılara, gah alışıb-yanan ətrafımıza, gah göyün üzünü bürümüş qatı tüstüyə, gah göydə süzən işıqlı güllələrə, gah da babama, Çinar dayıma, Bənövşə xalaya baxırdım.

Babam gülürdü, güldükcə də gözlərindən sel-su gedirdi. Ətrafına düşən bombalara gözlərini belə qırpmırdı. Elə bil göydən bomda deyil, xoşbəxtlik yağırdı.

Səsimi çıxara bilmirdim, qorxurdum sual versəm, onların xoşbəxtliyinə mane olaram, onları ayıldaram, ayılıb görərlər ki, xoşbəxt deyillər. Ümumiyyətlə, mən onların heç vecinə də deyildim. Mənim varlığımı unutmuşdular. Mən tərəfə baxan belə yox idi. Bənovşə xala güllə yağışı altında qarğış yağdırırdı, Çinar dayı uçmağa hazırlaşırdı, babam güllə yağışında gülə-gülə ağlayırdı.

Özümü saxlaya bilmədim, səsimin eşidilməyəcəyindən, məni görməyəcəklərindən qorxub, var qüvvəmlə bağırdım: "Eyyyyyy!!! Siz niyə xoşbəxtsinizzz?" Babam mənə tərəf baxıb, "gəlirlər, balaca, gəlirlər" dedi.

Səhərə qədər yatmadıq. Kim gəlirdisə, kimlər gəlirdisə, bu xoşbəxtliyin bitməsini istəmirdim. Üzümü-gözümü turşutmağıma baxmayaraq, içimdə mən də xoşbəxt idim. Ürəyim yerindən çıxırdı. Hövsələm bir qırıq olmuşdu.

Gecə boyu atəş səsləri susmadı... Bu vəziyyət gün boyu davam elədi. Axşama doğru aşağıda fəryad qoparan, anqıran adamların səsləri kəsildi. Gecə tək-tük güllə səsləri eşidildi.

Növbəti səhər xeyli sakitlik idi. Ara-sıra uzaqdan, çox uzaqdan atəş səsləri gəlirdi.

Babam da, Çinar dayı da, Bənövşə xala da, qonşular da xoşbəxt idilər. Mənim qorxduğum baş vermədi. Onlar bu xoşbəxtlikdən ayılmadılar.

Mən yarı xoşbəxt idim, yarı yox. Bunun səbəbini tam anlaya bilmirdim. Bəlkə də payız ayı olduğu üçün, sevmədiyim payız... amma üşümürdüm. Qəribədir. Əksinə, alışıb-yanırdım. Deyəsən, bu istilik xoşbəxtliyin doğurduğu həyəcanın istiliyi idi...

Bir sonrakı səhər babamın qışqırığına oyandım. Üç gecə idi yatmırdıq, deyəsən, onlar qədər dözümlü ola bilməmişəm, yuxu məni aparıb. Babam dayanmadan "Gəldilərrr! Gəldilər! Bilirdim gələcəklər! Gəldilərr!!!" deyib, bağırırdı. Mən aşağıya, onun baxdığı istiqamətə boylandım. Əllərində silahlar olan yüzlərlə əsgər var idi.

Əsgərlər üçrəngli bayrağı yarıuçuq, hündür bir binanın damına sancanda babam hönkür-hönkür ağlamağa başladı. Çinar dayım da, Bənövşə xala da hıçqırıb babama qoşuldular. Hiss elədim ki, göz yaşlarımı saxlaya bilmirəm. Bu, mənim ilk ağlamağım idi. Buna qədər mən ağlamağın necə olduğunu bilmirdim.

Mən müdrikləşmişdim. Mən payıza aşiq olmuşdum. Allahın yaratdığı hər şey gözəl imiş. Mən çox xoşbəxt idim. Hər kəs xoşbəxt idi. Hər şey xoşbəxt idi. Yer də, göy də, uçurulmuş, viran qoyulmuş, işıqsız evlər də, müharibə əlilləri də.

Günlərin bir günü qəribə səslər eşitdim, onların qışqırıqları, gülüşləri dağlarda əks-səda verirdi. Onlar bu əks-sədanı eşitdikcə daha da bərkdən gülürdülər, daha da bərkdən qışqırıb əylənirdilər. Bir neçə balaca uşaq biz tərəflərə qalxırdı. Mən ilk dəfə idi uşaq görürdüm. Onlar çox xoşbəxt görünürdülər.

Uşaqlardan biri yüyürüb babamın kürəyinə dırmaşdı. Babam dillənmədi, heç nə demədi. Mən matdım-matdım onlara baxırdım. Babam bu vəziyyətdən həzz alırdı sanki. Bir az gözlədim ki, bəlkə uşaq babamın kürəyindən düşər. Düşmədi. Dedim, bəlkə babam özü dillənər ki, "a bala, düş kürəyimdən, bəsdi." O da dillənmədi. Məndə qəribə bir qısqanclıq baş qaldırdı. Axı, uşaq mənim əlil babamın kürəyinə niyə minməlidir? Mənim babamın!

Uşaq eşitməsin deyə, pıçıltıyla babamı dümsüklədim: Babaaa, babaaaa! Denən düşsün kürəyindənnn!

Babam dillənmədi, gülümsünürdü, xoşbəxt idi.

–Babaaaa! Sənnənəm eee, denən düşsünnn! – hirslə dedim.

Babam mənə baxıb gülümsəyərək göz vurdu. – Dəymə, – dedi, – qoy oynasın!

Uşaq babamın kürəyində atılıb-düşürdü. Atılıb-düşdükcə də qəşş eləyib gülürdü, uğunub özündən gedirdi. O biri uşaqlar da ona baxıb dayanmadan gülürdülər.

Sonra uzaqdan məlahətli bir qadın səsi eşidildi:

"Üzeyir! Üzeyiir! Düş kötüyün üstündən, yıxılarsan!"

# Meşəbəyinin canavar qonaqlığı

**♦ *Hekayə***

Ona qədər biz nə meşəbəyi görümşdük, nə canavar...

- Hazırlaşın! Sabah lagerə gedirsiz!

Özü bilə-bilə son gün xəbər verirdi ki, heç kim etiraz etməyə fürsət tapmasın. Biz ilk dəfədir evimizdən, atamızdan, anamızdan uzaqda yaşamalı olacaqdıq. Həm də az qala əsgəri xidmətə bərabər bir yerə göndərilirdik. Anam acıqlanmışdı, kədərlənmişdi. Amma cürət edib, qəti şəkildə etiraz edə bilmirdi. Yaxşı bilirdi ki, atam bununla bağlı qərar veribsə, üstəlik hər şey hazırdırsa, sabaha bizi aparmaq üçün dostuna maşınla gəlməyi belə xahiş edibsə, deməli, heç nə dəyişə bilməz. Bilmirəm, bu fikri onun başına kim salmışdı?! Bəlkə də bundan əvvəl lager haqqında elə-belə söz salıb, biz də gic kimi görmədiyimiz bir şeyi həvəslə istəmişik… Ya da hansısa dostundan gəlib belə bir fikir, yeyib-içmək məclisində kimin nə planı olduğu, yay tətilində uşaqlar üçün nə düşündükləri müzakirə edilir, axı, bəzən, kimsə dilini dinc qoymayıb, lagerdən danışıb, bizimki də həvəsə gəlib, elə bilib, ürəyimiz gedəcək bu təklifə. Lager… Evdən-eşikdən uzaqda. Dünaynın o başında. Hələ anamsız qalmaq… Nə yaşım var idi ki, mən yazığın?! Lagerə Düşərgə də deyə bilərik… Öz dilimizdə. Nə gərək var, hamı lager deyirdi, biz də lager desək, dünya dağılmaz ki. Üçüncü variant da vardı. Kişini bezdirmişdik nadincliyimizlə. Əslində o qədər də nadinclik etmirdik. Sözəbaxan uşaqlar idik. Yaxşı oxuyurduq. Amma hərdən bir xalxın uşaqları kimi uşaqlığımızı da yaşayırdıq. Velosiped istəyirdik almırdı, qonşunun oğlu velosipedini “kruqa verirdi”, biz də ona xiyar-pomidor verib, velosipedini alıb sürürdük. Sonra pinəçi Nurəddinin oğlu, ciqan Niyazinin bandasına qoşulduq bir ara. Şəhərin altından girib, üstündən çıxırdıq. Bir qarış boyu olan Niyazidən qorxmayan yox idi. Herti-perti gədələr qarşısında diz çöküb, ağlayıb yalvarırdılar bağışlanmaları üçün. Niyazi gözünə döndüyüm də belində gəzdiriyi bıcağını çıxarıb, diz çökənləri əməllicə sındırmasa, yalvartmasa, əl çəkmirdi. Deyilənə görə, nə vaxtsa bir iksini vurubmuş, bir iksinin də üzünə “şram” atıbmış. Ona görə kim Niyazinin adını eşitsə, şalvarını batırırdı. Mənə görə Ağdam ləhçəsində ən yaxşı danışan elə Niyaziydi. Xüsusi pafosla danışırdı, bizdən fərqli, hamıdan fərqli danışırdı. Danışanda da alt dodağı sola doğru əyilirdi. “Qaqa saa deməmişdiim?” - deyəndə bəs edirdi qabağındakı adamın titrəməsinə. Biz də Niyazinin bandasında kef edirdik. Kimin həddi var idi “gözünün üstündə qaşın var” deyə. Daha sonra Sünbül kafesinə dadandıq. Dünyanın dadı-duzu, ləzzəti Sünbülün xəngəlindəydi. Bal idi, ilahi, qaymaq idi, ləzzət idi. Yarpaq xəngəli, yanında da ayranı. Yazıq anam bir dəfə gəlib, bizi orda tutmuşdu. Dərsdən qaçıb getmişdik deyə. Sonra demişdi ki, sizin ürəyiniz nə vaxt xəngəl istəsə, deyin, mən bişirim də. Bu sözü sonralar da tez-tez

eşidiridik. Amma biz Sünbülün xəngəlindən ötrü ölürdük. Həm də kişilənirdik… Özümüz gedirdik, özümüz “şot” verirdik. Bu da ləzzət eləyirdi. Nə yaşımız var idi ki?! Bizim taylarımız qapının ağzına çıxa bilmirdi icazə almamış. Elə biri bizim dayıoğlu. Nənəsi, anası təpəsin əzərdi qapıdan on metr uzağa getsə. Onu da biz pozduq. Hər onlara gedəndə onu evdən oğurlayıb gəzməyə aparırdıq. Balaca bacısını qapıda keşikdə qoyurduq. Deyirdik, biz döngənin başına çatanda, qaç mamangilə de ki, Rəşadı apardılar. Belə-belə dayıoğlu da kişilik məktəbini oxumuş oldu. Hə, kim nə deyir desin, bu, kişilik məktəbi idi, sadaladığım bütün pisliklərin içində yaxşı şeylər görmək lazımdır. Sonradan bunlar bizim formalaşmağımızda, xarakterimizdə xüsusi rol oynadı. Mən atamın cibindən pul da oğurlamışam, amma böyüdükdən sonra kiminsə bir manatına göz dikməmişəm. O uşaqlıq idi. Uşaqlıqda qaldı. Biz – qardaşım da mən də, sanki hər şeyin dadına, ləzzətinə dərs çıxara-çıxara, analiz edə-edə, bir nəticəyə gələ-gələ baxırdıq. Velosipet də aldım. Gizlətdim. Gizlincə sürürdük. Oğurluq pulla alınmışdı deyə. Kişinin cibindən ilk dəfə çəkdiyim pula qəribə də olsa qab-qacaq almışdım. Anam pulu hardan aldığımı soruşanda yerdən tapdığımı demişdim. Pulun cibimdə qalmasından qorxduğumdan, guya yönlü iş görüb, qab-qacağa verib, gətimişdim evə. Daha sonralar isə pulumun olması uşaqların arasında ən bahalı siqareti mənim çəkməyimə şərait yaratmışdı. Hə, deməmişdim, hə? Siqaret də çəkirdik. Qonşunun eşşək boyda gədəsi bizim həyətə keçəndə öyrətmişdi. Dedi, gəlin siqaret çəkək. Dedik, biz siqaret çəkmirik. O da dedi, bu siz bilən siqaret deyil, kağızın arasına xəzəl qoyub çəkək. Elə ilk anda da yaxalandıq. Anam işdə idi. Atam adəti üzrə günorta dincəlməyə gəlmişdi, işə qayıdacaqdı. Evdən çıxanda zəhrimarı ağzımda gördü. İş-miş yaddan çıxdı. Qonşunun gədəsi rədd oldu. Qardaşımla məni “kladovka”da asırdı gerçəkli. Anam da yox idi ki, qanımızın arasına girsin. Ağlamaqdan qan-bağır olmuşduq, qorxudan ölürdük, yalvarmaqdan əldən düşmüşdük. Denən, a kişi, kağızdır da, niyə öldürürsən bizi, bir-iki kəlmə de, başa sal, çıx get işinin dalınca. Bax, həmin o asıb-kəsmələr sonradan bizi siqaretlə tanışdırdı. Aksiomadı. İnsanı nədən çəkindirsən, ona doğru gedər. Dedik, görək bu nədi belə, bunun üstündə öldürürdü bizi?! “Monte Carlo”, “Magna”, “LM”, “Congress", unutduğum qəribə adlı siqaretlər... Mənsə ən bahalısını - “Marlboro” çəkirdim. Boynusınmış dükan satıcılarının isə heç vecinə də deyildi, uşaqların ağciyərləri. Kopolunun “Marlboro”su, qoxusu, ətiri bambaşqa idi. Birini yandırıb, Leninin damağına qoymuşdum, axıra qədər əriyib getmişdi, külü qalmışdı siqaret uzunluğunda.

Gərçək siqaretlə də tutuldum. Səhər-səhər guya uşaqlarla qaçmağa gedəcəkdik. Baxdım atam məhlənin başında dayanıb, işə getmək üçün taksi gözləyir. Uşaqlar dedi, atan ordadı, gəl, yolumuzu dəyişək, dedim, yox. Getdim görüşdüm. - Atam, hara gedirsən bu vaxt? - Atam mənə atam deyə xitab edirdi. Dedim, uşaqlarla qaçmağa gedirik. Sevindi yazıq kişi. Cibimə o qədər zir-zibil doldururdum ki, məni görəndə həmişə adət etmişdi üstən şişmiş ciblərimə toxunub, bu nədi, cibini boşalt - deməyə. Adəti üzrə üzümdən, boynumdakı yarpaq xaldan öpdü… Buna peyğəmbər nişanəsi də deyirlər. Deyirdilər, peyğəmbər barmağın basıb. Uşaqlıqda o qədər demişdilər ki, hələ də buna inanıram, özümü bütün bədliklərə, xəta-bəlaya qarşı müafizə olunmuş müqəddəslərdən sanıram. Pencəyin cibini deşib, siqaret qutusunu astara ötürüb arxa tərəfə itələmişdim. Elə bil əli ilə qoymuşdu. Düz belimdə qutunu ifşa elədi. – Çıxart görüm, bu nədi? O an əlli bəhanə fikirləşdim. Xeyri olmadı. Əvvəl nəsə başqa bir şey mızıldandım. Siqaret cibimdən çıxanda, qəzəbli-qəzəbli baxıb, kimindi

bu, dedi. Dedim, Aydınındı, atasına alıb. Dedi, səndə nə gəzir? Dedim, Aydın xahiş etdi ki, saxla, sonra götürəcəm. Ağzıma gələni danışdım. Belə olmağıma baxmayın. Vallah yalan danışa bilmirdim. Qulaqlarıma qədər qızardım. Həm də biz uşaqkən undurduq ki, atamız da uşaq olub. Ona "atış gləmək" mümkün deyil. Ona görə, iki vur ikinin cavabı kimi siqareti tapa bildi. Nə Aydına, nə Aydının atasına, əslində isə mənə inanmadı. Qulağımın dibində açılan şapalaq bütün öpüşləri, xalları, peyğmbər nişanəsini unutdurdu o anda. Gözlərim doldu. Dedi, get evə, işə dəyib gəlirəm, səni asacam. Çevrilib evə doğru gedə-gedə "uşaqların sözünə niyə baxmadım, arxa küçədən niyə getmədim" deyə, özümü bildiyim yüngülvari söyüşlərə qonaq eləmişdim ki, arxadan çağırdı, "ə, bura qayıt, əəə, bir dəqiqə". Atam- matam yaddan çıxmışdı. Üç yüz altmış dərəcə çevriliş – atamdan - ə-yə. Qayıtdım. Yenə axtarmağa başladı. Bu dəfə əsl polis əməkdaşı kimi. Siqareti tapıb, kibriti axtarmayacaq? Ay-hay. Elə bil əli ilə qoymuşdu. O biri deşikdə də kibrit qutusunu tapdı – bu da yandırmaq üçündü, köpəyoğlu? Get, gəlirəm. - Çevrilən kimi dalıma da bir "moşnu" təpik.

Atam gələnədək qırx dəfə öldüm dirildim. Anam məni müdafiə etmək üçün bilmədi nə düşünsün. Özümü xəstəliyə də vurdum xeyri olmadı. Aydını çağırıb, soruşdu, boynuna qoydu ki, atası belə bir siqaret sifariş verməyib. Qapıdan çıxmaq qadağan edildi. 24 saat nəzarət altında idim az qala. Qəzəbli nəzərləri məni hər yerdə izləyiridi. Yumşalmırdı ki, yumşalmırdı. Doğrudan a, heç yadıma düşmürdü. Səbəb elə bu idi yəqin. Bizi gedər-gəlməzə göndərməklə qisas alacaqdı. Bizim anlamımızda kişilik məktəbi yuxarıda sadaladıqlarım, onun anlamında isə lager idi! Əşşi, olsun düşərgə. Axşama doğru anamı əsəbləşdirən başqa bir sürpriz də oldu. Beyləqandan bacısı oğlu gəldi. Bu nə idi indi? Biz evdəykən dəvət etsə, yenə nəysə. Bizimlə oynayacaqdı və s. Bizi yola salıb, bunu niyə dəvət edir ki? Anam da elə buna hirslənmişdi. "Mənim balalarımı sürgünə göndərir, öz bacısı oğlunu kef verməyə çağırır. Bunun qulluğunda durmaq var indi".

Səhər tezdən maşın gəldi. Sarı kişinin nivası. Gedəcəyimiz yerin adı Abdal-Gülablı imiş. Get ki, gedəsən. Dağların başına doğru, gedikcə üzüyuxarı, buludlara tərəf dırmaşırıq. Ora çatanda möhtəşəm bir mənzərəylə rastlaşdıq. Hər tərəf yamyaşıl meşə, dağların ətəyində çəmənlikdə qalacağımız düşərgə. Saysız-hesabsız çadırlar. Atam bizi düşərgənin rəhbərliyinə tapşırıb, təhvil verib, soyuq-soyuq görüşərək çıxıb getdi. Bizə qalacağımız çaıdırı göstərdilər. Bir çadırda on çarpayı. On oğlan uşağı. Təbii ki, qızların çadırları ayrı idi. Yeddimiz var idik. Ortada olan üç çarpayı boş idi. Kiminçünsə saxlamışdılar. Elə ilk gündən macəralar başladı. Başıma gələcəklər çox gözlətmədi. Qarnımın qurultusu qulaq batırırdı. Havamı dəyişmişdim deyə, vəziyyət gərgin idi. Soraqlaya-sorayqlaya ayaqyolunu tapdım. Düşərgənin tam kənarında, az qala meşənin içində idi. Hansısa heyvan parçalamağa cəhd eləsə, düşərgə xəbər tutana qədər adamın sümüyü qalar. Baxdım ki, qapının birində cəftə var, amma o birində sındırılıb. Rahatlığı sevirəm. İçəri keçib, qapını bağladım. Təzəcə oturmuşdum ki, iki-üç qızın deyib gülə-gülə yaxınlaşdığını eşitdim. Hardan bilim başıma gələcəkləri. Sən demə, bu qızların tualeti imiş. Qapıda yazılmamışdı. Ya da mən fikir verməmişdim. Beş dəqiqə gözləyib, qapını dartışdırdılar. Az qala nəfəsimi də tutmuşam ki, birdən hiss edərlər içəridə oğlan var, biabır olaram. - Kimsə var? Çıxırmırsınız? - Lənət şeytana. İşə düşdük də. Görürsünüz bağlıdı, çıxın gedin də. Sonra gələrsiniz. Ürəyimdə donquldanıram. Deyinirəm. Getmək fikirləri yoxdur. İçəridən səs gəlməyincə mənim yerimə bunlar əsəbləşirlər. Bir-birlərinə gileylənə-gileylənə qapını qurdalayıb suallar

yağdırırlar. Ən zəhləm gedən, ən nifrət elədiyim şeydir… Mən ayaqyolunda olanda məni kimsə narahat etsin, tələsdirsin. Gözümün düşmənidir. Qalxıb səssizcə dayanmışam. Qızlar isə getmirlər ki, getmirlər. Baxdım ki, nəfəslik var, hə, "fortuşka." Birtəhər yuxarı dırmaşıb, özümü pərçimlədim ora. Meşəyə açılırdı nəfəslik. Amma sən demə düz dibdə arx var imiş. İş-işdən keçmişdi. Dizimə qədər lıqqanın içinə batdım, tənginəfəs özümü yetirdim çadıra. Qardaşım nə baş verdiyini soruşdu, mən danışdıqca qəşş elədi. Sonra heç xəbərim olmadı bağlı qapının aqibəti necə oldu. Qorxumdan, yalan olmasın, iki gün o tərəflərə fırlanmadım.

Təlimatlandırmağa başladılar. Səhər neçədə qalxmalıyıq, səhər yeməyi saat neçədədi, sonra nə, daha sonra nə və sair və sair.

Buranın dəhşəti gecələr imiş ki. Səssizlik, qurd ulamaları, çaqqal bağırtıları, vahimə nə vahimə. Qorxa-qorxa, üyüdə-üyüdə bir təhər yuxuya getdik. Səhər oyanan kimi çadırların yanlarını və üstünü necə açmalı olduğumuzu başa saldılar. İçərinin havalandırılması üçün. Bir yerdə duran deyiləm. Həm başıbəlalıyam, həm də nadinc. Ona görə mənə qohum-əqraba çatı da deyirdi, quyruğu yanmış siçan da. Dırmaşdım yuxarı, çadırın üstünü açdım. Mən enənədək uşaqlar da çadırın yanlarını həll etmişdilər. Sən demə, bunu hava qaralmamış, vaxtında da bağlamaq lazım imiş. Gecə bütün çadırlardan fərqli olaraq bizim çadır açıq qalmışdı. Uşaqlar qorxularından tərpənmək isətmirdilər. Hamı bir-birinə baxıb, kimin irəli düşəcəyini, fədəkarlıq edəcəyini gözləyirdi. O gecə çadır açıq qaldı. Yeddi çarpayı dairəvi şəkildə kənarlarda yerləşdiyindən hec kəsin gözünə yuxu getmədi. Canavar, çaqqal bir yana, itdən pişikdən də qorxurduq indi. Amma çox şükür səhər tez açıldı və bundan sonra növbəçilik sistemi yaratdıq. Artıq çadırın üstü və yanları zamanında açılıb, zamanında bağalanacaqdı.

Bizi dağlara gəzməyə apardılar. Sıldırım qayaların üzərində yazılmış adları görüb biz də həvəsə gəldik. Ən yüksək yerlərdən birinə mən də adımı yazdım. Axşama kino göstərdilər, sabah səhər kəkotu yığmağa gedəcəkdik. Gündüzlər gözəl, günəşli yay havasını, axşamlar sərin dağ havası əvəzləyirdi. Hərdən üşüyürdük.

Səhər yeməyindən sonra kəkotu dalınca dağa qalxdıq. Bölük rəhbəri otlardan, otların faydasından danışa-danışa kəkotunu necə yığmağı göstərirdi. Mənim dərdim isə başqa idi. Salamat qalmaq adətim deyildi. Baxdım ki, uzaqda iki gənc dağın ətəyinə çatmaq üzrədi. Dedim, görən qaçsam, onlardan tez çatarammı. Elə bu ağılla üzüaşağı yelləndim. Getdikcə sürətim artırdı və mən hiss etməyə başladım ki, birazdan bunun qarşısını ala bilmyəcəm. "Tormozlamaq" istədim. Bu isə daha pis imish. Yuvarlanmağa başladım. Yuvarlandıqca kol-koslar üzümü, gözümü, üstümü-başımı, bədənimi cırmağa başladı. Qardaşıma xəbər veriblər ki, mən yuvarlanıram. Özünü yetirdi. Amma artıq gec idi. Cırıq-cırıq olmuşdum. Ufuldaya-ufuldaya, müəllimdən də azar yeməyim deyə, ağrılarımı içimə saldım. O gecə ağrılarıma sarılıb yatdım. Anamı düşünə-düşünə. Səhər oyananda ağrılarım azalmışdı. Və yeni macəralar arzulayırdım. Axşama canlı konsert olacaqdı. O gün çadırımızdakı çarpayıların sahibləri gəldilər. İçində biri yüz yetmiş kilo, yekəpər bir şey idi. Yanındakılar da bu ərköyün uşağın qohumları, əlaltıları idilər. Darixmasın deyə onun üçün hər şeyi düşünmüşdülər. Sən demə, bizə çadır yoldaşı yox, ataman göndəriblər. Çadırın sahibi bu idi elə bil. Bunu ditdililər yeməsinlər deyə, çarpayının dörd bir tərəfini cuna ilə bağladılar. Krallara layiq bir yer düzəltdilər. Yaramaz oğlu yaramaz, başladı uşaqların başına oyun açmağa… Acılamağaş... Məzlənməyə... Heç

kimin səsi çıxmırdı. Hamı çəkinirdi ondan. Hardansa eşitdik ki, bu gamış lal Tahirin oğludu. Biz heç lal Tahirin kim oldğunu da bilmirdik. Hər kim idisə, düşərgə rəhbərliyinin də, əməkdaşlarının da ondan çəkindikləri şübhəsiz idi. Elə buna görə onun oğlu çox rahat hərəkət edirdi və bəlkə də uşaqlar şikayət etməyin mənasızlığını bildikləri üçün susurdular. Dəqiq yadıma gəlmir, amma mən qardaşımı və özümü təhlükədən sığortalamaq üçün ona kiminsə adını vermişdim. Ya atamın, ya atamın dostlarından birinin. O da tanımaya-tanımaya özünü tanımış kimi göstərib, bizimlə mehriban olacaqmış kimi reaksiya vermişdi. Elə ilk gecə Lal Tahirin oğlu hamımızdan öncə yuxuya getmiş bir uşağın ayaq barmaqlarının arasına kağız parçası qoyub, od vurdu. Alov barmaqlarına çatanda yazıq uşaq dik atıldı yuxudan. Nəsə demək istədi, qorxdu, boğula-boğula qaldı. Lal Tahirin oğlunun hoqqaları saya gəlmirdi. Və hamı dözürdü. Allahdan mənim siyasətim işə yaramışdı. Bizimlə işi olmurdu. Bir neçə gün sonra dedilər ki, qolunuza "nakolka" vurdurmaq üçün sıraya düzülün. Müəllimlər görməsinlər deyə, "əməliyyat" hava qaralanandan sonra aparılırdı. Kim nə istəyirdisə, qoluna kibrit çöpünün kükürdüylə yazırdılar. Mən də qoluma X yazdırdım.

Atam dayımla bizə dəyməyə gələndə bu dəfə də qolumdakının zibilinə düşdüm. Hardan xəbər tutumuşdu, necə öyrənmişdi bilmədim. Qulağlm bərk dartıldı, dayım əlindən almasaydı, bir qapaz da gələcəkdi. Yaxşı qutardım.

Bir neçə gün sonra gecənin bir aləmində meşədən güllə səsləri gəldi. Düşərgədə aləm bir-birinə dəydi. Bütün uşaqlar qorxu, səksəkə içindəydi. Hər kəs nə baş verdiyini öyrənmək istəyirdi. Səs-küy çox olduğundan çadırların önünə çıxmışdıq. Düşərgənin rəhbərliyi bir-bir çadırlara yaxınlaşıb nəsə deyirdi, sakitliyə çağırırdı. Bizim də çadırımıza yaxınlaşıb, uşaqlar, qorxulu heç nə yoxdu, keçin yatın - dedi. Üzündəki təlaş və həyəcan bəlli idi, gizləməyə çalışsa da. Qorxmayın! – bir daha təkrarladı - meşəbəyi sizə canavar vurub, səhər sizi canavar kababına qonaq edəcək.

Həmişəki günlərdən daha tez oyanmışdıq. Elə bil səhər daha tez açılmışdı, gün daha tez doğmuşdu bu gün. Bizə heç nə deyilməsə də, gecəki gərginlik hələ də qalmaqdaydı. Böyüklər ora-bura gedib gəlir, nəyisə ciddi-ciddi müzakirə edirdilər. Biz isə canavar qonaqlığını gözləyirdik səbirsizliklə. Gözümüzü gəlib-gedənə zilləyirdik ki, indi – gəlin, meşəbəyi çağırır – deyəcəklər. Meşəbəyini də, canavarı da görməkdən ötrü ürəyimiz gedirdi. O gün axşama qədər bizi heç kim, heç hara çağırmadı. Hətta başqa günlərdən fərqli olaraq bizimlə maraqlanan olmadı, başlı-başına qalmışdıq. O çal-çağırlı düşərgəyə ölü bir sükút, vahiməli bir kədər çökmüşdü sanki. Sonra xəbər verdilər ki, hazırlaşın, valideynləriniz gəlib aparcaq. Axşamüstü atam dostuyla arxamızca gəldi. Biz nə baş verdiyini bilmirdik, soruşmağa da çəkinirdik…

Evdə atamla-anamın söhbətini eşitdik… söhbət meşəbəyini qonşuların öldürməsindən gedirdi. Anam elə hey qonşuları qarğıyırdı. Söz-söhbət getdikcə qızışırdı… Söhbət o qədər böyüdü ki, sanki evdən küçəyə, küçədən şəhərə, şəhərdən ölkəyə yayıldı bir anda. Söhbətdən əməlli başı qan iyi gəlirdi. Lap müharibəyə oxşayırdı…

Biz meşəbəyini də, canavarı da görə bilmədiyimizə yanırdıq... sən demə o düşərgəni də, o kəndi də, sonradan o şəhəri də, uşaqları da, hətta uşaqlığımızı da bir daha görməmək varmış qismətimizdə...



*Xatirə FƏRƏCLİ*

## HƏYAT SEVGİSİ DƏ BOŞ

Alışdıq ölümə də,
Adiləşdi hər gediş.
Yansın belə alışmaq,
Od tutsun belə gərdiş.

Eşqlər, vədlər quru söz,
Münasibətlər naxoş,
Bütün sevgilər kimi
Həyat sevgisi də boş.

Həyat elə özü də
Sevinc donlu möhnətdir,
Ömür deyilən nəsnə
Bapbalaca möhlətdir.

Çarəsizcə çarpışıb
Dilək qoyub gedirik,
Tərk edilib, tərk edib
Ürək qoyub gedirik.

## AĞRI

Toxunma,
                    ruhumun ağrıyan yeri
Soldurar dünyanın rəngini, sökər.

İtirər fəhmini, qarışar aləm,
Cahana bir ağrı zülməti çökər.

Diri udar nə var, o ölü zülmət
Udar, nə mərhəmət, nə insaf qanar.
Ağrılar görünməz kimsəyə üzdən
İnsan korun-korun içindən yanar.

İçdəki tüstüdən qurum bağlar can
Ha gizlət, gözləri satar adamı.
Toxunsan donarsan yandığım yerdən
Mən soyuq adamam, mən qar adamı.

* * *

Səni düşünürəm...
sözə çevirə bilmirəm
                    ürəyimdən keçənləri...
kaş,
hisslərin şəklini çəkə bilən cihaz olaydı,
çəkib kənardan baxaydım
                    açıq gözlə...
içində ola-ola
ayırd edə bilmirəm,
                    kələflənib hisslərim,
onu bilirəm ki,
ad qoya bilsəm,
                    gözəl ad olacaq,
sözə çevirə bilsəm,
                    gözəl şeir,
sevgiyə yoza bilsəm,
                    böyük eşq,
dünyaya sığmayan EŞQ,
özü boyda dünya,
                    dünya boyda insan,
səni düşünürəm...

* * *

Dönüb hardan baxam, hara döndərəm,
Yenə bu sevginin məzarı hazır,
Ürək ha titrəyə, əsə səninçün,
Ağıl nə hökm edir, onu da yazır.

Gəldin, varlığının təntənəsində,
Unutdum hər kəsi, dünyanı belə,
Səndən əvvəl nə var, silinib getdi,
Budur elə sevgi, eşq budur elə.

Uğruna hər şeyi qurban edəsi,
Ömür veriləsi hissdir belə hiss,
Unuda bilmirəm, unudam getsin,
Bağrıma basmağım unutmaqdan pis.

## BİR ÇİYİN TAPMADIM

Bunu da adlayıb keçərəm, əlbət,
Çoxda ki, hər ağrı bir sevinc alar.
Bircə dəfə sınar, ürək sındısa,
Bir daha nə sınar, nə də qəhr olar.

Mən nələr adlayıb, nələrdən keçib
Neçə fırtınalar
fırladıb gəldim,
Çəkilməz dərdlərin qatlayıb dizin,
Ağır
ağrıları
aldadıb gəldim.

Ürəklər sındırıb,
diləklər qırıb,
Bir çiyin tapmadım başımı qoyam.
Çəkimdən ağıram, boyumdan böyük,
Mən belə bədbəxtəm, neyləyim, buyam.

## XATİRƏ

İlğım idi,
ötüb keçdi dalğa-dalğa,
təpə-təpə,
rəngli-rəngli
...Xatirə...

nəğmə idi həzin, kövrək
oxunmadı,
naxış idi bər-bəzəkli
toxunmadı,
göydən gələn arzu idi
çatan olmadı
...Xatirə...

ümid idi
          təzə dünya doğuldu,
                    beşiyində boğuldu,
ağlı başına bəla,
                    bir az havalı, dəli...
şəkli, izi düşüb qaldı ürəkdə
                              ...Xatirə...

ürək idi döyünmədi,
                    elə gəldi, elə getdi
bu dünyaya endirmədi, enmədi
                              ...Xatirə...

* * *

İndi mən necə anım,
nə cür düşünüm səni?
necə dilə gətirim,
 ürəyimdən keçəni?

səsin gəldi, sandım ki,
qeybdən gələn sədadı,
bu bir soyuq həsrətmi,
 yoxsa,
                    sevgidir adı?

ürəyimi qoparıb,
apardı yenə bu səs.
düşünməyə bilmirəm,
de, necə unudum, bəs?

nə unutmaq, nə də ki,
qayıtmaq olmur daha.
eh, sən... eh, sən... eh, səni...
batdın, eləcə batdın
sevgi adlı günaha.

## DÜNYA BİR RƏNGDƏDİR AĞRILARIMLA

İtsəm də itkilər dağıntısında,
Gəzsəm də kəndbəkənd, ölkəbəölkə,
Dünya bir rəngdədir ağrılarımla
Mən elə dünyayla yaşıdam bəlkə.

Ölüm də, unutmaq, unudulmaq da,
Fanidə əvvəlki qaydadır elə.
Ağrının da rəngi, məxsusluğu var
Yaşanar eləcə, gəlməz ki, dilə.

Zamanı, məkanı, taxtı, gərdişi,
Kim gəlib, kim gedib, hesabımı var?!
Sorma bu dünyanı saran süstlüyü
İnsan bapbalaca, dünya dardan dar.

## MƏN ADDA GÜNAHIN OLA

Tükənib son nəfəs kimi
Çəkdiyin hər dolu ahda,
Mən adda günahın ola,
Boğulasan bu günahda.

Mən cənnətəm, mən cəhənnəm,
Arzulama, məni belə,
Bihuş edib cənnətimdə,
Yandıraram yanğım ilə.

Günahdırsa adı əgər,
Bəxtəvər başına bunun,
Bir şey ki, yeri könüldə,
Kimə günah, kimə qanun.

Tanrı duası sayılar,
Bir hökmü vermişsə ürək.
Təki günahın mən olum,
Günahkarlar da sənin tək!

## TƏMİZ ADAM

Məsum hisslərinə yol alıb gedər
                    məyus, mütəəssir,
dünyası ovcunda,
özünə doğma, özünə qərib adam.
Ürəyindən keçənlər
qar üstündə ləpir kimi,
öz içi özünə qənim,
                    qoruqçu
toqquşub yağdıran bulud,
yağışdan qoruyan çətir kimi.
...Gedər
gediləsi başqa yeri yox,

sıxılar,
sığınar,
sinər içinə,
ha qaça qurtara bilməz özünü,
içinin quludur
yenər içinə
təmiz adam.

## ŞƏKİL ATA

***Ölümündən 2 gün sonra 8 il gözlədiyi qızı dünyaya gələn şəhid gizir Yaşar Babayevə***

Dodaqlar çatladı, ürəklər yandı,
Göynədi belə şad xəbəri alan.
Həsrətin,
həvəsin bir addımında
Gəldi həsrətlərə köz oldu balan.

O sənin üzündə nə ayrı baxış,
Nə də geyimini yeni görəcək,
Nağıllar quracaq şəkillərinə,
Sonra yuxularda səni görəcək.

Sığınıb deyəcək, ay şəkil ata,
Nə olar, röyanı gerçəyə çevir.
Qızları bir başqa sevir atalar,
Qızlar da atanı bir başqa sevir.

Kaş səni səkkiz il gözlətməyəydim,
Səkkiz xatirəmiz olaydı barı.
Göydən, bayrağımdan baxırsan mənə,
Mənim şəkil atam, könlüm qubarı.

## DAHA QÜRUR ZAMANI

Daha qürur zamanı,
sevinc maqamı gəldi.
Aldığımız yaranın
sağalmaq anı gəldi.

Otuz il idi məğlub
ölkə vətəndaşıydım,
Öldürməyib inamı
mən bu günə daşıdım.

Belə böyük həsrətin
qəhəri də böyükdür,
Belə məğlubiyyətin
zəfəri də böyükdür!

**SUYA DÜŞƏN XƏYALLARIM**

Suya düşən xəyallarım,
Gün gülmədi üzünüzə.
Hardan əsdi, hansı tufan
Qum üfürdü gözünüzə?

Suya düşən xəyallarım,
Od tutdu su, yandı qar da.
Həvəslə qurmuşdum sizi
Harda boşluq oldu, harda?

Suya düşən xəyallarım,
Sizi ki, gerçək sanmışdım.
Mən onsuz sizə qədər də
Belə qor alıb yanmışdım.

Suya düşən xəyallarım,
Qarşınızdan su axmadı.
Elə yıxdı sizi yıxan
Nə çəkdiyimə baxmadı.

**OXUCULARIN NƏZƏRİNƏ!**

**"AZƏRBAYCAN"**

**jurnalına abunə yazılışı davam edir.**

**Əlaqə nömrələri:**

**+ 99412 498-78-10**
**+ 99455 668-78-79**

**Jurnalının bir nüsxəsinin qiyməti 1 manat 50 qəpik,**
**illik abunə qiyməti 18 manatdır.**
**İNDEKS: 76300**

*Qəzənfər PAŞAYEV*

# AŞIQ POEZİYASI YAZILI ƏDƏBİYYAT KONTEKSTİNDƏ



Artıq bir ildir ki, davam edən karantin rejimi canlı elmi ünsiyyət, müzakirə və mübahisələrin masştabını daraldıb. Əvəzində illər uzunu müxtəlif mövqelərdən şərh edilən, tarixi-elmi dəyərlərin elmi izahında mübahisəli görünən bir çox məsələlər haqqında düşünüb-daşınmağa şərait yarandı. Bunlardan biri də məni çoxdan düşündürən Aşıq poeziyasıdır.

Görkəmli folklorşünasımız Məhərrəm Qasımlı və Mahmud Allahmanlının tərtib etdikləri "Aşıq ədəbiyyatı antologiyası" üçcildliyini yenidən oxudum.[1] Üçcildliyin "Aşıq poeziyası" adlanan I cildində otaylı-butaylı Azərbaycanın ustad aşıqlarının vəhdətdə təqdimi yeni araşdırmalara rəvac verir. Kitabda Azərbaycan aşıqları ilə yanaşı, azərbaycanca yazıb-yaradan Ləzgi Əhməd, Krım tatar aşığı Ömər, Ərzurumlu Əmrah kimi başqa xalqların aşıqlarına da yer verilir. Bu nəşrin uğurunu şərtləndirən məsələlərdən biri də aşıq poeziyasının, aşıq sənətinin inkişafında, zənginləşməsində mühüm rol oynayan, ruhən aşıqlara yaxın olan 30-dan artıq el şairinə yer verilməsidir.

"Aşıq ədəbiyyatı antologiyası" üçcildliyini və ikicildlik "Ozan-Aşıq" Ensiklopediyası"nı oxuyandan sonra məndə bir daha aşıq poeziyası, aşıq şeir şəkilləri barədə söz demək arzusu baş qaldırdı. Lakin qəti söz demək üçün aşıq sənətinə, aşıq poeziyasına dair tədqiqatları yenidən oxudum və qənaətlərimi oxucu və mütəxəssislərlə bölüşmək qərarına gəldim.

Folklorla məşğul olan tədqiqatçılar bilir ki, mən illərlə öncə Aşıq Azaflı Mikayılın yaradıcılığından bəhs edən "Qoca Azaflıyam" kitabını tərtib edərkən aşıq poeziyası və bütün aşıq şeiri şəkillərinə dair tədqiqat aparmışdım.[2] O vaxtdan, necə deyərlər, çox sular axıb, folklora, aşıq poeziyasına, aşıq şeiri şəkillərinə yeni baxış formalaşıb.

Hər şeydən əvvəl, onu deyək ki, Aşıq poeziyasını şifahi xalq ədəbiyyatı hesab edən folklorşünaslarımızın qənaətləri həmişə birmənalı qarşılanmayıb. Müəllifi bəlli olan aşıq poeziyası milli tarixi-ədəbi prosesin bütün mərhələlərində iştirakına və roluna görə klassik üslubda yaranan ədəbiyyatla qarşılıqlı zənginləşmədə olub. Milli poetik düşüncənin qaynağı və təkamül göstəricisi olan bu bədii yaradıcılığı folklor hesab etmək əsasən uzun illər qəlibləşmiş elmi metodik qənaətlərə əsaslanır.

Aşıq poeziyası müəyyən spesifik xüsusiyyətlərilə seçilən orijinal və bənzərsiz bir yaradıcılıqdır. Öz axar-baxarı olan, dərin elmi biliyə söykənən sənət abi-

dəsi, prof. Məhərrəm Qasımlının göstərdiyi kimi, dilimizin və ruhumuzun qərarlaşdığı möhtəşəm fəlsəfi sistemdir.[3]

Aşıq poeziyasına təsniflər, gəraylılar, qoşmalar, cinaslı bayatılar, müxəmməslər, divanilər, vücudnamələr, sicilləmələr, cahannamələr, ustadna-mələr, deyişmələr, hərbə-zorbalar, qıfılbənd bağlamalar, təcnislər, "əlif-lam"lar, "tərs əlifba"lar, "əvvəl-axır"lar, "şeirlə məktublaşma"lar, "dedim, dedi" lər və s. daxildir. Bu Aşıq şeiri şəkillərinin hər biri barədə söz açmaqda məqsədimiz bir yandan bu sahilsiz ümmana bənzər yaradıcılıqla oxucuları, xüsusən də gənc tədqiqatçıları istiqamətləndirmək, digər tərəfdən aşıq poeziyasını folklor hesab edənlərin, şagirdlə şəyirdi, aşıq mühitləri ilə aşıq məktəblərini qarışdıran, aşıq şeir şəkillərini ancaq qoşma hesab edən, aşıq poeziyası ilə aşıq sənətinin fərqinə varmayanların, el şairlərini aşıq hesab edənlərin mövqeyindəki mübahisəli məsələlərə münasibət bildirməkdir.

Bəzi folklorşünaslarımızın Aşıq mühiti ilə Aşıq məktəbləri barədə fikirləri qəbuledilməzdir. Anadolu Aşıq məktəbi, Şirvan Aşıq məktəbi, Təbriz Aşıq məktəbi, Göyçə Aşıq məktəbi – deyə hökm verənlər yanılırlar. Əslində bunlar Aşıq mühitləridir. Aşıq məktəbini ayrı-ayrı ustad aşıqlar yaradırlar. Bu inkarolunmaz fakta Aşıq mühitləri və Aşıq məktəbləri barədə fikirləri ziddiyyətli olan mərhum dostum Azad Nəbiyevin əsərində də təsadüf edirik:

"Yunis Əmrə bu sahədə ayrıca bir məktəb yaratdı, xalq şeirinin mükəmməl formaları onun poeziyasında özünün yüksək zirvəsinə qalxdı, poetik kamilliyə yetdi".[4]

Folklorşünas alim, Xalq şairi Sabir Rüstəmxanlı da Aşıq məktəbi və Aşıq mühitləri məsələsinə toxunur və yazır:

"Dastan yalnız aşıq sənətində məktəb yaradan, son dərəcə böyük təsir gücü olan, adı xalq arasında əfsanələşən sənətkarlar haqqında qoşulur".[5]

Məlumdur ki, Aşıq mühitləri özünəməxsusluğu ilə seçilir. Lakin heç biri digərini inkar etmir, əksinə aşıq sənətini zənginləşdirirlər.

Borçalı aşıq mühitində aşıqlar, adətən, balabançının müşayiəti olmadan çalıb-oxuyurlar. Göyçə, Təbriz, Gəncəbasar Aşıq mühitlərində aşıqları balabançı müşayiət edir.

Şirvan Aşıq mühitində aşıqlar balaban, dəmkeş, nağara və qoşa nağaranın müşayiəti ilə çalıb-oxuyurlar. Məqamdır deyək ki, uzunömürlü dərsliklər, tədqiqatlar müəllifi, xatirini çox istədiyim professor Paşa Əfəndiyevin balabanı səsi olmayan aşıqların səsini ört-basdır etmək üçün vasitə hesab etməsi həqiqətdən uzaqdır.[6] Balaban, çalıb-oxuyanda aşıqları ruhlandıran, cuşa gətirən qeyri-adi alətdir.

Təsadüfi deyildir ki, dörd-beş il bundan əvvəl Təbrizdə 400-ə qədər balabançının iştirakı ilə müsabiqə keçirilmişdi.

Aşıqlar Birliyi və Aşıq sənəti ilə məşğul olan tədqiqatçılarımız balabançılarımızın həyatı və fəaliyyətini araşdırmalı, onları unudulmaqdan qorumalıdırlar. Unutmaq olmaz ki, aşıq sənətinin inkişafında balabançıların misilsiz xidmətləri olmuşdur.

Bəzi folklorşünaslarımızın "Əlif-lam", "ustadnamə", vücudnamə, cahannamə kimi aşıq şeiri şəkillərini qoşma hesab etmələri, bizcə, doğru deyildir. Onların yeganə arqumenti göstərilən aşıq şeiri şəkillərinin qoşma kimi 11 hecadan ibarət olmasıdır. Qoşma 3-5, bəzən 7 bənddən ibarət olduğu halda, onlarda bəndlərin sayı sərbəstdir. Həmin aşıq şeiri şəkilləri məna və məzmunca da tamamilə fərqlənirlər.

Başqa bir mühüm məsələdə də bəzi folklorşünaslarımızla razılaşmaq olmur.

Məlumdur ki, ustad aşıqlar yanında dərs alan, aşıqlıq sənətini öyrənənlərə şəyird, məktəbdə müəllimdən dərs alan uşağa və gənclərə şagird deyilir.

Təəccüb-lüdür ki, əksər folklorşünaslarımız şəyirdlə şagirdi qarışdırırlar. Bir dərslikdə hətta "ustad-şagird" başlıqlı yazı da verilmişdir.

Bizə qalırsa, belə məsələlərdə mətndən çıxış etmək lazımdır.

Aşıq Ələsgər yazır:

***Bir şəyird ki, ustadına kəm baxa,***
***Onun gözlərinə ağ damar, damar.***

Və ya:

***Aşıq Ələsgərəm, mərdi-mərdana***
***On iki şəyirdim işlər hər yana.***

Aşıq Ələsgərin məşhur qaçaq Dəli Alıya həsr etdiyi gəraylısında da buna təsadüf edirik:

***Dəli Alının vəsfini,***
***Yazmışam dastana deyin!***
***Afərin, şəyirdlərim,***
***Gedəndə hər yana, deyin!***

Aşıq Nəcəf Ağkilsəli:

***Sən şəyirdsən, bir ustaddan***
***Dərsini al, sözə bax...***

Ustad aşıqlar şəyird məsələsinə ciddi yanaşır və xüsusi qayğı göstərirdilər. Bu, iki mühüm məqamla bağlıdır. Birincisi, sənəti yaşatmaq, ikincisi, ustad aşıqların yaradıcılığını yaymaq, yaşatmaq.

Aşıq Ələsgərin 12 şəyirdinin olması təsadüfi deyildi.

Bəzi folklorşünaslarımız Aşıq yaradıcılığı deyəndə aşığın yalnız bədii yaradıcılığını nəzərdə tuturlar. Unudurlar ki, aşıq yaradıcılığına onun çalıb-oxumağı, yaratdığı havaları, dastan yaradıcılığı, bədii qiraət ustası kimi çıxış etməyi, rəqqas kimi oynamağı, məclisi ələ almaq üçün qaravəllilər danışmağı və sairə də daxildir. Təkcə bunlara diqqət yetirmək kifayətdir ki, el şairlərini akademik Muxtar İmanovun doğru olaraq göstərdiyi kimi, aşıq hesab edənlərin yanıldıqları təsdiqini tapsın.[7]

Dahi Üzeyir bəy Hacıbəyov təsadüfi demirdi: "Aşıq yaradıcılığı elə bir sənət aləmidir ki, orada şairin də, yazıçının da, bəstəkarın da, xanəndənin də, rəqqasın da istədiyi qədər payı vardır".

Çəkinmədən deyə bilərik ki, aşığın bədii yaradıcılığı yazılı ədəbiyyata, yerdə qalan yaradıcılığı folklora aiddir. Aşıq poeziyası folklor hadisəsi deyil.

Gün kimi aydın həqiqətdir ki, zaman-zaman aşıq poeziyası və yazılı ədəbiyyat qarşılıqlı şəkildə inkişaf etmiş, bir-birinin zənginləşməsinə yardımçı olmuşdur. Bu baxımdan, heyrətamiz poeziyası ilə dövründən çox yüksəkdə duran, dili, ifadə tərzi, fəlsəfi fikirlərilə şöhrət qazanan, Azərbaycan türkcəsini hakim ərəb-fars dilləri səviyyəsinə qaldıran İmadəddin Nəsimi yaradıcılığı xüsusilə seçilir. Şairin yaradıcılığı şifahi xalq ədəbiyyatı və aşıq poeziyası ilə qoşa inkişaf etmiş, aşıq yaradıcılığına yeni janrlar gətirmiş, formaca onun inkişafına təkan vermişdir. Buraya "Qıfılbənd bağlamalar", "Əlif-lam", "Tərs əlifba", "Divani"lər, "Qoşmalar" daxildir.[8]

Aşıqlar, xüsusən də Ordubadlı Kərim, Aşıq Ələsgər və Molla Cuma şairin qıfılbənd, Divani, "Əlif-lam" və "Tərs əlifba"larından bəhrələnərək aşıq poeziyasını zənginləşdirmişlər.

Maraqlıdır ki, klassik ədəbiyyatımızdan gələn "Əlif-lam", "Tərs əlifba", "Divani" və "Qıfılbənd" heca vəznindədir.

O da maraqlıdır ki, Divan ədəbiyyatından gələn "Divani" və "Müxəmməs"lər əruz vəznində olduğu halda, onlar da aşıq yaradıcılığında heca vəzni üstə kökləniblər:

Professor Məhərrəm Qasımlı yazır ki, aşıq poeziyası nə şifahi xalq ədəbiyyatına, nə də yazılı ədəbiyyata daxildir. Daşıdığı əlamətlər aşıq ədəbiyyatını türk ədəbiyyatının xüsusi – ayrıca bir tipi kimi səciyyələndirir.[9]

Görkəmli folklorşünas alimlərimiz Vaqif Vəliyev və Paşa Əfəndiyev aşıq poeziyasını şifahi xalq ədəbiyyatından ayrı hesab etmirlər.

Maraqlıdır, aşıq poeziyasına Divani və müxəmməslər Divan ədəbiyyatından, qıfılbənd, qoşma, "Əlif-lam" və "Tərs əlifba" klassik ədəbiyyatımızdan gəldiyi halda, onlar niyə yazılı ədəbiyyat hesab olunmasın?

Başqa bir yöndən, yazılı ədəbiyyatın nümayəndələri – Nəsimi, Şah İsmayıl Xətayi, Vaqif, Vidadi, Zakir, Səməd Vurğun, Osman Sarıvəlli, Hüseyn Arif, Məmməd Araz, Məstan Günər, Hüseyn Kürdoğlu, Məmməd İsmayıl, Məmməd Aslan, Zəlimxan Yaqub, Rasim Kərimli və başqaları təsnif, gəraylı və qoşmaları ilə aşıq ədəbiyyatını zənginləşdirməmişlərmi?

Xalq yazıçısı Mirzə İbrahimov təsadüfi yazmırdı: "Aşıq poeziyasının kökləri, rişələri folklordan su içirsə, budaqları, qol-qanadı həmişə ədəbiyyatla qovuşur, ona təsir edir, ondan qüvvət alır".

Bunları nəzərə alaraq Aşıq şeiri şəkilləri barədə düşüncələrimi təqdim edirəm.

**Gəraylılar**

Anlaşıqlı, canlı danışıq dilində olduğundan ürəklərə asanlıqla yol tapan gəraylılar aşıq poeziyasında geniş yayılmışdır.

İnsanın ən incə, ülvi və kövrək duyğuları, daxili aləmi, psixoloji anları – sevinc və sarsıntılar gəraylılarda poetik və obrazlı ifadəsini tapır. "Koroğlu" dastanında Nigar xanımın övladsızlıq dərdinin dörd misralıq gəraylıda əyaniləşmə məqamı janrın tükənməz imkanlarından xəbər verir:

***Necə baxım ev-eşiyə,***
***Yaralı könlüm üşüyə.***
***Toz bürümüş boz beşiyə***
***Şirin layla çalan yoxdur.***

Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Şəmşir, Mikayıl Azaflı kimi görkəmli aşıqlarımızın dillər əzbəri olan gəraylıları vardır. Gəraylı yazılı ədəbiyyatımızda da önəmli yer tutur. Aşıq Alı və Qasım bəy Zakirdən verdiyimiz örnəklər Aşıq poeziyası ilə yazılı ədəbiyyatımızın qoşa qanad olduğuna dəlalət edir.

Aşıq Alıdan:

***Bax bu qaşa, bax bu gözə***
***Yandı bağrım, döndü közə.***
***Keçən sözü çəkmə üzə***
***Keçən keçdi, olan oldu.***

Qasım bəy Zakirdən:

***Qəm evində var olalı,***
***Eşqə giriftar olalı,***
***Yarımadıq yar olalı,***
***Nə sən məndən, nə mən səndən.***

Örnəklərdən də göründüyü kimi, istər Aşıq poeziyasının, istərsə də yazılı ədəbiyyatın ən oynaq, axıcı və sadə şəkli gəraylıdır.

Maraqlıdır ki, Nəsimi və Füzulinin daxili qafiyəli qəzəlləri heca vəzninə yaxın bəhrdə yazıldığına görə onları asanlıqla "gəraylı" şəklinə salmaq olur.

Səməd Vurğun "20 bahar" adlı şeirində Füzulinin qəzəlini gəraylı şəklinə salaraq öz şeirinin vəzninə uyğunlaşdırmışdır:

***Möhnət çəmənindən gül dərə-dərə,***
***Ucaldı şairin ahı göylərə:***
***"Şəbi-hicran yanar canım,***
***Tökər qan çeşmi-giryanım,***
***Oyadar xalqı əfqanım,***
***Qara bəxtim oyanmazmı?"***

***Füzuli yurdunun qəm səsidir bu,***
***Pərişan bir elin naləsidir bu.***

Akademik Həmid Araslı Nəsimi yaradıcılığını tədqiq edərkən məşhur "Məndə sığar iki cahan, mən bu cahana sığmazam" qəzəlini gəraylı kimi təqdim etmişdir:

***Məndə sığar iki cahan,***
***Mən bu cahana sığmazam***
***Gövhəri-laməkan mənəm***
***Kövnü məkana sığmazam.***

Xalq şairi Xəlil Rza Ulutürk də Füzuli qəzəlindən istifadə edərək gözəl bir gəraylı yaratmışdır:

***"Şəbi-hicran yanar canım,***
***Tökər qan çeşmi-giryanım,***
***Oyadar xalqı əfqanım",***
***O sahildə, bu sahildə.***
***Birləşib bir can olmalı,***
***Bütöv Azərbaycan olmalı,***
***O sahil də, bu sahil də.***

**Təsniflər**

Təsniflər aşıq poeziyasının qədim şəklidir. Demək olar ki, bütün görkəmli ustad aşıqlarımız təsnifin gözəl nümunələrini yaratmışlar.

Aşıq Alı və Molla Cumadan verdiyimiz gəraylılar deyilənlərə dayaq olur:

***Elmi dayazlar,***
***Kamaldan azlar,***
***Hədyan avazlar***
***Yamandır, yaman.***
**(Aşıq Alı)**

***Ağlayıb gülləm,***
***Göz yaşım silləm,***
***Qurban kəsilləm,***
***Sən bizə gəlsən.***
**(Molla Cuma)**

Aşıq poeziyasının bu oynaq janrı yazılı ədəbiyyatımıza təsir edərək onu zənginləşdirmişdir.

Səməd Vurğunun "Bəsti" poemasının yarıdan çoxu 5-7 hecalı təsniflər üzərində köklənib. Təsniflər S.Vurğunun yaradıcılığında dilin aydınlığı, oynaqlığı və xalq ruhunun daşıyıcısı olmağı ilə fərqlənir.

**Qoşmalar**

Ustad aşıqlardan başlamış ifaçı aşıqlara qədər, qoşma qoşmayan aşığa az təsadüf edilir. Qoşmanın kamil nümunələrini Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Aşıq Valeh, Şəmkirli Hüseyn, Aşıq Alı, Aşıq Ələsgər, Molla Cuma, Bozalqanlı Aşıq Hüseyn, Aşıq Şəmşir, Aşıq Pənah, Aşıq Şakir, Aşıq Kamandar, Mikayıl Azaflı və digərləri yaratmışlar. Onların qoşmaları yaddaşlara həkk olunub. Bu sənətkarların öz mahnıları və qoşmalarına bəstələnmiş mahnılar günü bu gün həyatımızın ayrılmaz hissəsidir.

Yazılı ədəbiyyatımızda da çox yayılan janr kimi, aşıq sənətinin və aşıq poeziyasının zənginləşməsinə xidmət edir. Nəsimi, Şah İsmayıl Xətayi, Vaqif, Vidadi, Qasım bəy Zakir, Səməd Vurğun, Osman Sarıvəlli, Hüseyn Arif, Tofiq Bayram, Məmməd Araz, Hüseyn Kürdoğlu, Zəlimxan Yaqub, Məmməd İsmayıl, Məmməd Aslan və başqa şairlərimizin qoşmaları aşıqlarımızın və poeziya xiridarlarının dillər əzbəridir.

**Müxəmməs**

Kökü xəmsə olan müxəmməs ərəb sözü olub, mənası beşlik deməkdir.

İstər klassik ədəbiyyatda, istərsə də aşıq poeziyasında müxəmməslər beş mis-radan və bir neçə bənddən ibarət olur. Müxəmməslərdə hər misrada 16 heca olur. Saz havasının melodik axarı ilə bağlı olaraq aşıqlar hər misranı iki yerə bölüb oxuyurlar.

Bəzən dəftərə köçürəndə də misraları iki yerə bölürlər. Aşıqlar toy məclislərini, şənlikləri müxəmməslə başa vururlar. Buna duvaqqapma da deyirlər. Müxəmməs aşıq şeiri şəkli ilə əlaqədar "Baş müxəmməs", və "Orta müxəmməs" kimi çox sevilən aşıq havaları meydana gəlmişdir.

Müxəmməsin cığalı müxəmməs, dodaqdəyməz cığalı müxəmməs, qoşa-yarpaq müxəmməs, qafiyə müxəmməs kimi şəkilləri vardır.

Müxəmməsin ən yaxşı nümunələrini Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Musa Ağkilsəli, Molla Cuma, Xəyyat Mirzə və başqaları yaratmışlar.

Klassik ədəbiyyatda müxəmməsin ən yüksək səviyyəli nümunələrini Nəsimi, Xətayi, Füzuli, Vidadi, Vaqif, Zakir yaratmışlar.

Bilmək maraqlıdır ki, Nəsimi heca vəznində müxəmməs yazan ilk şairimizdir.

Maraqlıdır ki, Divan ədəbiyyatından gələn "Divani" və "Müxəmməs"lər əruz vəznində olduğu halda, onlar da aşıq poeziyasında Molla Cuma və Xəyyat Mirzənin aşağıdakı müxəmməslərindən də göründüyü kimi, heca vəzni üstə kökləniblər:

Molla Cuma:

***Xocalar, bircə baxın***
***Görün, necə yar oynayır.***
***Naz edir, süzür gedir,***
***Sevdiyim aşkar oynayır.***
***Al yanaq, billur buxaq,***
***Zənəxdanı nar oynayır.***
***Əl vurun, cərgə durun,***
***Balaca dilbər oynayır.***

Xəyyat Mirzə:

***Həzərat, bircə baxın,***
***Gör necə dilbər oynayır.***
***Gül zərif, dəsti zərif,***
***Dəstində güllər oynayır.***
***Nazınan ağ üzünə***
***Düşübdü tellər oynayır.***
***Səsinə, həvəsinə***
***Car çəkib ellər oynayır.***

Hər iki müəllifin deyiməsində eyni qafiyə görürük. Bu, deyişmənin tələbidir. Seyfəli Pənahın da eyni rədifli "Oynayır" adlı müxəmməsi vardır.

Müxəmməsin, adətən, hər misrası 16 hecadan ibarət olmalı olduğu halda, burada 7-8 bölgüsü özünü göstərir. Divaninin tələbinə cavab verən bir mənzərə alınır.

Aşıq Ələsgərdən verdiyimiz nümunədən göründüyü kimi, müxəmməsin hər misrası 16 hecadan ibarətdir:

***Canımı qurban eylərəm, bir belə tərlan gözələ,***
***Hal bilən, şirin gülən, dosta mehriban gözələ,***
***Boy uca, gərdən mina, zülfi pərişan gözələ,***
***Dolanır mürğü-ruhum, olubdu mehman gözələ,***
***Xəstəyəm, yalvarıram, həkimi-loğman gözələ.***

**Cahannamə**

Ölçü və qəliblərinə görə qoşmalardan fərqlənməyən cahannamələrdə bəndlərin sayı məhdud olmur. Cahannamə, adından da göründüyü kimi, dünyadan, geniş mənada dünyada baş verən hadisələrdən, ölkələrdən, tarixi şəxsiyyətlərdən, şairlərdən, hökmdarlardan, dünyanın keşməkeşlərindən bəhs edir.

Dar mənada isə cahannamədə bir ölkənin, el-obanın, diyarın və mahalın vəsfindən, burada baş verən hadisələrdən, tarixi yerlərdən, görkəmli şəxsiyyətlərdən, onların dəyərləndirilməsindən söhbət gedir.

Cahannamələrin ən yaxşı nümunələrini Xəstə Qasım, Aşıq Valeh, Molla Cuma, Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Mikayıl Azaflı yaratmışlar.

Aşıq Mikayıl Azaflının "Getdi" adlı iki cahannaməsində lap qədimdən başlayaraq bütün tarixi şəxsiyyətlərdən söz açılır. Aşığın "Kəlbəcərdədi", "Qazaxdadı", "Sınıxdadı" cahannamələrində görkəmli şəxsiyyətlərdən, toponimlərdən danışılır. "Tovuz" adlı cahannaməsində isə aşıq Tovuz rayonu ərazisində mövcud olan tarixi yerlərdən, görkəmli şəxsiyyətlərdən söz açır, bütün kəndləri vəsf edir.[10] İnanırıq ki, yüz-iki yüz il sonra toponimləri cahannamələr vasitəsilə üzə çıxararaq tədqiq edəcəklər. Bu qiymətli əsərlər tarixçilərimiz, dilçilərimiz və coğrafiyaşünaslarımızın tədqiqat obyektinə çevriləcək.

Artıq dediyimiz kimi, cahannaməyə az da olsa yazılı ədəbiyyatımızda da təsadüf edilir. Dar mənada cahannaməyə örnək kimi İlyas Tapdığın "Gədəbəydədi" cahannaməsini göstərmək olar.

Geniş mənada Səməd Vurğunun cahannaməsi diqqəti çəkir. Sevimli şairimizin cahannaməsindən iki bəndi təqdim edirik:

***Neron bir şəhəri oda yaxdı ki,***
***Sönük vicdanına bir ilham gülsün;***
***Qan rəngli odlara dönüb baxdı ki,***
***Gücsüz ayaqları yerdən üzülsün.***

***Nadirin qəlbini kin yedi qat-qat,***
***Dilindən qoymadı "şöhrət" sözünü,***
***Tacından, taxtından qorxan o cəllad***
***Doğma balasının tökdü gözünü.***[11]

**Təcnislər**

Aşıq poeziyasının zirvəsi, sınaq meydanı hesab olunan təcnislər geniş yayılmışdır. Bununla belə, deməliyik ki, təcnis yaratmaq (fikir verin, təcnis yazmaq demirik) sənətkardan fitri şairlik istedadı, az sözlə dərin məna ifadə etmək, zəngin söz ehtiyatına malik olmaq, dilin incəliklərini bilmək tələb etdiyindən hər aşıq təc-nis meydanına baş vura bilmir. Təcnis formaca eyni, məzmunca müxtəlif olan cinas, rədif və qafiyələrdən düzəlir.

Heyrətamiz gücü və zənginliyi ilə seçilən təcnislərin ən gözəl nümunələrini Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Ələsgər, Molla Cuma, Bozalqanlı Hüseyn, Aşıq Şəmşir, Mikayıl Azaflı kimi ustadlar yaratmışlar.

Xüsusi vurğulamaq istərdim ki, Aşıq Ələsgər təcnis aşıq şeiri şəklini zirvəyə qaldırmışdır. Fitri istedadı sayəsində aşıq yaradıcılığına dodaq samitləri (m, b, p) işlənməyən Dodaqdəyməz təcnis və Dodaqdəyməz cığalı təcnisləri gətirmişdir:

Deyilənə görə Aşıq Ələsgər Aşıq Alı ilə deyişəndə ustadını aşağıdakı dodaqdəyməz təcnislə bağlamışdır.

***Qışda dağlar ağ geyinər, yaz – qara,***
***Sağ dəstinlə ağ kağıza yaz qara.***

***Əsər yellər, qəhr eyləyər yaz qara,***
***Daşar çaylar, gələr daşlar çata-çat.***

Aşıq poeziyasının bu şeir şəkli də yazılı ədəbiyyatımızın zənginləşməsinə xidmət etmişdir.

Şairlərimiz gözəl təcnislər yazmışlar. Bu baxımdan Hüseyn Kürdoğlunun "Dağıstan gözəli" təcnisi maraq doğurur:

***Xəncər qaşlı bir Dağıstan gözəli,***
***Atıb getdi, qoydu məni avara***
***Bu sirrimi gərək deyim şeirlə,***
***Həm ləzgiyə, həm kumuka, avara.***

***Dastan eylər bu el-oba dərdimi,***
***Kamil ovçu belə ov edərdimi?!***
***Tapdım, dedim qaçmış ova dərdimi,***
***Dedi, çıx get, öz yerində ov ara.***[12]

Şair təcnisinə daha mükəmməl bir misal kimi Məmməd İlqarın "Gözəl çəkir" şerini göstərə bilərik.

***İlahi! Belə də gözəl olarmı?***
***-Kimdi qələm çəkən, nə gözəl çəkir.***
***Üz-üzə, göz-gözə sehirlənmişik,***
***Nə mən göz çəkirəm, nə gözəl çəkir.***

***Güney gözlüm, gözəllikdə bircəsən,***
***Bu güllükdə bir mən olam, bircə sən...***
***Gül üstündə arıya bax bircə sən-***
***Gör gülün nazını nə gözəl çəkir...***

***Salma gəl Məmmədi gözündən, gözəl,***
***Gözüm gözmü görüb gözündən gözəl!..***
***Mən ölmüş neynim ki, gözündən, gözəl-***
***Nə bir könül doyur, nə göz əl çəkir!***[13]

Aşıq poeziyasında elə şeir şəkilləri də var ki, onlara yazılı ədəbiyyatda təsadüf edilmir. Buraya vücudnamələr, sicilləmələr, ustadnamələr, hərbə-zorbalar daxildir. Bəzi oxucuların, xüsusən də gənclərin bu aşıq şeiri şəkilləri ilə tanış olmadığını nəzərə alaraq, onlar haqqında ətraflı danışmağı münasib bildik.

**Vücudnamələr**

Bu maraqlı aşıq şeiri şəkli qoşma kimi on bir hecalı olur. Lakin məna və məzmunca fərqləndiyinə görə onu qoşma adlandırmaq doğru deyildir.

Vücudnamədə insanın ana bətninə düşdüyü dövrdən qəbrədək: uşaqlıq, gənclik, təhsil illəri, evlənməsi, qocalması və dünyadan köçməsi təsvir olunur.

Vücudnamənin ən yaxşı nümunələrini Abbas Tufarqanlı, Xaltanlı Tağı, Aşıq Valeh, Molla Cuma, Mikayıl Azaflı və başqa aşıqlarımız yaratmışlar.

Nümunə üçün Azaflı Mikayılın 13 bənddən ibarət "Olar" vücudnaməsindən üç bəndi veririk:

***Atadan düşəndə ana qoynuna,***
***Canda təbiətdən can aşkar olar.***
***Doqquz ay, doqquz gün, doqquz saatda***
***Dünyaya gəlməyə ixtiyar olar.***

***El ona ad qoyar, şadlıqnan bəzər,***
***Bir, iki, üçədək əmər süd, gəzər.***

***Dörd, beş, altı yaşda müdəm sal nəzər,***
***Qoyma xəstələnər, ana zar olar.***

***Səksəndə axtarar ha kömək əli,***
***Doxsanda azdırsa, deyərlər dəli.***
***Yüzündə Əzrayıl çəkər çəngəli,***
***Köçər bu fanidən, tezbazar olar.*** [14]

**Sicilləmələr**

Sicilləmənin şeir şəkli yoxdur. Sicilləmələr, əsasən, ya divani, ya da müxəmməs şeir şəklinə uyğun gəlir. Professor Vaqif Vəliyev göstərir ki, sicilləmə daha çox ustadnamələrə oxşayır.[15]

Sicilləmələrin ən yaxşı nümunələrini Abbas Tufarqanlı, Aşıq Ələsgər, Molla Cuma, Aşıq Rəcəb Ehraqlı, Aşıq Soltan, Aşıq Məhəmməd Sadaxlı, Mikayıl Azaflı yaratmışlar.

Nümunə üçün Tufarqanlı Abbasın məşhur "Bəyənməz" sicilləməsindən üç bəndi təqdim edirik:

***Ay həzərat, bir zamana gəlibdir,***
***Ala qarğa şux tərlanı bəyənməz.***
***Oğullar atanı, qızlar ananı,***
***Gəlinlər da qaynananı bəyənməz.***

***Adam var dəstinə verərsən güllər,***
***Adam var, gözünə çəkəsən millər,***
***Tufarqanlı Abbas, başına küllər,***
***Nə günə qalmısan, qarı bəyənməz.***

**Ustadnamələr**

Ustadnamə ustad nəsihəti deməkdir. Onlar ta qədim zamanlardan məlumdur. "Kitabi-Dədə Qorqud" dastanında (boylarında) oxuyuruq:

***Hanı dediyim bəy ərənlər?***
***Dünya mənim deyənlər?***
***Əcəl aldı, yer gizlədi***
***Fani dünya kimə qaldı?***
***Gəlimli-gedimli dünya***
***Son ucu ölümlü dünya.***

Ustadnamələrin əsas qayəsi insanları doğru yola səsləməkdir. Onların başlıca mövzusu dünya, zəmanə, fələk və insanlardır. Ustadnamələrdə əxlaqi və milli dəyərlər qırmızı xətt kimi keçir.

Poetik quruluşa, bölgü sistemi və qafiyələnməyə görə, ustadnamələr qoşmadan fərqlənmir. Tədqiqatçıların qənaətinə görə, ustadnamələr aşıq yaradıcılığında müstəqil janr (şeir şəkli) kimi qoşmalardan yaranmışlar. Aşıq poeziyasında ustadnamələr gəraylı, qoşma, təcnis, müxəmməs, divani və s. aşıq şeiri şəkillərində təqdim olunur.

Aşıqlar məclisi ustadnamələrlə açırlar. Adətən iki-üç ustadnamə oxuyur, sonra əsas mətləbə keçirlər.

Elə bir ustad aşıq olmaz ki, ustadnamələr yazmamış olsun. Qurbani, Tufarqanlı Abbas, Aşıq Alı, Ağ Aşıq, Aşıq Ələsgər, Dərya Məhəmməd, Şakir Hacıyev, Aşıq Soltan, Mikayıl Azaflı və başqaları ustadnamənin insanı haldan-hala salan, düşündürən nümunələrini yaratmışlar. Aşıq Ələsgərdən bir bəndi verməklə kifayətlənirik:

***Qafil könül, bu nə yoldu tutubsan,***
***Sərf edirsən, nə kamaldı dünyada?!***
***Dövlətə qul olub gül tək açılma***
***Çox səni tək güllər soldu dünyada.***

**Divanilər**

Divanilərin aşıq poeziyasına Divan ədəbiyyatından gəlmə olması barədə fikir sabitləşib. “Divani” də “Müxəmməs” kimi Divan ədəbiyyatında əruz vəznində olduğu halda, aşıq poeziyasında heca vəzni üstə köklənib. Divani üç, beş və daha artıq bənddən, hər bənd dörd misradan, hər misra on beş hecadan ibarət olur. Misradaxili bölgüsü 7+8 və ya 8+7 şəkildə olur. Aşıqlarımız klassik ədəbiyyatı bilmədiklərindən, bu şeir şəklini 14-15 və ya 16 hecalı misralar əsasında qururlar.

Bəzi folklorşünaslar divaninin qoşma olduğu qənaətindədirlər. Qoşmanın hər misrası 11 hecadan ibarət olduğu halda, divanidə hər misrada 15 və ya 16 heca olur. Məhz buna və məzmununa görə divanini qoşma hesab etmək doğru deyildir.

Bizə qalırsa, “Divani”lər Aşıq poeziyasına klassik ədəbiyyatdan, daha doğrusu, “qıfılbənd bağlama”, “Əlif lam”, “Tərs əlifba” kimi Nəsimidən gəlmədir. Şairin “Kəpənək” (yapıncı) adlı divanisi deyilənlərə əyanilik gətirir:

***Çəkəli əynimə, bu sikke-yi mərcan kəpənək,***
***Biləcək qıldı mənim dərdimə dərman kəpənək.***
***Kəpənək geymişəm, əndişədən azad oluban***
***Üşümək müşkülünü eylədi asan kəpənək.***

Məncə, Nəsimi, divaniləri heca vəznində yazan ilk şairimizdir.

Divaninin ən gözəl nümunələrini Xəstə Qasım, Aşıq Musa Ağkilsəli, Aşıq Ələsgər, Molla Cuma, Aşıq Teymur Qaraçöp, Aşıq İskəndər Ağbabalı, Aşıq Murad Çobanoğlu, Mikayıl Azaflı və digərləri yaratmışlar.

Nümunə üçün Aşıq Teymur Qaraçöpün divanisindən bir bənd verməklə kifayətlənirik:

***Bivəfaya uyma, könül, vəfadar əldən gedər,***
***Xain olma sən dostuna, etibar əldən gedər.***
***El içində həyalı gəz, təmiz saxla adını***
***Aldanma dünya malına, namus, ar əldən gedər.***

Maraqlıdır ki, aşıq poeziyasında heca vəzni üstə köklənən divanilər yazılı ədəbiyyatda da özünü göstərir. Tanınmış şairimiz Musa Ələkbərlinin Vətən müharibəsində həlak olan igid oğullarımıza ünvanladığı “Zəfər ünvanlı şəhidim” divanisi deyilənə əyani misaldır:

***Dilimizdə ən yaralı,***
***Bayatısan, ağısan.***
***Anaların göz yaşısan,***
***Sinələrin dağısan.***
***Ayın bulud örtüyüsən,***
***Günün qürub çağısan. və s.***

Ustad aşıqlarda olduğu kimi, şair hər misranı iki yerə bölüb, 1-ci misra başdan-ayağa 8 hecalı, 2-ci misra 7 hecalıdır.

**Hərbə-zorbalar**

Keçmişdə ustad aşıqlar arasında “bağlama deyişmələr” baş verirdi. Bu cür deyişmələrdə son məqsəd aşıqların bir-birini bağlayaraq sazını əlindən almaq ol-duğuna görə, onlar “Bağlama deyişmə” adlanırdı. Bağlama deyişmələr aşıq poezi-yasında yeni poetik imkanların, sözün yeni məna qatlarının üzə çıxmasına meydan yaratmışdır.

Deyişmələr aşıqların istedadını, biliyini, bədahətən şeir demə qabiliyyətini, kimin nəyə qadir olduğunu nümayiş etdirmək, ad-san qazanmaq baxımından əhə-miyyətli olmuş, aşıqları yeni sənət axtarışlarına sövq etmişdir. Deyişmə zamanı şeir şəkillərinin əksəriyyətindən, xüsusən də hərbə-zorba, bağlama, qıfılbənd, ustadnamə, təcnisdən istifadə edildiyindən ustalıq iddiasında olan aşıq bütün şeir şəkillərindən və aşıq havalarından xəbərdar olmalı idi. Bağlama deyişmələr dörd mərhələdən ibarət olurdu. O mərhələlərdən biri də "hərbə-zorba" mərhələsi idi. Aşıq Ağacanla Bozalqanlı Hüseynin "Hərbə-zorba"sından verdiyimiz nümunənin oxucularda təsəvvür yaradacağına inanırıq:

Aşıq Ağacan:

***Demədimmi çıxma dağlar başına,***
***Tufan olur, boran-qar olur onda.***
***Əl uzatma gözün görən yuvaya***
***Gürzə olur, şahmar, mar olur onda.***

Hüseyn Bozalqanlı:

***İstəmirəm, sənə dəyim, dolaşım,***
***Bağırsam qulağın kar olar onda.***
***Əlindən alaram telli sazını***
***Gen dünya başına dar olar onda.***

Deyişmələr hərbə-zorba ilə başlayır və qarşıdakı aşıq ustadnamə, təcnis, qıfılbənd, divani kimi aşıq şeir şəklinin ən çətin formalarından istifadə ilə sınağa çəkilir.

**Qıfılbəndlər**

Qıfılbəndlərin ilk nümunələrinə yazılı ədəbiyyada – Nəsimi yaradıcılığında rast gəlirik. Yuxarıda dediyimiz kimi şairin yaradıcılığı şifahi xalq ədəbiyyatı və aşıq poeziyası ilə qoşa inkişaf etmiş, aşıq yaradıcılığına yeni janrlar gətirmiş, formaca onun inkişafına təkan vermişdir. Bu təsiri şairin qıfılbənd bağlamalarında bariz şəkildə görürük:

***Niyə dörd oldu suya irmağın?***
***Səkiz oldu qapısı üçmağın?***
***Tuba ağacının nədir yemişi?***
***Həq onu ər yaratdı, yoxsa dişi?***

Şairin "Divani" üstündə yazılmış bağlamaları da çoxdur. "Nədir" bağlamasından verdiyimiz misralar onun bağlamaları haqqında dolğun təsəvvür yaradır:

***Doquz ata, yedi ana, dörd dayədən ver xəbər***
***Bu çəharü pəncü şeşin, saqi, binası nədir?***
***Yedi yer-göy, yedi dərya, yedi ayət, yedi xət,***
***Yedi müshəf, Musaya, çün yedi bəyzası nədir?***

Ordubadlı Kərim (XVII əsr) və Aşıq Ələsgərin "Yeddidi" qıfılbəndləri Nəsiminin bağlamalarına çox bənzəyir. Bu nümunələrdə Nəsimi şeirinin poetik intonasiyası, janr yaddaşı dərhal duyulur.

***Ordubadlı Kərimin qıfılbəndindən:***
***Məndən salam olsun Məlik Paşaya***
***Nə şəcərdi, onun budağı yeddi?***
***Yüz iyirmi dörd min şahın içində,***
***Yanıb şölə çəkər çırağı yeddi?***

***Nə çeşmədi doymaq olmaz suyundan?***
***Baş birdi, başdan ayağa yeddi?***

Aşıq Ələsgərin qıfılbəndindən:

***Məğrurluq eləyib ustadam deyən,***
***O hansı ağacdı, tağı yeddidi?***

***O ağacda bir quş yuva salıbdı,***
***Çarpaz sinəsinin dağı yeddidi?***

Nəsiminin qıfılbənd bağlamaları, demək olar ki, bütün görkəmli aşıqlarımıza təsir etmişdir. Biz görkəmli aşıqlar deyəndə aşıq şeiri şəkillərinin ecazkar nümunələrini yaradan, dastan qoşan, bədahətən şeir demək qabiliyyətini nümayiş etdirən, aşıq şeiri şəkillərindən yerli-yerində istifadə edə bilən, bütün aşıq havalarından xəbərdar olan, özü aşıq havaları yaradan "Dədə" aşıqları nəzərdə tuturuq. Hər aşıq "qıfılbənd bağlama" yarada bilməz. Qıfılbəndi yaratmaq və dərk etmək üçün gərəkdir ki, "Şəriət" və "Təriqət" elmindən xəbərdar olasan.

Ordubadlı Kərim (XVII əsr), Xəstə Qasım (XVIII əsr) Azərbaycanca yazıb-yaradan Ləzgi Əhməd (XVIII), Meşkinli Məhəmməd (XIX əsr), Şəmkirli Aşıq Hüseyn (XIX əsr), Aşıq Ələsgər, Molla Cuma, Hüseyn Bozalqanlı hər iki elm sahəsini mükəmməl bilən qıfılbənd ustaları kimi məşhur olmuşlar.

Ləzgi Əhmədlə Xəstə Qasımın dillər əzbəri olan qıfılbənd deyişmələrindən iki bəndi məmnuniyyətlə oxuculara təqdim edirəm:

Ləzgi Əhməd:

***O nədir ki, dayanıbdır dayaqsız?***
***O nədir ki, boyanıbdır boyaqsız?***
***O nədir ki, doğar əlsiz-ayaqsız?***
***Üç ay keçər ayağı var, əli var?***

Xəstə Qasım:

***Göy bir çadır, dayanıbdır dayaqsız.***
***Ayla-Gündü, boyanıbdır boyaqsız.***
***Qurbağadır, doğar əlsiz-ayaqsız.***
***Üç ay keçər, ayağı var, əli var.***

Bütün yaradıcılığı orijinal və təkrarsız olan Cəfər Cabbarlı aşıq poeziyasından istifadə ilə qıfılbənd yaratmışdır. Professor Vaqif Vəliyev həmin qıfılbəndi "İnqilab və mədəniyyət" jurnalında (1936, №1) üzə çıxarmış və kitabında vermişdir.[16] Doqquz bənddən ibarət olan "O nədir?" qıfılbəndindən üç bəndini təqdim edirik:

***Səndən xəbər alım haq bilən aşıq,***
***O nədir ki, sözü vardır, özü yox?***
***Cavab qaytar istəyinə müvafiq,***
***O nədir ki, özü vardır, sözü yox?***

***O nədir ki, Allahına pul deyir?***
***O nədir ki, ağasına qul deyir?***
***O nədir ki, olmaz şeyə ol deyir?***
***O nədir ki, əyrisi var, düzü yox?***

***O nədir ki, dəftəri çox, işi az?***
***O nədir ki, "sabah gəl"i qurtarmaz?***
***O nədir ki, qulaq verməz yüz min yaz?***
***O nədir ki, qışda getsən buzu yox?***

Mənə belə gəlir ki, bu qıfılbəndin təhlilə ehtiyacı yoxdur. Fitri istedad sahibi Cəfər Cabbarlı qıfılbəndin mənasını misralarda özü açıqlamışdır.

**"Əlif-lam" və "Tərs əlifba"**

Nəsiminin aşıq poeziyasına gətirdiyi yeniliklərdən biri də "Əlif-lam" və "Tərs əlifba"dır. "Əlif-lam"da hər misranın ilk kəlməsinin ilk hərfi ərəb əlifbasının sıra ilə düzlüşü əsasında verilir. Məsələn:

***Əlif – Əla qamətin hər kim görür bican olur.***
***Bey – Bəşarət buldu hər kim dilbəri sultan olur.***

***Tey – Təmənna vəslini etdim, niyazım uşbudur,***
***Sey – Sənə etməklik üçün uş canım qurban olur.***

"Tərs əlifba"da isə şeir ərəb əlifbasının son hərfi ilə başlayır və ilk hərfə doğru gedir. Bununla da "Tərs əlifba" şeir şəkli alınır.[17]

"Əlif-lam"ın diqqətəlayiq nümunələrini Aşıq Ələsgər, Molla Cuma, Növrəs İman, el şairi Musa yaratmışlar.

Bu aşıqlar arasında Dədə Ələsgər xüsusilə fərqlənirdi. Aşıq Ələsgər nəinki "Şəriət" və "Təriqət" elmlərini mükəmməl bilmiş, eləcə də klassik ədəbiyyatımızdan xəbərdar olmuşdur.

Nəsiminin "Əlif-lam" və "Tərs əlifba" şeir şəkillərini aşıq yaradıcılığına ilk olaraq Aşıq Ələsgər gətirmişdir.

Həyatı boyu yaradıcılıq axtarışlarında olan, aşıq poeziyasının bütün şəkillərində qələmini sınayan, uğur qazanan, "Şəriət" və "Təriqət" elmini mükəmməl bilən, qoşma və divani üstündə "Əlif-lam" yaradan Aşıq Ələsgər gəraylı üstündə də 36 misralıq "Əlif-lam"ın dini baxımdan gözəl nümunəsini yaratmışdır.

***İbtidakı "Əlif" – Allah.***
***Bey – Birliyə dəlalətdir.***
***Tey – təkdir, vahidi yekta***
***Arif bu elmə bələddir.*** *və s.*

Molla Cumadan başqa bütün aşıqların və el şairlərinin "Əlif-lam"ları dini mövzudadır və şübhəsiz, şəriət və ilahiyyat elminin qavranılmasına xidmət edir.

Molla Cumanın "Əlif-lam" və "Tərs əlifba"sını fərqləndirən cəhət yalnız eşq, məhəbbət, sevgi ilə bağlı olmasındadır. Bununla da Molla Cuma Nəsimi ruhuna yaxınlaşır. Aşığın gəraylı üstündə yazılan "Qız" adlı "Əlif-lam"ı deyilənlərə dayaq olur:

***"Əlif" - əlin ver əlimə***
***Gedək bizim ellərə, qız!***
***"Bey" - baxıb güvənirəm,***
***Üzündəki tellərə qız!***
***"Cim" - camalın oxşayır,***
***Tez açılan güllərə, qız!***
***"Hey" - hərəm sonasısan,***
***Uçub qondun göllərə, qız!***
***"Lam" - Leylidən dərs götürüb, -***
***Döndərdin Məcnunə məni.*** *və s.*

Ənənəvi "Əlif-lam"da, adətən, ərəbcə hərf verilir, sonra isə mənası açılır və s.

***"Əlif" - eylə bir mərhəmət,***
***Mətləbimə çatım, gedim.***
***"Bey" - bağrıma basım səni,***
***Canım canə qatım, gedim.***
***"Tey" - tədarük gör axşama,***
***Bircə çimir yatım, gedim.***

Molla Cumanın bir çox "Əlif-lam"larında misradan hasil olan fikrə əsasən, hərflərin nə məna verdiyi açıqlanır:

***Dost da öz dostundan olurmu bezar,***
***Yatmıram gecələr, "fi", "kafi", "rey"dən***

Açması "fikirdən" deməkdir.

Konkret poetik nümunələr göstərir ki, "Əlif-lam", "Tərs əlifba" və müxəmməs aşıq şeiri şəklinin ən mükəmməl nümunələrini Molla Cuma yaratmış və aşıq poeziyasını xeyli dərəcədə zənginləşdirmişdir.

**"Əvvəl-axır"**

Aşıq yaradıcılığında qoşma üstündə köklənən şeir şəkli "Əvvəl-axır"a az da olsa təsadüf edilir. "Əvvəl-axır"da bütün misralar hansı hərflə başlayırsa, həmin hərflə bitir. Buna görə də "Əvvəl-axır" adlanır.

"Əvvəl-axır"ın ən gözəl nümunələrini Molla Cuma və Mikayıl Azaflı yaratmışdır:

***Zaval yoxdur, sənə ördək, sənə qaz,***
***Zaman keçir, yaz hovzunda yüz ha yüz.***
***Zənbur avazına dönübdür avaz,***
***Ziyanım var, çək boğazım yüz ha yüz.***

Maraqlıdır ki, Molla Cuma "Əlif-lam" şeir şəklində də "Əvvəl-axır" yaratmışdır:

***Bülbül sayaq cuşə gəldim "yey"i "əlif", "zey"in görüb,***
***Başladım göftar deməyə "yey"ü "vav"ı "rey"in görüb.***
***Bədirlənmiş camalına qalmışam mail olub,***
***Bildim candan xeyir yoxdur "mim"ü "əlif", "zey"i görüb.***
*(açması: yaz, yüz (üz), naz)*

**Dedim-Dedi**

Bu şeir şəklinə aşıq poeziyasında nisbətən az təsadüf edilir. Bunu aşıqların az çalıb-oxuması ilə əlaqələndirmək olar. Məhəbbətdən bəhs edən bu aşıq şeiri şəklinin ən yaxşı nümunələrini Qurbani, təxminən səkkiz ilə yaxın Qafqazda yaşamış görkəmli Krım tatar aşığı Ömər (1621-1707), Ərzurumlu Aşıq Əmrah, Aşıq Saleh, Mikayıl Azaflı, Nəbi Əfəndi Zabit, el şairi Nəbi, Ürfan Əli (Əli Quliyev) yaratmışlar.

Aşıqşünas alimlərimiz Məhərrəm Qasımlı və Mahmud Allahmanlı qeyd edirlər ki, bu şeir şəklinə aşıqlar "güllü qafiyə" – deyirlər. "Qafiyə" XX yüzilliyə qədər Azərbaycan folklor arealında hazırkı "qoşma" anlamını ifadə etmişdir. Bu mənada "güllü qafiyə" – "güllü qoşma" deməkdir.[18] "Güllü qafiyə" saz havası üstündə oxuyurlar.

Aşıqlarda "Dedim-Dedi"lərdən qurulan "güllü qafiyə" misradaxili və misraönü olur.

Misradaxili "Dedim-Dedi"yə misal:

***Dedim: Gülşən nədi: – Dedi: Bağımdı.***
***Dedim: Səfalıdı? – Söylədi: Yox-yox.***
***Dedim: İşrət nədi? – Dedi: Çağımdı.***
***Dedim: Gəlsən sürək? – Söylədi: Yox-yox.***
**(Ərzurumlu Aşıq Əmrah)**

Adını çəkdiyimiz bütün aşıqlarda misraönü "güllü qafiyə" işlənib. "Dedim-Dedi"lərdən qurulan "güllü qafiyə"lərə nümunələr:

***Dedim: Dilbər, getmə bir dəm danışaq.***
***Dedi: Sözün yoxdur, bəhanədir bu.***
***Dedim: Bir nəzər qıl aşiq halına.***
***Dedi: Əcəb dəli, divanədir bu.***
**(Qurbani)**

***Dedim: Dilbər yanaqların qızarmış.***
***Dedi: Çiçək taxdım, gül yarasıdır.***
***Dedim: Danə-danə olmuş xalların.***
***Dedi: Zülfüm dəydi, tel yarasıdır.***[19]
**(Aşıq Ömər)**

Yazılı ədəbiyyatda "Dedim, Dedi" aşıq şeiri şəklinə Xalq şairi Hüseyn Arif yaradıcılığında rast gəlinir. Şairin xalq ruhunda yazılan "Dedim, Dedi"sinə musiqi bəstələnib, mahnı indi də sevilir.

***Dedim: Telin nə gözəldir!***
***- Yox, yox, ona dəymə! – dedi.***
***Dedim: Nə vaxt gəlim sizə?***
***Qapımızı döymə - dedi.***
***Dedim: Nədir bu işvə-naz?***
***Dedi: Yeri, şerini yaz!***
***Dedim: Qövr eyləyir yaram.***
***Dedi: Sənlə yoxdu aram.***
***Dedim: Axı sənətkaram.***
***Çox özünü öymə - dedi.***

Maraqlıdır ki, aşıq poeziyasında "Dedim-Dedi"lər qoşma üstündə olduğu halda, Hüseyn Arifdə gəraylı üstündədir. Bundan əlavə, bu aşıq şeiri şəkli misradaxili və misraönü quruluşunda olduğu halda, Hüseyn Arifdə güllü qafiyəyə misra sonunda təsadüf edilir.[20]

**Deyişmələr**

Deyişmələr müxtəlifdir. Bağlama qıfılbənd deyişmələri çıxmaqla, onların bir çoxu hal-əhval tutmaq, zəmanədən, insanlardan, fələkdən, dünyanın keşməkeşlərindən şikayət və s. məqamlarda işlənir. Deyişmələrdə hal-əhval tutmaq, qarşısın-dakını imtaha çəkmək üstünlük təşkil edir.

Mikayıl Azaflı ilə Xalq şairi Zəlimxan Yaqub arasında üç deyişmə baş tutub. "Yavaş yeri" deyişməsindən nümunə üçün iki bəndi təqdim edirik:

Zəlimxan Yaqub:

***Ötməsin, aylara, illərə yalvar,***
***Gəzməyə nə qədər çiçəkli yal var.***
***Laləyə bənzəmə, bağrında xal var.***
***Düşməsin qəlbinə xal, yavaş yeri.***

Mikayıl Azaflı:

***Hər görünən dağdan səfa gözləmə,***
***Hər həkim əlindən şəfa gözləmə,***
***Hər yetən gözəldən vəfa gözləmə,***
***Sayma hər şirini bal, yavaş yeri.***[21]

Təəssüflər olsun ki, aşıq poeziyasının inkişafına müsbət təsir edən "Deyişmələr" hələlik lazımınca tədqiq olunmamışdır.

**Şeir-məktublar**

Şeirlə məktublaşmalar keçmişdə də, zəmanəmizdə də aşıqlar və el şairləri arasında dəbdə olub. Buradakı mövzu rəngarəngliyi adamı heyran edir.

Aşıq yaradıcılığında sabitləşən şeirlə məktublaşma və deyişmələrə elə-belə məşğuliyyət, hobbi kimi baxmaq doğru olmazdı. Onların hər birinin arxasında müəyyən zaman kəsiyində baş verən hadisələr, insanlar, zamana, tarixə, dövrə münasibət durur.

Görün kəlbəcərli el şairi Dastançı Əli (Əli Qurbanov) şeir-məktubla Azaflı Mikayılı oğlunun toyuna necə dəvət edir. Şeirdən iki bəndi təqdim edirik:

***Ay Azaflı, xeyir olsun həmişə,***
***Daha ömrün boyu şərdən uzaq ol.***
***Zəhməti qəbul et, istəyəninlə***
***Oğlumun toyuna buyur, qonaq ol.***

Bu şeir-məktubda təkcə bir ailə üçün əlamətdar olan hadisədən söhbət getmir. "Daha ömrün boyu şərdən uzaq ol" Azaflı Mikayılın başına gələn bəlaya işarədir. İstedadlı, ilahi vergili olduğuna görə ötkəm olan, qorxu bilməyən Mikayıl Azaflı bir

xudmani məclisdə Tovuz rayonunun Qaraxanlı kəndinin el şairi Seyid Bəndənin Sovet dönəmində nəinki məclisdə oxunması, hətta dilə gətirilməsi belə təhlükəli olan:

***Əlimizdə zorba çomaq,***
***Başımızda motal papaq***
***Ağ şalvarda qara yamaq***
***Kommunizmə gedirik biz.***[22]

misraları ilə başlanan şeirini oxuduğuna görə sənətkar “Oğurluqda və evində silah saxlamaqda təqsirli bilinib” damğası ilə dörd il (1961-1964) azadlıqdan məhrum edilmişdi. Dastançı Əli buna işarə edir.

Aşıq Şəmşirin Mikayıl Azaflıya ünvanladığı “Olanda gəl” şeir-məktubu da çox mətləblərdən söz açır. Aşıq Şəmşirin şairlik istedadının səviyyəsini göstərən şeir-məktubdan iki bəndi veririk:

***Çəmənə, çiçəyə bəzənir hər yan,***
***Sən bizim dağlara yaz olanda gəl.***
***Lalə, nərgiz açılanda ərmağan***
***Boran bu yerlərdə az olanda gəl.***

***Xəstəlik əlində belə çaşbaşam,***
***Axı bacarmıram, sellənib daşam.***
***Müddətdi yatıram, hələ naxoşam,***
***Şəmşirin əlində saz olanda gəl.***

Bu şeir-məktubda, hər şeydən əvvəl, diqqəti çəkən təbiət təsviridir. Sanki istedadlı rəssamın fırçasından çıxan ecazkar bir tablodur.

Şeir-məktublar təkcə hal-əhval tutmaq, nəyisə xəbər vermək, sevincini bölmək və s. ifadə etmək üçün deyil, eyni zamanda qəm-qüssə, kədəri bildirmək məqamında güclü olur.

1954-cü ildə görkəmli Aşıq Mirzə Bayramov dünyasını dəyişəndə el şairi Bimar İsgəndər Aşıq Qədirə tovuzluların kədərinə şərik olduğunu göstərən “Deyirlər” adlı şeir-məktub ünvanlamışdı:

***Yaz görüm, ay Qədir, mənə bir xəbər,***
***Mirzənin karvanı köçdü – deyirlər.***
***Əgər olmasaydı Əsəd ölməmiş,***
***Hüseyn saralmamış, Nəcəf solmamış,***
***Köhnə yaralarım bir yan olmamış,***
***Yeni yaralarım deşdi – deyirlər.***

Bu şeir-məktub indi də aşıqların dillər əzbəridir. Şeir-məktubda təkcə Aşıq Mirzə deyil, başqa görkəmli aşıqlar da yad edildiyinə görə aşıqlar və saz-söz pərəstişkarları tərəfindən yüksək qiymətləndirilir.

Təəssüf ki, şeirlə məktublaşmalar aşıq poeziyasında xüsusi yer tutsa da, geniş yayılsa da, hələlik əsaslı tədqiqata cəlb olunmayıb.

Aşıq poeziyasında cinaslı bayatılar, mərsiyələr (ağılar), ithaflar, həcvlər, nəzirələr də qədərincədir. Yazılı ədəbiyyatda da geniş yayılan bu şeir şəkilləri barədə ayrıca yazmağa ehtiyac duymadıq.

Aşıq şeir şəkillərini böyük ustad aşıqlarımız yaratmışlar və bu proses zəmanəmizdə də davam edir.

AMEA-nın müxbir üzvü, professor Azad Nəbiyev aşıq yaradıcılığı prosesinin qədimdən zəncirvari şəkildə törəyib artdığını və silsilə müxtəlifliklər yaratdığını görərək doğru qənaətə gəlmişdir. Görkəmli folklorşünas alimimiz yazır ki, bütün aşıq şeir şəkilləri pərdə ifa səciyyəlidir. İfaçılar həmin havalara öz mizanlarını vurmağa cəhd etməklə yeni forma, şəkil və hava yaradırlar. Ona görə də sonsuzluğa aparan aşıq şeiri şəkillərinin repertuardakı (və yazıdakı) dəstinin intəhasızlığını müəyyənləşdirmək asan deyildir.[23]

Həqiqətən də belədir. Müasirimiz Azaflı Mikayılın yaratdığı "Azaflı dübeyti", "Azaflı himni", "Azaflı dünyası", "Azaflı gözəlləməsi", "Azaflı müxəmməsi", "Azaflı gəraylısı", "Azaflı dağları", "Azaflı bəhri" və sairə kimi 12-dən artıq dillər əzbəri olan, aşığa əbədilik gətirən aşıq havaları deyilənlərə dayaq olur.

Klassik ədəbiyyatımızın görkəmli tədqiqatçısı professor Xəlil Yusiflinin orta əsrlər Azərbaycan şeirində janrlar və bədii ifadə vasitələri haqqında gəldiyi qənaət-ləri də yuxarıda deyilənlərlə səsləşir: "Bizə görə, bütün janrların və bədii vasitələ-rin meydana gəlməsi məna və məzmun tələbi ilə insan təfəkküründə gedən axtarış və proseslərin nəticəsidir... Əlbəttə, bu ədəbi, fikri axtarışlar bu gün də davam edir".[24]

Aşıq poeziyasının şəkilləri poetik quruluşu, məzmun çalarları, bədii təsvir zənginliyi etibarı ilə böyük tarixi inkişaf mərhələlərindən keçmişdir. Xüsusən, yazılı ədəbiyyatla qarşılıqlı zənginləşmə prosesi aşıq poeziyası şəkillərinin hər birində dərhal hiss olunur. Folklor janrları ilə klassik irsin poetik keçidləri olduğu kimi, şifahi xalq yaradıcılığının aşıq poeziyası ilə də qovuşan cəhətləri istənilən qədərdir. Aşıq poeziyasını folklor hadisəsi hesab etmək müəllifi bəlli bir ədəbi irsi konkret ünvandan məhrum etməkdir.

Milli bədii yaddaşdan süzülüb gələn ifadə sistemi yazılı ədəbiyyat hesab edilən irsimizə də buradan yol açılmışdır. Burda calaq yoxdur. Barlı-bəhrəli, bütöv poetik sənət tarixi mövcuddur – desək, həqiqəti ifadə etmiş olarıq.

Aşıq poeziyasına, aşıq şeir şəkillərinə həsr etdiyimiz tədqiqat deyilənləri təsdiqləyir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI


1. Aşıq ədəbiyyatı antologiyası. 3 cilddə. Bakı, 2017
2. Mikayıl Azaflı. Qoca Azaflıyam. Bakı, "Nurlan", 2008, 760 s.
3. Aşıq ədəbiyyatı antologiyası. I cild. Aşıq poeziyası. Bakı, 2017, s.7
4. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. II hissə, Bakı, 2006, s.240
5. Sabir Rüstəmxanlı. Xalqın söz silahı. Bakı, 2019, s.221.
6. Paşa Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, "Maarif", 1992, s.229.
7. Muxtar Kazımov. Folklor həm keçmiş, həm də bu gündür. Bakı, "Elm və təhsil", 2014, s.55.
8. Qəzənfər Paşayev. Nəsimi. Edamdan sonrakı həyat. Bakı, "Şərq-Qərb", 2017, s.63-78.
9. Məhərrəm Qasımlı. Folklor və ədəbiyyat araşdırmaları. Bakı, "Elm və təhsil", 2017, s.474.
10. Mikayıl Azaflı. Qoca Azaflıyam. Bakı, "Nurlan", 2008, s.417-432.
11. Səməd Vurğun. Əsərləri. I cild. Şeirləri. Bakı, 1960, Elmlər Akademiyasının nəşriyyatı, s.205-206.
12. Qəzənfər Paşayev. Hüseyn Kürdoğlunun poetik dünyası. Bakı, "Sabah", 2017, s.103.
13. Məmməd İlqar. Məndən sənə qalan sözdü. Bakı, "Max Ofset" şirkətinin mətbəəsi, 2020, s.5-6
14. Mikayıl Azaflı. Qoca Azaflıyam. Bakı, "Nurlan", 2008, s.403-404.
15. Vaqif Vəliyev. Azərbaycan folkloru. Bakı, "Maarif", 1985, s.193.
16. Vaqif Vəliyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, "ADU" nəşriyyatı, 1970, s.252.
17. Qəzənfər Paşayev. Nəsimi. Edamdan sonrakı həyat. Bakı, "Şərq-Qərb", 2019, s.68.
18. Məhərrəm Qasımlı, Mahmud Allahmanlı. Aşıq şeirinin poetik biçimləri və çeşidləri. Bakı, "Elm və təhsil", 2018, s.123.
19. Aşıq ədəbiyyatı antologiyası. I cild. Aşıq poeziyası. Bakı, 2017, s.109.
20. Hüseyn Arif. I cild. Şeirlər. Bakı, 2014, s.109.
21. Azaflı Mikayıl. Qoca Azaflıyam. Bakı, "Nurlan", 2008, s.600.
22. Azaflı Mikayıl. Qoca Azaflıyam. Bakı, "Nurlan", 2008, s.6.
23. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. II hissə, Bakı, 2006, s.256.
24. Xəlil Yusifli. Orta əsrlər Azərbaycan şeirində janrlar və bədii ifadə vasitələri. Bakı, "Elm və təhsil", 2017, s.5-6.

# ♦ Poeziya



***İbrahim YUSİFOĞLU***

## ƏLİNCƏ

Ürəkdə qan coşar, ilham çağlayar,
Bu qədim qalanı seyrə gəlincə.
Hər kəsi özünə qəlbən bağlayar,
Qurur mənbəyimiz məğrur Əlincə.

O adi dağ deyil, Nəqşicahanın
Bütövlük, mətinlik, güc simvoludu.
Namərdlər önündə dik tutub başın,
Əyilməzlik rəmzi, haqqın yoludu.

Əlincə ən acgöz, zalım şahları,
Tanrıdan güc alıb, bələyib qana.
Bədniyyət, qaniçən Miranşahları
Qoymayıb illərlə girə qoynuna.

Qalada igidlər döyüş anında,
"Cəngi" səsləndirib, söz söyləyiblər.
Kimin gücü olub hələ canında,
Düşmənin üstünə od ələyiblər.

Burda sipər olub hər daş, hər qaya,
Düşmənin yolunu bağlayıbdılar.
Barıt qarışsa da torpağa, çaya,
Güllər öz ətrini saxlayıbdılar.

Daha qorxusu yox yad qüvvələrdən,
Bu yurda göz dikmək çətinləşibdi.
Bu günkü qayğıdan, saf məhəbbətdən,
Əlincə daha da mətinləşibdi!

## YAŞADIĞIN YAŞA DƏYƏR

Bu həyatda naşı olsan,
Bir sapandın daşı olsan.
Yanaqların yaşı olsan,
Bəxtın gedib daşa dəyər.

Könlün seçdi igid,mərdin,
Çox bəlaya sinə gərdin,
Qurtarmadı sevgi dərdin,
Yanağında yaşa dəyər.

İlk eşqini saxlasan da,
Yada salıb ağlasan da.
“Ah” larınla oxlasan da,
Gözdən ötüb qaşa dəyər.

Günah sənlə gəzirdisə,
Ürəyini əzirdisə,
O günaha nəzirdisə-
Payladığın aşa dəyər.

Hər günü tay ilə bilsən,
Dərdi qəlbdən silə bilsən,
Ömrü-ömür bilə bilsən-
Yaşadığın yaşa dəyər.

## SƏNİN GÖZLƏRİNDƏN MƏHƏBBƏT YAĞIR

Sənin gözlərindən məhəbbət yağır,
Yağır yazda yağan yağışlar kimi.
Odlu baxışların şimşək tək çaxır,
Ürəklər oxlayan baxışlar kimi.

Dönüb gözlərini süzə bilmirəm,
Mənim ki, islanan çağım keçibdir.
Şimşək baxışlara dözə bilmirəm,
Ömrüm çən-dumanlı yolu seçibdir.

Sənin gözlərindən yağan məhəbbət,
Hardasa bir sevda cücərdəcəkdir.
Mənim qismətimə bir quru həsrət,
Kiməsə səadət bəxş edəcəkdir.

## UZAT ƏLLƏRİNİ

Bəlkə gözləmirdin, bəlkə... nə bilim,
Bəlkə acıyırsan, gülürsən elə...
Görürsən tutulur söz deyən dilim-
Uzat əllərini çatacaq mənə.

Uzat əllərini barmaqlarınla,
Codlaşmış saçlarım daranmalıdı.
Bütün inamınla,bütün varınla,
Səndə mənə inam yaranmalıdı.

Uzat əllərini, tutum əlindən,
Beləcə, arada körpü yaransın.
Baxım gözlərinə,ba vaxt dilindən,
Ürəyim istəyən sözlər alınsın.

Uzat əllərini, a payız gülüm,
Qar yağır, saçına ələnə bilər.
Çatsın qulağına fəryadım,ünüm,
Ürəyim dərdlərə bələnə bilər.

Bəlkə gözləmirdin, bəlkə...nə bilim,
Bəlkə ağlayırsan, gülürsən elə.
Qayıt gəl ömrümə, a payız gülüm,
Uzat əllərini, yaxşıdır belə.

## DAHA QAR YAĞIR...

Yağışlar yağdı, qurtardı,
Daha qar yağır, qar yağır.
Kimin evinə qəm-kədər,
Kimin çölünə var yağır.

Kövrək olur, güllər nədən,
Boylananda pəncərədən.
Qəmli-qəmli tül pərdədən,
Baxan gözlərə qar yağır.

Ömrün gülşəni qaralıb,
Yamyaşıl orman saralıb,
Yollar yamanca daralıb,
Daha izlərə qar yağır.

Gəlib yetdi elə zaman,
Baxışı ox, sözü kaman,
Yanağından qanı daman,
Daha izlərə qar yağır.

Dağ bürünüb duman- çənə,
Saç bələnib qırov, dənə,
Yusifoğlu, ta ömrünə,
Daha qar yağır, qar yağır.

## GÜNNÜTÜM

***26 il ermənilərin nəzarətində qalan Şərur rayonunun Günnüt kəndinin azad olunması münasibətilə yazılmış şeir***

Salam, Oğuz eli, Vətən torpağı,
Salam, Dədə Qorqud gəzən Günnütüm.
Düşmən caynağında qalan çağları,
Halı qəlbimizi üzən Günnütüm.

Sən türk torpağısan, türk dillisən sən,
Babam Xətainin sevdiyi yersən,
"Koroğlu" zağalı tarixsən, sirsən –
Həm dağlı, təpəli, düzən Günnütüm.

Gəlmişik, sarılaq bu gün boynuna,
Gəlmişik, son qoyaq namərd oynuna,
Kövrəlmə, yaxşı bax coşan qoynuna,
Nəvələr əl tutub süzən Günnütüm.

...Salam, Naxçıvanın əzəl torpağı,
Salam, Xan çinarın solmaz yarpağı,
Ən uca zirvəndə Vətən bayrağı –
Düşməni köksündən əzən Günnütüm,
Qeyrəti dillərdə gəzən Günnütüm!



*Zeynalabdin NOVRUZOĞLU*

## ÖZ İMZAMDIR

Hər kəsə əmanət verilir ömür,
Xəyanət etməyə üz gərək ola.
Gah qısa, gah uzun görünür ömür,
Burda təhvil-təslim düz gərək ola.

Harda kəsirlik var - gərək görəsən,
Görməsən, yarısı səninki deyil.
Böləndə insafla gərək böləsən,
Bir ömrün hamısı səninki deyil.

O da su kimidir, axar, qayıtmaz,
Axar gül dibinə, tikan dibinə…
Sısqa sular bağ-bağçanı yarıtmaz,
Torpaq udar, keçər onun cənginə.

Yol yoran atlıdı, cıdır yoludu,
Hər kəs bircə dəfə at çapa bilər.
Bu yol sehirlidi, sirlə doludu,
Gedib son mənzilə çatanlar bilər.

Ömür - sağlığında atdığın imza,
Saxta imza atıb, gedənlər də çox…
İmzalar içində imzam vardısa,
Öz imzamdı, saxtalığı yoxdu, yox..!

## QURBAN KƏSƏRDİM

***(Məmməd Araza)***

Sən qələmi götürəndə əlinə,
Mizrab dəydi Xan Arazın telinə,
Bir od düşdü Azərbaycan şeirinə,
Yana - yana Məmməd Araz göyərdi.

Bu dünyanın hər üzünü görən sən,
Dünya səndən nə istədi görəsən?
Qayalıqda bitən tənha çiçəksən,
Hər ləçəyin gülüstana dəyərdi.

Öyrəndim halını duyub - biləndən,
Gedib o dünyanı görüb gələndən...
Tilsimə düşmüşəm sözün sehrindən,
Dilim açılsaydı, əhsən deyərdi...

Məmməd Araz, Araz ağlar, yorulmaz,
Nisgillidir, onun suyu durulmaz.
Araz adlı şair bir də doğulmaz,
Doğulsa, mən ona qurban kəsərdim..!

## DOSTUM VƏ BİR DƏ HƏYAT...

Dost dedim, dost deyilmiş,
Yalanmış nə deyirmiş?
Taxta qılınc əyninə,
Zirehdən don geyibmiş…

Sözündə hiylə varmış,
Gözündə hiylə varmış.
Dostumun mayasına,
Hiyləgərlik qarışmış.

Dost, dost dedi, aldatdı,
İnamımı oynatdı.
Dedim, dostum, bu nədi?
Dedi, adi həyatdı.

Dedim, budursa həyat,
Apar onu çöpə at!
Gözümdən düşdü o an,
Dostum və bir də həyat!..

***Naxçıvan***

# *Debüt*



## *Fateh SƏFƏROV*

* * *

Ürəyimin ağrısını bilsəydin,
Gözdən axan yaş olardı sel kimi.
Təsəvvür et, adicə bir küləkdim,
Əsib keçdim adicə bir yel kimi.

Bilmirəm ki, nəyə görə yaşadım,
Niyə ölmək ucuz gəlir bu qədər?
Yoldan ötən hər insana su verdim,
Eşitmədim: ömrün olsun su qədər!

Düşməmişdi bu səadət payıma,
Tanrı, məni unutmusan, deyəsən.
Unudulan ən sonuncu adam mən,
Məndən sonra kim olacaq görəsən?...

* * *

Mənim qaranlığımdan kimə zərər gəlib ki?
Niyə çəkmək lazımdı məni o ağ tərəfə?
İlahi, mən qonağam sənin bu yer kürəndə,
Ev yiyəsi gəlməyib hələ qonaq tərəfə.

Vaxt da gedir, daralır ömrün zaman damarı,
İçimizdən təlaş da çəkilmir ki, qadası.
Bu gün məni unutmaq, gör nə gözəl seçimdi,
Bundan yaxşı olmazdı bu cür ölüm havası.

Gəl indi birgə gülək bu həyata, bu ömrə,
Gözündən yaş süzülsə barmaqlarım daş olar.
İnsan qəmli baxışla necə gözəl görünər?
İstəmərəm daş düşsün göz yaşının başına...

* * *

Mənim kədərimi ikiyə bölmə,
Onsuz da gücüm yox dərd azaltmağa.
Adıyla böyüsün dedilər əvvəl,
Sonra düşürtdülər ad ucaltmağa.

Mən uşaq cildində qalaydım gərək,
Susub oynayardım oyuncaqlarla.
Gizlənpaç oynamaq nəyimə lazım,
Yurdu bilinməyən yad qucaqlarda?

Yaxşı ki, şad gündə yoxsan yanımda,
Yaxşı ki, uzaqsan bu günümə sən.
Özümü göylərə bağışladım ki,
Mənim təkliyimi görə biləsən...

* * *

Soyuq noyabr ayı
Bakının sərt küləyi
Qatarın səsi, bir də
Yalnızların ürəyi.

Getdiyim qatar məni
Hara kimi aparır?
Qardaşım, sən bilirsən
Məsələ qatar deyil
Əslində, bütün yollar
Gora kimi aparır.

Eh, nə imişsən, dünya
Hərdən yaxşı, hərdən pis.
Ürək odun sobası
Çölü təmiz, içi his.

Soyuq noyabr ayı
Bakının sərt küləyi
Qatarın səsi, bir də
Yalnızların ürəyi...

## SƏNİ UNUTMAQ

Bu gün səni unutmaq
Olmalıydı ilk işim
Pəncərəmə qar yağır,
Çıxmır ki heç günəşim.

Çox biganə olmusan
Elə hər şeyə qarşı.
Mənim səni sevməyim -
Yeni dünya savaşı.

Gözlərindən yaş gətir
Ürəyimə süzülsün.
Məni üzdüyün kimi
Qoy ürəyin üzülsün...

Sən mənə sevirəm sözünü desən,
Mən sənə bir ömür bəxş eləyərəm
Qəlbində döyünən incə notlarla
Durmadan sübhədək rəqs eləyərəm.

Sevdanın qiyməti nə çoxmuş, Allah!
Mənimsə geyməyə köynəyim yoxdu.
Mən axı əvvəldən anlamalıydım,
Mənə veriləsi ürəyin yoxdu.

Bu tale, bu qismət mənimki deyil,
Çətin ki, bu yükü götürə bilim
Küləklər şəhərin tanımıram ki,
Səni evə qədər ötürə bilim...

* * *

Zəng eyləyib danışmayan,
Sükutuyla barışan qız.
Dəlilərtək sevən insan
Od içində alışan qız.

Laqeydlik mənim işim,
Sevmək mənim işim deyil.
Bu gün çıxıb getdim amma,
Bu ki son gedişim deyil?!

Uşaq deyiləm ki mən də,
İçimdə bir uşaq yatır.
Beş il sonra pıçılda ki:
Kəs səsini! Uşaq yatır!



# Sergey Yesenin və Aysedora Dunkan

## *Mahiyyətcə tənha, xaraktercə üsyankar...*

“Mən – zərif, gənc bir adam, üstəlik, dahi olmasa da, şair... O isə 44 yaşlı qadın. Və mən bu qadını dəcəl qızcığaz və sevgilim adlandırıram”. Sergey Yesenin bu sözləri həyat yoldaşı Aysedora haqqında deyirdi.

Məşhur amerikalı balerina Aysedora Dunkan Gümüş çağın bir çox şairləri üçün ilham pərisi rolunu oynamışdı. Məsələn, Aleksandr Blok onu “əbədi qadınlığın simvolu” adlandırırdı. Maksimilian Voloşin Dunkanın rəqsinin hətta şeirdən də üstün olduğunu deyirdi. Aleksandr Bel isə onu xoşbəxt həyatın müjdəçisi kimi görürdü.

Aysedora Dunkan doğrudan da adi qadın və rəqqasə deyildi. O, öz rəqsiylə puritan Amerikasında bir inqilab etmişdi, puant və korsetdən vaz keçərək ayaqyalın, yunan ilahəsi xitonunda səhnəyə çıxmışdı. Nitsşenin fəlsəfəsindən ilham alan Dunkan ictimai əxlaqdan asılı olmayan azad qadını simvolizə edirdi.

Balerina özünün məşhur “Gələcəyin rəqsi” kitabında yazırdı ki, qadın yeni intellektual fiziki səviyyəyə çıxmalı, puritanlığın əsasını təşkil edən şərtiliklərdən xilas olmalıdır.

Onu “İlahi səndəl” adlandırır, plastikasını mənimsəyirdilər. Gənc qızlar onun kimi geyinməyə, onun kimi rəqs etməyə səy göstərirdilər.

Amma çox az adam bilirdi ki, “İlahi səndəl” yaradıcı həyatında şəxsi həyatında olduğundan daha xoşbəxtdir. Feminist olan Dunkanı pərəstişkarlarından heç biri nikaha razı sala bilməmişdi. Amma Sergey Yesenin istisna idi...

## *"Sən rədd edə bilməzsən məni"*

Ryazandan gəlmiş kəndli oğlu Sergey Yesenin paytaxtda heç qəriblik çəkməmişdi. Qıvrımsaç, mələk simalı bu oğlanın aydın səslə oxuduğu şeirlər dinləyicilərin xoşuna gəlirdi, onu özlərindən biri kimi qəbul edirdilər.

Amma öz ədəbi yolunu dərhal tapa bilməyən Yesenin bir cərəyandan digərinə qaçırdı. Əvvəlcə kəndli obrazında çıxış edən Sergey bir müddət sonra kəndli qiyafəsini gödəkçə və qalstukla əvəz edib imajinizm cərəyanına qoşulduğunu elan edir.

Daha sonra isə "Mən kəndli şair və ya imajinist deyilən, sadəcə, şairəm" deyərək bütün məktəbləri tərk edib azad sənətkar kimi yeni həyata başlayır.

Şeirləri xüsusilə qadınların diqqətini çəkən Yesenin çox erkən ata olmuşdu: cəmi 19 yaşında. Amma bir müddətdən sonra atalıq missiyası ilə şairlik statusunun bir-birinə uyğunlaşa bilməyəcəyini anlamış və ilk sevgisi ilə oğlu Yuranı keçmişə gömmüşdü.

Artıq populyarlaşmağa başlayan gənc şair ədəbi salonlara şeir deməyə dəvət edilirdi. Vərdiş etdiyi kontekstdən çıxmaq və dünyaya yeni versiyasını təqdim etmək onun üçün azadlıq demək idi. Bohem toplumlarda adı böyük səs-küy yaradan balerinanın – Aysedora Dunkanın üsyankar ruhu ona çox yaxın idi. Amma bu qeyri-adi qadınla şəxsən görüşmək hələ şairə müyəssər olmamışdı.

Dunkan Rusiyaya rəqs məktəbi açmaq üçün dəvət edilmişdi. Amerikada öz istəyini gerçəkləşdirə bilməyən rəqqasə Rusiyadakı inqilabın onun çılğın ideyalarına müsbət təsir göstərəcəyinə inanırdı. Maraqlıdır ki, hələ San-Fransiskoda ikən bir falçı ona tezliklə rus torpağında nikah bağlayacağını demişdi. Aysedora isə bu sözləri ciddiyə almamış, sadəcə, gülüb keçmişdi. Çünki o, əmin idi ki, "sevgi və incəsənət bir-birini anlamır və daim öz aralarında döyüşürlər". 1921-ci ilin payızında o, Yeseninə rast gəlmişdi.

Onların ilk görüşü Ermitajda baş tutmalıydı. Sergey deyilən vaxtda muzeyə gəlir, Dunkanı görməyəndə onu bütün mərtəbələrdə, zallarda axtarmağa başlayır. Amma xəyallarının ilahəsini görə bilmir.

Ovqatı təlx olmuş şair başqa bir uyğun vaxtı gözləməyə başlayır. Həmin vaxt gəlib çatır – Yeseninin dostu məşhur rəssam Yakulov öz studiyasında şənlik təşkil edir və gecəyə Aysedoranı da dəvət edir.

Aysedora tamaşaçılarını gözləməyə vadar edir və yalnız gecə yarı gəlib çıxır. Qırmızı xiton geyinmiş, bal rəngli saçları açıq çiyinlərinə dağılmış rəqqasə hamını valeh edir – bütün gözlər ona zillənir. O isə otağa göz gəzdirərək nəzərlərini Yeseninin üzərində saxlayır.

Həmin an xəyalpərəst şairə elə gəlir ki, Aysedora yalnız onun üçün rəqs edir... Rəqqasənin həyatında faciəvi rol oynayacaq şərfi, məharətli əllərdə ilan kimi qıvrılaraq əsrarəngiz görüntü yaradırdı.

Rəqsdən sonra Dunkan alqışlara qərq edilir, Yesenin isə artıq ürəyində öz qərarını artıq vermişdi – o, bu bənzərsiz qadına vurulmuşdu.

Həmin gün Yesenin Aysedoraya ilk dəfə öz şeirlərini oxuyur.

***Qoy mənim dəyişmiş bu surətimi***
***O nur canlandırsın indi nagəhan, –***
***Sən rədd edəməzsən məhəbbətimi,***
***Məni sevməyi də bacarmalısan.***

Sonralar Dunkan dostlarına həmin anları belə nəql edirdi: “Mən heç nə başa düşmürdüm, ancaq melodiya eşidirdim və anlayırdım ki, bu adam dahidir”.

## *Poeziya və jestlər onların tərcümanına çevrilir*

Yeseninlə Dunkanın arasında 18 yaş fərq vardı. Bir-birinə zidd qütblərdən olan iki adamın sevgisi ətrafdakılarda müxtəlif hisslər oyadırdı. Bəziləri hesab edirdi ki, amerikalı rəqqasə ədalətsizcəsinə Yesenini onların əlindən alıb. İkinci qisim Dunkanın tərəfindəydi və heç cür anlaya bilmirdi ki, dünyanı fəth etmiş rəqs ilahəsi bu ərköyün oğlanın təhqiramiz hərəkətlərinə necə dözür.



Eyni zamanda, təəccüb doğuran daha bir məqam vardı. Yesenin yalnız rus dilini bilirdi, Dunkanın isə rusca söz bazası yalnız bir neçə kəlmədən ibarət idi. Onlar bir-birini yalnız poeziya, jestlər və mimikanın köməyilə anlayırdılar. Bu iki yaradıcı insan həyatı boyu etdiyi kimi, yenə də sənətin intuitiv dilinə sığınmışdı.

Yesenin Aysedoraya rus hökuməti tərəfindən ayrılmış evə köçür. Preçistenkada yerləşən bu malikanə yaradıcı ziyalıların görüş yerinə çevrilir. Ziyafətlər şeirlər, rəssamlıq eskizlərinin təqdimatı və əlbəttə ki, rəqslərlə qaynayıb-qarışırdı. Bəzən Sergey sevgilisindən özünün sevimli rəqsi olan “Apaş”ı ifa etməsini tələb edirdi. Dunkan Yeseninin şıltaqlıqlarına tez tabe olur, sevimli şərfini əlinə alıb öz ilahi rəqsinə başlayırdı.

Yesenin bəzən sevgilisinə qarşı kobud davranırdı. Məsələ bundaydı ki, o, Dunkanı həm sevir, həm də öz rus ruhuna ögeyliyini hiss edir və bununla barışa bilmirdi.

“Onda hər şey yad və ögeydir. Jest, səs, söz... Bu isə məni təhqir edir. Amma onunla yaşamaq mənə maraqlıdır, bu mənim xoşuma gəlir”.

Və yaxud dostlarına gileylənirdi:

“Bəzən mənə elə gəlir ki, o, mənim Yesenin olduğuma əhəmiyyət vermir, bəzən mənə elə gəlir ki, o, gözlərimə, saçlarına, gəncliyimə ehtiyac duyur”.

Yesenin bəzən aradakı yaş fərqini unudurdu. Hətta vaxt 44 yaşlı Aysedoranın xeyrinə işləyirdi:

"Bilirsən, bəzən o, gənc, lap gənc olur. O, gənc qız kimi sevir. Sən inana bilməzsən, amma ondan sonra gənc qızlar mənə darıxdırıcı görünür. Ümumiyyətlə, o, çox zərifdir. O məni ovsunlayıb".

Spirtli içkiyə aludə olan Yesenin hərdən qısqanclıq səhnələri düzəldir, Aysedoraya öz çəkmələrini tolazlayır, döyürdü. Sonra isə əşyalarını yığıb evi tərk edirdi. Amma elə növbəti gün dərin peşmanlıq duyaraq Aysedoranın yanına qayıdır, başını onun dizlərinə qoyaraq ağlayırdı. Mərhəmətli Aysedora hər dəfə onu bağışlayırdı.

## *"Mən indi Dunkanam!"*

1922-ci ilin mayı yaxınlaşırdı, Dunkanı Qərbi Avropa və ABŞ-a qastrol səfərləri gözləyirdi. Sovet hökuməti sözünü tutmamışdı, rəqs məktəbinin yaşaması üçün vəsait yox idi. Qastrollar bir az vəziyyəti düzəldə bilərdi.

Aysedora bundan sonrakı həyatını Sergey Nikolayeviç olmadan təsəvvür edə bilmirdi (Onu tam adıyla çağırmağı sevirdi). O, "qızılı saçlı" sevgilisini bədbin fikirlərdən və spirtli içkilərdən uzaqlaşdırmaq, ona başqa bir həyatın mümkünlüyünü göstərmək istəyirdi.

Şair onunla birlikdə getməyə razılaşır, amma hökumətin rizası da lazım idi. Xarici pasport almaq üçün uzun-uzadı izah etməli olurlar ki, Yeseninin xaricə getməyi rus şairlərinin təbliği baxımından olduqca vacibdir.

Amerika əxlaq polisinin rəsmi nikahda olmayan cütlüklərə mənfi münasibətindən hər ikisi xəbərdar idi, pasportunda nikah möhürü olmayan Yeseninin okeanın o tayında görünməsi olduqca təhlükəli idi. Ona görə Aysedora nikahla əl-qolunu bağlamayacağı haqqındakı andını pozur və münasibətləri qanunlaşdırmağı təklif edir.

Xamovniçeski qeydiyyat şöbəsində nikahlanan cütlük ikili soyad götürür: "Dunkan – Yesenin".

"Ura, mən indi Dunkanam!" – qeydiyyat şöbəsindən çıxanda Yesenin qışqırmışdı.

Yeni evlilərin səyahətlərinin ilk məntəqəsi Berlin olur. Şair yeni şəhərə çox tez alışır. O, Berlində Maksim Qorkiylə görüşür, rus mühacirləriylə əlaqələr qurur, yazıçı və rəssamların yaratdığı məşhur "İncəsənət evi"ndə çıxışlar etməyə başlayır.

Şair birinci dəfə rus mühacirlərinin qarşısına çıxanda zaldan uğultu keçir. Onu sevənlər də vardı, sevməyənlər də. Kimi yüksək səslə "Beynəlmiləl" oxuyur, kimi söyüş söyür. Amma Yesenin çıxış etməyə başlayanda hamı susur və onun təsirli sözlərinə diqqət kəsilir. Yeseninin çıxışı böyük ajiotaj doğurur.

Amma yad şəhərdəki uğurlarına baxmayaraq, Yesenin köhnə vərdişindən əl çəkmirdi. Çarpayısının altında içində pivə olan vedrə saxlayır, yeni dostlarıyla içki məclisləri qururdu. Amma vəhşi rəqslərin oynandığı, kənd çastuşkalarının oxunduğu bu məclislər öz qəribə kədəriylə qonaqları heyrətdə qoyurdu.

Bundan başqa, şair Berlin atmosferinin onu yorduğundan gileylənirdi. "Əgər İzadora dəlisov olmasaydı və mənə bir yerdə oturmaq imkanı versəydi, mən əsər yazar və pul qazanardım".

Aysedora Dunkanın maliyyə vəziyyəti doğrudan da çox yaxşı deyildi; vəsaitinə əl qoyulmuş, evi satılmış, əmlakı talan edilmişdi. Buna baxmayaraq, həyatdan zövq almaq imkanını əldən verməyən rəqqasə lüks avtomobiliylə elə hey səyahətə çıxır, getdiyi yerlərə Yesenini də çəkib aparırdı.

## *“Mən Rusiyanı sevirəm, o isə yunan vazalarını”*

Yesenin əcnəbi ölkələrdə darıxmaq “sənətinə” yiyələnmişdi. Rusiya üçün dəhşətli dərəcədə darıxır, heç cür ovuna bilmirdi. İtaliyaya səyahət onun kefini bir az durultdu, amma yenə də vətən həsrəti ona əzab verirdi. Cütlüyü müşayiət edən Lola Kinel memuarlarında yazırdı ki, Venesiyanın su kanallarında gəzinti zamanı şair uşaqlıq illərini, Rusiyadakı həyatını xatırlayır və ucadan rus nəğmələrini oxuyurdu. Dunkanla onu ayıran mənəvi sərhədlərdən danışarkən, məsum bəhanələr gətirirdi:

“Mən Rusiyanı sevirəm, o isə yunan vazalarını. Axı yunan vazalarının içində mənim südüm çürüyər”.

Rus ruhunun xalis, qatğısız təcəssümü olan Yesenin ən böyük məyusluğunu Amerikada yaşayır. Ölkə onu ruhsuzluğu ilə sarsıdır. O, şeir yazdığından bəhs edəndə dərhal onun sözünü kəsib soruşurdular: “Bəs pul, qazanc? Bəs siz necə dolanırsınız?” Bu sual Yesenini hiddətləndirir, özündən çıxarırdı.

Maşınlar səltənətində kəndli oğlan özünə yer tapa bilmirdi. Həm də ona görə ki, Amerikada Dunkanın şöhrəti onunkundan böyük idi. Yerli qəzetlərdə onu elə beləcə də təqdim edirdilər: “Məşhur rəqqasə Aysedora Dunkanın həyat yoldaşı, rus kişisi Sergey Yesenin...”

O, Dunkanın şöhrətini qısqanırdı. O, Dunkanın rəqsinə nifrət etməyə başlayırdı – o rəqsə ki, Dunkanı göylərə qaldırmış, Yeseninin özünü isə onun arxasında görünməz etmişdi.

“Mən yazmaq istəyirəm, o isə rəqs edir. Mən rəqs etməyi sevmirəm. Mən rəqsi başa düşmürəm. Teatrda onu alqışlara qərq edirlər, mənim isə bu alqış səslərini eşitməkdən zəhləm gedir”.

O, özünü daha yüksəkdə görürdü. Hətta sevgisini izhar etdiyi sözlərində belə, şöhrətpərəstlik dalğası var:

“Elə bilməyin ki, mən onunla pul üçün birlikdəyəm, ya da onun şöhrəti məni cəlb edir. Mən bütün bunlara tüpürürəm! Mənim şöhrətim onunkundan böyükdür! Mən Yeseninəm!”

Amma sadə amerikalılar onun poeziyasının intuitiv dilini anlamaq iqtidarında deyildilər. Yesenini qıcıqlandıran xırda səbəblər getdikcə böyük məsələyə çevrilir, fikir ayrılıqları onun sərxoş halda davakarlıq etməsilə nəticələnirdi. İctimai yerlərdə belə qalmaqallar Dunkanı məyus edirdi. Yesenin sərxoş olur, başını itirir, qalmaqal salır; o isə rəqs edir, rəqs edir, rəqs edirdi...

Bəlkə də başlanğıcda Yeseninin başını gicəlləndirən həm də Aysedoranın şöhrətiydi; gənc şair onun vasitəsilə özünü yeni dünyaya təqdim etmək istəyirdi, amma getdikcə bu şöhrət onların arasındakı ən böyük səddə çevrilirdi. Onların münasibəti dözülməz, Yeseninin dediyi kimi, “ölümcül qüssəli” idi. Şair özünü sanki məngənədə hiss edirdi. O, azadlıq istəyirdi.

Maksim Qorki sonralar yazırdı ki, “bu ryazanlı oğlan Avropa estetlərinin, incə plastikanı dəyərləndirənlərin rəğbətini qazanmış Aysedoranın yanında yeniyetməyə oxşayırdı və bu mənzərə Yeseninə gərək olmayan şeylərin təcəssümü idi”.

Doğrudan da, məşhur rəqqasənin əri olan şair sevdiyi və şeirlərində vəsf etdiyi, ali məzmun daşıyan nəsnələrdən ayrılırdı. Hər keçən gün vəziyyət bir az qəlizləşir, çıxılmaz hal alırdı. Yesenin vətənə qayıtmaq istədiyini bildirirdi.

“Mən Yesenini yaşam şərtlərinin ağır olduğu Rusiyadan apardım, çünki onun həyatını qorumaq istəyirdim. İndi isə o, Rusiyaya öz ruhunu qorumaq üçün qayıdır. Çünki Rusiyadan ayrı o, yaşaya bilməz”, Aysedora deyirdi.

## *“Məhəbbət daha cəlb etmir bizi”*

1923-cü ildə onlar ikisi də Moskvaya qayıtdılar. Dunkan Rusiyada öz işlərini yekunlaşdırmaq istəyirdi. Eyni zamanda, Yeseninlə münasibətlərini qaydaya salacağına ümid edirdi.

2 illik ayrılıqdan sonra vətənə qayıtmış şair isə çox dəyişmişdi. Xaricdə yiyələndiyi zərif vərdişlərini hələ də qoruyurdu, üzünə ənlik vurur və yalnız bahalı geyimlərdən istifadə edirdi. Nitqi qarışıq və qeyri-müəyyən idi. Amerikada baş verən qalmaqalları isə belə izah edirdi: "Mən sadəcə ona görə belə edirdim ki, məni xatırlasınlar".



Dunkana həkimlər cənubda müalicə yazmışdılar; o, Yesenini də özüylə aparmaq istəyirdi, amma şair boyun qaçırır. O, öz ilahəsini stansiyaya aparır və Dunkan getdikdən sonra bir daha ona dönməyəcəyinə qərar verir.

Doğrudan da o, bir daha Aysedoraya, ya da çağırmağı xoşladığı kimi, Dunkasına geri dönmədi.

Onlar bir-birlərinə emosional məktublar yazmaqda davam edirdilər, amma tezliklə bu yazışmaların da ardı-arası kəsildi. Qadın öz “qızılı saçlı” sevgilisini itirməsiylə barışa bilmirdi, şair isə qərarlı idi. Son məktubunda Dunkana yazırdı:

“Səni sevirəm, ancaq səninlə yaşamayacağam. İndi evliyəm və xoşbəxtəm. Sizə də eyni şeyi arzulayıram”.

Dunkanın əlindən şərf sürüşüb düşür...

## *Biri özünü boğdu, o biri isə...*

Ayrıldıqları vaxtdan aylar keçmişdi. Amma onların münasibəti hələ də bohem toplumlarda müzakirə edilirdi. Aysedora isə bütün sualları təmkinlə cavablayır və keçmiş əri barədə bircə xoşagəlməz söz belə işlətmirdi.

Əksinə, o, təkid edirdi ki, Yesenini gələcək əsərləri naminə xilas etmək lazımdır, çünki bəşəriyyətin gözəlliyə həmişə ehtiyacı var.

Amma Yesenini xilas etmək mümkün olmadı. Şair qısa bir vaxtdan sonra həyatla vidalaşdı. Bu, müəmmalı bir ölüm idi. 1925-ci ilin dekabr ayı. Yesenin Leninqradın "Anqleter" mehmanxanasında qalır. Həmin gün şair otaqdan çıxmayıb, qapını döyən ofisiantlara da cavab vermir. Qapını sındırmağa qərar verirlər. İçərideki səhnə hamını dəhşətə gətirir. Yeseninin cansız bədəni divanın üstündəydi. Boynunda ilgək olan şair əbədi yuxuya getmişdi.



Təhqiqatlardan sonra ekspertlər ölümün intihar olduğu qənaətinə gəlirlər. Yesenin son vaxtlarda dərin böhran yaşamış və həmin hadisədən iki həftə qabaq dərin depressiya səbəbiylə xəstəxanada yatmışdı.

"Anqleter" otelindəki müəmmalı ölüm Aysedoranı iliyinə qədər sarsıdır. Vaxtilə bu mehmanxanada onlar birlikdə vaxt keçirmişdilər.

"Mən onun üçün çox hönkürdüm. Bacardığım qədər çox". – Aysedora övladlığa götürdüyü İrmaya deyirdi.

Şairin kitablarının nəşri sayəsində bir az vəsait toplanmışdı. Bu vaxt üzə çıxan sənədlərin sayəsində məlum oldu ki, Yesenin Aysedorayla heç də rəsmi olaraq boşanmayıblar. Hərçənd Yesenin ayrıldıqdan sonra Sofiya Tolstoyla evlənmişdi.

Dunkanın qanuni arvad kimi şairin mirasına haqqı çatırdı. Amma o, həmin vaxtlar maddi ehtiyacı olduğuna baxmayaraq, Yeseninin qohumlarının xeyrinə mirasdan imtina edir.

İki ildən sonra oxşar faciəvi ölüm Dunkanı da həyatdan aparır. O, ilgəyi özü öz boynuna keçirməsə də, tale özü ona bu oyunu oynayır.

Həmin gün Aysedora avtomobillə gəzintiyə çıxmağa hazırlaşırdı. Rəqslərinin sevimli atributu olan şərfini boynuna dolamışdı. Maşın yerindən tərpənir. Rəfiqəsi yalnız bu anda fəlakətin çox yaxında olduğunun fərqinə varır. Dunkanı səsləyir. Amma artıq gec idi. Dunkanın boynundakı şərfin digər ucu təkərə ilişib dartınmış, onun boynunu sındırmışdı... Bənzərsiz Aysedora öz şəffaf şərfiylə "son rəqsini" oynamışdı.



Deyilənə görə, yola çıxmağa hazırlaşan balerinanın son sözləri belə imiş:

"Əlvida dostlar, mən şöhrətə gedirəm!"

Kim bilir, bəlkə Yesenin də son nəfəsində eyni sözləri söyləmişdi...

***Günel NATİQ***

*Nizami TAĞISOY*

# Abay yaradıcılığında şəxsiyyət



Abay yaradıcılığının başlıca mahiyyətini dərindən dərk etməkdən ötrü, ilk növbədə, böyük mütəffəkirin “kamil şəxsiyyət” konsepsiyasını dərindən öyrənməyə ehtiyac vardır. Əlbəttə, bu konsepsiyanı dini-fəlsəfi, sosioloji, ictimai, ədəbi, psixoloji, etik, estetik mövqelərdən dəyərləndirmək olar. Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayevin irəli sürdüyü “İntellektual millət-2020” konsepsiyası da məhz Abayın “kamil şəxsiyyət” təliminin dayaqlarına söykənir. Buna görə də “kamil şəxsiyyət” konsepsiyası həm də mənəviyyat elmi, dini-fəlsəfi mövqelərdən izah oluna bilər. Belə ki, Abay vicdan, mənəviyyat, insanlıq, bəşərilik kimi kateqoriyaları sosial-siyasi diskurs baxımından izah etməyə üstünlük verirdi. Abayı həyatı boyu xüsusi olaraq günahsız həyat tərzi, fani dünya xoşbəxtliyi, ayrı-ayrı fərdlərin xoşbəxtliyi məsələsi maraqlandırırdı. Abay düşüncəsində “kamil şəxsiyyət” dini-fəlsəfi kontekstdən sosial-siyasi, bəşəriyə üz tutmaqla həm də estetik və mədəni xarakter əldə edir. Abay konsepsiyasında “kamil şəxsiyyət” öz ölkəsinin gələcəyi və onun inkişafı uğrunda çalışmaqla “estetik xidmət”lə məşğul olmaqla estetik kateqoriya mərtəbəsinə yüksəlir. Bütün bunları Abay öz həyat və yaradıcılığı nümunəsində parlaq şəkildə sübut etmişdir. Onun yanaşmasına görə insanın şəxsiyyət kimi formalaşdığı prosesdə (mənəvi, dini, sosial, fəlsəfi, etik, dünyagörüşü, siyasi, estetik, pedaqoji, psixoloji, hüquqi və s.) bütün fəaliyyəti “xidmət estetika”sını nəzərdə tutmalıdır. Başqa sözlə desək, “kamil şəxsiyyət” nəinki bunu həyatı dərk etməklə nəzəri planda, həm də praktikada gördüyü işlə sübut etməlidir.

Hədislərdən birində deyildiyi kimi, “İnsanlara xeyirxahlıq gətirən ən yaxşı adamdır” baxışını Abay daim ön plana çəkib cəmiyyətdə xeyir işləri yaradanları təbliğ edirdi.

Abayın “kamil şəxsiyyət” konsepsiyasında “Elm”ə xüsusilə böyük diqqət yetirilirdi. Elmə nəzər salarkən o, Elmi ən mühüm mövqedə qoyurdu. Eyni zamanda, “kamil şəxsiyyətin” üç mühüm keyfiyyətindən bəhs etdikdə Abay ağlı, təfəkkürü, intellekti daha yüksək dəyərləndirirdi. Çünki böyük mütəfəkkirin düşüncəsində təfəkkür elmin sinonimi kimi nəzərdən keçirilirdi. O, əsərlərində dəfələrlə sübut etməyə çalışmışdır ki, təfəkkürsüz elm, elmsiz təfəkkür yoxdur. Onlar bir-birini zənginləşdirməklə, həm də bir-birinin yüksəlməsinə səbəb olur. “Öyrənməmiş danışma” şeiri bu baxımdan nümunə kimi göstərilə bilər:

***Öyrənməmiş danışma.***
***Boş söhbətə alışma.***
***Keçən gündə əyləncə***
***Axtarmağa çalışma.***
***Yamanıyla tən gedən***
***Adam olmaq istəsən,***
***Beş şeyi ayaqla keç,***
***Beşinisə ara, seç.***
***Yalan, riya, işsizlik,***
***Lovğalıq və acı dil –***
***Beş düşməndir sənə, bil,***
***Ağıl, zəhmət, xoş qılıq,***
***Təvazö və yaxşılıq –***
***Beş yaxın dostdur sənə.*** *(Tərc. E.Borçalınındır)*

Göründüyü kimi, Abay burada Yusif Balasaqunlu, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Abasqulu Ağa Bakıxanov kimi mütəfəkkirlərin yolu ilə getməklə insanın neqativ keyfiyyətlərdən azad olub, ağlın, zəhmətin, xoşqılığın, təvazönün və yaxşılığın "beş yaxın dost" olduğunu təlqin edir.

Abay elmi üç yerə bölür: bəşəri elmlər, Allah haqqında elm və təbiətşünaslıq elmləri. "Məlumdur ki, Elm Gözəgörünməzin çoxsaylı sifətlərindən, görkəmlərindən biridir. Buna görə də Elmə sevgi – bəşərilik göstəricisi, təvazökarlıqdır". Odur ki, Abay insanların həyatında elmin dəyərini yüksəltməklə insanları elmə can atmağa daha çox səsləyir. Elə bunun nəticəsində, Abaya görə, hər bir insanın düşüncəsində elmin üç tərəfləri cəmləşməlidir. Çünki insan yalnız bəşəri elmlərin öyrənilməsi ilə məhdudlaşmamalıdır. Onda Allahla bağlı elmə, təbiətşünaslıq elminə də böyük məhəbbət olmalıdır. Abayın yaradıcılığında mühüm yer tutan "Əqliyyə"də (yaxud "Qara sözlər"də) bununla bağlı xeyli nümunələrə rast gəlirik. Buna görə də biz Abayın "Əqliyyə"lərində az qala peyğəmbərimizin hədisləri ilə səsləşən məqamları görürük. "Əqliyyə"nin "Otuz səkkizinci söz"ündə oxuyuruq: "Ta qədimdən "elm" anlayışı mövcuddur. İnsanların gözündə elm qeyri-adi və mücərrəd bir şey deyil, bəşəriyyətin səadəti üçün mövcud olandır... İnsanın elmə münasibətinin təmizliyi də haradasa bu yerdə yaranır ki, bunun özü də insanın Allaha münasibətini göstərir. Çünki elm ilahinin qüdrətinin təzahür formalarından, onun keyfiyyətlərindən biridir.

Elmə var-dövlət, şöhrət və hörmət naminə gedən şəxs heç vaxt onun mahiyyətini dərk edə bilməz..., qazanc güdən kəs insanlığını itirər. Və əksinə, var-dövlət də, şan-şöhrət də, hörmət də gərgin əməyin nəticəsi kimi gələndə insan güclü olur...

... mənim sözlərim namusla dostluq edən, haqqı sevən və həqiqəti bilmək istəyənlərə ünvanlanıb.

...Allahın adları onun gözəl təzahür formalarının adlarıdır...

Həyat kainatda, kainat isə Allahda mövcuddur. Allah isə Məhəmməd əleyhüssalamın hədislərindəki kimi, özünün şəksiz əsas təzahürlərində və doxsan doqquz keyfiyyətində təzahür edir.

...Elm insanlara söz vasitəsilə çatdırılır, söz isə səs və ya işarələrlə. Allahın aşağıdakı üç keyfiyyəti buna əsaslanır: Nitq, Görmə və Eşitmə.

Allahın yaratdığı bu dünyada öz ağlına, iradəsinə, bədəninin gücünə söykənən insan görəndə, onun həyat uğrunda mübarizəsini, yorulmazlığını görəndə nədənsə Allah təala haqqında insana bənzəyən bir varlıq kimi düşünürsən.

...elmlər insanların inkişafının, xalqların tərəqqi yolunun, insanların Allahı, təbiəti və özlərini dərk etmək yolunu təcəssüm etdirirlər". (Tərc. H.Orucovundur)

Gördüyümüz kimi, Abay elmə can atan insanları daim insanlığın fövqündə qoyur. Əsil alimləri o, insanların yaratdığının nüvəsi kimi görür. Onun fikrincə, məhz ağlı, təfəkkürü işlək insanların köməyi ilə dünyada hər şey öz qaydasını, səliqə-sahmanını əldə edir.

Abayın dedikləri üzərində düşünərkən görünür ki, böyük filosof ağlı soyuğa, işıqlıya və ziyalıya bölməklə ağlın insan cəmiyyətindəki xeyir və zərərindən danışır. Bunu biz şairin konseptual proqramlı "İnternatda oxuyurlar" ("Интернатта окын жур") şeirində təhsilin, pedaqogika və tərbiyənin fəlsəfi məsələlərinin qabardılmasında da görürük. Bu şeirdə qazax cəmiyyətinin həqiqətləri əks olunsa da, əslində, bütün bəşəriyyət üçün ümumi olan problem ortaya qoyulmuşdur. Burada Abayın yanaşmasında başlıca məqsəd insan təfəkkürünün, qəlbinin, əxlaqının kamilləşməsi məqsədilə "Öz xeyrin haqda yox, bəşəriyyət haqda düşün" ("Payda oylama, ar oyla") böyük müdrikin konsepsiyası olaraq səslənir. Burada Abay sanki elmə aparan innovasion yolu göstərməklə, hər elmi-texniki tərəqqinin və inkişafın nüvəsində dayanan əxlaq və mənəviyyatı ön plana çəkir.

Abay həm də hesab edirdi ki, elm insan cəmiyyətinə xidmət etməlidir, bəşəriyyətin süurunu komilləşdirməlidir. Elm bir insanın, yaxud bir dövlətin digər insanlar, yaxud digər dövlətlər üzərində hegemonluq alətinə çevrilməməlidir. Elm və elmi-texniki tərəqqi yaradıcılıq motivasiyasını əldə rəhbər tutmalıdır. Dərindən düşündükdə belə görmək olur ki, Abayın elm haqqında düşüncəsi və konsepsiyası çağdaş dövrdə də öz aktuallığını qoruyub saxlamaqdadır.

Abay elmə belə yüksək dəyər verməklə yanaşı, mənəvi məsələləri də diqqətdən kənarda qoymurdu. 1882-ci ildə qələmə aldığı ən yaxşı əsərlərində insanların hər gün, ya hər həftə nə etmələri ilə bağlı özlərinin özlərinə hesabat vermələrini zəruri hesab edirdi. 1890-cı ildən başlayaraq 1898-ci ildə qədər o, öz fikirlərini nəsr şəklində yazmışdı ki, sonra bu fikirlər 45 nəsihət, yaxud fəlsəfi traktat kimi "Qara sözlər", yaxud "Əqliyyə" şəklində ortaya gəlmişdi.

Abayın nəinki "Əqliyyə"sində, həm də zəngin poetik yaradıcılığında insanlardakı qeybət, yalan, məkr, riyakarlıq, tənbəllik, israfçılıq və s. tənqid atəşinə tutulurdu. Bunun təsdiqini biz "Mən şeir yazmıram ki, əylənsinlər nadanlar" nümunəsində də görürük:

***Mən şeir yazmıram ki, əylənsinlər nadanlar,***
***Yalan əfsanələrlə tovlamıram başları.***
***Şairin özü kimi hələ cavan adamlar –***
***Mənim şeirlərimdən bir şey öyrənsin barı.***
***Dayazlar, müştəbehlər yox, başa düşməz kimi,***
***Həssas ürəklər üçün oxuyuram nəğməni.***
***Nə saçı yerə dəyən ifritə, nə əjdaha,***
***Nə islam məddahları ucatmadı nəğməmi.***
***Mən ki, məlum şeirlər vermirəm hər qocaya,***
***Sözümlə korlamıram neçə yeniyetməni.***
***Sizə yoxsul görünsə danışdıqlarım əgər,***
***Sonradan üzə çıxar ondakı həqiqətlər.***
***Varlı balaları acgöz, tamahkar olur;***
***Uzaq gəzsən yaxşıdır əyyaş, kefcil adamdan.***

*(Tərc. A.Əlizadənindir)*

Abay cəmiyyətə, xüsusən uşaqlara, gənclərə həyatda öz yerindən danışmaqla, həm də onların özünün necə olmasını əsərlərinin köməyi ilə aşılayır, öz bilik və bacarıqlarını xalqın avamlıqdan oyanmasına və hüquqları uğrunda mübarizəyə səsləyirdi.

Bununla Abay kamil şəxsiyyət kosepsiyasına yiyələnməyi ön plana çəkirdi. Onu da qeyd etməliyik ki, böyük mütəfəkkirin kamil insan konsepsiyası özünün başlanğıcını üç mənbədən – şifahi xalq yaradıcılığından, Şərq və türk poeziyasından və nəhayət, rus və Avropa ədəbiyyatından götürmüşdü. Böyük şairin milli-mental düşüncədən qidalanması onu dünya çapında məşhurlaşdırmaqla, həm də əsərlərinin türk xalqlarının – Azərbaycan, özbək, tatar, qırğız, türk, qaraqalpaq və digərlərinin dillərinə çevrilməsini zəruri etdi.

Odur ki, Abay yaradıcılığı XX əsrin ortalarından başlayaraq, dünya xalqlarının dilində səsləndirilib, qazax xalqının milli dəyəri kimi qəbul edilməklə, bütün yer üzündə ayaq açıb addımlamaqdadır. Bunu biz nəinki 1995-ci ildə UNESCO xətti ilə Abayın anadan olmasının 150 illiyinin qeyd edilməsində, həm də 2020-ci ilin “Abay İli” elan olunub, onun anadan olmasının 175 illiyinin təntənələrlə nəinki Qazaxıstanda, həm də Azərbaycanda geniş şəkildə bayram edilməsində və bundan sonra da ediləcəyində görürük.

Abayı yalnız mədəniyyət, ədəbiyyat xadimi kimi görmək onun yaradıcı şəxsiyyətinə kölgə salmaq kimi dəyərləndirilə bilərdi. O, universal təfəkkürlü şəxsiyyət, böyük realist, ensiklopedik əhatəli filosof, psixoloq, estet idi. Çünki Abayın ideyaları, 175 il keçməsinə baxmayaraq, öz aktuallığını bütün dövrlər üçün qoruyub saxlamaqdadır. Qazaxıstan prezidenti Qasım-Comərd Tokayevin təbirincə desək, onun ideyaları hamı üçün mənəvi qida mənbəyi olmaqla, millətin düşüncəsinin modernizasiyasında əhəmiyyətli rol oynamaqdadır.

Abay hər bir qazax övladını öz ölkəsinin vətəndaşı olmağa səsləyrdi. Odur ki, onun irsi müdrik vətənpərvərlik mənbəyidir. Buna görə də Abayın zəngin irsi qazax xalqının yeni keyfiyyətini formalaşdırmağa çağırır.

Qazaxıstanın birinci prezidenti Nursultan Nazarbayev böyük mütəfəkkir haqqında belə bir fikri söyləmişdi ki, “Abay nəinki qazax xalqının mənəvi dünyasına ölçüyəgəlməz töhfələr vermiş dahi insandır, həm də qazax xalqının ölkə olması naminə müdrikcəsinə işləmiş, fəaliyyət göstərmişdir. Buna görə də Abay dünya səviyyəli müdriklər sırasında əvəzsiz şəxsiyyət olduğumu bütün yaradıcılığı, həyatı və fəaliyyəti ilə sübut etmişdir. Məhz bu keyfiyyətinə görə”.

Dünyada təhsilin və elmin inkişafına mühüm töhfələr vermiş universal təfəkkürlü Lao-Si və Konfutsi, Dostoyevski və Tolstoy, Volter və Russo, Nizami Gəncəvi və Nəsirəddin Tusi, M.F.Axundzadə və Ə.Hüseyzadə kimi şəxsiyyətlər sırasında “kamil şəxsiyyət” konsepsiyasına sadıq olmaqla Abay adı daim ön cərgədə dayanmaqdadır.



*Etibar KƏRİMLİ*

# ANTİK ENSİKLOPEDİYA ƏNƏNƏSİ

Müşahidələr göstərir ki, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, məlumatların istehsalı, yayılması və istifadəsi sahələrində baş vermiş köklü dəyişikliklər sistemli biliklərin toplanması və kitab halında nəşri tarixinə, həmçinin, müasir vəziyyətinə marağı heç də azaltmır, bu sahədə tədqiqatlar və yeni-yeni çap məhsulları yaranmaqda davam edir. Bu tip biliyin klassik yayılma formalardan biri də, heç şübhəsiz, ensiklopedik nəşrlərdir.

"Ensiklopediya" qədim yunanca iki sözün – "κύκλιος" (kiklios) – sikl, dairə və "παιδεία" (paideia) – tədris, öyrətmə sözlərinin birləşməsindən ibarət olub, "ἐνκύκλιος παιδεία" – silsiləli, dairəvi tədris mənasını verir ki, bu da sözün İntibah dövrü Avropasında (XVI əsrdən etibarən) "sistemli, hərtərəfli bilik" mənasında istifadəsinə zəmin yaratmışdır. Qədim dövrdə bu adla deyil, başqa adlar və formalarla (məs.,terminoloji, izahlı lüğətlər) olsa da, eyni mahiyyət daşıyan toplu bilik nümunələri Misirdə (e.ə. II minillik) və Çində (e.ə. XII-X əsrlər) yaranmış, lakin onlar dövrümüzədək qorunub saxlanmamışdır. Bu mənada qədim yunan və Roma mütəfəkkirlərinin elmi irsi yenə də uğurlu istisna təşkil edir, belə ki, onların böyük hissəsi bizim günlərədək gəlib çatmışdır.

Zənnimcə, ilk dəfə Qərb alimləri tərəfindən "ən universal zəka", islam dünyasının görkəmli peripatetik filosofları tərəfindən "birinci müəllim" adlandırılan Aristotel yaradıcılığını xüsusilə qeyd etmək lazımdır. Onun etika, tarix, siyasət, məntiq, ədəbiyyat, ritorika, psixologiya, fizika, biologiyaya dair yazdığı traktatlarını öz əhatəliliyinə görə küll halında antik dövrün ensiklopediyası adlandırmaq mümkündür. Təkcə onu demək kifayətdir ki, dahi filosofun ədəbiyyat nəzəriyyəsinə haqqında traktatında bədii əsərin növləri, formaları, ideya və məzmun xüsusiyyətlərinə dair formulə etdiyi təriflər bu günümüzədək müvafiq dərsliklərdə, o cümlədən universal və sahə ensiklopediyalarında definisiya kimi istifadə edilməkdədir. Onu da qeyd etməliyik ki, yalnız Aristotel deyil, qədim yunan fəlsəfəsinin bir sıra digər nümayəndələri (Gippi Eleyalı, Platon, Spevsip, Demokrit, Teofrast, Dionisi Halikarnaslı və b.) də ensiklopedik yaradıcılıqları ilə fərqlənmişlər.

Antik sivilizasiyanın ikinci pilləsi sayılan qədim Roma mədəniyyəti bütün sahələrdə olduğu kimi, elmdə də öz sələfləri qədim yunanların başladıqları işi

yeni dövrün ideoloji, intellektual, estetik tələblərinə uyğun davam etdirirdi. Aralıq dənizinin şərqində - Balkan yarımadasında e.ə. III əsrin ortalarından başlayaraq, elm, mədəniyyət, incəsənət və ədəbiyyat özünün çiçəklənmə dövrünü artıq arxada qoyduğu halda, qərbdə - Appenin yarımadasında sivilizasiya yenicə boy göstərməyə başlayırdı və bu zaman qədim İtaliyanın örnək olaraq üz çevirdiyi yeganə məxəz, əlbəttə, qədim Yunanıstan, onun yaratdığı zəngin elmi - mədəni irs idi.

Bəzi tədqiqatçılar qədim Romanın yaratdığı hər şeyi qədim yunanların təkrarı hesab edirlər. Görəsən bu, həqiqətənmi belədir? Etiraf etmək lazımdır ki, "təkrar" amili, heç şübhəsiz, mövcuddur. Fəqət necə təkrar? Tamamilə başqa elmi-nəzəri prinsiplər və ən başlıcası, fərqli dil (latın dili) strukturu əsasında. Bu fərqlilik ensiklopedik biliklərin toplanması sahəsində də özünü birüzə verirdi. Qədim Roma alimlərinin hazırladıqları ensiklopedik traktatlar məzmunca daha əhatəli, forma və üslubca daha rəngarəng olması ilə diqqəti cəlb edirdi. Başqa sözlə, Roma imperiyasının qüdrəti, maddi zənginliyi, digər sahələrdə olduğu kimi, ensiklopediya yaradıcılığında da özünü büruzə verirdi.

Latın dilində ilk ensiklopedik məzmunlu traktat – e.ə. 234–149 illərdə yaşamış romalı siyasətçi, dövlət xadimi (Roma Respublikasının konsulu), eyni zamanda böyük natiq, tarixçi və ədəbiyyatçı Mark Portsi Katona məxsusdur. Onun kənddəki torpaq sahəsinin idarə olunmasına aid məsləhətlərdən ibarət "Kənd təsərrüfatı haqqında" əsəri bu günümüzədək latın dilində elmə məlum olan ilk nəsr nümunəsidir. Traktatı əkinçiliyə aid ilk latındilli sahə ensiklopediyası kimi də səciyyələndirmək mümkündür. Belə ki, müəllif burada torpaqla işləyən fermerin gəlirlərinin artırılması və xərclərinin azaldılmasına aid tövsiyyələr verir, ayrı-ayrı kənd təsərrüfatı məhsullarının rentabellik dərəcəsini göstərən xüsusi şkala təqdim edir. Bütövlükdə götürdükdə, traktatda kənd həyatının ən müxtəlif sahələrinə (məs., kənd məhsullarından hazırlanmış xüsusi yemək respetləri, eləcə də torpaqda işləyərkən alınmış zədələrin müalicəsi qaydaları, xalq təbabətinə aid dərmanlar və s.) aid 162 tövsiyyə var və onların hər birini eyni zamanda ensiklopedik məqalə kimi də nəzərdən keçirmək olar. Bundan əlavə, Katon öz oğluna ünvanladığı öyüdlərdən ibarət "Oğluma" (ad şərtidir) əsərinin də müəllifidir. Bu əsər didaktik məzmunlu sahə ensiklopediyasının ən qədim nümunələrindən biridir.

Antik latındilli ensiklopediyaçı - alimlər arasında tanınmış digər sima – filosof, tarixçi, hüquqşünas, ədəbiyyat xadimi, musiqi nəzəriyyəçisi Mark Terensi Varronddur (e.ə. 116 – e.ə.27). O, qədim Romanın vətəndaş müharibələri dövründə yaşamış, bu müharibələrin bilavasitə iştirakçı olmuş, antik dövrün iki görkəmli dövlət və hərbi xadimi Sezar və Pompey tərəfindən həm mükafatlara layiq görülmüş, həm də müxtəlif səpkili cəzalar almışdır. Romanın kütləvi kitabxanasına rəhbərlik etmiş Varron ömrünün sonlarına yaxın siyasətdən tamamilə uzaqlaşaraq, özünü bütünlükdə elmi, ədəbi yaradıcılığa həsr etmişdir. Varronun 70 - dən çox əsərinin adı qorunub saxlanmışdır ki, bu da 600-dən artıq kitab edirdi (bir çoxları günümüzədək natamam halda və ya sonrakı dövrlərin əsərlərində işlədilən sitatlar formasında gəlib çatmışdır). Varron yaradıcılığında mühüm yerlərdən birini də, təəssüf ki, günlərimizədək orijinal halda qorunub saxlanmamış "Fənlər" (latınca – "Disciplinae") adlı universal ensiklopedik əsəri tutur. Dialektika, ritorika, qrammatika, həndəsə, hesab, astronomiya, musiqi, təbabət və arxitekturaya aid 9 kitabdan ibarət bu fundamental əsər son antik və erkən Orta əsrlər dövrünün müəlliflərində yalnız ayrı-ayrı hissələr şəklində dövrümüzədək gəlib çatmışdır.

Xüsusilə, ensiklopediyanın musiqiyə aid kitabı müəllifəhəm də qədim Romanın ilk musiqi nəzəriyyəçisi mövqeyini qazandırmışdır.Varronun 41 kitabdan ibarət "Bəşəri və ilahi keçmişlər" (latınca "Antiquitates rerum humanarum et divinarum") əsəri isə, Roma mədəniyyəti tarixinə aid sahə ensiklopediyası xarakteri daşıyır. Antik ensiklopediya ənənəsinin qiymətli nümunələrindən biri olan traktat, təəssüf ki, dövrümüzədək ayrı - ayrı hissələr şəklində gəlib çatmışdır. Giriş və dörd hissəli (insanlar, yerlər, vaxtlar və əşyalar haqqında) əsərin hər hissəsi 6 kitabdan ibarət idi və hissələrdən yalnız ikincisinin (Sezara həsr olunmuşdur) məzmunu Orta əsrlərin məşhur xristian ilahiyyatçısı Avqustinin sayəsində nisbətən tam halda məlumdur. Bizim günlərə qədər saxlanmış hissələrdən belə nəticəyə gəlmək mümkündür ki, əsər qədim Romanın dini həyatına – müqəddəs yerlərinə, dini mərasimlər üçün daha əlverişli sayılan "müqəddəs" vaxtlara, antik allahlara və onlara pərəstiş ayinlərinə aid dəyərli məlumatları ehtiva edirdi.

İki eranın ayrıcında yaşayıb yaratmış digər romalı ensiklopediyaçı-alim Avl Korneli Selsin (təqr. e.ə. 25 – təqr. b.e. 50) əsərləri isə orijinal hissələr halında dövrümüzədək gəlib çatmışdır. Müəllifin 20-ə yaxın kitabdan ibarət elmi irsi fəlsəfə, ritorika, hüquqşünaslıq, hərb sənəti, kənd təsərrüfatı, təbabət sahələrini əhatə edir. Bu sahələr haqqında hazırladığı "Sənətlər" universal ensiklopedik traktatın 8 kitabdan ibarət təbabət hissəsi (latınca "La medicina") bizim günlərədək saxlanmışdır. Əsəryunan mənbələri, bəzi yerləri (məs., cərrahiyəyə aid yerlər) isə öz şəxsi həkimlik təcrübəsi əsasında yazılmış və antik dövrdə tibbi biliklərin (dietologiya, patologiya, terapiya, cərrahiyyə və s.) səviyyəsi haqqında təfsilatlı məlumatlar verən mənbələrdən biridir. Təsadüfi deyil ki, bəzi tədqiqatçılar müəllifi ümumən tibbi terminologiyanın banisi hesab edirlər.

Dövrümüzədək tam halda gəlib çatmış ən qədim latın dilli antik universal ensiklopediya nümunəsi isə Böyük Plininin (b.e. 22/24 – 79) ölümündən az əvvəl – 77-ci ildə başa çatdırdığı 37 kitabdan ibarət "Təbiət tarixi"dir (latınca "Naturalis historia"). Plini antik müəlliflər arasında ilk dəfə öz trktatını "ἐνκύκλιος παιδεία" – "silsiləli (dairəvi) tədris" adlandırır və fəxrlə bildirir ki, bu cür əsəri yalnız romalı alim yaza bilərdi. Yunan mənbələrindən geniş istifadə etsə də, müəllifin belə mövqedə olması, bir tərəfdən, qədim Roma elminin səviyyəcə qədim yunan elmindən öndə olmasını vurğulamaq cəhdi, digər tərəfdənsə, bu tip əsərin hazırlanmasına antik dövr üçün kifayət qədər böyük sayıla biləcək maliyyə vəsaitinin tələb olunması amili idi. Belə ki, ensiklopediya təbiət və insan tərəfindən yaradılan canlı və cansız varlıqlar, həmçinin, hadisələr haqqında çox geniş spektrli məlumatlar məcmusunu ehtiva edir və onların böyük əksəriyyətini (məs., coğrafiyaya, flora və faunaya aid məlumatları) əldə etmək üçün həm Roma daxilində, həm də Romadan kənardakı imperiya ərazilərində geniş əlaqələrə, imkanlara və köməkçilər qrupuna malik olmaq tələb olunurdu. Plini həm keçmiş hərbiçi, həm də Roma əyalətlərində idarəçiliklə məşğul olmuş dövlət xadimi kimi, görünür, bu cür imkanlara və maddi vəsaitlərə malik olmuşdur. Əks halda, tək bir nəfər belə böyük iş həcminin öhdəsindən gələ bilməzdi. Müəllif əsərinin daxili strukturuna da diqqətlə yanaşmış, topladığı biliklərin ardıcıl, sistemli təqdimatı qayğısına qalmışdır.Girişdən və mənbələri göstərən I kitabdan sonra "Kainat və kosmos" adlı II kitabda astronomiyaya aid biliklər toplanmışdır ki, bu da təsadüfi deyil. Çünki müəllifin "dairəvi tədris"i ümumidən-xüsusiyə prinsipi ilə qurulmuşdur və ona əsasən Kainat haqqında sistemli biliklər məhz hər şeyin

başlanğıcı sayılan kosmosdan başlamalıdır. Göy cisimləri haqqında məlumatların ardınca meteorologiya, qeologiya və Yerin coğragiyası haqqında məlumatlar verilir. Əsər həmin dövr üçün elmə məlum olan bütün coğrafi regionlar – Avropa, Asiya, Afrika və Yaxın Şərq haqqında dəyərli məlumatları ehtiva edir (III – VI kitablar). Yerdəki canlı varlıqlar haqqında məlumatlar isə, insandan başlanır (VII kitab), ardınca quruda, suda və havada yaşayan heyvanlar (VIII – XI kitablar), sonra nəbatat aləmi, kənd təsərrüfatı və farmokologiya haqqında biliklər gəlir (XII – XXXII kitablar). Əsər Yerin altındakı minerallar və metallar haqqında məlumatlarla başa çatır (XXXIII – XXXVII). Bununla Plini "dairəvi tədris"ini Göy üzündən başlayaraq, Yerin altındakı cisimlərin təsviri ilə yekunlaşdırır və beləcə, qurduğu sistemli biliklər silsiləsini qapayır. Onu da qeyd etmək lazımdır ki, "Təbiət tarixi" – məqalələrinin mənbəyini göstərilən ilk antik ensiklopediyadır. Plini həm yunandilli, həm də latındilli müəlliflərin (onların sayı 400-dən artıqdır) 2000-ə yaxın əsərindən istifadə etmişdir və bunu həmin dövr üçün çox böyük göstərici saymaq lazımdır. İstifadə etdiyi müəlliflər arasında məşhur antik filosoflar, dövlət xadimləri və ensiklopediyaçı -alimlər – Aristotel, Teofrast, Avqust, Varron, Sels və b. vardır. Ümumiyyətlə, Plininin traktatı o qədər möhtəşəm iş idi ki, sonrakı illərdə bir çox müəlliflər ondan geniş bəhrələnmələrinə, ona müxtəlif şərhlər yazmalarına baxmayaraq, heç bir antik müəllif onun zəhmətinə bərabər səviyyəli əsər yaratmağa cəsarət etməmişdir.

Böyük Plininin yaratdığı ensiklopediya, heç şübhəsiz, yalnız antik dövrdə deyil, Orta əsrlər, İntibah və Yeni dövr Avropasında da elmin inkişafına parlaq töhfə vermişdir. Bu töhfələrdən ən başlıcası universal, coxcildlik (37 kitabın hər birini ayrıca cild kimi qəbul etmək olar) ensiklopediya ənənəsinin klassik nümunəsinin yaradılmasıdır. Müəllif özündən əvvəlki antik ənənəni inkişaf etdirərək, bir sıra sahələrdə hətta müasir dövr üçün pozulmaz sayılacaq ensiklopedik qaydalar yaratmışdır (məs., mənbələrin göstərilməsi). Eyni zamanda, onun əsəri bir sıra elm sahələrində (məs., təbabət, coğrafiya, mineralogiya və s.) latınddili terninologiyanın formalaşmasına təkan vermişdir. Latındilli terminlər isə, hələ də elmin müxtəlif sahələrində geniş işlənməkdədir. Təsadüfi deyil ki, kitab çapı maşını ixtira edildikdən sonra Avropada mütəmadi ardıcıllıqla, tez-tez çap olunan kitablar arasında Plininin əməyi Bibliya ilə birlikdə ön yerləri tuturdu (kifayət qədər böyük həcmli olsa da).

Antik ensiklopediyanı müasir ensiklopediyalardan fərqləndirən başlıca cəhəti buradakı məqalələrin əlifba sırası deyil, mövzuya görə düzülməsidir. Sonrakı dövrlər sübut etdi ki, bu fərq heç də antik ensiklopediyaların tarixi dəyərini azaltmamış, əksinə,onların yaratdığı ensiklopedik qaydalar sonrakı dövrlərdə, yalnız Qərbdə deyil, bütün dünyada yaradılan müasir tipli universal, çoxcildlik, həmçinin, sahə ensiklopediyaları üçün klassik ənənəyə çevrilmişdir.

# ADİ HƏYATIN QƏHRƏMANLARI



Natiq Məmmədli «Qəhrəmanım sənsən» yeni hekayələr kitabına kiçik bir müqəddimə yazıb. Oxuyuruq: «Qəhrəmanlar təkcə müharibələrdə yetişmir. Adi həyatlarını yaşayan elə səssiz, elə təvazökar qəhrəmanlar var ki, bəlkə də, hər gün yanımızdan ötüb keçirlər, amma biz onların fərqinə varmırıq. Heç özlərinin də öz hünərindən xəbərləri olmur. Onların qəhrəmanlığı qəfil bir anın içərisinə sığmayan, ömür boyu davam edən şücaətdir». Bu, bir yazıçının şəxsi qənaətləridir və qəhrəman deyəndə o, öz oxucularını nəzərdə tutur. Əslində, burada yaıçının ədəbi qəhrəman haqqında düşüncələri də əks olunub. Natqin hekayələrində təsvir olunan obrazlara diqqət yetirsək, onlar, doğrudan da, adi həyatda yaşayan, heç bir fövqəladə hərəkət və rəftarı ilə seçilməyən, amma çoxlarına müyəssər olmayan müsbət, qürur doğuran xasiyyətləri ilə diqqəti cəlb edirlər. Deyə bilərsiniz ki, bu tipli qəhrəman seçimi nəsrimizdə təzə deyil, çünki altmış-yetmişinci illərdə sovet ədəbiyyatının «müsbət qəhrəmanlar» silsiləsini adi, «boyaların qatışığında» təsvir olunan obrazlar əvəz etməyə başladı. Ümumiyyətlə, bədii ədəbiyyatda qəhrəman problemi artıq birmənalı, yekcins təsəvvürləri yox etməkdədir. Əsas budur ki, yazıçının təqdim etdiyi obrazlar müəyyən həyat həqiqətini inandırıcı şəkildə əks etdirsin. Natiq Məmmədlinin hekayələrində biz adi həyatın qəhrəmanları ilə rastlaşır və onların həyatı, günümüzün reallıqlarını nə dərəcədə əks etdirdiyinin fərqinə varırıq. Yeri gəlmişkən, qeyd edək ki, Natiq Məmmədli artıq bir romanın və bir neçə povestin müəllifidir, amma şəxsən mən onu hekayə janrında daha uğurlu görürəm.

Son illərin nəsr nümunələri içərisində hekayənin kəmiyyətcə üstünlüyü göz qabağındadır. Səbəbi heç də o deyil ki, roman ya povest yazmaq uzun vaxt aparır, amma hekayə yazmağa nə var ki? Təbii ki, bu fikirlə razılaşmaq olmaz. Hekayə əslində, çətin janrdır, burada xarakterik bir və bir neçə yadda qalan obraz yaratmalısan, süjet xətti, hadisələrin bu süjet ətrafında inkişafı, mövzunun yığcam bir nəsr nümunəsində bədii həllini tapması, bədii dilin elə ilk cümlədən başlayaraq, oxucunu öz arxasınca aparması… bütün bunlar bir hekayə daxilində cəm olmalıdır. Mən Azərbaycan ədəbiyyatından onlarla nümunə göstərə bilərəm, ancaq buna ehtiəc duymuram. Söhbət Natiq Məmmədlinin hekayələrindən gedir. Natiqin bundan əvvəlki kitabına ön söz

yazan Xalq yazıçısı Anarın bir fikrinə istinad edirəm: «Natiqin qələminin bitkinliyinin əsas səbəblərindən biri və məncə, ən başlıcası, yazıçıdan xüsusi istedad tələb olunan prinsipə əməl etməsidir. Müəllif susmaq lazım gələndə özü danışmır, mətləbi ifadə etmək imtiyazını obrazların özünə verir, hadisələrin bədii detallarını dirildir».

Natiq Məmmədlinin «Qəhrəmanım sənsən» kitabındakı ilk hekayədə «Sevgi məbədində qətl» - müəllif qarajdakı bir avtomobildə dəm qazından boğulub ölən sevgililərin taleyindən söz açır. Onların (kişinin və qadının) sevgi tarixini vərəqləmir, sadəcə, bu ölüm ətrafında düşüncələrdən söz açılır. Onlar (Kişi və Qadın) bir-birinə elə sarılıblar ki, ayırmaq belə mümkün olmur, «onlar meyitdən çox sevgi heykəlinə oxşayırlar». Əlbəttə, bu hadisə çoxlarını heyrətləndirir, ancaq hekayənin sonluğunun yarıkriminal şəkildə başa çatması hələ heç nə demək deyil. Çoxları üçün etik cəhətdən biabırçı hadisə hesab olunsa da, bu «sevgi heykəli» əslində, iki insanın faciəli talelərinin sonluğudur. Məlum olur ki, anasının təkidilə sevmədiyi bir qızla evlənən Kişi «kəndirləşmək» boyunduruğundan xilas olmağa çalışır, anasının xatirinə evlənsə də, xoşbəxt ola bilmir. Sevdiyi bir qadınla yaşayır və nəticədə, belə bir hadisə baş verir. Ölüm isə, «onları iş başında, kimsəylə bölüşmədikləri duyğularının pərvazlandığı məqamda namərdcəsinə yaxalayıbmış. Çox urvatsız, çox məzmunsuz bir ölüm olub… Nə evli kişiyə, nə ərli qadına yaraşan, adamı hörmətsiz edən bir ölümdür. Bəlkə də, belə yaxşıdır?! Sevdiyinin qolları arasında, məhəbbətin ən ləziz məqamında ölümdən xəbərsiz öləsən. Bəlkə, xoşbəxtlik belə olur».

Natiq Məmmədli ən əxşı hekayələrində təsvir etdiyi obrazların və hadisələrin psixoloji məqamlarını da unutmur, yəni bir az dərinə gedir, o dərinlikdə səbəb axtarır. Niyə bu hadisə baş verir? - sualının cavabına bizi inandırmağa çalışır. O, gerçəkliyə, real həyata istinad edir. Söhbət ayrı-ayrı fərdlərin taleyindən gedirsə, onların başlarına gələn əhvalatların cəmiyyət həyatı üçün nə dərəcədə səciyyəvi olduğunu da müəyyənləşdirə bilirik. Yalanların, riyakarlığın hökm sürdüyü bir mühitdə insan öz təbiiliyini, təmizliyini hifz etmək üçün klouna çevrilir və bəlalar da bundan sonra başlayır. Qeyri-əxlaqi mühitdə kloun kişi deyil. Təmiz, saf bir uşaq üçünsə, kloun əsl insan timsalındadır. «Mən də kloun olmaq istəyirəm» - uşaq bu dəfə bərkdən dedi». («Kloun»). Ləyaqətsizliyin hökm sürdüyü mühitdə bu ləyaqətin qiymətləndirilməsi də müşkülə çevrilə bilər. Sən şərəf və ləyaqətini müdafiə etmək istəyirsənsə, ömür yoluna nəzər sal; hardan keçmisən, harda maneələrlə üzləşmisən, harda şərəf və ləyaqətini qoruya bilmisən? Yoxsa, uzun müddət tərəddüd məngənəsində sıxılıb, «ləyaqətini necə qiymətləndirmək» barədə fikirlərə qərq olmazsan… «ləyaqətinə qiymət qoymaq məqamı yetişmişdi. Tək qalmaq, sakit guşəyə çəkilib hər şeyi dərindən götür-qoy etmək istəyirdi. Cilov gəmirən əsəbindən, dırnaq ucu boyda belə, əsər-əlamət qalmamışdı, əvəzində, belini ikiqat bükəcək yük qoyulmuşdu». Adı Cəsarət olan bu insan xeyli müddət ləyaqəti barədə düşüncələrə dalır. O yerdə ki, insan ləyaqətini pulla, var-dövlətlə, qiymətli əşya ilə hesablamaq məqamı gəlir, o zaman ləyaqət ölür («Ləyaqət dusturu»). Müəllifin ifadə etmək istədiyi fikir də, zənnimcə, elə bundan ibarətdir.

Natiq Məmmədli cəmiyyətin elə problemlərinə toxunur ki, o problemlərin çoxu bizə tanışdır, amma müəllifin yanaşma tərzi özünəməxsus təsir bağışlayır. Onun bir çox hekayələrində təsvir olunan obrazlar Xarakter səviyyəsinə yüksəlir. Yazıçının bu səyi «Arzuların qənimi» hekayəsində daha bariz nəzərə çarpır. Hekayənin qəhrəmanı həyatını, yaşayış tərzini qabaqcadan planlaşdıran və cansıxıcı ömür yolu keçən bir insandır. «Hər şeyi ayına, ilinə, gününə

qədər dəqiqliklə» hesablayan bu insan orta məktəbi qızıl medalla bitirmək, universitetə qəbul olunmaq, aspiranturaya girib gözləmədən alim olmaq, otuz beş yaşa kimi üç monoqrafiya, iki dərslik, beş proqram, yüz neçə elmi məqalə yazmaq, sonra ərə getmək, sonra yenə elmi işə başlayıb professor olmaq… Bir insanın həytının bütün məna və mahiyyəti qabaqcadan planlaşdırılmış bu sxem üzrə davam edir. İlk baxışda bu ömür yolu heç bir etiraz doğurmur, ancaq həmin ömür yolunu mənalı, faydalı, xeyirli işlər yox, bəsit və cansıxıı anlar müşayiət edir. Bu zaman kiminsə haqqı tapdanır, kim isə o adama görə irəli keçə bilmir. Budur nəticə: «Elə o zaman anladım ki, ən böyük faciə sən yox, sənin ardınca getməkdi. Bu, birbaşa dərin-dibsiz uçuruma kəllə vurmağa bənzəyir, özü də gözü açıq, özü də bilə-bilə. Sən 45 yaşında professor olanda, səndən sonra gələn o yeri tutmaq üçün azından 50 il gözləməli olacaqdı. Xasiyyətinə bələdəm, tutduğunu ölüncəyədək buraxan deyilsən. Hamı sənin ölməyini gözləyəcək, özü də səbirsizliklə, dişləri dodaqlarını doğraya-doğraya».

Obrazın zahiri əlamətlərindən daha çox, onun daxili dünyasının cizgilərini, insani xarakterinin yekcinsliyini yaxud təzadlı məqamlarını nəzərə çarpdırmaq, təbii ki, ustalıq, məharət tələb edir. «Balaca məmurun təbriki» hekayəsində doğrudan da balaca bir məmurun portreti ilə tanış oluruq: «Həsənqulu həyatın xırdalıqlarına o qədər vərdiş eləmişdi ki, heç vaxt böyük yerlərdən yapışmazdı. Nə vaxtsa ürəyində baş qaldırmış ortabab arzularını da xırdalayıb, balacalaşdırmışdı. Həyatını xırdalıqlarla dolduran uca yaradanına həmişə şükür eləyən Həsənqulu bütün bunları Tanrının lütfü hesab edirdi və boyundan hündürə tullanmağı haçansa ağlından keçirmədiyinə görə elə xoşbəxt idi ki… Arzuları kimi özü də bapbalaca qalmışdı, xırdaca gözləri, yığcam əlləri, qoşanağara çubuğundan bekaraca uzun ayaqları vardı. Uşaq olanda deyərdilər ki, «əşi, uşaqdı da, yekələndə düzələcək», illər bir-birinin üstünə qalaqlandısa da Həsənqulu yekəlmədi. Əslində, böyüdü, amma hamı kimi yox, xırdaca, azacıq».

Çox gözəl xarakteristikadır və bədii portret yaratmaq cəhdinin ən uğurlu nümunəsidir. Diqqət yetirin: müəllif arzuları qədər özü də balaca, iddiasız olan bir insanın portretini yaratmışdır. Dərhal fikirləşirsən ki, Həsənqulu ilə bağlı nə hadisə təsvir edilsə, bu portreti praktiki cəhətdən tamamlayacaq. Belə də olur, Həsənqulu, müdirinə telefonla mesaj göndərir, amma məlum olur ki, «məktub göndərilməyib». Həsənqulu «qapının kandarındaca üzü üstə yerə yıxıldı, bir az xırıldayıb, elə oradaca qaldı». Çexovun məşhur «Məmurun ölümü» novellasını xatırladır bu süjet.

Natiq Məmmədlinin bir hekayəçi kimi bir uğurlu cəhətini qeyd etmək istəyirəm. O, hekayənin sonunu gözlənilməz hadisə və situasiyalarla bitirməyi sevir. Buna deyirlər hekayənin novella çaları. Ancaq hər gözlənilməz sonluq novella yaratmır. Gözlənilməz sonluq üçün bütün yazı boyu müəyyən bir situasiya formalaşır. Yəni bu situasiya sonda gözlənilməz hadisəyə çevrilir. «Balaca məmurun təbriki» hekayəsi sırf novella səciyyəsi daşıyır.

Natiq Məmmədli artıq bir nasir kimi formalaşıb, bunu tam əminliklə söyləyə bilərəmmi? Əlbəttə, söyləyə bilərəm. Hərçənd ki, onun «Qəhrəmanım sənsən» kitabında bəzi hekayələr var ki, onun adını çəkdiyim və çəkmədiyim («Bekketə salam», «Molyerin öldürüldüyü gün», «Babamın ordenləri» «Korun gördüyü gələcək») hekayələri ilə müqayisədə, nisbətən seçilə bilmirlər («Sarı dana», «Dolma» və s.). Amma bu da təbiidir, qələmin düz yoldan sapındığı da olur. Axtarışlarını davm etdirsin…

***Vaqif YUSİFLİ***

# ♦Kitab rəfi




**İSA HƏBİBBƏYLİ, İSMİXAN OSMANLI**
**“QABDULLA TUKAY VƏ AZƏRBAYCAN”**
**BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI. 2021**

Kitabda tatar ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir şair, publisist, tərcüməçi, ictimai xadim Qabdulla Tukayın (1886-1913) Azərbaycan mətbuatı və ədəbiyyatı ilə əlaqələri, ədəbi irsinin ölkəmizdə nəşri və tədqiqi məsələlərindən bəhs edilir. Doqquz bölüm, nəticə və Azərbaycan, rus, tatar dillərində 256 sayında ədəbiyyat siyahısından ibarət kitab türk xalqları ədəbiyyatına dəyərli töhfədir.

Kitabın müəllifləri akademik İsa Həbibbəyli və filologiya üzrə fəlsəfə doktoru İsmixan Osmanlıdır.




**SEYFƏDDİN RZASOY**
**NİZAMİ GƏNCƏVİ: ETNOGENEZ VƏ MİFOLOGİYA**
**BAKI, “ELM VƏ TƏHSİL” NƏŞRİYYATI. 2021**

Kitabda müəllifin 1986-cı ildə müdafiə etdiyi diplom işinin əsas mətni orijinalda olduğu kimi təqdim olunur. Əsərdə Azərbaycan-Oğuz mifologiyası, XII əsr intibah şəraitində Nizaminin mifoloji motivlərə müraciətinin nəzəri-estetik şərtləri və tarixi-etnik şəraiti, sənətkarın təbiət və cəmiyyətin vəhdəti konsepsiyası, ictimai-əxlaqi ideya və əski əsatirlər və s. öz əksini tapmışdır.




**BARAT VÜSAL**
**XƏTADI QEYRİ-EŞQ**
**BAKI, “QANUN” NƏŞRİYYATI. 2021**

Şair Barat Vüsalın “Xətadı qeyri-eşq” adlı esselər kitabında İlahi Eşqdən – İlahi Qüdrətdən söhbət açılır.

“Meracda Cəbryıl Məhəmməd peyğəmbərə “Mən burdan gedə bilmərəm, çünki qanadlarım yanar. Sən daha tək getməlisən”, – dedikdə Peyğəmbərimiz soruşmuşdu:

-Bəs, mən necə gedim?

-Eşqlə! – deyə yolda onu tək buraxmışdı Allahın Baş Mələyi”...




**NİYAZİ MEHDİ**
**“MƏN” OLMAĞIMIN TARİXÇƏSİ**
**BAKI, “QANUN” NƏŞRİYYATI, 2021**

“Mən” olmağımın tarixcəsi” fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdinin memuar janrında yazdığı ilk kitabdır. Burada müəllifin Ağdam, Bakı, Moskva xatirələri toplanıb, özü və tanıdığı adamlar haqqında səmimi fikirlərini bölüşüb.




**GƏRAY GÖYYURD**
**DÖVLƏTİM VAR, ORDUM VAR**
**BAKI, “NƏRGİZ” NƏŞRİYYATI, 2020**

Kitab şairin oxucuları ilə yeddinci görüşüdür. Bu görüşə Gəray Göyyurd son illərdə yazdığı şeirləri ilə gəlib. Şeirlərin əsas mövzusu Vətən sevgisindən, torpağa bağlılıqdan, gələcəyə inamdan mayalanıb. Qazandığımız tarixi qələbədən doğan sevinc, qürur hissləri şairin poetik dilində nəğmələrə çevrilir.

***Neçə saysız müşkülləri,***
***Gəlin, xeyrə yozaq bu yaz.***
***Vətənin, xalqın dərdini***
***Qar üstünə yazaq bu yaz.***
***Əridi, yox oldu bəlkə!***




**TAMELLA PƏRVİN**
**QAĞAYI GÜLÜŞÜ**
**BAKI, “ADİLOĞLU” NƏŞRİYYATI, 2021**

Kitab tənqidçi Vaqif Yusiflinin “Təbiidir, səmimidir...” adlı ön sözü ilə açılır. Şairin yaradıcılığı qısa təhlil olunur. Kitabdakı şeirlərin səmimiliyi, sadəliyi diqqətə çatdırılır. Şeirlərin mövzusu əsasən vətən, 30 illik Qarabağ həsrəti, insana sevgi və təbiət təsvirləridir.

***Durub xəyalına qonaq gedirəm,***
***Bir ünlü xatirə çıxart yoluma.***
***Ağlayan həsrətin ölüb, bilirəm,***
***Özgə səadəti girib qoluma.***